ISSN 2410-4108

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI
AZƏRBAYCAN ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR AKADEMİYASI

# ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR

## Elmi-praktik jurnal

# № 2 (10)

BAKI – 2018

**BAŞ REDAKTOR:**
**Hüseyn Qaraşov,** *sosiologiya üzrə elmlər doktoru, professor*

**BAŞ REDAKTORUN MÜAVİNİ:**
**Fəhrad Möhbalıyev,** *iqtisad üzrə fəlsəfə doktoru, dosent*

**MƏSUL KATİB:**
**Zeynəddin Şabanov,** *fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*

**REDAKSİYA HEYƏTİ:**

i.e.d., professor Səttar Möhbalıyev - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

sos.e.d., professor Hüseyn Qaraşov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru, baş redaktor

i.e.d., professor Ramiz İsgəndərov - Azərbaycan Texniki Universitetinin "Sənaye iqtisadiyyatı və menecment" kafedrasının müdiri

i.e.d., professor Tərbiz Əliyev - AMEA İqtisadiyyat İnstitutunun "Sahibkarlıq və inhisarçılığın tənzimlənməsi problemləri" şöbəsinin baş elmi işçisi

fəl.e.d., professor İlham Məmmədzadə - AMEA Fəlsəfə İnstitutunun direktoru

tarix e.d., professor Vəkil Həsənov - Azərbaycan Dövlət İqtisad Universitetinin "Ümumi humanitar fənlər" kafedrasının müdiri

i.ü.f.d., dosent Fəhrad Möhbalıyev - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Tədris və elmi işlər üzrə prorektoru, baş redaktorun müavini

i.ü.f.d., dosent Əsgər Əliyev - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "İqtisadiyyat" fakültəsinin dekanı

i.ü.f.d., dosent Hicran Mirzəyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Maliyyə" fakültəsinin dekanı

i.e.d. Vilayət İsmayılov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "İqtisadiyyat və idarəetmə" kafedrasının müdiri

fəl.ü.f.d., dosent Zeynəddin Şabanov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Sosial tərəfdaşlıq, Həmkarlar ittifaqı hərəkatı və humanitar fənlər" kafedrasının müdiri, məsul katib

i.ü.f.d., dosent Raziyyə Maniyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Həmkarlar ittifaqları kadr və fəallarının ixtisasartırma və yenidən hazırlanması" şöbəsinin müdiri

*Azərbaycan Respublikası, Bakı şəhəri, Azadlıq pr.181,*
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
*Tel.: (050)631-57-90; e-mail: jurnal@aesma.edu.az*
*Jurnal Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının*
*Elmi Şurasının qərarı ilə çap olunur (protokol №5, 28.12.2018).*
*Jurnal Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat № 3883. 07.05.2014*

# MÜNDƏRİCAT

## HƏMKARLAR İTTİFAQI HƏRƏKATI VƏ SOSİAL TƏRƏFDAŞLIQ

**Səttar Möhbalıyev**
Müasir dövrdə Azərbaycanda Həmkarlar İttifaqı hərəkatının inkişaf amilləri ........................................................................................ 5

## HUMANİTAR VƏ SOSİAL ELMLƏR

**Əziz Məmmədov, İsa İsmayılov**
Sosial idrakda rasionallıq: məntiqi və qnoseoloji əsaslar...................... 18
**Yaşar Əliyev**
Multikulturalizmə müxtəlif yanaşmaların müqayisəli fəlsəfi tənqidi.... 26
**Könül Şəkiyeva**
Virtual folklorun dünyagörüşə təsiri qloballaşma kontekstində ........... 32
**Lamiyə Qurbanova**
Duaların təsir gücünün psixoloji təhlili................................................ 40
**Söhrab Məhərrəmov**
Kompyuter şəbəkəsinin və internetin inkişaf istiqamətləri ................. 45
**Faiq Ələkbərli**
Seyid Əzim Şirvaninin ictimai-maarifçi və dini-fəlsəfi görüşləri......... 55
**Rəfail Həsənov**
Azərbaycan Respublikasında turizmin inkişaf perspektivləri və problemləri........................................................................................ 65

## İQTİSADİYYAT VƏ İDARƏETMƏ

**Hicran Mirzəyeva**

Kənd təsərrüfatının inkişafına təsir edən amillər.................................. 71

**Əsgər Əliyev, Sevda Məmmədova**

Azərbaycanda neft sənayesi sahəsinin inkişafının aktual problemləri 77

**Vilayət İsmayılov**

Aqrar bölmədə məhsul istehsalı və satışının spesifik xüsusiyyətləri.... 84

**Nurəngiz Mikayılova**

İqtisadi islahatlar və Azərbaycanda inkişaf modeli.............................. 89

**Zakir Əlizadə**

Azərbaycan iqtisadiyyatının diversifikasiyası iqtisadi artım və maddi rifahın mənbəyidir................................................................. 98

**Саадат Гулиева**

Некоторые проблемы науки и образования в Азербайджане......... 107

**Tahir Baxşəliyev, Pərvin Məmmədova**

Turizmin inkişafı və onun idarəetmə sisteminin informasiya modelində uçotun rolu........................................................................ 111

# HƏMKARLAR İTTİFAQI HƏRƏKATI VƏ SOSİAL TƏRƏFDAŞLIQ

**UOT – 316**

**Səttar Möhbalıyev**
**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri,**
**iqtisad üzrə elmlər doktoru, professor**

## MÜASİR DÖVRDƏ AZƏRBAYCANDA HƏMKARLAR İTTİFAQI HƏRƏKATININ İNKİŞAF AMİLLƏRİ

*Müstəqil Azərbaycanın qısa müddət ərzində qazandığı tarixi nailiyyətlər zaman baxımından əsrə bərabərdir. Azərbaycan Respublikasının beynəlxalq aləmdə nüfuzu durmadan artmaqda, demokratik, hüquqi, dünyəvi dövlət kimi tanınmaqdadır. Bu, Ulu öndər Heydər Əliyevin hakimiyyətə tarixi qayıdışının bəhrəsidir. Ümummilli liderin ona xas olan müdriklik və uzaqgörənliklə həyata keçirdiyi çoxşaxəli layihələr cəmiyyətin mənəvi birliyinin və həmrəyliyinin əsas prinsiplərini formalaşdırdı. Ölkədə yeni iqtisadi şəraitə uyğun olaraq qurulan sosial müdafiə modeli cəmiyyətin və ayrılıqda hər bir vətəndaşın rifahının yüksəldilməsinə, şəxsiyyətin azad inkişafı üçün bərabər imkanlar yaradılmasına xidmət edirdi.*

*Ulu öndərimiz vətəndaşların qanuni mənafeyinin, əmək hüquqlarının qorunmasında, sosial problemlərinin həllində mühüm rol oynayan, zəngin tarixi keçmişə malik həmkarlar ittifaqı təşkilatlarının fəaliyyətinə də daim diqqət və qayğı göstərmiş, onun xidmətlərini həmişə yüksək qiymətləndirmişdir. Xüsusilə, Heydər Əliyevin 1994-cü ildə imzaladığı "Həmkarlar ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanunu Azərbaycan həmkarlar ittifaqları hərəkatının müasir inkişafına təkan vermiş, bu təşkilatın cəmiyyətdəki rolunu gücləndirmişdir. Vətəndaşların sosial və iqtisadi mənafelərinin qorunmasında yalnız dövlət orqanlarının deyil, həm də həmkarlar ittifaqlarının üzərinə mühüm vəzifələr düşdüyünü deyən Ümummilli liderin dəstəyi ilə Azərbaycan həmkarlar ittifaqları siyasi qurumlardan asılılıqdan qurtardı, öz funksiyalarını beynəlxalq təcrübə əsasında həyata keçirməyə başladı. Ölkənin malik olduğu işçi kapitalından düzgün istifadə edilməsi, onların hüquq və mənafelərinin qorunması prinsiplərinə əsaslanan Qanunun vaxtında qəbul edilməsinin nəticəsidir ki, bu gün həmkarlar ittifaqları sosial problemlərin həlli və əmək hüquqlarının təmin olunması sahəsində ardıcıl, məqsədyönlü fəaliyyət göstərməyə çalışır, sosial siyasətin həyata keçirilməsinə önəmli dəstək verir.*

"Həmkarlar ittifaqları haqqında" qanunla həmkarlar ittifaqlarının cəmiyyətdəki yeri və statusu müəyyən edildi. Həmkarlar ittifaqlarının qeyri-siyasi təşkilat kimi hökumət təşkilatlarından və təsərrüfat orqanlarından asılılığı aradan qaldırıldı. Həmkarlar ittifaqlarının bütün strukturlarında, o cümlədən aşağı vəsiləli həmkarlar ittifaqı təşkilatlarında inzibati amirlik sisteminə son qoyularaq sahə məsələlərinin həllində həmkarlar ittifaqlarının müstəqilliyi təmin edildi, əmək, sosial, iqtisadi məsələlər barəsində qanunvericilik aktlarının hazırlanmasında həmkarlar ittifaqının hüquqları tanındı. Bütün bunlar respublikada həmkarlar ittifaqı hərəkatının inkişafına stimul yaradaraq işçilərin sosial-iqtisadi hüquqlarının müdafiəsini daha səmərəli formada həyata keçirməyə imkan verdi.

Hazırda Azərbaycan Respublikasında ümummilli lider Heydər Əliyevin müdrik və uzaqgörən strategiyası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən layiqincə həyata keçirilir. İlham Əliyev Ulu öndərin siyasi təlimini ardıcıllıqla və yaradıcılıqla həyata keçirən, yeni dövrün və müasir Azərbaycanın reallıqları ilə daha da zənginləşdirən görkəmli siyasi xadimdir.

Müstəqilliyimizin bərpasından sonra Azərbaycan dövlətinin yaşadığı müasir tarixə nəzər salsaq, aydın şəkildə görərik ki, respublikamız bir çox aparıcı dünya dövlətlərinin onilliklər boyu keçdiyi təkamül və inkişaf mərhələlərini qısa zaman kəsiyində qət edə bilib. Bu heç də təkcə respublikanın zəngin təbii sərvətləri və intellektual resursları ilə şərtlənmir. Bu daha çox təbii və zehni potensialın xalqın mənafeyinə uyğun realizə edilməsi, hər kəsi qane edə biləcək milli siyasət

strategiyasının həyata keçirilməsi, eyni zamanda xarici siyasət kursunun prioritetlərinin düzgün müəyyənləşdirilməsi və reallaşdırılması ilə sıx bağlıdır. Məhz Prezidentin həyata keçirdiyi yeni iqtisadi strategiya sayəsində Azərbaycanda dünya dövlətlərinin hələ də əziyyət çəkdiyi qlobal iqtisadi böhrandan xilas modeli yaradıldı. Dövlət başçısı tərəfindən ilk növbədə ölkə iqtisadiyyatının inkişafı üçün mütəmadi surətdə reallaşdırılan praqmatik islahatlar modeli formalaşdırıldı ki, bu da bütövlükdə milli inkişafa təkan verən əhəmiyyətli amil oldu.

Dövlət başçısı İlham Əliyevin siyasətində, dövlətçiliyə uyğun olaraq, milli mənafe və maraqlar daim üstün tutulur, Azərbaycanın inkişafı naminə qlobal işlər aparılır. Prezidentimizin müasir dünya reallıqlarını düzgün qiymətləndirməsi, qlobal proseslərə xalqın mənafeyinə uyğun nüfuz etmək bacarığı ciddi siyasi dəstək almasına zəmin yaradır. Bu isə ölkəmizin bütün sahələr üzrə hərtərəfli, ahəngdar inkişafının təmin edilməsinin əsaslarını təşkil edir və dünya birliyində Azərbaycanı əhəmiyyətli dövlətlərdən birinə çevirir. Belə ki, 2007-ci ildə dövlət büdcəsinin gəlirləri 5,6 milyard manat idisə, 2019-ci ildə həmin gəlirlər 20 milyard 127 milyon manat proqnozlaşdırılır. 10 il öncə ölkənin valyuta ehtiyatları 3,7 milyard dollar idisə, indi həmin rəqəm 42,6 milyard dollar təşkil edir. Azərbaycana 200 milyard dollar həcmində həm xarici, həm də yerli investisiyalar yatırılıb.

İqtisadi tərəqqi əhalinin məşğulluq səviyyəsinin yüksəlməsinə də güclü təsir göstərib. Belə ki, son 5 ildə 631 mindən çox yeni iş yeri (521 mini daimi iş yeridir) açılmışdır. Dövlətimizin məşğulluq siyasəti dinamik inkişaf xarakterli olmuşdur. Müqayisə üçün deyim ki, 2013-cü ildə açılan yeni iş yerlərinin sayı 110 min (bunlardan daimi iş yeri 80 min) idisə, 2017-ci ildə bu rəqəm 221 min həddinə çatdırılmışdır ki, onlardan 177 mini daimi iş yeridir.

Respublikamızın uğurları beynəlxalq aləm tərəfindən təqdir olunduqca, ölkəmizin dünya arenasındakı siyasi nüfuzu daha sürətlə artır. Dünyanın aparıcı beynəlxalq təşkilatları, qurumları və tanınmış iqtisadçılar Azərbaycanın reallaşdırdığı islahatları inkişaf etməkdə olan ölkələr üçün nümunə kimi göstərirlər.

Dövlət başçısının məqsədyönlü fəaliyyəti nəticəsində Azərbaycanın qüdrətli dövlətə çevrilməsi yolunda son dərəcə mühüm amil olan ictimai-siyasi sabitlik, vətəndaş sülhü və həmrəyliyi qorunub saxlanılır. Son 5 ildə ölkəmizin həyatında yaddaqalan, mühüm hadisələr baş vermişdir. Bu dövrü ölkəmiz üçün fəal və zəngin hadisələr dövrü kimi qiymətləndirmək olar. Azərbaycan özünün ilk telekommunikasiya peykini fəzaya qaldırmış, yer səthinin məsafədən müşahidəsi üçün geniş imkanlar yaradan peyk toplusu fəaliyyətə başlamışdır.

Ölkəmizin hasil ediləcək qazın Avropaya TAP kəməri ilə ötürüləcəyini açıqlaması respublikamızın strateji əhəmiyyətini daha da artırdı. TAP kəməri Nabukko-Vest kəmər layihəsi ilə rəqabətdən qalib çıxdı. 2014-cü ildə "Əsrin müqaviləsi" nin 20 yaşı tamam oldu. Elə həmin il Azərbaycanda daha bir beynəlxalq əhəmiyyətli enerji layihəsi - "Cənub qaz dəhlizi"nin tikintisinə start verildi. TAP xəttinin mühüm bir hissəsi hesab olunan TANAP layihəsinin icrasına başlandı.

"Şahdəniz-2" layihəsinin icrası 99 faizə çatıbdır. Azərbaycan və Gürcüstan ərazilərindən keçən Cənubi Qafqaz kəməri 93 faiz icra edilib və TANAP layihəsinin icrası 90 faizə bərabərdir. Bu, artıq onu göstərir ki, "Cənub qaz dəhlizi" reallaşıb.

Prezident İlham Əliyevin iqtisadiyyatın inkişafı ilə bağlı imzaladığı strateji yol xəritəsi, "Azəri-Çıraq-Günəşli" yatağı üzrə kontraktın müddətinin 2050-ci ilədək uzadılması gələcəkdə ölkəmizin güclü bir dövlət kimi inkişafının təminatı olacaqdır. Kontraktın müddətinin uzadılması bizə sərmayədən başqa digər önəmli dividendlər gətirir. İlk növbədə SOCAR-ın payı 11 faizdən 25 faizə çatdırılır. Mənfəət neftinin 75 faizi də Azərbaycan tərəfinə qalacaqdır.

Keçən ilin oktyabr ayında "Dünyanın 100 önəmli layihəsi"ndən biri olan Bakı-Tbilisi-Qars dəmir yolunun təntənəli açılış mərasimi keçirilmişdir. Mərasimdə Azərbaycan Respublikasının Prezitdenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla yanaşı, Qazaxıstan, Gürcüstan, Özbəkistan Respublikalarının hökumət başçıları iştirak etmişlər.

Bakı-Tbilisi-Qars dəmir yolu Mərkəzi Asiya ölkələrinin - Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistan, həmçinin Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdıracaqdır. Gələcəkdə Avropa və Asiya ölkələrinə məxsus yüklərin bu dəmir yoluna cəlb edilməsi hər iki istiqamətdə multimodal daşımaların həcmini artıracaqdır. Bu, onu göstərir ki, Azərbaycan ilə yanaşı, Gürcüstan və Türkiyə də tranzit daşımalarından yüksək gəlir əldə edəcəkdir.

Beləliklə, öz əhəmiyyətinə görə qlobal səciyyə daşıyan Bakı-Tbilisi-Qars dəmir yolu iki qitəni polad relslərlə birləşdirərək böyük sosial-iqtisadi səmərəyə zəmin yaradır. Ən əsası isə bu dəmir yolunun işə düşməsi regionda sabitliyə, xalqlarımızın daha da yaxşılaşmasına və iqtisadi inkişafa ən böyük töhfədir.

Dəniz və su nəqliyyatı kimi davamlı nəqliyyat vasitələrinin effektiv inteqrasiyası ilə nəqliyyat hərəkətinin təhlükəsizliyinin artırılması, ətraf mühit, enerji səmərəliliyi və daha təhlükəsiz nəqliyyat fəaliyyətlərinə dair davamlı inkişaf məqsədlərinə nail olunması məqsədilə Xəzər regionunda intermodal nəqliyyat xidmətlərinin daha da inkişaf etdirilməsi də gündəmdədir. Bu ilin yayında Bakı Ələt Beynəlxalq Dəniz Limanının I fazası istifadəyə verilmişdir. Bu limanın yükdaşıma qabiliyyəti 25 milyon ton və bir milyon konteyner olacaqdır. Eyni zamanda Xəzər dənizi ilə bağlı əməkdaşlıq daha da dərinləşəcəkdir. Limanın tam istifadəyə verilməsi minlərlə yeni iş yerlərinin açılmasına şərait yaradacaqdır.

Azərbaycanda keçirilən birinci Avropa Oyunları 2015-ci ilin ən mühüm hadisəsi oldu. Bu böyük miqyaslı idman bayramı həm də respublikamızın ictimai-siyasi, humanitar, sosial-iqtisadi həyatı haqqında real gerçəklərin dünya ictimaiyyətinə nümayiş etdirilməsi baxımından mühüm əhəmiyyət daşıdı. Ölkəmizin beynəlxalq aləmdə etibarlılığını artırdı. İki il ərzində həm Avropa, həm də İslam Həmrəyliyi Oyunlarının keçirilməsi bir daha Azərbaycanın müstəqil, öz dəyərlərinə sadiq, müasir ölkə olduğunu göstərir.

2016-cı ilin ölkəmizdə multikulturalizm ili elan edilməsi çox böyük məna daşıyırdı. Azərbaycan multikulturalizm mərkəzi olaraq cəmiyyətimizin əhvali-ruhiyyəsini dünyaya göstərdi, bizim hər kəsə hörmətlə yanaşdığımızı, multikulturalizm dəyərlərini, adət-ənənələri, dini, tarixi abidələrimizi qoruduğumuzu duyurdu. Təəssüf ki, Avropa ölkələrində miqrantlara qarşı alçaldıcı hərəkətlər, islamafobiya ilə bağlı açıq-aşkar aqressiv siyasət göz qabağındadır.

Azərbaycanın böyük uğurlarından biri Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı 2016-cı il sentyabrın 26-da keçirilən referendum oldu. Referendumun keçirilməsi, ölkənin idarəetmə mexanizminin təkmilləşdirilməsi, əsas qanunda insan hüquq və azadlıqları ilə bağlı fikirlərin daha dəqiq yer alması ən vacib hadisə hesab edilə bilər. Referendum Aktının hədəfləri cəmiyyət və xalq tərəfindən birmənalı şəkildə müdafiə olundu.

Bildiyiniz kimi, Referendum əsasında Azərbaycan Respublikasının Konstitusiyasının 23 maddəsində dəyişiklik olunmuş, 6 yeni maddə əlavə edilmişdir. Dəyişikliyin 16-sı insan hüquq və azadlıqlarının qorunması mexanizminin təkmilləşdirilməsi ilə əlaqədardır. Təkcə bu fakt öz-özlüyündə Konstitusiyaya edilmiş dəyişikliklərin mahiyyətini və mənasını dəqiq ifadə edir. İnsan hüquq və azadlıqlarının qorunması ilə bağlı həmkarlar ittifaqlarının fəaliyyətinə bilavasitə aid olan 2 dəyişiklik xüsusilə fərqlənir. Bunlardan biri Konstitusiyanın "Tətil hüququ" adlanan 36-cı maddəsi ilə bağlıdır. Maddədə hər kəsin təkbaşına və ya başqaları ilə birlikdə tətil etmək hüququnun olması, hansı şəxslərin bu hüquqdan istifadə edə bilməməsi, fərdi və kollektiv mübahisələrin həlli qaydası müəyyənləşdirilsə də, işəgötürən tərəfindən istisna hallarda lokaut elan etmək hüququ konstitusiyada təsbit edilməmişdi. Maddəyə əlavə olunan "Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, lokaut qadağandır" dəyişikliyi həm maddəni tamamlayır, həm də işəgötürənlərin yerli-yersiz lokautdan istifadə etməsinin qarşısını alır. Lokautdan nə zaman istifadə etmək olar?

Azərbaycan Respublikasının Əmək Məcəlləsinə görə lokaut - qanunsuz və əsassız tətillərin qarşısını almaq məqsədilə işəgötürən və ya mülkiyyətçi tərəfindən müəssisənin fəaliyyətinin müvəqqəti dayandırılması barədə elandır. Lokaut işəgötürənin tətilə qarşı cavab tədbiridir.

İşəgötürən yalnız istisna hallarda lokaut elan edə bilər. Lakin lokaut elan etməzdən azı 10 gün əvvəl o, müəssisəni müvəqqəti bağlayacağı barədə işçilərini, həmkarlar ittifaqları təşkilatını və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyini yazılı şəkildə xəbərdar etməlidir.

Sağlamlıq imkanları məhdud olanlara dövlət qayğısı hər sahədə hiss olunur və onların cəmiyyətə inteqrasiyası üçün müxtəlif layihələr, dövlət proqramları qəbul və icra edilir. Sağlamlıq imkanları məhdud olanların təhsil alması, məşğulluğu, fərdi hərəkət etməsi üçün tədbirlər görülür. Nəzərdə tutulmuş bu dəyişikliklə sağlamlıq imkanları məhdud olanlar konstitusion hüquq və vəzifələr əldə etmiş olurlar və onlar üçün mədəni, ictimai-siyasi həyatda daha yaxından iştirak etmək imkanı yaranır.

Qeyd edək ki, keçən ilin 10 ayı ərzində əlilliyi olan 400 nəfər işlə təmin olunmuş, 70 nəfər peşə hazırlığına cəlb edilmişdir. Ölkədə pensiya ilə təmin olunanların 29 faizi, Azərbaycan Prezidentinin aylıq təqaüdü ödənilənlərin 72,3 faizi, aylıq sosial müavinət ödənilənlərin 60,8 faizi əlillər və sağlamlıq imkanları məhdud şəxslərdir. Müharibə və Çernobıl AES əlillərinin ümumilikdə 15,8 min nəfər uşağına aylıq sosial müavinət, radiasiya qəzası nəticəsində zərər çəkərək əlil olmuş şəxslərə hər il müalicə üçün birdəfəlik müavinət verilir. Ötən ildə bərpa mərkəzlərində 8 min nəfər şəxsə stasionar, 26,4 min nəfərdən çox əlilə ambulator reabilitasiya xidmətləri göstərilmişdir. Bu təbəqələrdən olan insanlar 25,8 min protez-ortopedik məmulat və reabilitasiya vasitəsilə təmin edilmişdir.

Ötən ilin sonlarında isə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev "2018-2024-cü illərdə Azərbaycan Respublikasında inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nı təsdiq etmişdir. Proqram əlillərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin edəcək və onların təhsili üçün maneəsiz mühit yaradacaqdır.

Böyük ictimai maraq doğuran və razılıqla qarşılanan dəyişikliklərdən biri də ölkə Prezidenti, Milli Məclisin deputatı, baş nazir, hakim vəzifələri üçün tətbiq edilən yaş senzi məhdudiyyətinin aradan qaldırılması olmuşdur. Konstitusiyada olan əvvəlki redaksiyaya əsasən, Azərbaycan vətəndaşı 35 yaşına qədər prezident, 25 yaşına qədər Milli Məclisin deputatı, 30 yaşına qədər baş nazir, yaxud hakim ola bilməzdi. Lakin konstitusiyamıza referendum yolu ilə edilmiş dəyişikliklərə əsasən, hər bir Azərbaycan gəncinin yaşından asılı olmayaraq həmin vəzifələri tutması üçün hüquqi əsas yarandı.

Referendum nəticəsində ölkəmizdə vitse-prezidentlik institutunun təsis edilməsi də idarəçiliyin daha da demokratikləşməsi yönündə çox mühüm addım kimi qiymətləndirilməlidir. Bunun nəticəsi kimi, 2017-ci il fevral ayının 21-də Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı ilə Ümummilli lider Heydər Əliyevin dövlətçilik kursunun ən fəal təmsilçisi, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi respublika ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılandı. Mehriban Əliyeva bir ictimai və siyasi xadim kimi ölkə daxilində və onun hüdudlarından kənarda yaxşı tanınır. Mübaliğəsiz deyə bilərik ki, Mehriban xanım xalqın inam ünvanına çevrilmişdir. Mehriban Əliyevanın millət vəkili və Fondun rəhbəri kimi irəli sürdüyü uğurlu təşəbbüslər, həyata keçirdiyi layihələr onun müsbət imicini formalaşdırıb. Heydər Əliyev Fondu ötən dövrdə Azərbaycandan Avropaya, Asiyadan Afrikaya, Məkkədən Vatikana qədər böyük xeyriyyəçilik tədbirləri, humanist aksiyalar həyata keçirib. UNESKO-nun və İSESCO-nun xoşməramlı səfiri olan Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti kimi öz fəaliyyəti, əməlləri ilə uğurlu nümunə göstərir, insanların Ulu öndər Heydər Əliyevin kursu və İlham Əliyev missiyası ətrafında birləşməsinə, səfərbər olmasına xidmət edir. Azərbaycanı xaricdə layiqincə təmsil edən Mehriban xanım xalqımızın haqq səsinin beynəlxalq aləmdə eşidilməsinə böyük töhfə verir.

AHİK də respublikamızda yürüdülən siyasətə uyğun olaraq, hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsində, gənclərimizin şərəfli vətəndaşlıq borcu olan hərbi xidmətə hazırlığında daim iştirak edir. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası 2000-ci ildən Cəmşid Naxçıvanski adına Hərbi Liseyi hamiliyə götürmüşdür. İndiyə qədər liseyin ictimai həyatında və təhsildə fərqləndiyinə görə 250 nəfərdən çox kursantı mükafatlandırmışıq. Üzərində Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun fotosu olan Keçici Kubok təsis edilib. Son 5 ildə kursantlara 12.5 min manat yardım göstərilmişdir.

AHİK və üzv təşkilatların nümayəndələri vaxtaşırı Silahlı Qüvvələrimizin hərbi hissələrinə də gedir, qəhrəman əsgər və zabitlərimizlə görüşlər keçirirlər.

Azərbaycanda son illər vətəndaşların rifah halının yüksəldilməsi istiqamətində həyata keçirilən ardıcıl tədbirlər respublikamızın milli inkişaf modelinin sosialyönümlü səciyyə daşıdığını təsdiqləyir. Qlobal böhranın səngimədiyi bir vaxtda vətəndaşların sosial müdafiəsi ilə bağlı xərclər nəinki azaldılmamış, hətta bir sıra sahələr üzrə artırılmışdır. Qeyri-neft sektorunun və sahibkarlığın inkişafı, yeni müəssisələrin işə salınması istiqamətində həyata keçirilən sistemli tədbirlər, uzaqgörən məşğulluq strategiyası öz bəhrəsini verir.

Əhalinin, xüsusən də aztəminatlı təbəqənin alıcılıq qabiliyyətinin artırılması, qiymət artımının təsirlərinin azaldılması məqsədilə müxtəlif sosial ödənişlərin, o cümlədən əməkhaqqının,

pensiyaların, müavinətlərin, təqaüdlərin və kompensasiyaların artırılması barədə son 2 ildə Prezident İlham Əliyevin 25-dən artıq fərman və sərəncam imzalaması da vətəndaşların sosial rifah halının yaxşılaşdırılmasının üstün tutulduğunu göstərir.

Korrupsiyaya qarşı mübarizə tədbirləri çərçivəsində yaradılmış “ASAN xidmət” mərkəzləri qısa müddətdə ictimaiyyətin böyük inam və etimadını qazanmışdır. Vətəndaşlara göstərilən xidmətlərin “vahid pəncərə” əsasında həyata keçirilməsi ölkədə vətəndaş-dövlət münasibətlərini yeni keyfiyyət mərhələsinə yüksəltmişdir. “ASAN xidmət”in yaradılmasında məqsəd dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, vətəndaşlara göstərilən xidmətlərin yüksək keyfiyyətlə, rahat və müasir innovasiyaları tətbiq etməklə həyata keçirilməsidir. Yeni standartlar dövlət və özəl xidmətlərin vahid məkanda operativlik, nəzakətlilik və məsuliyyət prinsiplərinə uyğun göstərilməsi əsasında formalaşıb.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2014-cü il, 03 fevral tarixli fərmanına əsasən, ölkəmizdə əmək münasibətlərinin elektron qeydiyyat sisteminin müasir meyarlara uyğunlaşdırılması, əmək münasibətlərinin elektron müstəvidə şəffaflaşdırılması baxımından ölkəmiz üçün uğurlu bir təcrübə formalaşdı. Bu sistem əmək bazarının, eləcə də işçi hüquqlarının təminatının dövlətin birbaşa nəzarətində saxlanılmasına, məşğulluğun dinamikasına, əməyin şərtlərinin, işçi qüvvəsinin daha çox cəlb olunduğu fəaliyyət sahələrinin və yerdəyişməsinin, işəgötürənlərlə işçilər arasında əmək münasibətlərinin dəqiq və əhatəli uçotunu aparmağa imkan verir.

Məlumdur ki, ölkəmizdə müxtəlif sahələr üzrə fəaliyyət göstərən şirkətlərin, təşkilatların, irili-xırdalı iaşə obyektlərinin, kiçik firma və xidmət müəssisələrinin sayı sürətlə çoxalır. Bu, ölkə iqtisadiyyatının inkişafını əks etdirən göstəricidir. Təəssüf ki, əmək hüquqlarının pozulması da eyni sürətlə artır. Xüsusən özəl müəssisələrdə işçilərin əmək hüquqları ciddi şəkildə pozulur və işçi-işəgötürən münasibətlərinin təminatı olan əmək müqaviləsi bağlanılmır. Beləliklə, işəgötürənlər vergidən yayınırlar və bu da öz növbəsində işsizliklə bağlı statistikaya da təsir göstərir. İşsizlərin sayı, eləcə də sektorların inkişaf səviyyəsi bilinmir, iqtisadi inkişafa yönəlik planlar, strategiyalar əsassız rəqəmlər üzərində qurulur.

Belə bir vəziyyətin yaranması onun vahid mərkəzdən idarə edilməsini və məsələyə nəzarətin gücləndirilməsini tələb edirdi. Bununla əlaqədar “Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında” 27 dekabr 2013-cü il tarixli Qanunda əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sisteminin yaradılmasının hüquqi əsası müəyyən edildi və Əmək Məcəlləsinin 12-ci maddəsinə edilən dəyişikliyə əsasən, işəgötürənin üzərinə əmək müqaviləsi bildirişini müvafiq elektron informasiya sisteminə daxil etmək məsuliyyəti qoyuldu.

Əmək Məcəlləsinin 49-cu maddəsinin birinci bəndinə əsasən, əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi elektron informasiya sisteminə daxil edilmiş əmək müqaviləsi bildirişinin qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra hüquqi qüvvəyə minir. Bu sistem işçilərin əmək hüquqlarının pozulmasının qarşısını alır, habelə işəgötürən-işçi münasibətlərinə nəzarəti gücləndirir, dolayısı ilə sosial rifahın yüksəldilməsinə müsbət təsir göstərir.

Əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sistemi, ölkəmizin sosial-iqtisadi münasibətlər sisteminin mühüm elementi olaraq, əmək münasibətlərinin və bu münasibətlərdə baş verən dəyişikliklərin elektron müstəvidə rəsmiləşdirilərək şəffaflaşdırılmasına xidmət edir. Bununla işçi və işəgötürənlərin əmək münasibətləri sahəsində hüquqlarının əsaslı təminat vasitəsi olan həmin sistem eyni zamanda əmək bazarına nəzarətin çevik və obyektiv uçotunun aparılmasına şərait yaradır. Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sisteminə müraciətlərin sayı 9 milyon 80 mini keçmişdir.

Dövlət başçısının uğurlu sosial siyasətinin bir nümunəsi də ölkə vətəndaşlarının mənzil-məişət şəraitini yaxşılaşdırmaq məqsədilə sosial mənzillərin tikintisi istiqamətində kompleks işlərin görülməsidir. Prezidentin 2016-cı il 11 aprel tarixli fərmanı ilə Azərbaycan Respublikası Prezidenti Yanında Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) yaradılmışdır. Agentliyin əsas vəzifəsi gəlir səviyyəsi orta və aşağı olan insanların, əsasən də gənclərin, gənc ailələrin mənzil əldə etməsi üçün yeni binalar tikdirmək və mənzillərin qiymətinin əlçatan olmasından ibarətdir.

Bütün bunlar onu göstərir ki, Ulu öndərin Azərbaycanın gələcək inkişafı ilə bağlı arzuları onun

layiqli davamçısı cənab Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilir.

Azərbaycan Həmkarlar İttifaqları 25 il əvvəl yeni tarixi mərhələyə qədəm qoydu. AHİŞ-in tarixə çevrilməsi, AHİK-in yaradılması və ictimai-siyasi həyatda baş verən çətin proseslərdən necə keçdiyimiz yaddaşlardadır. Qəbul etdiymiz konfederativ modelin özünü doğruldacağına şübhə ilə yanaşanlar da az deyildi. Belə bir məsuliyyətli vaxtda ölkəmizin başı üzərini almış qara buludlar - xain qonşularımızın Azərbaycan torpaqlarına göz dikməsi, Qarabağda qeyri-bərabər döyüşlərin getməsi, minlərlə insanın doğma yurd-yuvalarından didərgin düşərək qaçqın və köçkünlərə çevrilməsi həmkarlar ittifaqlarına da saysız-hesabsız problemlər yaratmışdı.

Lakin Azərbaycan həmkarlar ittifaqlarının dəyişməz olan həmrəylik ənənələri sayəsində sahə həmkarlar ittifaqları özlərinin qəti mövqelərini ortaya qoyaraq yekdil rəyə gəldilər. AHİK-in Nizamnaməsi, digər sənədlər qəbul edildi. Məhz AHİK-in I qurultayından sonra Azərbaycan həmkarlar ittifaqlarının tarixində dönüş mərhələsi başlandı.

Müəyyən qüvvələr AHİK-i lüzumsuz konfliktlərə cəlb etməyə çalışsalar da, bu səylər həmkarlar ittifaqları tərəfindən dəf edilirdi. AHİK bu cür hadisələrin fövqündə dayanaraq öz konfederativ statusunu qorudu, illər keçdikcə vətəndaş cəmiyyətində, beynəlxalq aləmdə rolumuz və nüfuzumuz artdı. Biz təşkilati birliyimizi və yeni şəraitdə möhkəmliyimizi qoruyub saxlaya bildik. Hər il keçirilən məclislərdə müzakirə edilən məsələlər həmkarlar ittifaqlarının daha da yeniləşməsinə, cəmiyyətdə nüfuzunun artmasına səbəb olurdu. Qurultaylarımızda islahat xarakterli, konstruktiv, dünya təcrübəsi əsasında potensialımızın artırılmasına dair əsas istiqamətlər müəyyənləşdirildi. AHİK dünya həmkarlar ittifaqı hərəkatının bərabərhüquqlu üzvünə çevrildi.

Azərbaycan həmkarlar ittifaqları hərəkatını dünya həmkarlar ittifaqı hərəkatından ayırmaq mümkün deyil. AHİK dünyanın əksər mütərəqqi həmkarlar ittifaqı mərkəzləri ilə, o cümlədən Türkiyə, Fransa, Polşa, Belçika, Yaponiya, İtaliya, Macarıstan, Norveç, İsrail, Bolqarıstan, Litva, Latviya, Çin və MDB ölkələrinin həmkarlar ittifaqları ilə əməkdaşlıq edir. Hesabat dövründə 10 ölkənin həmkarlar ittifaqı mərkəzləri ilə memorandum, müqavilə imzalanıb. AHİK özündə dünyanın demokratik həmkarlar ittifaqı mərkəzlərini birləşdirən Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının (BHİK-in), MDB ölkələri həmkarlar ittifaqlarının daxil olduğu Ümum Həmkarlar İttifaqları Konfederasiyasının (ÜHİK-in) üzvüdür. AHİK-in sədri isə Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının vitse-prezidentidir. Bunu Azərbaycan həmkarlar ittifaqlarının uğurlu fəaliyyətinə, onun beynəlxalq həmkarlar ittifaqı hərəkatındakı iştirakına verilən yüksək qiymət kimi dəyərləndirmək lazımdır.

Beynəlxalq əməkdaşlıqdan söz açmışkən bu gün bizimlə daha sıx təmasda olan Avropa həmkarlar ittifaqları qarşısında duran başlıca məsələlərə də toxunmaq istəyirəm. Burada ilk yerdə işçilərin əmək hüquqlarının qorunması, sosial dialoq və kollektiv müqavilələr gəlir.

Avropa həmkarlar ittifaqı təşkilatları Beynəlxalq Əmək Təşkilatı ilə əməkdaşlıq çərçivəsində hər il mütəmadi olaraq BƏT-in "Standartların tətbiqi" komitəsində hüquq pozuntuları mövcud olan ölkələrin siyahısını hazırlayır və xüsusi hallar üzrə müzakirələri təşkil edir. Bu müzakirələrdən sonra BƏT-in ölkələr üzrə qətnaməsi qəbul olunur.

Həmkarlar ittifaqı təşkilatlarının hüquqlarının pozulduğu ölkələrdə beynəlxalq səviyyədə onlarla həmrəylik tədbirləri təşkil olunur, etiraz mitinqləri dəstəklənir. Ölkə rəhbərliyinə beynəlxalq və ya regional səviyyədə etiraz məktubları göndərilir. Son illərdə Qazaxıstan, Makedoniya, Serbiya, Bosniya və Herseqovina, Türkiyə və Ukrayna həmkarlar ittifaqı təşkilatlarının təşkilatlanma hüquqlarının pozulması ilə bağlı analoji tədbirlər həyata keçirilmişdir.

Milli həmkarlar ittifaqı mərkəzlərinə ölkədə əmək qanunvericiliyi ilə bağlı islahatların həyata keçirilməsi, qanunvericiliyin beynəlxalq normalara uyğunlaşdırılması istiqamətində beynəlxalq texniki dəstək göstərilir.

Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyası həmkarlar ittifaqı təşkilatlarının hüquqlarının pozulması ilə bağlı illik bülleten nəşr edir. Bülletendə hər bir ölkə üzrə həmkarlar ittifaqı təşkilatlarının istər qanunvericilikdə, istərsə də praktikada üzləşdiyi problemlər haqqında geniş məlumat yerləşdirilərək əlaqədar qurumlara göndərilir.

Avropa regionu üzrə milli həmkarlar ittifaqı təşkilatları mərkəzlərinin hüquqşünaslarının illik görüşünün təşkili, hesabatların hazırlanması, sosial tərəfdaş kimi Pan Avropa Regional Şurasının

Avropa Komissiyası ilə kollektiv danışıqların da böyük faydası vardır. BHİK-in Qazaxıstan, Özbəkistan və digər ölkələrə xüsusi missiya göndərilərək dövlət və hökumət nümayəndələri ilə görüşlər keçirməsini, həmkarlar ittifaqı təşkilatlarına hörmətlə yanaşılmasını təkidlə tələb etməsi də müsbət təcrübədir.

Avropa həmkarlar ittifaqlarının fəaliyyətində sülh, demokratiya və stabillik məsələləri də önəmli yer tutur. Avropa Həmkarlar İttifaqları Konfederasiyasının, PARŞ-ın Avropa İttifaqının "Şərq tərəfdaşlığı" proqramına dəstək verərək Vətəndaş Cəmiyyəti Forumunda təmsil olunması buna sübutdur.

Son dövrlər Avropa həmkarlar ittifaqı mərkəzlərinin diqqəti miqrasiya problemlərinə çevrilmişdir. BHİK beynəlxalq səviyyədə miqrasiyanın tənzimlənməsi məsələləri ilə bağlı prioritetlərini açıqlamışdır. Bunlar qeyri-formal iqtisadiyyatın leqallaşdırılması ilə bağlı normaların inkişaf etdirilməsi, məcburi əməyə dair protokolun icrasına nəzarətin gücləndirilməsi, BƏT-in 29 saylı Konvensiyasının icrasıdır.

BHİK eyni zamanda konvensiyanı ratifikasiya etmiş ölkələrin iqtisadiyyatına miqrantların müsbət təsirinə dair tədqiqatlar hazırlayır, milli səviyyədə işçi miqrantların hüquqlarının artırılması ilə bağlı layihələr həyata keçirir.

Miqrant axınının görünməmiş həddə çatması bu prosesin ciddi təhlil olunmasını və tənzimlənməsini zəruri etmişdir. BƏT-in hesablamalarına əsasən, 95 milyon adam öz ölkəsini iş axtarmaq məqsədilə tərk etmişdir. Miqrantlar əsasən inkişaf etmiş ölkələrə üz tuturlar. Azərbaycandakı əlverişli coğrafi mövqe, siyasi sabitlik, dinamik inkişaf, tolerant cəmiyyət, beynəlxalq əməkdaşlığın genişlənməsi miqrantlar üçün cəlbedici mühit formalaşdırmışdır. Ölkəmizdə miqrasiya siyasəti sahəsində bir sıra mühüm addımlar atılıb. AHİK-in irəli sürdüyü təkliflər tərəfdaşlarəməzla bağlanmış üçtərəfli Baş Kollektiv Sazişdə öz əksini tapıb.

AHİK-də miqrasiya siyasətinə dair işçi qrupu yaradılıb, həmkarlar ittifaqı təşkilatlarının uzunmüddətli Fəaliyyət Proqramı qəbul olunub, müxtəlif bukletlər, əmək miqrantlarının yaddaş kitabçası çap olunub, bir neçə beynəlxalq təşkilatla və həmkarlar ittifaqı mərkəzləri ilə əməkdaşlıq haqqında ikitərəfli sazişlər imzalanıb. Həmin sənədlərdə əmək miqrantlarının hüquqlarının müdafiəsi üzrə, əmək münasibətlərində etnik, dini və siyasi diskriminasiyaya qarşı öhdəliklər əksini tapıb. AHİK-in atdığı addımlar beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir.

Respublikamız bu gün mühüm siyasi, iqtisadi, mədəni təşəbbüslərin icraçısı kimi tanınır və qlobal forumlara, konfranslara, layihələrə ev sahibliyi edir. Bu tədbirlərin Azərbaycanda keçirilməsi ilk növbədə respublikamızın sivilizasiyalararası dialoq prosesində fəal mövqe tutduğunu, körpü rolunu oynadığını göstərir. Hesabat dövründə BƏT və BHİK-lə birlikdə həmkarlar ittifaqı üçün aktual mövzularda beynəlxalq tədbirlər - seminar, konfrans, görüşlər keçirilmişdir. BƏT, BHİK, ÜHİK, Türkiyə və Rusiyanın ən böyük həmkarlar ittifaqı qurumları öz mötəbər tədbirlərini Azərbaycanda keçiriblər.

Belə tədbirlər sayəsində Azərbaycan Avropanın gənc həmkarlar ittifaqı liderlərinin təlim mərkəzinə çevrilmişdir. Pan Avropa Regional Şurasının ənənəvi olaraq hər il AHİK-in maliyyə dəstəyimizlə keçirdiyi gənclər konfranslarına aparıcı Avropa ölkələri həmkarlar ittifaqı mərkəzləri böyük önəm verir. Bu tədbirlərə həm də sosial tərəfdaşlarımız dəvət olunurlar. Aktual mövzular onların nümayəndələrinin iştirakı ilə müzakirə olunur və gənclərin böyük diskussiya arenasına çevrilir. Son belə tədbir ötən ilin noyabrında "Gənclərin məşğulluğu və iş dünyasının gələcəyi" mövzusunda keçirildi. Bu konfransa dünyanın müxtəlif ölkələrini təmsil edən 30 gənc lider qatılmışdı. Bir o qədər də azərbaycanlı gəncin iştirak etdiyi tədbir qonaqlar tərəfindən yüksək dəyərləndirildi. Azərbaycan həmkarlar ittifaqlarının Avropada nüfuzunun artmasına yardımçı oldu.

AHİK dünya həmkarlar ittifaqları hərəkatının bərabərhüquqlu üzvü olaraq inkişafının əsas prinsipial istiqamətlərini müəyyənləşdirmiş, 2013-2017-ci illər ərzində dünya, Avropa və MDB dövlətlərinin həmkarlar ittifaqı birlikləri ilə dialoqun, təcrübə mübadiləsinin və müxtəlif sahələrdə əlaqələrin genişləndirilməsinə, vahid strategiyanın dəstəklənməsinə və xarici ölkə həmkarlar ittifaqı mərkəzləri ilə faydalı münasibətlərin qurulmasına böyük güc sərf etmişdir.

AHİK-in nümayəndələri çeşidli ölkələrdə iştirak etdikləri qurultaylarda, konfranslarda, seminarlarda, aksiyalarda, görüşlərdə həmişə respublikamızın ümumilli problemlərini önə çəkmiş,

dünya həmkarlar ittifaqlarının diqqətini respublikamızın əsl həqiqətlərinə cəlb etməyə çalışmışlar. Hər dəfə "Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızın beynəlxalq hüquq normalarına uyğun olaraq şərtsiz azad olunması zəruridir" fikri vurğulanmış və dünya dövlətləri haqqın, ədalətin yanında olmağa çağırılmışdır.

Azərbaycanın 20 faizdən çox ərazisini işğal altında saxlayan təcavüzkar Ermənistanın sülhə, sabitliyə və iqtisadi əməkdaşlığa potensial təhlükə mənbəyi olduğu bildirilmiş, erməni lobbisinin respublikamıza qarşı apardığı bədnam təbliğata qarşı effektiv əks-hücumun təşkili prosesində çoxminli həmkarlar ittifaqı ordusunun da fəal mövqe tutmasının son dərəcə vacib olduğu qeyd edilmişdir.

MDB ölkələrinin həmkarlar ittifaqları mərkəzləri ilə əlaqələrimizin daha da möhkəmlənməsi sayəsində AHİK Rusiya Həmkarlar İttifaqları Federasiyası, Sverdlovsk və Həştərxan vilayət həmkarlar ittifaqları təşkilatları, Gürcüstan Həmkarlar İttifaqları Birliyi, Tacikistan Hİ Federasiyası ilə memorandum və əməkdaşlıq müqavilələri bağlamışdır. AHİK və üzv təşkilatları haqqında düzgün informasiyanın yayılmasında ÜHİK-in orqanı olan "Vestnik profsoyuzov" toplusunun imkanlarından geniş istifadə edirik. Vaxtaşırı AHİK və üzv təşkilatlarının fəaliyyətinə dair materiallar, rəhbər işçilərin çıxışları, mühüm tədbirlər haqqında məlumatlar çap olunur.

AHİK-in yarandığı ilk illərdə dünya və milli həmkarlar ittifaqı mərkəzlərindən ilk olaraq səsimizə səs verən qardaş Türkiyənin "Türk-İş", "Haqq-İş" konfederasiyaları, Avrasiya Metal İşçiləri Federasiyası oldu. Bu əməkdaşlıq münasibətləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının tanıdılmasında böyük rol oynadı.

Hazırda Konfederasiyanın ətrafında 1 milyon 500 minə yaxın üzvü birləşdirən 16901 həmkarlar ittifaqları təşkilatları fəaliyyət göstərir.

Son 5 ildə 507 yeni ilk həmkarlar ittifaqı təşkilatı yaradılmış, həmkarlar ittifaqı üzvlərinin sırasına 56.497 nəfər cəlb edilmişdir. Həmkarlar ittifaqı təşkilatları olan müəssisələrdə işləyənlərin 95.5 faizi həmkarlar ittifaqı üzvüdür.

Bu sırada 2014-cü ildə Fövqəladə Hallar Nazirliyinin Həmkarlar İttifaqının təsis edilməsi nəticəsində 49 həmkarlar ittifaqı təşkilatının yaranmasını xüsusi qeyd etmək lazımdır. Nazirlik sistemində çalışan 13162 nəfər sıralarımıza qoşulmuşdur. Eləcə də Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının apardığı müsbət iş diqqətəlayiqdir. Əgər 2014-cü ildə Muxtar Respublikada 1537 həmkarlar ittifaqı təşkilatı fəaliyyət göstərirdisə, hazırda bu təşkilatların sayı 1579-a çatdırılmışdır.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının IV qurultayının proqram sənədlərində üzv təşkilatlarının qarşısında, mülkiyyət münasibətlərindən asılı olmayaraq, respublikada fəaliyyət göstərən bütün müəssisələrdə həmkarlar ittifaqı təşkilatlarının yaradılması və üzvlərin sayının artırılması işinin gücləndirilməsi vəzifəsi qoyulmuşdur. Bu vəzifənin icrası məqsədilə mövcud problemlər araşdırılıb, gənc işçilərin maraqları öyrənilib və müvafiq tədbirlər həyata keçirilib. 2005-ci ildə 3340 xarici, birgə özəl firma və şirkətdə həmkarlar ittifaqı təşkilatı fəaliyyət göstərirdisə, hazırda bu təşkilatların sayı 3502-dir.

Bu uğurlarla yanaşı, hələ də həllini gözləyən problemlər qalmaqdadır. Məsələn, bəzi regionlarda əməkçilər, xüsusən gənclər həmkarlar ittifaqlarına üzvlüyün üstünlüklərini bilmir, yaxud işçilərin sosial problemlərinin həllində və hüquqlarının qorunmasında həmkarlar ittifaqının oynadığı rol barədə az məlumatlıdırlar. Bəzi hallarda isə işəgötürənlərin təzyiqi nəticəsində həmkarlar ittifaqına üzv olmaqda həvəsli görünmürlər, işəgötürənin əks hərəkətlərindən çəkinən işçilər fərdi qaydada məhkəmədə iddia qaldırmağa, həmkarlar ittifaqının təmsilçiliyi üçün vəkalətnaməni rəsmiləşdirməyə qərar verə bilmirlər. AHİK bütün bunları nəzərə alaraq son 2 il ərzində "İlk həmkarlar ittifaqını necə yaratmalı", "Sənin həmkarlar ittifaqın sənin müdafiəçindir" kitablarını hazırlamış, "Həmkarlar ittifaqına üzv ol" devizi altında regionlararası silsilə seminarlarda təqdimatını keçirmişdir.

Hesabat dövründə AHİK-in məclislərində baxılmış məsələlər - "Müasir iqtisadi şəraitdə iş yerlərində sağlam və təhlükəsiz əmək şəraitinin təkmilləşdirilməsində həmkarlar ittifaqlarının rolu", "Uşaq əməyi: mövcud vəziyyət və gələcək addımlar", "Həmkarlar ittifaqı üzvlərinin əmək, sosial-iqtisadi hüquq və mənafelərinin müdafiəsində Azərbaycan həmkarlar ittifaqları əməyin hüquq

müfəttişlərinin rolu" bizim üçün ən prioritet vəzifələr olmuşdur.

Ötən dövrdə AHİK-in Məclisində 5, İcraiyyə Komitəsinin iclaslarında 878 məsələyə baxılmışdır. Müzakirə olunan məsələlərin əksəriyyəti həmkarlar ittifaqının mühüm, həyati əhəmiyyətli problemlərini əhatə etmişdir. Həmin problemlərin çoxu yaxşı tanışdır: əməkhaqqı, layiqli əmək, məşğulluq, qanunvericiliyin təkmilləşdirilməsi, əməyin mühafizəsi, sağlam iş şəraiti.

Müasir şəraitdə vətəndaş cəmiyyəti institutlarının inteqrasiya və əməkdaşlığın inkişafında rolu böyükdür. Həmkarlar ittifaqı vətəndaş cəmiyyətini tarazlayan vasitə və dayaqdır. Həmkarlar ittifaqının əsas məqsədlərindən biri sosial dialoq vasitəsilə layiqli əmək prinsiplərini əks etdirən strategiyanı formalaşdırmaqdır. Sosial əməkdaşlığın səmərəsini yüksəltmək məqsədilə indiyədək xeyli iş görülmüşdür. Həmkarlar ittifaqı uğurlarını sosial tərəfdaşlığın daha da inkişaf etdirilməsində görür. Bu sahədə işçilərin hüquq və mənafelərinin qorunması ilə yanaşı, sahibkarlarla danışıqlarda məsələnin optimal həlli üçün, yeri gəldikdə güzəştə getmək də nəzərdə tutulub. Sosial tərəfdaşlıq çərçivəsində görülən işlər öz müsbət nəticəsini verməkdədir. Azərbaycan həmkarlar ittifaqları tripartizmi dəstəkləyir, sosial dialoq və sosial ədalət prinsiplərinə tərəfdardır.

Təəssüf ki, biznes adamlarının heç də hamısı əməkdaşlığa cəhd göstərmir, əksinə, var qüvvələri ilə öz müəssisələrində həmkarlar ittifaqı təşkilatının yaradılmasına mane olurlar. Onlarla mübarizə aparmaq lazım gəlir. Konstruktiv danışıqlar prosesinə ciddi diqqət yetirilir. Harada sosial tərəfdaşlığın və həmkarlar ittifaqı təşkilatının olmasının vacibliyini başa düşürlərsə, problemlər sarsıntısız həll edilir. Maraqları balanslaşdırmaq və razılığa gəlmək həmişə mümkündür, yalnız istək olmalıdır.

Yeri gəlmişkən, həmkarlar ittifaqları hakimiyyət strukturları ilə də ən yüksək səviyyədə konstruktiv əməkdaşlıq edirlər.

Təsadüfi deyildir ki, 27 yanvar 2012-ci ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, AHİK-in və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının birgə qərarı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Təhlükəsiz və Sağlam Əmək Şəraiti üzrə Milli Üçtərəfli (Tripartizm) Sosial Şurası yaradılıb və Əsasnaməsi qəbul olunub. Bu, sosial tərəfdaşlarla hüquq bərabərliyi prinsipi əsasında Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə, konvensiyalarda və milli qanunvericilikdə nəzərdə tutulan iş yerlərində təhlükəsiz və sağlam əmək şəraitinin təmin edilməsi üçün birgə fəaliyyəti təmin etmişdir.

AHİK uzun müddət idi ki, Üçtərəfli Komissiya yaradılması üçün təkliflər irəli sürürdü. Nəhayət, 2016-cı il sentyabrın 30-da Azərbaycan Respublikası Nazirlər Kabineti, AHİK və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında Azərbaycan Respublikasında Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiyanın təsis edilməsi haqqında birgə qərar imzalandı. Bununla Azərbaycan həmkarlar ittifaqları yeni bir inkişaf mərhələsinə daxil oldu. Bu komissiyanın yaradılması ölkəmizdə sosial-iqtisadi inkişafın təmin olunmasında, bir sıra vacib sosial-iqtisadi məsələlərin həllində sosial tərəfdaşların fəaliyyətinin daha sıx formada əlaqələndirilməsinə, işçilərin və işəgötürənlərin hüquqlarının yüksək səviyyədə qorunmasına, bu sahədə sosial əməkdaşlığın təkmilləşməsinə xidmət edir.

Ölkədə sosial-iqtisadi inkişaf proseslərinin, əmək və sosial müdafiə, sosial tərəfdaşlıq sahəsində əldə olunmuş müsbət təcrübənin inkişaf etdirilməsinə geniş imkan yaranıb. Əminik ki, Üçtərəfli Komissiya ona bəslənən ümidləri doğruldacaqdır.

Azərbaycan Respublikası vətəndaşlarının əmək hüquqlarının qorunması, işçilərin maddi, sosial tələbatlarının ödənilməsi və layiqli həyat səviyyələrinin təmin edilməsi ölkədə keçirilən sosial-iqtisadi siyasətin prioritetlərindəndir. Son illər dövlət tərəfindən əmək münasibətləri iştirakçılarının hüquq bərabərliyinin təmin edilməsi, qanuni mənafelərinin qorunması, əmək müqaviləsi üzrə öhdəliklərinin icrasına hüquqi təminatın yaradılması istiqamətində sistemli və məqsədyönlü tədbirlər həyata keçirilir.

Görülmüş tədbirlər nəticəsində iqtisadi artımın bazasında əhalinin gəlir əldə etmək imkanları daha da genişləndirilmiş, makroiqtisadi sabitliyin təmin edilməsi, qeyri-neft sektorunun inkişafı, bu sahədə əlverişli şəraitin yaradılması vasitəsilə tarazlı və bilavasitə yoxsulluğun azaldılmasına istiqamətlənmiş inkişafın reallaşdırılması, eləcə də müasir prinsiplər əsasında fəaliyyət göstərən sosial mexanizmlərin ölkənin iqtisadi mühitinə inteqrasiyasının prioritet kimi müəyyən olunması milli

iqtisadiyyatın yönümlülüyünü daha da artırmışdır.

Son on il ərzində minimum əməkhaqqının səviyyəsi 3,0 dəfə, ölkə üzrə orta aylıq əməkhaqqı 3,3 dəfə, əmək pensiyalarının baza hissəsi 4,4 dəfə, orta aylıq pensiya 6,4 dəfə artmışdır. Nəticə etibarilə ölkədə yoxsulluğun səviyyəsi 46 faizdən 5,4 faizə enmişdir. İşsizlik səviyyəsi isə 5 faizə bərabərdir.

Ümumdaxili məhsul 2006-cı illə müqayisədə 2016-cı ildə adambaşına 3 dəfə artaraq 6.224 manat olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorlar üzrə strateji yol xəritələrində də Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətli işçi qüvvəsi ilə təmin olunması, əmək bazarında çevik siyasətin həyata keçirilməsini təmin edən institutlar vasitəsilə sosial dialoqun inkişafı və inklüziv məşğulluğun artmasına nail olunması, habelə əmək resurslarından səmərəli istifadə nəticəsində əmək məhsuldarlığı səviyyəsinin yüksəldilməsi əsas strateji hədəf və prioritetlər kimi müəyyən edilmişdir.

Qeyd olunan hədəflərə nail olmaq üçün ölkədə qeyri-rəsmi məşğulluğun qarşısının alınması, əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşdırılması və iqtisadi fəallığın yüksəldilməsi, işaxtaran və işsiz şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, əmək bazarında tələb və təklif arasında dinamik uyğunluğun yaxşılaşdırılmasına yönəlmiş institusional mühitin təkmilləşdirilməsi istiqamətində tədbirləri davam etdiməyi zəruri hesab edərək, ölkədə işçilərin sosial müdafiəsinin daha da gücləndirilməsi, işəgötürən - işçi münasibətlərinin rəsmiləşdirilməsi, əməyin ödənişinin təşkilinə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, habelə əmək münasibətləri iştirakçılarının digər əmək hüquqlarının və təminatlarının effektiv müdafiəsinin təmin edilməsi və bu sahədə dövlət orqanları arasında koordinasiya olunmuş siyasətin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 17 mart 2017-ci il tarixli “Azərbaycan Respublikasında əmək münasibətlərinin tənzimlənməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncamı ilə Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiya Komissiyası yaradılıb.

Əmək münasibətlərinin tənzimlənməsinin təkmilləşdirilməsi ilə bağlı Tədbirlər Planı təsdiq edilib, işçi qrupu, Komissiya yanında Qeyri-Rəsmi Məşğulluqla Mübarizə Mərkəzi qurulub.

Komissiyaya icra orqanlarının rəhbərləri ilə yanaşı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti daxil olunublar.

Ölkə prezidenti 9 oktyabr 2017-ci il tarixdə “Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında”sərəncam imzalayıb. Tədbirlər Planında beş istiqamət - normativ-hüquqi aktların təkmilləşdirilməsi, inzibatçılığın təkmilləşdirilməsi, qeyri-rəsmi məşğulluğun qarşısının alınması, monitorinq və qiymətləndirmə sisteminin qurulması, qeyri-rəsmi məşğulluğa qarşı məlumatlandırma və təbliğat işlərinin təşkilini nəzərdə tutur.

Qeyd etmək lazımdır ki, tədbirlərin icrası müvafiq dövlət qurumlarına tapşırılıb, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının iştirakı da tövsiyə olunub.

Tədbirlər Planının icrası nəticəsində mərhələli şəkildə qeyri-rəsmi fəaliyyətlə məşğul olanların 1 milyon nəfəri real iş sektoruna cəlb ediləcəkdir.

Yeri gəlmişkən, son 5 il ərzində 3 Baş Kollektiv Saziş, hər il orta hesabla 110 sahə (tarif) sazişləri, 12 min kollektiv müqavilə bağlanmışdır. Həmin sənədlərdə həmkarlar ittifaqlarının tələbləri öz əksini tapmışdır. Bu sahədə görüləcək işlərə Azərbaycan Respublikasının “2016-2020-ci illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı” təminat yaradır. Bu Proqramın hazırlanmasında AHİK fəal iştirak etmişdir. İlk növbədə Ölkə Proqramının yerinə yetirilməsində həmkarlar ittifaqlarının öhdəlikləri müəyyənləşdirilib. Həmkarlar ittifaqlarının mövqeyini əks etdirən tövsiyələr qəbul edilmişdir. Həmkarlar ittifaqı təşkilatlarına əməyin ödənilməsi sahəsində öz səylərini ilk növbədə əməkhaqqı siyasətinin, əməyin ödənilməsi üzrə qanunvericiliyin təkmilləşdirilməsinə, orta aylıq əməkhaqlarının artırılmasına yönəltmələri tövsiyə edilmişdir.

Layiqli Əmək üzrə Ölkə Proqramı hazırlanarkən orada prioritetlərimizin əks olunmasına çalışmışıq. Bunlar əsasən qeyri-formal iqtisadiyyatın leqallaşdırılması, gender bərabərliyinin təmin olunması, diskriminasiya hallarının qarşısının alınması problemləridir. Digər tərəfdən, işsizliyin aradan qaldırılması, gənclərin məşğulluğunun təmin edilməsi, layiqli iş yerlərinin yaradılması da

önəmli məsələlərdəndir. Sosial dialoqun inkişaf etdirilməsi, kollektiv saziş və müqavilələrin sayının artırılması, təlimatlandırma və maarifləndirmə işlərinin gücləndirilməsi kimi məsələlərin həlli birgə fəaliyyətin nəticəsi olmalıdır. Məhz bu problemlər 2016-2020-ci illər üçün Ölkə Proqramının qəbul edilməsini zərurətə çevirmişdir.

Layiqli Əmək üzrə Ölkə Proqramının həyata keçirilməsində Milli Üçtərəfli Komissiya özunəməxsus rol oynayacaqdır. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sosial tərəfdaşlarımızla konstruktiv əməkdaşlığı Ölkə Proqramının uğurlu icrasına imkan yaratmışdır. Sosial siyasətin tənzimlənməsində beynəlxalq əmək normaları əsas meyar olmalıdır. Ölkəmizdə BƏT-in 58 Konvensiyası ratifikasiya olunmuş, konvensiyaların bir çox tələbləri Əmək Məcəlləsində, Mülki Məcəllədə, Cinayət Prosessual Məcəllədə, İnzibati Xətalar Məcəlləsində, Müflisolma Məcəlləsində öz əksini tapmışdır.

Həmkarlar ittifaqları işçilərin sosial problemlərinin həllinə xidmət göstərə biləcək digər konvensiyaların da ratifikasiyasında maraqlıdır. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının nümayəndələri Beynəlxalq Əmək Təşkilatının hər il keçirilən sessiyalarında sosial tərəfdaşları ilə birlikdə iştirak edir, müzakirə olunan məsələlərlə bağlı öz prinsipial mövqelərini ortaya qoyurlar.

Ümumilikdə son illər BƏT-in əsas çağırışları layiqli iş yerlərinin yaradılması, insanların əmək fəaliyyətinin təhlükəsizliyi istiqamətindədir. Respublikamızda əməyin mühafizəsi ilə bağlı qanunların, digər normativ sənədlərin beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində böyük işlər görülmüşdür. Sosial tərəfdaşlarımız həmkarlar ittifaqı tərəfindən işçilərin sağlamlıq və təhlükəsizliyinə dair qaldırılan məsələlərin konstruktiv həlli yollarını axtarırlar.

Ölkəmizdə aparılan dövlət gənclər siyasəti gənclərin öz bilik və bacarıqlarını, təbii potensialını effektli reallaşdırmasını, cəmiyyətdə layiqli yer tutmasını təmin edən şəraitin yaradılması məqsədilə dövlət tərəfindən müəyyən edilmiş prioritetlər və həyata keçirilən tədbirlər sistemidir. Müvafiq hüquqi sənədlərdə öz əksini taparaq dövlət gənclər siyasəti hökumət qurumları, eləcə də həmkarlar ittifaqları tərəfindən həyata keçirilir.

Ölkəmizdə gənc nəslin mənəvi-ideoloji tərbiyəsinə, onların sağlamlığının qorunmasına xüsusi önəm verilir. Prezident İlham Əliyev gənclərə qabiliyyəti və intellektual imkanlar müqabilində geniş meydan verməyin tərəfdarı kimi bu təbəqəyə daim böyük diqqət və qayğı göstərir. Gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun təmin edilməsi, dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi məqsədilə 2005-2011-ci illərdə Azərbaycan Gəncliyi Dövlət Proqramları (2005-2011 və 2011-2015-ci illər üçün) qəbul edilmişdir. Proqramlara uyğun olaraq gənclərin sosial müdafiəsi, məşğulluğunun təmin edilməsi, yaradıcılıq axtarışlarının stimullaşdırılması, milli ruhda təlim-tərbiyəsi, hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, sağlam həyat tərzinin təbliği istiqamətində tədbirlər həyata keçirilmişdir.

Son illər həyata keçirilən tədbirlər gənclərin hərtərəfli inkişafının təmin olunması üçün siyasi, sosial-iqtisadi, təşkilati - hüquqi şərait və təminatların yaradılmasını sürətləndirmiş, onların ictimai-siyasi fəallığının artmasına kömək etmişdir. Bütün bunları nəzərə alan ölkə prezidenti İlham Əliyev 25 sentyabr 2017-ci il tarixdə "Azərbaycan Gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının qəbul edilməsi barədə Sərəncam imzalamışdır.

Gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sahələrə yönələn fəaliyyətlərin stimullaşdırılması məqsədilə Gənclər Fondu uğurla fəaliyyət göstərir. Eyni zamanda "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında da gənclərimiz üçün mühüm prioritetlər mövcuddur. Heç şübhəsiz ki, bütün bunlar gənclərin potensialından daha mükəmməl şəkildə yararlanmağa hesablanmış bir addımdır.

Hazırda ölkədə 200-ə yaxın gənclər təşkilatı, 20-dən çox ali məktəbdə fəaliyyət göstərən tələbə gənclər və tələbə həmkarlar ittifaqı təşkilatları var. Onların əhatə etdikləri məsələlər də kifayət qədər genişdir: gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi, məlumatlandırılması, işsizliyin azaldılması, gənclərin sağlamlığı, təhsili, fəal vətəndaş mövqeyi, mədəniyyətin geniş kütlələr arasında təbliği və sairə. AHİK-in İcraiyyə Komitəsinin "Gənc həmkarlar ittifaqı lideri məktəbi" - gənc işçilər üçün kompleks proqram haqqında" qərarı buna bariz nümunədir. Konfederasiyamız gənclərin ixtisaslı kadr kimi hazırlığı işinə yardımçı olmaq üçün "İlin peşəkar gənci" fəxri adını təsis etmişdir. İndiyə qədər müxtəlif sahələrdə çalışan 107 gənc bu ada layiq görülmüşdür.

Gənclərin sosial-iqtisadi problemlərinin həllinə kömək göstərilməsi, onların həmkarlar ittifaqı strukturlarının fəaliyyətinə, keçirdiyi tədbirlərə, aksiyalara cəlb edilməsi və həmkarlar ittifaqının kadr ehtiyatının gənclər hesabına yaradılmasına xüsusi fikir verilir. AHİK-in gənclər siyasəti konsepsiyası və bu istiqamətdə mövcud olan digər qərarlar üzv təşkilatlar tərəfindən həyata keçirilir. Kollektiv müqavilələrdə gənclərin sosial-iqtisadi, hüquqi mənafelərinin qorunması, məşğulluğunun təmin edilməsi, əmək şəraitinin yaxşılaşdırılması, mədəni-kütləvi və sağlamlıq işlərinin aparılması məsələlərinə geniş yer verilir. AHİK gənclər arasında işsizliyin aradan qaldırılmasına, onların məşğulluğunun təmin edilməsinə yönəldilən tədbirlərin bir çoxunun təşəbbüskarıdır.

Ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması, idxaldan asılılığın azaldılması, ixracyönümlü qeyri-neft iqtisadiyyatının əsaslı inkişafının təmin olunması, insan kapitalının formalaşdırılması ölkə siyasətinin prioritet istiqamətlərindəndir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsi, yüksək qətiyyəti sayəsində ölkəmizdə həyata keçirilən genişmiqyaslı, davamlı islahatlarda həmkarlar ittifaqları daha fəal iştirak etməlidir. Respublikamızın inkişafına xidmət etmək, üzvlərin daha çox etimadını qazanmaq üçün daha səylə fəaliyyət göstərmək lazımdır.

**Açar sözlər:** həmkarlar ittifaqları, dövlət, sosial tərəfdaşlıq, əmək hüququ, sosial-iqtisadi mənafe, əməkdaşlıq, müqavilə, saziş, siyasət, inkişaf, islahat

**Саттар Мохбалыев**

## ФАКТОРЫ РАЗВИТИЯ ПРОФСОЮЗНОГО ДВИЖЕНИЯ В АЗЕРБАЙДЖАНЕ НА СОВРЕМЕННОМ ЭТАПЕ

### Резюме

В статье отмечается, что защита трудовых прав граждан Азербайджанской Республики, удовлетворение материальных, социальных потребностей рабочих и обеспечение достойного уровня жизни, будучи приоритетами осуществляемой в стране социально-экономической политики, являются одной из основных задач профессиональных союзов.

Указывается обеспечение профессиональными союзами в последние годы равноправия участников трудовых отношений, охрана законных интересов, создание правовых гарантий исполнения обязательств по трудовому договору, подготовка законодательных актов по экономическим вопросам, легализация неформальной экономики, разрешение миграционных проблем, гендерное равенство, осуществление целенаправленных мероприятий в русле претворения в жизнь молодежной политики. Одновременно отмечено значение создания Трехсторонней Комиссии в обеспечении социально-экономического развития нашей страны, координация в наиболее тесной форме социального партнерства в разрешении ряда важных социально-экономических вопросов, охране прав работников и работодателей, совершенствование социального партнерства в этой сфере.

Одной из особых целей профессиональных союзов также является формирование, посредством социального диалога, стратегии, отражающей принципы достойного труда. В статье указывается реализация многих работ с целью повышения рациональности социального партнерства, при этом акцентируется, что профессиональные союзы Азербайджана поддерживают трипартизм, являются сторонниками социального диалога и принципов социальной справедливости.

**Ключевые слова:** профессиональные союзы, государство, социальное партнерство, право на труд, социально-экономический интерес, сотрудничество, договор, соглашение, политика, развитие, реформа.

**Sattar Mohbaliyev**

**THE DEVELOPMENT FACTORS OF THE TRADE UNIONS MOVEMENT IN AZERBAIJAN NOWADAYS**

**Summary**

It is mentioned in the article that the protection of labour rights of Azerbaijan Republic, satisfaction of the material social needs of employees and providing desent living standards, the contry's socio-economic policy are being one of the main tasks of the Trade Unions.

It is noted that, recent years ensuring equality of labour relations participants, protection of legitimate interests, establishment of legal guarantee of labour contract preparation of legislative acts of economic issues, legislation of informal economy solution of Migration problems, gender equality, implementation of youth policy in the direction of systematic and purposeful events have been taken by Trade Unions. At the same time trilateral commission serve providing social-economic development, coordinate a number of socio-economic issues of social partners activities more intense forms, protects the employees and employers rights at a high level and improve social cooperation in this area.

One of the important aim of the Trade Unions is to formulate the strategy reflecting of the worthy labours principles through social dialogue.

It is reported in the article increasing the effectiveness of social cooperation has done much work, that Azerbaijan Trade Union supports tripartizm, defend social dialogue and social justice principle.

**Key words:** Trade Union, state, social partnership, labour law, social-economic interest, cooperation, contract, agreement, policy, development, reform

# HUMANİTAR VƏ SOSİAL ELMLƏR

**UOT – 101.1**

**Əziz Məmmədov**
**Bakı Dövlət Universiteti, fəl.e.d., professor**
**İsa İsmayılov**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti, ped.e.d., professor**

## SOSİAL İDRAKDA RASİONALLIQ: MƏNTİQİ VƏ QNOSEOLOJİ ƏSASLAR

Elmi rasionallıq anlayışına toxunan müasir diskussiyaların əksəriyyətində belə bir ənənə hələ də davam etməkdədir ki, rasionallıq insanın formal məntiq sferasında təsir göstərən və öz təbiətinə görə onun təfəkkürünə uyğun tərzdə reallaşan məqsədəuyğun fəaliyyətdir. Rasionallığın müasir filosof və metodoloqların əksəriyyəti tərəfindən qəbul edilən bu ümumi və abstrakt anlamının əsasında insanların rasional davranışının, bilik və metodlarının standartları kimi çıxış edən məntiq qanunları durur. Bu, o deməkdir ki, əgər bizə elmi rasionallıq anlayışını məntiq qaydaları və metodoloji prinsiplər əsasında formulə etmək müyəssər olmuşdursa, deməli, biz elə standartlara, meyarlara yiyələnmişik ki, onlar bizə istənilən tarixi dövrün mütəfəkkirlərinin fəaliyyət formalarını, tədqiqat metodlarını və hər cür biliklərini dəyərləndirməyə əsas verir.

Fikrimizcə, rasionallıq problemi üzrə aparılan müasir diskussiyaların kəsir cəhətlərindən birini, onlarda rasionallığın sintez olunan 3 müxtəlif formasının fərqləndirilməməsi təşkil edir. Belə ki, rasionallıq problematikasında onun yalnız bir elementi - elmi biliyin rasionallığı təcəssüm tapır. Halbuki, rasionallıq anlayışı üzrə aparılan intensiv və ekstensiv tədqiqatlar belə qənaətə gəlməyə əsas verir ki, rasionallıq heç də amorf anlayış olmayıb, konkret struktura və təşkilə malikdir. Onun strukturunda üç əsas formanı fərqləndirmək olar: 1) rasionallıq anlayışının ehtiva etdiyi nəzəri biliyin rasionallığı; 2) elmi biliyin qazanılmasında iştirak edən tədqiqat metodlarının rasionallığı; 3) elmi tədqiqatın subyektini təşkil edən alimin fəaliyyətinin rasionallığı.

Təqdim etdiyimiz bu məqalədə başlıca məqsədimiz, sosial idrakda rasionallıq anlayışının tədqiq etmək olduğundan, biz rasionallıq anlayışının formalarına geniş spektrdə toxunmağı məqsədəuyğun saymayıb, onların hər biri haqqında yalnız bir neçə kəlmə deməklə kifayətlənəcəyik.

Rasional fəaliyyət – baxılan konkret şəraitdə qarşıya qoyulan, məqsədə doğru aparan fəaliyyətdir. İnsanların hər cür fəaliyyəti məqsədli səciyyə daşıyıb, konkret bir məqsədin reallaşdırılmasına doğru istiqamətləndiyindən o məqsədə çatdığı təqdirdə onun bu bu fəaliyyətini rasional adlandırmaq olar.

Rasionallığın digər bir formasını elmi idrakda istifadə olunan metodların rasionallığı təşkil edir. Elmin inkişafı üçün metodların müstəsna əhəmiyyəti vardır, həmdə bu əhəmiyyət hər şeydən əvvəl, rasionallıqda alimin yaradıcı fəaliyyətinin nə dərəcədə düzgün istiqamətlənməsi və öz tədqiqat sahəsində həqiqi biliklərə yiyələnməsinin ən qısa və optimal yolunun necə seçilməsi ilə müəyyən olunur. Burada böyük rus fizioloqu İ.P.Pavlovun metodun rasionallığına verdiyi qiyməti xatırlatmaq yerinə düşərdi: "Metod-ən birinci və əsas şeydir. Tədqiqatın ciddiliyi bütünlüklə metoddan, fəaliyyət üsulundan asılıdır. Bütün məsələ ancaq metodun nə dərəcədə rasional olmasından asılıdır. Hətta, o qədər də istedadlı olmayan adam da yaxşı metod sayəsində çox şey əldə edə bilər. Metod rasional olmadıqda isə ən dahi insan belə səmərəsiz işləyərək dəyərli və dəqiq məlumatlar əldə edə bilməyəcəkdir"[10, 213]. Doğrudan da, müəyyən sistemə, ciddi düşünülmüş plana, səmərəli və rasional metoda yiyələnmədən tədqiqatçı elmi idrakda istiqaməti asanlıqla itirə, tədqiqatın düzgün yolundan uzaqlaşaraq asanlıqla yanlış, hətta səhv nəticələrə də gəlib çıxa bilər.

Beləliklə, yuxarıda rasionallıq haqqında söylədiklərimiz bizə idrak prosesində psixikanın

zəruri komponenti kimi çıxış edən bu əməliyyatın aşağıdakı cəhətlərini müəyyənləşdirməyə əsas verir:

- idrak prosesində iştirak edən rasional əməliyyatlar bir qayda olaraq tarixi səciyyə daşıyır;
- rasional əməliyyatlar insan praktikası ilə üzvi surətdə bağlı olub, onun əsasında formalaşır və inkişaf edir. Bu mənada ictimai praktikanı rasional idrakın inkişafının meyarı və hərəkətverici qüvvəsi hesab etmək olar;
- rasional əməliyyatlar insanların obyektiv reallığa yiyələnmək dərəcəsini, prosesləri idarə etmək bacarığını əks etdirir;
- rasional əməliyyatlar yalnız insan təfəkküründən keçərək fəaliyyət göstərirlər;
- rasional əməliyyatlar insanların təbiət qanunlarına adekvat olan fəaliyyətidir;
- məntiqsiz rasionallıq yoxdur, bu, o deməkdir ki, rasional əməliyyatlar məntiq qanunları ilə idarə olunur. Həm də təfəkkürün dərrakə səviyyəsində rasionallıq əsasən formal məntiq qanunlarına, zəka səviyyəsində isə dialektik məntiq qanunlarına, o cümlədən qeyri-səlis məntiq qanunlarına tabe olur.
- rasional fəaliyyətin məhsulları olan anlayışlar, mühakimələr, əqli nəticələr, prinsiplər, ideyalar və s. mənəvi elementlər insanların ünsiyyəti prosesində və digər fəaliyyət növlərində maddiləşən, obyektivləşən mənəvi varlıqlardır. Onlar sözlərdə və cisimlərdə (rəsm əsərləri, heykəllər və s.) maddiləşərək obyektivləşirlər;
- rasionallıq amorf hadisə olmayıb, müəyyən struktura, sistemə, təşkilə, elementlərə, səviyyələrə malik mürəkkəb prosesdir. Onun tarixən formalaşmış klassik, qeyri-klassik və postqeyri - klassik formaları, həm də onun mürəkkəblik dərəcəsinə görə fərqlənən müxtəlif səviyyələridir.

Elmi rasionallıq anlayışı öz ifadəsini yalnız insanın təbiətə istiqamətləndirdiyi qnoseoloji münasibətlərdə deyil, həm də cəmiyyətə yönəltdiyi idraki münasibətlərdə tapır. Belə ki, insan biliklərinin sistemi, insanın maddi və mənəvi proseslərə ontoloji və qnoseoloji münasibətinin ifadəsi kimi təcəssüm olunan şüurun yaranma mənbəyini yalnız təbiət hadisələri deyil, həm də ictimai münasibətlər sistemi, müxtəlif sosial hadisələrin mürəkkəbcəsinə cuğlaşdığı cəmiyyət sistemi təşkil edir. Buna görə də cəmiyyətin öyrənilməsi, təbiətlə müqayisədə onun daha mürəkkəb səciyyə daşıyan proses və münasibətlərinin araşdırılması, sosial idrak sahəsinin və onun paradokslarla zəngin məzmun və mahiyyətinin araşdırılıb məntiqin təhlil süzgəcindən keçirilməsi mühüm qnoseoloji, metodoloji və evristik əhəmiyyət kəsb edir. Bu kontekstdə təqdim olunan məqalədə ilk tanışlıq obyekti "sosial idrak" termini və onun sistem-struktur təhlili olacaqdır.

Fikrimizcə, "sosial idrak" məfhumunun məzmununda onun iki əsas aspekti hökmən nəzərə alınmalıdır:

a) ixtiyari idrak aktı ancaq cəmiyyətdə meydana gəlib funksiyalaşdığı və sosial-mədəni səbəblərlə şərtləndiyi üçün sosial səciyyə daşıyır. Bu mənada ixtiyari idrak həm də hümanitardır, başqa sözlə, idrak prosesi insan və onun məqsədəuyğun fəaliyyəti ilə bağlıdır;

b) insanın idrakı fəaliyyətinin əsas formalarından birini də cəmiyyətin, sosial proses və hadisələrin öyrənilməsi təşkil edir. Özünün bir sıra əlamətdar və qabarıq cəhətlərinə görə sosial idrak qnoseoloji tədqiqatların nüvəsini təşkil edən digər idrak sahələrindən: təbiətin (təbiətşünaslıq), təfəkkürün (qnoseologiya, məntiq, fəlsəfə) və idrakın özünün dərkindən əsaslı surətdə fərqlənir. Belə hallarda biz "sosial idrak", "humanitar idrak" və "sosial-humanitar idrak" anlayışlarını eyni mənalı sinonimlər kimi işlədə bilərik.

Sosial-humanitar və təbii-elmi idrak insan biliklərinin bir-birini qarşılıqlı surətdə tamamlayan mənəvi sahələridir. Zahirən fərqli görünmələrinə baxmayaraq bu bilik sahələrini birləşdirən, arasında mənəvi körpü yaradan obyektiv mənbə-onların hər ikisinin eyni bir obyekti; Heraklitin obrazlı ifadəsi ilə desək, daima axan, daima dəyişilən çaya bənzər maddi dünyanın öyrənməsidir. Lakin onlar dünyanı müxtəlif kontekstlərdə-birincilər təbii-elmi, ikincilər isə insan münasibətləri çərçivəsində öyrənir.

Bu baxımdan elmi-fəlsəfi ədəbiyyatda sosial-humanitar və təbii-elmi idrakı münasibətlərinin qoyuluşu və həlli problemində iki ifrat mövqe nəzəri xüsusi ilə cəlb edir.

Birinci mövqeyin tərəfdarları belə hesab edirlər ki, idrakın təbii-elmi və sosial formaları və metodları arasında heç bir fərq yoxdur. Məsələn, Polşa tarixçisi və filosofu E.Topolski tarixi idrakın özünəməxsus spesifikasının olmadığını sübut etməyə çalışaraq güman edir ki, tarixi idraka aid bütün problemlər eyni zamanda bütöv idraka da aid edilə bilər. Problemə belə yanaşmada humanitar idrak faktiki olaraq təbii-elmi idrakla eyniləşdirilir, daha doğrusu birinci növ idrak etalon qəbul edilən ikinci növ idraka reduksiya edilir.

İkinci mövqeyin tərəfdarları isə sosial idrakın özünəməxsusluğunu həddən ziyadə şişirdərək sosial bilikləri təbii-elmi biliklərə qarşı qoyaraq və onların keyfiyyət fərqini aradan qaldırır. Bu qəbildən olan baxışlar Baden məktəbi nümayəndəsi Rikkertin belə bir tezisində daha qabarıq ifadə olunmuşdur ki, "tarix elmi və qanunları formulə edən elm bir-birini istisna edən anlayışların mahiyyətidir".

Rikkertin bu tezisinə münasibətimizi bildirərək, qeyd etmək istəyirik ki, onun tənqidçiləri bu konsepsiyanın məhdudiyyətini qeyd etməklə yanaşı belə bir cəhəti nəzərdən qaçırmışlar ki, bu tezisdə sosial-tarixi tədqiqatların bir sıra real tərəfləri qeydə alınmamış, ikincisi sosial idrakın spesifikasının tapılması cəhətləri, sadəcə terminlərlə aparılan xalis manipulyasiyalara ("sosial keyfiyyət", "sosial ziddiyyəti", "sosial-tarixi fakt", "sosial nəzəriyyə və s.") müncər edilmişdir. Professor A.İ.Rakitov tarixi idraka münasibətdə bu situasiyanı qeydə alaraq yazırdı: "Təəssüflə etiraf etməliyik ki, tarix elmini əsrin "qvardiya" fənləri (fizika, riyaziyyat, kibernetika, informatika və s.) səviyyəsinə qaldırmaq üçün onda yaradıla biləcək dəyişikliklərə edilən təşəbbüslər bir çox hallarda real problemləri və tarixi idrakın spesifikliyini nəzərə almadan sadə konseptual sxemlərə və anlayışlara müncər edilir"[14,244].

Şübhəsiz, bütün digər idrak formaları kimi sosial idrak da bir sıra ümumi əlamətlərə malikdir: faktların təsviri və ümumiləşdirilməsi, qanunların və tədqiq olunan hadisələrin səbəblərinin aşkarlanmasını təmin edən nəzəri və məntiqi təhlil, hadisələrin izah edilməsi və onların qabaqgörənliklə söylənilməsi və s. belə ümumi əlamətlərdəndir.

Təbiətşünaslıq ilə ictimayətşünaslığın münasibəti problemi müasir elmi-fəlsəfi ədəbiyyatda geniş müzakirə olunmaqdadır. Müasir rus filosofu V.V.İlin elmlərin vəhdətini, onların həmahəngliyini, uyğunluğunu qeyd etməklə yanaşı, bu məsələdə mövcud olan ifrat hallara, səhv mövqelərə də münasibət bildirir. Onun təbirincə təbiət və humanitar elmlər bir bütöv kimi çıxış edən eyni bir elmin budaqları olsalar da, onların hər birinin özünə məxsus spesifikliyi vardır [3,22-30]. Bu baxımdan bütövlükdə sosial idrakın əsas xüsusiyyətlərini və spesifik xarakteristikasını aşağıdakı prinsiplər əsasında açıqlamaq olar:

1. Sözün geniş mənasında sosial idrakın predmetini insanın müxtəlif və rəngarəng formalarda təzahür edən fəaliyyət sferası təşkil edir. Hələ vaxtı ilə Hegel qeyd etmişdir ki, obyektiv proseslərin iki əsas forması mövcuddur: təbiət və insanların məqsədəuyğun fəaliyyəti. İnsanların bu fəaliyyət formaları obyektiv (sosial qruplar) və subyektiv (fərdi maraqlar, məqsədlər, məramlar və s.) tərəflərin vəhdətindən yaranır. Mədəniyyətin yaradıcısı olmaq etibarilə insanların məqsədəuyğun fəaliyyəti "insan dünyasını", mədəni dəyərləri yaradan, onları qoruyub saxlayan və yayan fərdin mənəvi dünyasının daxili zənginliyini formalaşdıran subyektiv reallığın bütöv bir kontinumudur.

2. Sosial idrak, hər şeydən əvvəl, sosial proseslərin, ictimai hadisələrin inkişafına, bu inkişafın qanunlarının, baş vermə səbəblərinin və mənbələrinin aşkara çıxarılmasına doğru istiqamətlənən mənəvi prosesdir. Burada aparıcı qüvvə rolunu sosial hadisələrin statistikası deyil, onların dinamikası oynayır. Bu kontekstdə idrakın öz predmetinə münasibətinin iki başlıca variantını qeyd edə bilərik:

a) predmetin özü mahiyyət etibarı ilə dəyişməsə də, onun nəzəriyyəsi, idrakı prosesi kifayət qədər surətlə dəyişə bilər. Bu situasiya təbiət elmləri üçün daha çox səciyyəvidir: məsələn, qalaktikaların təkamül tempi və onların insan tərəfindən dərk edilməsi müddəti;

b) predmetin inkişaf müddəti nəzəriyyənin inkişaf müddəti ilə müqayisə ediləcək dərəcədə olur. Bu halda biliyin təkamülü obyektin özünün təkamülünü əks etdirir. Bu tipik xüsusiyyət isə sosial hadisə və proseslərin dərki üçün daha çox səciyyəvidir. Bu səbəbdən sosial idrakda tarixilik prosesi: hadisələrə onların meydana gəlməsinə, inkişaf və dəyişilməsinə proses kimi baxılması

xüsusi əhəmiyyət kəsb edir. A.Moiseyevin sözləri ilə desək: “cəmiyyətdə baş verən inkişaf prosesləri onlar üçün səciyyəvi olan stoxastik və fasiləsiz bifurkasiyaların növbələşməsi hesabına geriyədönməzlik və öncədənxəbər verilməsi xeyli çətin olan rəngarənglik xarakteri alır”[8,71].

Sosial sistemlərin xüsusiyyətlərinin tədqiqi ilə məşğul olan bəzi müəlliflər belə bir fikrə rəvac verirlər ki, cəmiyyətin funksiyalaşması və inkişafı onların həddən ziyadə mürəkkəbliyi üzündən hələ də “qatı zülmətə” bürünmüşdür. Əgər sosial sistemin inkişafı konkret bir mərhələdə onun strukturu ilə şərtlənirsə, bu sonuncunun dəyişilməsi dövründə sistemdə yüksək tərtibli dayanaqsızlıq və qeyri-müəyyənlik halları müşahidə olunur.

Sistemlərin, o cümlədən, sosial sistemlərin təkamülünün ümumi qanunauyğunluqlarını tədqiq edən İ.Priqojin və İ.Stengers yazırlar: “... idarəedici parametrin dəyişməsi zamanı sistemi təkamülləşdirən trayektoriya determinist qanunların və bifurkasiya nöqtəsi yaxınlığında bir-birini əvəzləyən dayanaqlı sahələrin üstünlük təşkil etməsi ilə xarakterizə olunur”[13,227-28]. Bifirkasiya nöqtəsində sistemin öz-özünü sıçrayışlı təşkil etməsi və müəyyən parametrlərinin dəyişməsi hesabına onda kəskin struktur dəyişməsi baş verir və bu halda nizamsız mikrostrukturlardan nizamlı makrostrukturlar yaranır. 1900-cı ildə fransız alimi Benarın fizikada kəşf etdiyi məşhur “Benar özəkləri” buna yaxşı misal ola bilər. Bifurkasiya nöqtəsində sistemin gələcək inkişaf istiqamətini öncə söyləmək mümkünsüzdür. Bu halda yeni halın spontancasına seçilməsi qeyri-müəyyənliyə çevrilir. Belə spontan strukturlaşma prosesi bütün sosial sistemlər üçün də səciyyəvidir.

Sosial idrakın mühüm əlamətlərindən və ifadə etdiyi rasionallıq elementlərindən biri də onun predmetində həmişə, subyekt anlayışının ehtiva olunmasıdır. Buna görə də sosial idrakın predmeti nəinki “subyekt-obyekt” münasibəti, həm də “subyekt-subyektiv” münasibəti üzərində gercəkləşir. Bu konteksdə sosial idrakın predmetini subyektivsiz təsəvvür etmək, onu subyektdən ayrı salmaq, yaxud sərfnəzər etmək mümkün deyil. Sosial idrakın predmetinə subyekt anlayışının daxil edilməsi ona xüsusi bir mürəkkəblik, alman filosofu Veberin sözləri ilə desək, “mədəni-əhəmiyyətli fərdi gercəklik” verir. Burada maddilik ilə ideallıq, kortəbiilik ilə şüurluluq, emosionallıq ilə rasionallıq, rasionallıq ilə irrasionallıq və s. üzvi surətdə birləşir. Bu sferada ehtiraslar və maraqlar tüğyan edir, insanların fəaliyyəti prosesində reallaşan bir çox məqsədlər, mənafelər irəli sürülür.

Cəmiyyətin təhlili prosesində belə bir məqam hökmən nəzərə alınmalıdır ki, bu fenomen eyni zamanda həm obyekti, həm də subyekti təmsil edir və həmin qütblər arasında yaranan dialektik ziddiyyət sadəcə görünüş xarakteri daşımayıb həqiqi reallığı əks etdirir. Bu məqsədlə prof. T.V.Adornonun belə bir fikri diqqəti çəkir ki, “bu ziddiyyət yüksək dərəcədə real olub, predmetin özündə mövcuddur, onu nə genişləndirilmiş idrak, nə də aydın və dürüst ifadə edilmiş ifadələrlə real dünyadan ayırmaq mümkün deyil” [1.78].

Qeyd etmək istərdik ki, sosial xarakterli obyektlərə subyektin daxil edilməsinin zəruriliyinin nəzərə alınmasında sinergetikanın ortaya qoyduğu şərtin də rolu az olmamışdır. Rus sinergetika məktəbinin nümayəndələri E.N.Knyazeva və S.Q.Kurdyumov bu münasibətlə yazırlar: “Xüsusi hallarda hər bir ayrıca adamı fəaliyyəti də sosial mühitin dayanaqsız makroskopik proseslərinə təsir göstərə bilər. Buradan belə bir zərurət doğur ki, hər bir ayrıca insan bütün sosial sistemin, bütün bəşəriyyətin taleyi üçün ağır məsuliyyət yükü daşımalıdır” [4,3]. Lakin bununla yanaşı müzakirə obyektinə çevirdiyimiz məsələyə münasibətdə əks mövqe də mövcuddur. Bu mövqeyin mövcudluğu sayəsində belə bir mif şübhə altına alınmışdır ki, ayrıca bir adamın cəhdləri tarixin gedişinə aydın görünən ciddi təsir göstərə bilməz, hər bir ayrıca fərdin (“amomar subyekt”) fəaliyyəti makroskopik proseslər üçün tamamilə əhəmiyyətsizdir.

İdrakda, o cümlədən sosial idrakda, subyektiv meyillərin roluna münasibət məsələsində ingilis filosofu K.Popperin də mövqeyi xüsusi maraq kəsb edir: K.Popperin tərəfkeşlik etdiyi fikrin başlıca qayəsi bundan ibarətdir ki, elmi idrak prosesində heç kim subyektiv ehtiraslardan azad ola bilməz. Səbəb çox sadədir, belə ki, hər bir fərd dünyanı yalnız öz şəxsi nöqteyi-nəzərindən, şəxsi prizmasından, yaşadığı cəmiyyətin ənənələri baxımından, ailədə və sosial mühitdə qazandığı tərbiyədən asılı olaraq görür. Lakin Popper insanların milliyyətini, tarixi mənşəyini, yaşadıqları epoxanı, sinfi maraqlarını, dilini və s. amilləri “obyektivliyə nail olmaq yolunda aradan qaldırıla bilməyəcək maniyələr” hesab edənlərlə razılaşmır və bu qəbildən olan təsəvvürləri rədd edərək

belə qənaətə gəlir ki, kimsə idrak prosesində şəxsi ehtiraslarından azad ola bilməz. Popperin fikrincə insan idrak prosesində yaranan ehtirasların bir hissəsindən ancaq tədricən azad ola bilər. Bunun isə yeganə yolu müxtəlifmədəniyyətli adamların həqiqətə yaxınlaşmasından, bir-birini dinləməsindən və bir-birindən öyrənmək məqsədilə məhsuldar diskussiyalara başlamasından keçir" [11,463].

İdrakın subyektiv amillərlə əlaqəsinin aydınlaşdırılmasında alman filosofu Veberində xüsusi xidmətləri olmuşdur. Veber dəfələrlə qeyd etmişdir ki, bu əlaqə təbiət elmlərinə nisbətən humanitar elmlərdə daha sıxdır. Bu məsələdə Veber fikrinin başlıca qayəsi bundan ibarətdir ki, sosial elmlərdə müəllifin şəxsiyyəti hökmən öz əksini tapmalıdır. Belə ki, idrakın, xüsusilə sosial idrakın inkişafı subyektin özünü reallaşdırması yolu ilə baş verir. Nəzərə almaq lazımdır ki, sosial-humanitar idrak həmişə insan varlığının dəyəri-mənalı mənimsənilməsi və yenidən hasil edilməsi prosesidir. Bu kontekstdə "məna" və "dəyər" kateqoriyaları sosial idrakın spesifikasının açıqlan-masında açar rolu funksiyasını yerinə yetirir. İnsan həyatının məqsədi varlığın mənasının dərk olunması ilə şərtlənir. A.M.Korşunov və B.Mantaşov "məna" anlayışının fəlsəfi mahiyyətini belə səciyyələndirirlər: "Məna anlayışı insan varlığının mənəvi istiqaməti, onun qənaətləndirici əsası, yüksək mədəni-tarixi dəyərlərinin reallaşdırması, həqiqət, xeyirxahlıq və gözəllik deməkdir" [5,28]. Doğrudan da, "məna" mürəkkəb, çoxşaxəli, çoxaspektli və kifayət qədər yayğın anlayışıdır. Məsələn, görkəmli alman filosofu M.Haydekkerin təbrincə "cismin hərəkət istiqamətini başa düşmək üçün onun mənasına nüfuz etmək lazımdır. Bu mənaya nüfuz etmək isə onu anlamaq deməkdir. Anlama isə sadə idrakdan daha dərindir. Haydekkerə görə ideallar, normalar, prinsiplər, qaydalar, məqsədlər, dəyərlər ona görə varlıq anlayışı "üzərində" formalaşır ki, bütövlükdə ona konkret məqsəd, qayda, bir sözlə, "məna" verə bilsinlər.

Beləliklə, sosial-humanitar idrakda əşyaya məkan-zaman parametrləri kimi deyil, məna daşıyıcısı, işarə, insan təzahürünün simvolu kimi baxılır. Bu, o deməkdir ki, humanitar biliklər sferasında şüur predmetin təbii mahiyyətinə deyil, məna çalarlarına doğru istiqamətləndiyindən burada "dünya insana əşyavi-materialistcəsinə deyil, anlamalı və şərh edilməli olan mənəvi-mənalı obrazda dərin mahiyyət kimi verilir" [8, 80-81].

Bununla əlaqədar bir sıra müəlliflər humanitar biliklərin predmetini ("insan dünyası") onun obyektindən fərqləndirir və bunu obyektiv reallığın müvafiq fraqmentləri ilə təmasda açıqlanan "məna", "mənalı reallıq" kimi şərh edirlər. Buradan isə belə nəticə çıxır ki, "humanitar biliyin obyektin empirik-faktual varlığın məkanı deyil, mədəniyyətin mənimsənilməsində və istifadəsində meydana çıxan məna dəyərlərlər, faydalar məkanı təşkil edir" [3,81].

Sosial idrakda rasionallığın digər bir əlaməti isə onun dəyərlərlə, dünyagörüşü ilə, həyatmənalı komponentlərlə ayrılmaz və daimi əlaqəsində aşkara çıxır. Təbiət elmlərində bu komponentlər biliyin məzmununa nəzərən xarici amillər kimi çıxış etdiyi halda, humanitar-sosial elmlərdə onlar bilavasitə biliyin məzmununa daxil edilir.

Dəyər- ictimai həyat hadisələrində təcəssüm tapan obyektin müsbət və mənfi cəhətlərini (rifah, xeyir, şər, gözəllik, çirkinlik və s.) aşkara çıxaran spesifik sosial xarakteristikadır. Dəyər- sosial subyektin (insan, insan kollektivi, cəmiyyət, bəşəriyyət) konkret tələbatlarını ödəyən predmetin ictimai xassələridir.

Dəyəri oriyentasiyalar insan həyati üçün əhəmiyyətli olanı əhəmiyyətsizdən, mühüm olanı qeyri-mühümdən fərqləndirməyə əsas verir. Bu oriyentasiyalar şəxsiyyətin dəlillərini tənzimləyən mühüm amillərdir. Onların məzmununda insanın inamı, iradəsi, dərin və əbədi məhəbbəti, əxlaqi prinsipləri və digər keyfiyyətləri təmərküzləşir.

İnsanın dünyaya, predmet və hadisələrə dəyəri münasibətlərində qarşılıqlı əlaqələnən iki əks qütbü fərqləndirmək lazımdır. Bu qütblərdən birincisi dəyəri münasibətlərin obyekti kimi çıxış edən "predmet" dəyərləndirmə, ikincisi isə normativ təsəvvürlər formasında ifadə olunan və insan fəaliyyətinin oriyentləri kimi çıxış edən subyektiv dəyərləndirmədir. Dəyərləndirmənin bu spektrinə ustanovkalar, qadağalar, imperativlər və s. daxildir. Bu sırada həyat mənalı dəyərlər - xeyir və şər, rifah və xoşbəxtlik, əxlaqi, demokratik, dini, şəxsi, şəxsiyyətlərarası ünsiyyətlər də əhəmiyyətli yer tutur.

Sosial idrakda rasionallığın mühüm xüsusiyyətlərindən biri də burada geniş istifadə olunan

anlama əməliyyatı ilə bağlıdır. Mürəkkəb və kompleks əməliyyat olan anlama insanın ətraf aləmi dərk etməsi prosesi ilə bağlı olsa da, onu bütünlüklə idraka fəaliyyətə müncər etmək olmaz. Belə ki, anlama problematikası idrak nəzəriyyəsinin üstünlük təşkil edən məsələlərini sıxışdırıb aradan çıxara bilmir. Bu anlayış yalnız idrakı və praktiki fəaliyyətin vəhdəti əsasında təhlil oluna bilir. Elmi biliyin funksiyalaşmasının əsas əməliyyatlarından olan anlama rasional idrakın təsvir, izahetmə, refleksiya, şərh, interpretasiya əməliyyatları ilə paralel təsir göstərir. Onun təhlilinə çoxsaylı yanaşmalar göstərir ki, bu prosesin onu digər intellektual proseslərdən və qnoseloji əməliyyatlardan fərqləndirən özəl cəhətləri vardır. Buna görə anlamanı bütövlükdə idrak ilə, yaxud aralarındakı bir sıra yaxınlıq əlaqəsinə baxmayaraq izahatla eyniləşdirmək olmaz. Anlama prosesi predmetin dərk edilməsi, onun məzmununda insan üçün məna kəsb edən cəhətlərin aşkarlanması əməliyyatıdır.

Anlama iki rakursda çıxış edir: birincisi, insan fəaliyyətinin mənasına daxil olan element kimi, ikincisi məna-yaradıcı reallıq kimi. Anlama bir fərdin digər fərdin "mənalar dünyasına" dalması, onun fikirlərini, hiss və həyacanlarını duymaq qabiliyyətidir. Anlama-məna axtarışları olub, yalnız mənası olanın dərki deməkdir. Bu proses isə ancaq ünsiyyət şəraitində baş verir və yalnız dil sayəsində reallıq kəsb edir. Müasir fransız hermenevtikasının görkəmli nümayəndələrindən olan prof.Riker yazır ki, "anlama mənanın mənimsənilməsində yalnız bir mərhələdir. Abstrakt refleksiya ilə konkret refleksiya arasında yerləşən bu mərhələ təfəkkürün köməkliyi ilə simvollarda ehtiva olunan mənanın aşkarlanması deməkdir"[15, 253].

Prof.Rikerin təqdimatına görə, anlama bir şüurun verdiyi işarələrin digər şüur tərəfindən başa düşülməsidir; eyni bir mətn bir-birinin üzərinə qat-qat toplanan bir neçə mənaya malik ola bilər. Anlama varlığın sonsuz məna dərinliklərinin açıqlanmasına xidmət edən rasional əməliyyatdır.

Anlama izahata yaxın anlayış olsa da, ondan insan və cəmiyyətin, izahatdan isə təbiətin öyrənilməsində geniş istifadə olunur. İzahat və anlamanın münasibətindən bəhs edərkən Q.X.Vriqt belə bir mövqedə dayanır ki, ən yaxşı halda onların fərqindən danışmaq olar. Bu fərqi Q.X.Vriqt belə başa düşür: "İnterpretasiyanın nəticəsi "bu nədir?" sualının cavablandırılmasından ibarətdir. Halbuki, biz "nə üçün" sualını verdiyimiz zaman hadisənin baş verməsi səbəbini aydınlaşdırmağa, onun izahını verməyə çalışırıq. Bundan əlavə, bu əməliyyatlar bir-biri ilə qarşılıqlı əlaqədə olub, xüsusi tərzdə biri-digərinə istinad edir... İzahat faktların daha yüksək səviyyədə interpretasiyası üçün zəmin yaradır." [2, 76]

Sosial idrakda təzahür edən rasionallığın digər bir elementi bununla bağlıdır ki, sosial idrakın mətn təbiətli olması humanitar elmlərdə semiotik problematikanın xüsusi yer tutmasına səbəb olur. "Semiotika" yunan mənşəli söz olub, türk dilində işarə, element deməkdir. Müstəqil elm sahəsi olan semiotika işarələri, işarə sistemlərini tədqiq edir.

İşarə-hər hansı bir əşyanın, xassənin təmsilçisi kimi çıxış edən, informasiyanın, biliyin əldə edilməsi, qorunub saxlanması və yenidən işlənməsi üçün istifadə olan maddi predmetdir. Elmdə müəyyən işarə sisteminə daxil olan dil işarələri (sözlər) qeyri-adi işarələrdən fərqləndirilir. Bu sırada təbii ilə süni dil işarələri bir-birindən də fərqləndirilir. Təbii (danışıq) dillər, avtomatlar üçün seçilən proqramlar, alqoritmalar, təbiətdə və cəmiyyətdə mövcud olan siqnalizasiya sistemləri işarə sistemlərinə misal ola bilər. Bu sıraya həmçinin təsviri incəsənətdə, teatrda, kinoda və musiqidə istifadə olunan "dilləri", kibernetikada təhlil olunan ixtiyari mürəkkəb sistemləri, istehsal və sosial birlikləri və bütövlükdə cəmiyyəti də aid etmək olar.

İnsan təfəkküründə işarələr mənalar və simvollar formasında əks olunur. Fəlsəfi ədəbiyyatda özünə yer alan fikirlərdən birinə görə "dünya mədəniyyəti fikir dünyası olmayıb, simvollar dünyasıdır". "Simvol" yunan sözü olub, işarə, tanınan predmet mənasını bildirir. Bu termin elmdə (məntiqi, riyaziyyat və s.) işarə, incəsənətdə isə hər hansı bədii ideyanın ifadəsi mənasında işlədilir.

Simvol-maddi əşyaların və proseslərin işarə və yaxud obraz şəklində təsdiqlənən ideal məzmunudur. Formal məntiq çərçivəsində simvolun mahiyyətini birmənalı təyin etmək mümkünsüzdür,belə ki, simvol onu qavrayan subyektin aktiv fəaliyyətinə əsaslanan çoxmənalı sistemdir. Alman filosofu, yenikantçı Kassirerin təbirincə dil, mif, din, elm-insana ətraf aləmi tənzimləməyə imkan verən "simvolik formalardır". Simvolun mənası yalnız insanların ünsiyyəti

prosesində real mövcudluq kəsb edir və o, nə qədər çoxmənalı olursa, bir o qədər də zəngin məzmuna malik olur. [5, 313]

Sosial idrakda rasionallıq problematikası üzrə apardığımız qısa tədqiqata yekun vurarkən bir məsələyə də diqqət yetirməyi vacib bilirik. Bu məsələ təbiət elmlərindən fərqli olaraq sosial elmlərdə hamılıqla qəbul edilmiş paradiqmanın olmamasıdır.

Sosial idrakın bu xüsusiyyəti onun hər hansı nümayəndəsi tərəfindən deyil, müasir dövrün görkəmli məntiqişünası və filosofu Q.X. Vriqt tərəfindən dəqiq ifadə olunmuşdur. Onun fikrincə sosiologiyada hamılıqla qəbul edilmiş paradiqma yoxdur və bu xüsusiyyəti onu təbiətşünaslıqdan kəskin fərqləndirir. Lakin bununla yanaşı bu da real faktdır ki, marksist sosiologiya uzun illər hakim paradiqma rolunu oynamışdır. Buna görə də sosiologiyanın paralel tiplərinin mövcudluğundan danışmağabizim tam əsasımız vardır. Bu tiplər faktların başa düşülməsindəki fərqlərdən daha çox onların təsvir və izah olunduğu paradiqmalara görə fərqlənirlər.[2, 238-239]

Sözsüz, humanitar elmlərdə hamılıqla qəbul edilmiş paradiqmanın –vahid həqiqi nəzəriyyənin olmaması burada "nəzəri anarxizmin" təzahürünə gətirib çıxarır. Buna görə də sosial reallığın öz aralarında rəqabət aparan çoxsaylı konseptual-nəzəri sxemlərinin olması və onlardan yalnız birinin azad seçimi anomaliya deyil, sadəcə norma sayılmalıdır.

**Açar sözlər:** sosial, idrak, rasional, spesifik, metodoloqiya, evristik

**İstifadə edilmiş ədəbiyyat**

1. Адорно Т.В. К логике социальных наук// Вопросы философии, 1992, №10, с.78
2. Вригт Г.Х. фон. Логико-философские исследования, М.: Наука, 1986, 412 с.
3. Ильин В.В. Теория познания. Эпистемология. М.: Наука, 1994, 335 с.
4. Князева Е.Н., Курдюмов С.П. Синергетика как новое мировидение: диалог с И.Пригожиным// Вопросы философии, 1992, №12, с.3-20
5. Коршунов А.М., Манташов В.В. Диалектика социального познания. М.: Мысль, 1988, 462 с.
6. Məmmədov Ə.B., İsmayılov B.İ., Məmmədov F.Ə. Rasionallıq və qeyri-rasionallıq. Bakı, Elm, 2010, 880 s.
7. Məmmədov Ə.B. Dialektik idrak və ümumelmi tədqiqat metodları. Bakı: Azərnəşr, 1997, 300 c.
8. Моисеев Н. Естественнонаучное знание и гуманитарное мышление // Общественные науки и современность. 1993, №2,с.67-81
9. Новахатько А.Г. Рационализм и методология науки/ Рационализм и культура на пороге третьего тысячелетия. III Российский философский конгресс. Т.1. Ростов-на Дону: СКНЦВШ, 2002, 304 с.
10. Павлов И.П. Лекции по физиологии. М.: Знания, 1952, 498 с.
11. Popper R. Objective knowledge. 1974.
12. Поппер К. Открытое общество и его враги. В 2-ч Т. М.: Наука, 1992, 528 с.
13. Пригожин И., Стенгерс И. Порядок из хаоса: Новый диалог человека с природой. М.: УРСС, 1986, 437 с.
14. Ракитова А.И. Историческое познание. М.: Наука, 1982, 484 с.
15. Рикер П. Герменевтика. Этика. Политика. М.: Наука,2001, 484 с.
16. Хайдеггер М. Время и бытие. СПБ: Наука, 2002, 512 с.

**Азиз Мамедов**
**Иса Исмайылов**

**РАЦИОНАЛИЗМ В СОЦИАЛЬНОМ ПОЗНАНИИ: ЛОГИЧЕСКИЕ И ГНОСЕОЛОГИЧЕСКИЕ ОСНОВЫ**

**Резюме**

Статья посвящена одной из принципиальных проблем социальной философии. В социальном познании проблема рациональности анализируется в двух направлениях: в первом направлении раскрывается ее философское содержание, а во втором ее специфичность и методологически-эвристическая значимость.

**Ключевые слова***:* социальный, познание, рациональность, специфичность, методология, эвристическая

**Aziz Mamedov**
**Isa Ismaylov**

**RATIONALISM IN SOCIAL COGNITION: LOGICAL AND GNOSEOLOGY FOUNDATIONS**

**Summary**

The article is devoted to one of the fundamental problems of social philosophy. In social cognition, the problem of rationality is analyzed in two directions: first its philosophical content is revealed and second its specificity and methodological-heuristic significance is analyzed.

**Key words***:* social, cognition, rationality, specificity, methodological, heuristic

UOT – 165.0

**Yaşar Əliyev**
**AMEA Fəlsəfə İnstitutu, fəl.ü.f.d.**

# MULTİKULTURALİZMƏ MÜXTƏLİF YANAŞMALARIN MÜQAYİSƏLİ FƏLSƏFİ TƏNQİDİ

Bu gün dünyanın bütün ölkələrində olduğu kimi Azərbaycanda da ən çox elmi müzakirə doğuran məsələlərdən biri milli mədəniyyətlə çoxmədəniyyətliliyin qarşılıqlı münasibətləridir. Buna səbəb də Avropanın bəzi ölkələrinin çoxmədəniyyətlilik ya da multikulturalizm siyasətindən geri çəkildiyi halda, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2016-cı ili "Multikulturalizm ili" elan etməsidir. İlham Əliyev hesab edir ki, dünyada multikulturalizmin alternativi yoxdur. Çünki yalnız multikulturalizm sayəsində istənilən cəmiyyət rahat və əmin-amanlıq içində yaşaya bilər. Dövlət başçısına görə, Azərbaycanda multikulturalizm yalnız şüar deyil, həyat tərzidir. Bu il Bakıda keçirilən "Çoxqütüblü dünyaya doğru" mövzusunda IV Qlobal Forumun açılışındakı nitqində də Prezident İlham Əliyev bəyan etmişdir ki, multikulturalizm Azərbaycanın dövlət siyasətidir: "Müxtəlif etnik köklərə, dinlərə malik insanlar əsrlər boyu Azərbaycanda sülh, əmin-amanlıq şəraitində yaşamışlar və biz bununla fəxr edirik. Fərəhlənirik ki, müstəqillik illərində bu müsbət meyil daha da güclənmişdir. Multikulturalizm və dini dözümlülük Azərbaycanın dövlət siyasətidir. Eyni zamanda, bu, cəmiyyətdə olan əhval-ruhiyyənin təcəssümüdür. Bu isə çox vacibdir ki, həmin sahədə dövlət siyasəti və ümumi ab-hava bir-birindəın fərqlənmir" (1, s.17).

"Multikulturalizm ili" çərçivəsində "Heydər Əliyev siyasəti Azərbaycanda multikulturalizm nümunəsidir" mövzusundakı elmi-praktik konfransda da, bu məsələlərə aydınlıq gətirilməyə çalışılmışdır. Professor Rahim Hüseynov hesab edir ki, multikulturalizm müxtəlif dillərdə danışan, müxtəlif dinlərə qulluq edən, müxtəlif adət-ənənlərin daşıyıcısı olan xalqlarla sülh, əmin-amanlıq şəraitində birgə yaşamaq, işləmək texnologiyasıdır, ən əsası da çoxmədəniyyətlilik məfhumunun sinonimidir: "Bir sözlə, multikulturalizm cəmiyyətdə mövcud olan etnik, irqi, dini və mədəni müxtəlifliklərə münasibətdə dövlətin apardığı konkret siyasətdir. Çox qədim tarixə malik olan xalqımız ayrı-ayrı dövrlərdə müəyyən dinlərə sitayiş etsələr də, bu gün Azərbaycanda əhalinin 96 faizi İslam dininin daşıyıcısıdır. Azərbaycanda yəhudi, pravoslav, katolik və başqa dinlərin nümayəndələri də var. Elə buna görə də Prezident İlham Əliyevin diqqəti sayəsində ölkəmizdə məscidlərlə yanaşı, kilsələr, sinaqoqlar da inşa edilmiş və təmir olunaraq insanların xidmətinə verilmişdir" (2, s.6). Onun sözlərinə görə, dövlət başçısının bəyan etdiyi kimi, doğrudan da multikulturalizmin alternativi yoxdur: "Multikulturalizmin birgəyaşayış zəminində insanın insana, millətin millətə, bir din nümayəndəsinin başqa bir din nümayəndəsinə qarşılıqlı hörməti, qayğısı, məhəbbətidir. Əslində bu bir elmdir. Daha çox, daha yaxşı oxumaqla multikulturalizm siyasətinin sirlərini daha dərindən öyrənib mənimsəyə bilərsiniz" (2, s.7).

Bizcə, bütün bunları daha dərindən dərk etmək üçün, ilk növbədə dəqiqləşdirmək lazımdır ki, "milli mədəniyyət" və "çoxmədəniyyətlilik" dedikdə nə nəzərdə tutulur, onlar arasında oxşarlıqlarla ziddiyyətlər nədən ibarətdir. Üstəlik, burada mədəniyyətlə yanaşı "kültür", "sivilizasiya" və "multikulturalizm" anlayışlarının da izahı çox vacibdir. Bir şey dəqiqdir ki, kültür/kultur, mədəniyyət və sivilizasiya anlayışları nə qədər fərqli olursa-olsun, bir-birinə yaxın cəmiyyətlərdə onların oxşarlıq elementlərini tapmaq mümkündür. Bu baxımdan fərqli dinlərə tapınan millətlər belə kültürə, mədəniyyətə aid bir çox ünsürləri ortaq şəkildə paylaşa bilərlər. Kültür, Mədəniyyət və Sivilizasiya anlayışları ilə bağlı ortaq fikrə gəlmək mümkün deyildir. Çünki hər bir millətin bu anlayışlara özünəməxsus münasibəti vardır. Hətta, eyni millətin ziyalılarının belə mədəniyyət və sivilizasiya anlayışları ilə bağlı fərqli fikirləri mövcuddur. Belə olduğu halda mədəniyyətlərarası, yaxud sivilizasiyalararası münasibətələri müəyyənləşdirən amili yenə də fərqli ideyalarda, dünyagörüşlərdə, adət-ənənələrdə axtarmaq lazımdır. Bir şey dəqiqdir ki, mədəniyyət anlayışı nə qədər fərqli olursa-olsun, bir-birinə yaxın cəmiyyətlərdə oxşarlıq elementləri çox olur. Hətta, fərqli dinlərə sitayiş edən millətlər belə mədəniyyətə aid bir çox ünsürləri ortaq şəkildə

paylaşa bilərələr.

Fransız sosioloqu Gustav le Bon yazırdı ki, mədəniyyəti, sivilizasiyanı əmələ gətirən müxtəlif elementlərə – dilə, təsisata, ideyaya, etiqada, incəsənətə, ədəbiyyata millətin ruhunun təzahürü kimi baxılmalıdır: "Lakin dövrdən və irqlərdən asılı olaraq bu elementlərin hər hansı bir xalqın ruhunun ifadəsi kimi əhəmiyyəti çox müxtəlifdir. Əgər hər bir xalqın sivilizasiyasının yalnız onun bir elementini nəzərə almaqla tarixini yazmaq lazım gəlsəydi, bu element xalqlardan asılı olaraq müxtəlif olardı" (3, s.71). İngilis Arnold Toynbi (1889-1975) sivilizasiyaların inkişafının mərhələləri üzrə sxemini qəbul edir və onu yaranma-inkişaf-çiçəklənmə-tənəzzül-dağılma dövrlərinə ayırırdı. Lakin onun fikrincə, bu sxem qaçılmaz deyil. Sivilizasiyaların məhvi ehtimaldır, lakin zəruri deyildir (4, s.45).

Türk filosofu Ziya Göyalp (1876-1924) "mədəniyyət" anlamını "kültür" və ya "hars", "sivilizasiya"yanı isə "mədəniyyət"in sinonimi kimi işlədərək yazırdı: "Kültür milli olduğu halda, mədəniyyət uluslararasıdır – beynəlmiləldir. Kültür yalnız bir millətin din, əxlaq, hüquq, ağıl, estetika, dil, iqtisadiyyat və texnika ilə bağlı yaşayışlarının uyumlu – ahəngdar bir bütünüdür. Mədəniyyət isə eyni inkişaf səviyyəsində olan bir çox millətlərin kütləvi-ictimai həyatlarının ortaq bir bütünüdür" (4, s.47). Azərbaycan Türk filosofu Əhməd bəy Ağaoğlu mədəniyyət və sivilizasiya anlayışlarını eyni mənalı saymışdır: "Mədəniyyət – "Civilisation" deyiminə çeşidli təriflər verilmişdir. Biz bu deyimi, zənnimizcə, bütün tərifləri əhatə edən və bu kəlməyə ən geniş mənanı verən "həyat tərzi" olaraq qəbul edirik. Belə ki, mədəniyyət demək "həyat tərzi" deməkdir, yalnız həyat qavramını ən geniş və əhatəli bir mənada anlamaqdır. Həyatın bütün təcəllilərini, maddi və mənəvi bütün olaylarını o qavram əhatə etməlidir" (6, s.24).

Avropa xalqlarının kültür-mədəniyyət-sivilizasiya məsələlərində yeni bir mərhələyə daxil olmasına şübhə etmirik. Hər halda Avropa xalqları son əsrlərdə "Qərb" anlayışı altında yeni bir mərhələyə - Avropa ya da Qərb mədəniyyətinə üz tutmuşlar. Bununla da Avropa xalqlarının əksəriyyəti (bolqarlar, polyak, macarlar, finlər, rumınlar, albanlar, serblər, xorvatlar, ispanlar və b.) milli mədəniyyətlərdən uzaqlaşaraq daha çox ingilis və alman mədəniyyətlərinin təsiri altına düşmüşlər. Bu isə istər-istəməz həmin xalqlarda əks reaksiya doğurmağa başlamışdır. Məsələn, macarlar, bolqarlar, finlər Türk-Turan köklərinə, serblər, xorvatlar, polyaklar isə Slavyan mənşələrinə maraq göstərməyə başlamışlar.

Görünən odur ki, kültür, mədəniyyət və sivilizasiyayla bağlı Avropada iki düşüncə sistemi– Anqlo-Sakson və German-Roman sistemi geniş yayılmışdır. Deməli, Qərbdə çoxmədəniyyətlilik bu iki sistemin mahiyyətində gizlənmişdir. Amerikalı Samuel Hantinqton yazırdı ki, Almaniyadan başqa dünyanın hər tərəfində sivilizasiya mədəni bütövlük mənasında işlədilir. XIX əsr alman mütəfəkkirləri isə texnika, texnologiya və maddi amilləri əhatə edən "sivilizasiya" anlayışı ilə, cəmiyyətin dəyərlər, ideallar və yüksək əqli, bədii, mənəvi keyfiyyətlərini nəzərdə tutan "mədəniyyət" anlayışı arasında kəskin sərhəd qoymuşdular. S.Hantinqton isə bu fikirlərlə razılaşmayaraq bildirirdi ki, belə təsnifat Almaniyadan başqa heç bir ölkədə qəbul olunmur (7, s.76).

Deməli, dünyada mədəniyyət və sivilizasiya, ya da multikulturalizm adı altında ən geniş yayılan Qərbin Anqlo-Sakson mədəniyyətidir. Bunun da, son yüzillikdə ən tanınmış nümayəndələri A.Toynbi, S.Hantiqton, F.Fukuyama və başqalarıdır. Onlar bütün dünyanı inandırmağa çalışırlar ki, çoxmədəniyyətlilik, ya da multikulturalizm "Qərb sivilizasiyası" və "Qərb demokratiyası"nın varlığı ilə bağlıdır. Çünki "Qərb sivilizasiyası" və "Qərb demokratiyası" (liberal-demokratizmi) tarixin pik nöqtəsidir. Arnold Toynbi "Qərb sivilizasiyası"nı şişirdərək, onu bütün dünyaya yayılan tək sivilizasiya kimi qələmə vermişdir (8, s.90). Frensiz Fukuyamaya görə isə, dünya tarixinin sonunun çatmasının əsas amillərindən biri, bəlkə də birincisi kimi sivilizasiyalı dövlətdə ağa və qul məsələsinin aradan qaldırılmasını, bu anlamda azadlıq və bərabərlik ideyalarının bərqərar olmasını göstərir. Onun fikirindən belə nəticə çıxır ki, demokratiya ağaların ağalıqdan əl çəkib qullarla eyni hüquqlara malik olmasıyla başlamışdır. Çünki azadlıq və bərabərlik ideyaları insan təbiətinin təməl prinsiplərini ifadə edir (9, s.85).

Ümumiyyətlə, sivilizasiyanı ən yüksək dərəcəli sosial-mədəni ortaq dəyər və insanın mədəni identikliyinin ən geniş səviyyəsi kimi dəyərləndirən S.P. Hantinqtona görə o, «insanların ən böyük mədəni qruplaşmasıdır» (7, s.36). Hantinqtonun fikirləri ilə əsasən razılaşan politoloq Bassam Tibi

«sivilizasiya və mədəniyyət» anlayışlarını bir-birindən ayırır, sivilizasiya anlayışının daha yüksək, regional, yaxud da, qlobal səciyyə daşıdığını, eyni zamanda da, mədəniyyətin ona görə «yerli (dar) bir fenomen» məna kəsb etdiyini bildirir (10, s.33).

Akademik Ramiz Mehdiyevin fikrincə, "sivilizasiya mədəni proses üçün ilkin şərait yaradır, mədəniyyət isə yeniliyin yaradıcısı olmaqla sivilizasiyanın inkişafı üçün şərait yaradır. Mədəniyyət sivilizasiyanın təsbit etdiyi sosial normaların təcəssümünü, gerçəkləşdirilməsini nəzərdə tutan müstəqil maddi və mənəvi fəaliyyətdir. Eyni bir sivilizasiya çoxsaylı mədəniyyətlər yaradır. Məsələn, orta əsrlərdə ərəb, fars və Azərbaycan mədəniyyətləri islam sivilizasiyasının məhsullarıdır; türk sivilizasiyası türk, qırğız və Azərbaycan mədəniyyətlərini, eləcə də digər türkdilli xalqların mədəniyyətlərini əhatə edir" (11, s.26).

Bəs, Qərb mədəniyyəti, ya da Qərb sivilizasiyası adı altında şüurlara yeridilən çoxmədəniyyətlilik nədir? Hər halda Qərb mədəniyyətində artıq namus, əxlaq, şərəf və ləyaqət anlayışları "tolerant", "multikultural" həyatın içində ərimək üzrədir. Bu gün Qərb multikulturalizmində "modern insan"ı yalnız özünü düşünmə halındadır. Onun üçün ailə, millət, din və bəşəriyyət sevgisi arxa plana keçmişdir. Qərb dünyasındakı "modern insan" üçün yalnız maddi marağı və şəxsi təhlükəsizliyi üçün problemlər olanda bu anlayışların bir anlamı olur. Əgər bir cəmiyyətdə ailənin, millətin, vətənin, dinin, dövlətin heç bir dəyəri qalmayıbsa, yaxud da onlar yalnız maddi maraq və şəxsi təhlükəsizlik naminə bir dəyər daşıyırsa, artıq bu "qiyamət günü"ün reallaşmasına zəmin deməkdir.

Bu baxımdan insan anlamalıdır ki, dünyada hər şey "azad və bərabər", ya da tolerant olmaqla ölçülmür. Sadəcə, "azad və bərabər"lik insanlar, onların üzvləri olduğu cəmiyyətlər üçün "kölə və qeyri-bərabər"liyə qarşı bir əkslikdir. Burada orta yolun olması yetərlidir. Əgər "azad və bərabər"lik məsələsində orta yoldan kənara çıxılıb ifrata varılırsa, o zaman Qərbdə olduğu kimi, yenidən "kölə və qeyri-bərabər"liyə qayıdılmış olacaqdır. Artıq qərblilər özlərini inandırıblar ki, onlar dünyada azad, bərəbər və tayı-bərabəri olmayan bir sivilizasiyaya sahibdirlər. Ancaq süni mədəni-sivil davranış qaydaları, qeyri-müəyyən həyat tərzi, ifrat dərəcədə praqmatistlik-bu günə bağlılıq "qərblilər"in ruhi-mənəvi dünyasını alt-üst etmişdir.

Hər halda Qərb multikulturalizminin yanlış siyasətinin nəticəsi olmalı idi ki, sonralar bir çox Avropa xalqları ondan üz döndərmişdir. Xüsusilə, Qərb multikulturalizminin Avropanın bir çox ölkələrində, o cümlədən ABŞ-da özünü doğrultmamasına əsas səbəb ailədə valideynlərinə, məktəbdə müəllimlərinə, cəmiyyət içində digərlərinə heç bir dəyər verməyən, davranışlarını tənzimləməyən, bir sözlə "azad və bərabər" düşüncəli "modern ya da postmodern insan"ın ortaya çıxması olmuşdur. Qərbin multikulturalist, tolerant psixoloji-əxlaqi durumunda, xüsusilə irqçilik və ailə bütünlüyündə problemlərin olmasını, bu anlamda onun təhlükəli hala gəlməsini bir çox Qərb mütəfəkkirləri də görərək bunun qarşısını almağa çalışırlar. Amerikalı alim Fukuyama yazır: "Cəmiyyət yaşamının çöküşü ABŞ-da ailədən başlayır; ailə son iki nəsil içində, bütün amerikalıların şahid olduğu kimi sürəkli bölünüb parçalandı, atomizə oldu. Ayrıca bəlli bir yerə bağlı olmanın bir çox amerikalının gözündə bir önəmi qalmadı və dolaysız ailə çevrəsi xaricində bir topluluq ortamı bulmaq həmən imkansız" (9, s.309). Arnold Toynbi də hesab edir ki, Qərb sivilizasiyası iqtisadiyyat və siyasi inkişaf istiqamətlərində güclü olsa da, cəmiyyətin mənəvi inkişafı baxımından zəif durumdadır. Özəlliklə, Qərbdə psixoloji duruma bağlı irqçilik güclənməkdədir (8, s.176). "Psixoloji irqçilik" isə o deməkdir ki, qərblillər onlar kimi həyat tərzi keçirməyənləri qəbul etmirlər. Yəni qərblilərə görə, bütün Yer kürəsi insanları ya onlar kimi bu dünyada yaşamalı ya da onlardan çox uzaq durmalıdırlar.

Hazırda Qərb ziyalıları Qərb sivilizasiyasının tənəzzülünün qarşısını almaq üçün Şərq dünyasına, özəlliklə də Türk-İslam dünyasına daha çox təsir göstərməyə çalışırlar. Bu anlamda Qərb özünün imtina etdiyi yanlış multikulturalizm siyasətini qeyri-qərb dünyasında təbliğ edir. Çünki Qərb dünyasında çox yaxşı bilirlər ki, yalnız qeyri-müəyyən çoxmədəniyyətlilik fonunda millət öz milli simasını itirir. Dünyaya, özünün deyil, başqalarının gözü ilə baxmağa və danışmağa başlayır. Bu anlamda Cemil Meriçin təbrincə desək, Şərq və Qərb iki ayrı dünya olsa da, zor-xoş hamımız avropalı olmuşuq: "Qərb, bütün zəfərlərini yamyamlığa (barbarlığa-F.Ə.) borcludur. Qədim Yunan demokratiyası, əslində bir ovuc insanın hüriyyət və hakimiyyəti üçün digərlərinin köləliyi sayəsində gerçəkləşdirilmişdi. Amma bütün bunlar keçmişə aid təhlillərdir. Bu gün bir tək

dünya var, kafirlərin hökmran olduğu bir dünya. Bir kəliməylə hamımız avropalıyız" (12, s.473). Halbuki, hər bir cəmiyyət ilk növbədə, başqa mədəniyyətlərin deyil, öz milli-mənəvi dəyərlərinin məhsuludur. Bir millət başqa xalqlardan bəzi dəyərləri mənimsəyə bilər, ancaq o da, müəyyən hədd çərçivəsində olmalıdır. Başqa millətin dəyərlərinə həddən çox üz tutan xalqlar (məsələn, ermənilər kimi) ya məhvə, ya da manqurtlaşmaya məruz qalırlar. Bu baxımdan Qərb tərəfindən təbliğ olunan çoxmədəniyyətlilik, qloballaşma, demokratiya, tolerantlıq kimi anlayılarda son dərəcə həssas olmalıyıq. Bütün bunlar daha çox Qərbin ən geniş yayılmış təbliğat maşınlarıdır və bu təbliğat maşınları durmadan işləyirlər. Məqsəd Qərbdən kənarda qalmış, üstəlik maddi və mənəvi problemlər içində boğulan xalqları simasızlaşdırmaqla özlərinə tabe etdirməkdir.

Hesab edirik ki, demokratiya, qloballaşma, tolerantlıq, çoxmədəniyyətlilik, vətəndaş cəmiyyəti anlamları altında məqsəd dünyada bir-birinə dözümlü olan cəmiyyətlər formalaşdırmaqdan çox Qərbə tabeli dövlətlər və millətlər yaratmaqdır. Bu baxımdan Qərb sivilizasyasına aid demokratiya, qloballaşma, tolerantlıq, çoxmədəniyyətlilik Qərbdən kənarda qalan millətlərin sivilizasiyalarının, mədəniyyətlərinin üstündən xətt çəkməkdən başqa bir işə yaramır. Ancaq bu gün Qərb həm öz daxilində, həm də ondan kənarda maddi münasibət və azadlıq mənasında "çoxmədəniyyətliliyi" nə qədər gücləndirirsə, bir o qədər də əks təzyiqlə üzləşməli olur. Xüsusilə, hazırda Avropada İslam dininə mənsub olanların təzyiqlərə məruz qalması heç də yaxşı hal deyildir. Bu təzyiqlərə əsas səbəb odur ki, Avropa müsəlmanlarının əksəriyyəti din və millət məsələsinə avropalılar kimi maddiyyatçılıq, liberal dəyərlər əsasında yanaşmırlar. Əgər bu gün Qərbə qarşı etirazlar əsasən müsəlman dünyasındandırsa, bunun yenə də günahkarı Qərb özüdür. Çünki Qərb maddiyyatçılığı və liberallığı daha çox müsəlman dünyasında, bütün vasitələrə əl atmaqla yaymaqdadır. Buna qarşılıq olaraq da, daha çox müsəlman dünyasından əks təzyiq görür. Deməli, bir gün dünyada sivilizasiyalararası, ya da mədəniyyətlərarası toqquşma olacaqsa bunun əsas səbəbkarı Qərbdir, Qərb sivilizasiyasıdır. Bu istiqamətdə Qərb üçün əsas təhlükə İslam dini və hazırda onun aparıcı qüvvəsi olan türklərdir.

"Qərb" millətçiliyi fonunda multikulturalizminin ortaya çıxması 17-18-ci əsrlərdən başlayırsa, Şərqdə multikulturalizmin kökləri daha dərindir. Çünki Qərblə müqayisədə Şərqin millətləri daha qədimdirlər: misirlilər, şumerlər, xettlər, finikyalılar, assurlar, hindlilər, çinlilər, türklər, farslar və b. Demək olar ki, onlar çoxdan millət üçün vacib olan ərazi, dil, din, hakimiyyət birliyini də müəyyənləşdirmişdilər. Qərblilər ən qədim millətləri kimi yalnız yunanlar və romalılarla öyünə bilərlər ki, onlar da Şərq millətləri ilə müqayisədə çox "gənc"dirlər. K.Hübner "Millət: unudulmaqdan intibaha" (1991) əsərində yazırdı ki, millət fenomeni yeni dövrün kəşfi deyil, qədim, antik və orta çağ dövlətlərinin də substonsianal əsasını təşkil etmişdir (13, s.9).

Hər bir toplumun, ulusun öz ayaqları üstündə durması həmişə zor olmuşdur. Bunun müxtəlif səbəbləri vardır; burada özünü müdafiədən tutmuş iqtisadi çıxarlara qədər bir çox amillər mühüm rol oynayır. Əgər bir cəmiyyətin özünümüdafiə edəcək əsgəri yoxdursa, o gec-tez qonşularının işğalına məruz qalacaqdır. Eyni zamanda bir cəmiyyət iqtisadi gəlirləri baxımdan zəif durumdadırsa, yenə də başqasından asılı vəziyyətə düşəcəkdir. Bu baxımdan dilcə, adət-ənənəcə, dincə yaxın olan toplumlar ya zorakılıqla, ya da könüllü şəkildə bir araya gələrək daha güclü birlik olmağa çalışıblar. Bunun da nəticəsində müxtəlif dövlətlər və imperiyalar yaranmışdır.

Bu proses həmişə bəlli bir dairə üzrə təkrarlanmaqdadır. Çünki dövlətlər və imperiyalar onu yaradan amilləri sona qədər qoruya bilməmişdir. Bu təbii, gözlənilən proses olmuşdur. Çünki bütün dövlətlər və imperiyalar bütün möhtəşəmliklərinə baxmayaraq sonda çökmüşlər. Onların daxilində və xaricində gedən proseslər bunun qaçılmaz olduğunu ortaya qoymuşdur. Bu gün də bir çox dövlətlərin, imperiyaların daxilində və xaricində gedən prosesləri diqqətlə izləyəndə hansıların tərəqqi, hansıların isə tənəzzül içində olduğunu görürük. Bütün hallarda tərəqqinin tənəzzülə, tənəzzülün isə tərəqqiyə apara biləcəyi dəqiqdir. Çünki bütün başlanğıcların bir sonu, bütün sonların da bir bağlangıcı vardır. Məsələn, Şumerin sonu akkadların başlanğıcı, akkadların sonu Assuriyanın başlanğıcı, Assuriyanın sonu Babilin başlanğıcı, Babilin sonu Yunanın başlanğıcı, Yunanın sonu Romanın başlanğıcı, Romanın sonu Bizansın başlanğıcı, Bizansın sonu Osmanlının başlanğıcı, Osmanlının sonu Avropanın başlanğıcı olmuşdur.

Bizcə, dövlətlərin və imperiyaların, geniş anlamda sivilizasiyaların yaranması və sonu

ssenarisi, əsasən eynidir. Yəni sivilizasiyaların yaranmasına səbəb olan amillərlə, dağılmasını şərtləndirən faktorlar bir az aşağı-yuxarı oxşardırlar. Məsələn, bir-birinə yaxın və qonşu toplumlar aşağıdakı vacib amillərə əsaslanaraq müxtəlif sivilizasiyalar yaradıblar: din, adət-ənənə, iqtisadiyyat, qonşuluq, milli yaxınlıq, təhlükəsizlik, elm, hərb. Bu amillərdən biri hər hansı sivilizasiyanın yaranmasında çox, digəri isə az rol oynamışdır. Buna səbəb də çoğrafi quruluş, çoxetniklik, monoetniklik, intellektual baza, iqlimlər olmuşdur. Məsələn, Misir sivilizasiyasının əsasını monoetniklik, iqtisadiyyat və din tutduğu halda, Şumer sivilizasiyasında çoxetniklik, elm və din ön plana çıxmışdır. Eyni zamanda Türk sivilizasiyasında milli yaxınlıq, mədəniyyət, xoşgörülük, dini dözümlülülk mühüm rol oynamışdır.

Azərbaycan alimi, AMEA-nın müxbir üzvü Nizami Cəfərovun da fikrincə, qədim türklər daha çox multikulturalizm siyasətiylə hərəkət etdiyi halda avropalılar, o cümlədən yunanlar hərbi-siyasi amillərdən yararlanmışlar. O, yazır: "Qədim türk multikulturalizminin birinci mühüm əlaməti başqa dillərə, dinlərə, adət-ənənələrə hörmətlə yanaşılmasıdırsa, ikinci (və birincidən heç də az əhməyiyyətli olmayan) mühüm göstəricisi özlərinin dilinə, dininə, adət-ənənələrinə hörmətlə yanaşılmasının tələb edilməsidir ki, bu prinsipə, yaxud birgəyaşayış texnologiyasına həmişə əməl olunmuşdur" (14, s.10)

Ancaq bu gün Qərbin təzyiqi altında əski Türk, ya da Orta əsrlər İslam-Türk sivilizasiyaları kiçildilir, onun əvəzində isə Avropa mədəniyyəti böyüdülür. Halbuki Avropanın coğrafi ərazisini müəyyənləşdirən hansısa dağlar, çaylar, dənizlər deyil xristianlğın yayılma arealıdır. Yəni xristianlıq genişləndikcə, Avropanın ərazisi də, eyni zamanda avropalı olmaq hissi də genişlənir və ya əksinə. Bu baxımdan rus filosofu Nikolay Yakovleviç Danilevskinin bir fikri ilə razılaşırıq ki, əslində «Avropa» bir qitə deyil, antik coğrafiyaçıların uydurduğu kimi, bir alt qitədir. Yəni çoğrafi məkandan çox düşüncənin məhsuludur və Asiyaya alternativ olaraq uydurulmuşdur. N.Y.Danilevski yazır: "Əfqanıstan və Himalay dağlarının əvəzinə, qitə "Avropası"nın ənənəvi "Asiya" ilə iç-içə girdiyi ucsuz-bucaqsız düzənliklər var və görənlərdən başqa Ural dağlarını ayıra biləcək heç kim yoxdur. Bu bölgələrdə latın, katolik-protestant və maariflənmiş "Avropa" dövlətləri və mədəniyyətləri, "Avrasiya" deməyə vərdiş etdiyimiz yerlə, qeyri-müəyyən bir davamiyyət daxilində olduğundan, digərlərilə, ortodoks, müsəlman, rus və türk yurdları ilə həm qarışmış, həm qarışmamışdır. Bu baxımdan "Avropa"nı tam hissəli bir vahid kimi düşünmək sərhəd və mənsubiyyət problemlərinin yaranmasına şərait yaradar. Mədəniyyətləri tarixən xristianlığa aid olan və xristianlığı sonradan qəbul etdikləri üçün, serblər, moldovanlar, gürcülər və ermənilər "avropalı"dırlarmı? Tarixən müsəlman mədəniyyətinə aid olmayan və sonradan müsəlmanlığı qəbul etmiş albanlar, bosnyalılar, türklər və azərbaycanlılar «avropalı» deyillərmi?" (15, s.113-114).

Bu baxımdan hesab edirik ki, xristianlıq Asiyada-Şərqdə yaranıb indi Qərbə aid olduğu kimi, "Avropa"nın da aqibəti eyni olmuşdur. "Şərq" "Qərb"i yaratdığı kimi, "Asiya" da "Avropa"nı ortaya qoymuşdur. Ancaq bizi burada daha çox maraqlandıran "Qərb" və "Avropa"nı yaradan "Şərq" və "Asiya"nın durumudur. Çünki bu günə qədər modernləşmək adı altında "Qərb" və "Avropa"ya aludə olaraq ancaq onları öyrənməyə, onları təqlid etməyə çalışmışıq.

**İstifadə edilmiş ədəbiyyat**


1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Çoxqütblü dünyaya doğru" mövzusunda IV Qlobal Forumunun açılış mərasimindki nitqi // Dövlət və Din. İctimai fikir toplusu.№ 2 (43), mart-aprel 2016-cı il Hüseynov Rahim.
2. Xalqın və dövlətin inkişafında liderin rolu // "Təfəkkür". Elmi xəbərlər jurnalı, № 2(11), 2016-cı il.
3. Gustav le Bon. Kütlə psixologiyası (tərcümə Qardaşxan Əzizxanlı). Bakı, Zəkioğlu, 2006.
4. Тойнби А. Цивилизация перед судом истории. Москва: Прогресс, 1996.
5. Göyalp Ziya. Türkçülüyün əsasları (tərcümə Elman Mustafaoğlu). Bakı: Maarif, 1991.
6. Ağaoğlu Əhməd. Üçmədəniyyət. Bakı: Mütərcim, 2006.
7. Хантингтон С. Столкновение цивилизаций. Москва: АСТ, 2003.
8. Toynbee Arnold J. Uygarlıkyargılanıyor. İstanbul, Örgün, 2011.
9. Fukuyama Frankis. Tarihin sonu ve son insan. İstanbul, Profil, 2014.

10. Çağlar Gazi. Uygarlıklar Arası Savaş Miti. Dünyanın Geri Kalan Bölümüne Karşı Batı. İstanbul: Bilge Yayınları, 2003.
11. Mehdiyev Ramiz. Fəlsəfə. Dərs vəsaiti. Bakı: Şərq-Qərb, 2010.
12. Meriç Cemil. Kültür denirfana. İstanbul, İletişim, 2013.
13. Хюбнер К. Нация: от забвения к возрождению. Москва, Кантон, 2001.
14. Cəfərov Nizami. Türk dünyasının multikulturalizmi// "Təfəkkür". Elmi xəbərlər jurnalı, № 2(11), 2016.
15. Данилевский Н.Я. Россия и Европа, Библиотека «Вехи», М., 2003.

**Яшар Алиев**

**СРАВНИТЕЛЬНАЯ ФИЛОСОФСКАЯ КРИТИКА РАЗЛИЧНЫХ ПОДХОДОВ К МУЛЬТИКУЛЬТУРАЛИЗМУ**

**Резюме**

Руководствуясь наличием разных индивидуальных подходов к понятию мультикультурализма, автор статьи пытается прояснить суть этих подходов и на этом фоне показать пути развития национальной культуры, определить в целом ее место. Как явный пример этого, исследователь подчеркивает проводимые в стране мероприятия местного и международного значения, выражает авторскую позицию по обсуждаемым в них вопросам. В статье также анализируются существующие в Европе системы мышления, связанные с мультикультурализмом, и выражается собственное мнение по историческим, в том числе философско-политическим позициям, высказанным в дискурсах по данному вопросу.

**Ключевые слова:** культура, национальная культура, цивилизация, мультикультурализм, толерантность.

**Yashar Aliyev**

**COMPARATIVE PHILOSOPHICAL CRITICISM OF DIFFERENT APPROACHES TO MULTICULTURALISM**

**Summary**

Guided by the availability of different individual approaches to the concept of multiculturalism, the author of the article tries to clarify the essence of these approaches and on this background show the ways of development of the national culture, determine in general its place. As an obvious example of this, the researcher emphasizes the local and international events held in the country, expresses the author's position on the issues discussed in them. The article also analyzes the existing systems of thinking in Europe related to multiculturalism, and expresses its own opinion on historical, including philosophical and political positions, expressed in discourses on this issue.

**Key words:** culture,national culture,civilization, multiculturalism, tolerance.

**UOT - 101.1**

**Könül Şəkiyeva**
**AMEA Fəlsəfə İnstitutu, kiçik elmi işçi**

# VİRTUAL FOLKLORUN DÜNYAGÖRÜŞƏ TƏSİRİ: QLOBALLAŞMA KONTEKSTİNDƏ

Məlum olduğu kimi yaşadığımız dövr qloballaşma dövrü adlanır. Elmi ədəbiyyatlarda XX əsrin ikinci yarısından başlayaraq dünyada baş verən fundamental prosesləri izah etmək üçün "qloballaşma" terminindən istifadə edildiyi bildirilir. Qloballaşma ifadəsinin kökündə latınca "qlobus" - kürə (Yer kürəsi) sözü dayanır, fransızcada isə "qlobal" sözü "ümumi" mənasında işlədilir. Bu baxımdan "qlobalizm" və "qloballaşma" ifadələrini "kürəselləşmə", "dünyəviləşmə", "bütün yer kürəsinə, dünyaya məxsus olma" mənasında qəbul etmək olar. Bu ifadə termin kimi XX əsrin 80-90-cu illərində dünya iqtisadiyyatında transmilli korporasiyaların və dünya bazarının mövqeyinin güclənməsi ilə bağlı olaraq meydana çıxmışdır.

Qloballaşma deyəndə müasir sosial həyatı xarakterizə edən, sürətlə inkişaf edən və daim sıxlaşan qarşılıqlı əlaqə və qarşılıqlı asılılıq şəbəkəsi başa düşülür. Qloballaşma mövzusunda istər xarici ölkələrdə, istərsə də Azərbaycanda çox müxtəlif səpkili tədqiqat əsərləri çap olunmuşdur.

Qloballaşma – dünya insanlarının iqtisadi, siyasi, rabitə və ictimai bucaqlardan bir-birinə yaxınlaşması və bir bütün olma yolunda artmasıdır. Texnologiyanın inkişafı ilə dəyişən və inkişaf edən dünya səviyyəsində bir çox yeniliklər ortaya çıxmışdır. Xüsusilə 21-ci əsr İnternetin yaranması ilə dünya qlobal bir kənd halına gəldi. Yəni, sizə kilometrlərlə uzaq olan kəslərdən dəqiqəsi dəqiqəsinə xəbər ala bilər və heç getmədiyin dünya ölkələrinin insanları ilə asan bir şəkildə ünsiyyətə girə bilərsiniz.

Qloballaşma həmçinin, insanlığın ən fundamental problemi olan istehlakın qloballaşmasına gətirib çıxardı. İstismar və istehlak dövlət vasitəsi olaraq istismarçı ölkələrin tarix boyunca və hal-hazırda da davam edən müstəmləkəçilik siyasətinin inkişafıyla birlikdə beynəlxalq bazada davam etməkdədir.

Artıq cəmiyyətlər virtual dünya vasitəsilə yaxından tanıyıb bir-birlərinə bənzəməyə çalışırlar. İmitatorlar, dəyişən ictimai quruluşlar ortaya çıxır. Əlaqə şəbəkələrinin genişlənməsi, daxilolmanın asan olmasıyla birlikdə məlumat bazamız artsa da, bir tərəfdən də aldığımız məlumatları araşdırmadan almaq imkanımız səhv etmək imkanımızı bir o qədər artırır. Bəli, insan üçün faydalı olan, məlumatların alınması gərəkdir, ancaq bu məlumatları olduğu kimi, həyatımıza daxil etməyə çalışsaq, ya da təqlid edərək başqa insanlara güvənərək həyatımızı qurmağa çalışsaq, o zaman özümüz olmaqdan çıxar və artıq başqa insanlar olmağa başlayarıq. Onun üçün aldığımız məlumatları həyatımıza uyğunlaşdırmağa məcburuq. Qloballaşma ilə dünyanın bütün ölkələri bir yerdə yaşayır. Hal-hazırda, bir ölkədə baş verən iqtisadi böhran başqa ölkələrə də təsir edir. İndi bir ölkədə qıtlıq yalnız bu ölkəyə təsir edəndə, bütün düyaya yoluxa bilər. Ən kiçik siyasi böhran bütün ölkələrə təsir edir. Bu problemlər çoxaldıqca, insanların sonu harada olacaq? sualı ortaya çıxır ...

Qloballaşmanın müsbət tərəfləri ilə bərabər mənfi tərəfləri də var. Qloballaşma dövrünün elçiləri, simvolları (hesab edilən) sürətlə inkişaf edən internet və texnologiya çox təəssüf ki, gələnəklərimizi, mənəvi dəyərlərimizi və tarixi yaddaşımızı sıxışdırıb sıradan çıxardır.

Müasir dildə desək, «qloballaşma» termini 80-ci illərin ortalarında meydana gəlmişdir. Bu termin yaranmağı ilə intellektual elitaya güclü təsir göstərmişdir. Həmin terminin yaranması T.Levitin adı ilə bağlıdır. O, 1983-cü ildə «Harvard biznes revyu» jurnalında çap etdirdiyi məqaləsini böyük və çox millətli korporasiyaların istehsal etdiyi ayrı-ayrı məhsulların bazarlarının bir-birilə qovuşması nəticəsində yaranmış fenomenə həsr etmişdi. Terminin yayılması isə amerikan sosioloqu R.Robertsonun adı ilə bağlıdır. O, 1985-ci ildə **qloballaşma** anlayışının şərhini vermiş, 1992-ci ildə ayrıca bir kitabda öz konsepsiyasının əsaslarını qeyd etmişdir. Yapon alimi K.Omaye 1990-cı ildə çap etdirdiyi «Sərhədsiz dünya» əsərində qloballaşma anlayışının hərtərəfli izahını

verməyə çalışmışdır. M.Uters qloballaşmanı sosial proses kimi müəyyənləşdirmişdir. Həmin sosial prosesin gedişində sosial və mədəni sistemlərin coğrafi sərhədləri silinir və əhali getdikcə daha çox bu fərqlərin aradan götürüldüyünü dərk edir. Eyni zamanda **qloballaşma** dedikdə planetin bütün ölkələrinə qərb inkişaf modelinin yayılması başa düşülür ki, bu da faktiki olaraq bir qütblü (universal və ideal) dünya qaydasının nəzəri cəhətdən əsaslandırılmasına xidmət edir.

İnternet kültürlər arası ünsiyyət məkanı olduğu üçün bu fenomenin yaradıcısı və həm də istifadəçisi kimi onun mərkəzində olan insan haqda elmlərin bütün kompleksinin diqqətini tələb edir. Sözsüz, antroposentrizm İnternet kommunikasiyanın spesifikasının öyrənilməsində ən vacib istiqamətlərdən biridir. İnternet – bir-biri ilə qarşılıqlı əlaqədə olan kompüterlər və kompüter şəbəkələrindən çox, bu mühitdə qarşılıqlı əlaqədə və fəal hərəkətdə olan, öz fəaliyyətlərinin məhsulları ilə - xəbərlər, web-səhifələr, kataloqlar və məlumat arxivləri, naviqasiya marşrutları, kompüter virusları ilə birlikdə olan insanlardır.

İnternetin rəsmi yaranma tarixi 1969-cu il hesab edilir, bu hesabla Şəbəkə təxminən 48 il əvvəl “doğulub”. O zamandan onun populyarlığı durmadan artır, elektron göndərişlərin ötürülməsi vasitəsi olan İnternet bu gün insanlar və ideyalarla dolu görüş yerinə, kiberməkana, məsafə anlayışı olmayan kommunikasiya, informasiya və əyləncə dünyasına çevrilmişdir. Belə qısa zamanda İnternet o qədər sürətlə inkişaf etmiş, sivilizasiya prosesinin gedişinə təsiri o qədər güclü olmuşdur ki, bu fenomeni sadə sözlərlə deyil, metaforalarla təsvir etməyə başlamışlar. İnterneti ümumdünya və ya qlobal Tor, “şəbəkə şəbəkəsi” və bəşəriyyətin dünyəvi supermagisrtalı adlandırmağa başladılar.

2005-ci ildə ABŞ-ın Massaçusets Texnoloji İnstitutunun son iki onillikdə bəşəriyyətin ən mühüm kəşflərindən ibarət tərtib etdikləri 25 top-siyahıda İnternet birinci, onun əlavəsi olan elektron poçt isə beşinci yeri tutmuşdu.

İstifadəçilərin ümumdünya şəbəkə strukturuna, “şəbəkə-şəbəkəsi” – İnternetə qoşulmasının inkişaf sürəti və ölçüsü təkcə informasiya cəmiyyətinin nəzəriyyəçi alimlərinin təxəyyülünü təəccübləndirmir. Belə ki, 2010-cu ilin dekabr ayınadək Google informasiya axtarış sistemi olan Google “İnternet” sözünü təxminən 1.840. 000.000 web səhifə içərisində “axtarmışdı”, Şəbəkənin orta statistik auditoriyası 1.966.514.816 nəfər, Yer kürəsi əhalisinin təxminən 28,7 faizini təşkil etmişdir. Yer əhalisinin təxminən dörddə biri ən azı bu sözü tanıyırdı. İnternet hər il təxminən 18 faiz çoxalır. 2040-cı ilədək İnternet istifadəçilərinin 3 milyarda çatacağı gözlənilir.

Əgər İnternetin başlanğıcını 1969-cu ildə iki kompüterin şəbəkə kimi birləşdiyi vaxtdan hesablasaq rəqəmlər heyrətləndiricidir. Belə ki, ilk dəfə Filadelfiyada ümumdünya sərgisində nümayiş etdirilən telefon istifadəçilərinin sayının 50 milyon olması üçün 55 il lazım olmuşdu. Televiziyaya bu səviyyəyə çatmaq üçün 13 il lazım olmuşdusa, İnternet bu göstəriciyə 3 ilə nail olmuşdu.

“İnsan-kompyuter” qarşılıqlı münasibətlərinin prinsiplərindəki belə əsaslı, kardinal dəyişiklik, kommunikasiya fəaliyyətinin və formatının bəzi növlərinə gündəlik ünsiyyət vaxtı hamı üçün əlçatan olan sosial şəbəkə sahəsində sürətlə yayılaraq diskursun – siyasi və dindən maarifləndirməyə, elmi və məişətə aid olanadək bütün növlərinə toxundu.

İnternet termininin yaranması tarixinə nəzər salsaq görərik ki, Amerika hərbi şəbəkəsi ARPANET-in zaman keçdikcə nəyə çevrildiyini başa düşmək üçün əsrin dörddə birindən çox zaman lazım gəlmişdi. Ona görə də “İnternet” termininin ilk dəqiq tərifinin müəyyən edilməsi Şəbəkənin mövcudluğunun 26-cı ilində, 1995-ci ilin oktyabr ayında ABŞ Federal Şəbəkə Şurasının bir sıra şəbəkə ekspertləri və İKT mütəxəssisləri ilə məsləhətləşmələrdən sonra baş verdi. Bu tərifdə deyilir: “İnternet – onunla İP-protokol ilə və ya onun perspektivli genişlənmiş formasına əsaslanan unitar ünvanlı məkanla məntiqi bağlı olan, qlobal informasiya sisteminin bir hissəsidir; Transmission Control Protokol/İnternet Protokol (TCP/İP) və ya onun genişləndirilmiş şəklindən və ya İP uyğun protokoldan istifadə etməklə kommunukasiyanı təmin edə bilir; kommunikasiyaya əsaslanan və onunla infrastrukturda, burada, müəyyən edilənlə, bağlı olan yüksək səviyyəli servis təqdim edir, istifadə edir və ya onu (hamı üçün və ya konfidensial olaraq) açıq edir” (1).

2001-ci ildə ABŞ internet qanunvericiliyində İnternetə belə bir tərif verilmişdir: “İnternet”, avadanlıqlar və idarəedici proqram təminatı daxil olmaqla, qeyri-məhdud sayda kompyuterin və

müxtəlif telekommunikasiya hissələrinin bir-birinə birləşərək ümumdünya şəbəkəsinin yaradılmasının cəmini ifadə edir. Bu da öz növbəsində kabel və ya radio vasitəsilə informasiyanı istənilən şəkildə ötürmək üçün TCP/İP protokollarından (və ya onların hansısa əvvəlki və ya sonrakı versiyalarından) istifadə edir" (2) .

Gətirdiyimiz nümunələrdən görünür ki, burda ilk növbədə Şəbəkənin texnoloji tərkib hissəsindən danışılır. Ancaq daha "humanitar" təriflər də mövcuddur. Sosial-fəlsəfi baxımdan İnternet, informasiya mübadiləsinin şəbəkə prinsiplərinə, kommunikasiyada qarşılıqlı fəaliyyətin interaktivliyinə, obyektiv reallığın modelləşdirilməsinin yeni üsullarına, informasiya axınının ötürülməsinin yeni texnologiyalarına və prinsipcə yeni texnologiya – fərdi kompüterlərə əsaslanan xüsusi fenomen hesab edilir.

İnternetin inkişafı prosesində dörd tarixi mərhələni qeyd etmək olar:

1. 1960-cı ilin ortalarından 1973-cü ilə qədər – bu dövr ABŞ ərazisində İnternetin yarandığı dövrdür (hərbi məqsədlərdə istifadə həmçinin elmi-texniki informasiya mübadiləsi üçün).
2. 1973-1983-cü illər – şəbəkənin dinc məqsədlərlə istifadə üçün yönləndirilməsi.
3. 1983-1986-cı illər fərqli şəbəkələrin vahid qlobal şəbəkədə birləşdirilməsi dövrü.
4. 1986-cı ildən sonrakı dövr – çoxfunksiyalı inkişaf dövrü.

Aparıcı hədəf funksiyası baxımdan (funksional yanaşma) bu dövrləri qeyd etmək olar:

1. 1960-cı ilin ortalarından 1973-cü ilə qədər – bu dövr ABŞ ərazisində İnternetin yarandığı dövrdür (hərbi məqsədlərdə istifadə həmçinin elmi-texniki informasiya mübadiləsi üçün) .
2. 1973-1986-cı illər – şəbəkənin dinc məqsədlərlə istifadə üçün yönləndirilməsi.
3. 1986-cı ildən bu günədək- çoxhədəfli (çoxfunksional) inkişaf dövrü .

Dövrləşdirmə qismində İnternetin strukturca təşkilinin istifadəçilərin subyektiv tərkibini də əks etdirən meyar olaraq istifadəsi aşağıdakı dövrləri fərqləndirməyə imkan verir:

1. 1960-cı illin ortalarından 1973-cü ilə qədər ABŞ ərazisində İnteretin yaranması.
2. 1973-1989 – dağınıq şəbəkələrin vahid qlobal şəbəkədə birləşdirilməsi dövrü .
3. 1989-cu ildən sonra-İnternetin hamı üçün əlçatan telekommunikasiya şəbəkəsinə çevrilməsi (3).

Tədqiqatçı S.V.Petrovski bu dövrləşməyə əlavə bir dövr də - qlobal şəbəkəyə təkcə ABŞ-ın və digər ölkələrin elmi mərkəzlərinin və dövlət idarələrinin, həm də digər təşkilatların qoşulmasına imkan açan İnternetin kommersiyalaşmasını daxil edir. Bu dövrün başlanğıcını S.V.Petrovski 1989-cu ildən hesab edir. Məhz, 1989-cu ildən kommersiya təşkilatlarının İnternetə qoşulmasına icazə verildikdən sonra, XX əsrin 90-cı illərindən başlayaraq İnternet bütün dünyada kompüter informasiyasının mübadilə edilməsi üçün ümumi əlçatan şəbəkə kimi geniş yayılmağa başladı (4).

Bu gün sosial həyatın bütün sahələrinə sirayət edən yeni texnologiyalar mənəviyyat məsələlərinə də təsirsiz ötüşməyib. Qloballaşan dünyada mənəviyyatın belə virtuallaşması artıq heç kimdə təəccüb doğurmur. Bununla belə bir qədər dəqiqləşdirsək görərik ki, məhz, mənəviyyat və hisslər mövzusunda yeni texnologiyalar mahiyyəti deyil, formanı dəyişir. Məqalədə mənəviyyat məsələlərində yeni texnologiyaların rolunu təhlil etməyə çalışacağıq.

Açıq ensiklopediya sayılan Vikipediyada virtualın – fakta əsaslanan, həqiqi, gerçək, mümkün olan, imkan daxilində, müəyyən şəraitdə meydana çıxa bilən xəyali, əsli olmayan tərifi var.

Süni üsullarla və interaktiv multimedia vasitələri ilə yaradılan elektron gerçəklik, gerçəkliyin kompyuter modelidir. Virtual reallıq (ing."virtual reality") tamaşaçını ekran arxasındakı xəyali dünyaya aparmaq məqsədilə vizual və səs effektlərini təmin edən kompüter sistemləridir.

İstifadəçi kompyuterin işıqlandırdığı və reallıq təəssüratı yaradan təsvir və səslərlə əhatə olunur. İstifadəçi süni aləmlə qarşılıqlı təsirini müxtəlif seanslar vasitəsilə: onun hərəkətlərini, hiss və audivizual effektlərini əlaqələndirən dəbilqə və əlcəklər vasitəsilə həyata keçirir. Virtual reallıqda gələcək tədqiqatlar müşahidəçinin reallığı hiss etməsinə istiqamətləndirilmişdir. Abstrakt götürüldükdə o, istifadəçinin təxəyyülündə yaranan xəyali dünyadır.

"Virtuallıq" (lat. virtualis -mümkündür ) sözü latın dilində "vir" (kişi) sözündən götürür . Romalılar "vir" sözündən başqa bir söz-"virtus" kişilərə xas olan bütün üstün keyfiyyətləri (fiziki güc, şücaətlilik, igid davranış, əxlaqi-mənəvi ləyaqət) göstərmək üçün istifadə edirdilər.

Qədim Roma mifologiyasında Virtus adlı ilahə var idi. Sonralar bu söz latın dilindən fransız dilinə, XIII əsrdə isə fransız dilindən ingilis dilinə keçmişdir. Hesablayıcı texnikanın yaranması ilə "virtual" sözü "reallıqda olmayan, proqram təminatının köməyi ilə görünən" əlavə məna qazandı. "Virtual" anlayışı erkən Bizans fəlsəfəsində IV əsrdə işlənməyə başlamışdı. Fəlsəfədə "virtuallıq" anlayışı XIII əsrdə Foma Akvinski tərəfindən işlədilmişdir.

İnformasiya texnologiyalarının təsiri altında "virtuallıq" anlayışı virtual reallıqla bağlı yeni əhəmiyyət qazandı. Belə halda "virtuallıq" subyektin real və qurulmuş dünya arasında olan fərqi itirdiyi hal kimi başa düşülür. Bu mənada "virtuallıq" şüurun və subyektin hiss edilməsinin xarakteristikası olur. Virtuallığın belə başa düşülməsi, həmçinin, psixologiyada, estetikada və bütövlükdə kültürdə istifadə edilir.

Elmi ədəbiyyatda İnternetin bir neçə tərifi içərisində İnternetin kompüter və ya informasiya şəbəkəsi kimi vahid informasiya, virtual məkan, qlobal sosial kommunikasiyaların baş verdiyi kiberməkan kimi müəyyən edilən tərifi üstünlük təşkil edir. Bununla bağlı "virtuallıq", "virtual mühit", "kiber məkan" kimi kateqoriyaları araşdırmaq və onları qlobal telekommunikasiya şəbəkəsi olan İnternetdə baş verən informasiya prosesləri ilə müqayisə etmək lazımdır.

Virtuallıq anlayışı son vaxtlar istər ayrılıqda, istərsə də müxtəlif birləşmələrdə (virtual toy, ofis və s. ) geniş işlədilir. Hadisənin mürəkkəbliyi virtuallıq və virtual reallıq problemini ən ümumi şəkildə üç qrupa bölündüyü müxtəlif yanaşmalara səbəb oldu. Birinci qrupa "virtuallıq" anlayışının hərfi mənada latın dilində olan "virtus" – güc, qabiliyyət, qüdrətli sözünə yaxın olan illüziyallığın ya potensial imkanlarının sinonimi, ya da inkarı mənasında başa düşülməsini aid etmək olar.

İkinci qrupa vituallığı daha çox "elektron", "kompyuterli" anlayışlarının sinonimi hesab edilən baxışlar aiddir. Bu mənada virtual kitabxana, muzey, səyahət, nümayəndəlik və informasiyanı elektrik rabitə kanalları ilə (İnternet şəbəkəsi, lokal şəbəkə və s. ) elektron şəkildə təqdim edən təşkilatların digər analoqları barədə danışırlar.

Üçüncü qrupa virtuallığa məkanın və burada subyektin davranışının proqram texniki vasitələrlə imitasiyasının, insanda kompüter vasitəsilə modernləşdirilən məkanda olmaq illüziyasının yaradılmasının məcmuu olan yanaşma aid edilir. Başqa sözlə, virtuallıq deyəndə istifadəçiyə real zamanda onun davranışının təqdim edilən üçölçülü, kompyuterlə generasiya edilən, imitasiya əhatəsi başa düşülür. Tədqiqatçı S.V.Petrovskinin fikrincə, virtuallığın belə şərhi kütləvi kültürdə və ilk növbədə isə gənclərin arasında geniş yayılmışdır. Məlumatlara görə kompüterli virtual gerçəklik süni, audivizual vasitələrlə yaradılmış (digər qavrayış üzvlərinə təsir edən, yəni öz təsirinin sahəsini genişləndirən) subyekt tərəfindən onun təsiri həqiqi və ya həqiqiliyə yaxın kimi verilən və ya qəbul edilən fikir mühitidir (5).

"Virtuallıq" termini anlayışı haqqında məlumatları araşdıran S.V.Petrovski belə bir nəticəyə gəlmişdir ki, "virtual məkan ","virtual mühit" terminlərinin işlədilməsi o qədər də doğru deyil. Onun belə bir nəticəyə gəlməsinin səbəbi odur ki, İnternetdə mübadilə əsasən tekst və qrafik informasiya daşıyan sənədlərlə baş verir, virtual reallıq texnologiyası isə kompyuterlə modelləşdirilmiş məkanda subyektlərin hərəkətləri haqda video informasiya mübadiləsini nəzərdə tutur. Buna görə də texniki baxımdan bu gün İnternetdə virtual reallığın kütləvi yayılması və vahid virtual məkanın yaradılması mümkün deyil.

Bizə görə, belə mövqe, virtuallıq anlayışına yalnız üçüncü baxış kontekstində düzgün hesab edilə bilər, ancaq, yuxarıda qeyd etdiyimiz kimi, digər yanaşmalar da mövcuddur. Bu yanaşmanın kütləvi kültürdə, xüsusilə də gənclərin kültüründə yayılması nəticəsi subyektiv xarakter daşıyır, həm də virtuallığın belə başa düşülməsinin digərlərinə münasibətdə üstün olması anlamına gəlmir.

Adətən, virtual reallığı adi həyatın, adi təsəvvürlərin və bu həyatın hadisələrinin, dərdlərin kompüter imitasiyası hesab edirlər. Aydındır ki, bu virtual reallığın növlərindən biridir. Virtual reallığın istifadə edildiyi əsas sahələri epistemoloji (həmçinin semiotik) baxımdan bəzi tədqiqatçıların fikrincə, dörd əsas qrupa bölmək olar: imitasiya, şərti, proyektiv və sərhəd.

İmitasiyalı virtual reallıq yaradılmasında söhbət davranışın (həyat fəaliyyətinin) xaricdən, psixoloji cəhətdən insan üçün uyğun real hərəkət və ya situasiyadan fərqlənməyən müxtəlif

hərəkət və formasının tam imitasiyasının proqram və texnologiyasının həqiqətən hazırlanmasından gedir. Ancaq bir çox məsələləri effektli həll etmək üçün real həyatın və insanın burada hisslərini, duyğularını ciddi şəkildə modelləşdirmək vacib deyil. Bu mülahizələr, həmçinin adi reallığın imitasiyası zamanı yaranan texniki çətinliklər tədqiqatçılara başqa yol - adi dünyaya münasibətdə sxem kimi çıxış edən virtual dünyalar yaratmaq yolunun ipucunu verdi. Belə virtul reallıqları şərti adlandırmaq olar. Virtual reallıqların proyektiv sinfinə bəzi ideyalardan çıxış edərək layihələndirilən, yaradılan bütün reallıqlar aiddir. Bu, sadə fantaziya və ya əksinə müəyyən biliklərə və nəzəriyyələrə əsaslanan ideyalar ola bilər. Əsas o deyil ki, virtual reallıq hissi dünyanı və insanın burada yaşantılarını xatırlatsın, əsas odur ki, uyğun ideyalar həyata keçirilsin, insan onların nə qədər qəribə olmalarından asılı olmayaraq bu ideyalara cavab verən dünyada olsun. Sərhəd virtual gerçəkliyi özündə adi reallıqla virtual reallığın birləşməsini, qarışığını təmsil edir. Onların yaradılması fərdin "şüurunu genişləndirməyə" imkan verir, onun aktual olaraq burada və indi malik olmadığı "görmələrlə" və biliklərlə silahlandırır.

Virtual reallığın növlərindən biri kimi İnternet saydığımız xassələrin əksəriyyətinə malikdir. İnternetə virtual hadisələrin süjetli proqramlaşdırılması, əks rabitənin mümkünlüyü istifadəçinin təkcə tamaşaçı kimi yox aktyor kimi olmaq imkanının olması, istifadəçinin fəallığına cavab olaraq virtual mühitin dəyişməsi, virtual reallığın bütün əsas növlərinin olması yaşanan hadisələrin spesifik şərtliyi xarakterikdir .

Virtuallıq – real mövcud olmayan, amma müəyyən şərtlər daxilində yarana bilən obyekt və hadisədir.

İnformasiya və kommunikasiya texnologiyaları sahəsində dəyişikliklər sosial-mədəni həyatı fərqləndirir və elmi sahələrləri ilə əlaqələndirir və ya onları dəyişdirməyə məcbur edir. Son dövrdə İnternet bu dəyişikliyin təməl dinamikasında ön plandadır. Mədəniyyət-texnologiya əlaqəsinin qarşılıqlı təsiri Azərbaycandakı mədəniyyət, xüsusilə də folklor elmi sahəsindəki tədqiqatçıların hələ geniş tədqiq edilməyən bir mövzusu olsa da, yaxın dövrdə olduqca aktualdır. Son 15 il içində Azərbaycanda İnternet istifadəsi sürətlə yayılmaqdadır. Xüsusilə son bir neçə ildə telekommunikasiya sahəsində investisiyalarla internet abonentləri sayında böyük artım təmin edilmişdir. Yaxınlara qədər universitet, nazirlik, şirkət kimi bəzi təşkilatların nəzdində yaradılan İnternet, qısa müddətdə cəmiyyətin bütün seqmentləri tərəfindən istifadə edilən bir sistemdir. Bu tədqiqatda folklor və texnologiya, xüsusilə də İnternet əlaqəsi araşdırılır. Son dövrün dominant dəyişiklik dinamikasından biri İnternetdir. Hər şey mədəniyyət olaraq təyin olunan bu dövrdə İnternet müxtəlif mədəni məhsulların meydana çıxdığı virtual bir dünyadır. Müasir dövrdə insan bayatı, ağı söyləyib yanmaq yerinə, virtual dünyada şeirlər yazaraq və paylaşaraq dərdinə çarə, sevincinə ortaq axtarmaqdadır. Bir baxımdan aşıq ədəbiyyatı, virtual dünyada xüsusi yaradıcılıqla davam etməkdədir. Bəlkə, sazıyla diyar-diyar dolaşan aşıqların sayı azalmışdır, ancaq İnternetdə şifahi ənənədən də bəhrələnərək deyişmələr yaradan "virtual aşıqlar, şairlər" ortaya çıxmışdır.

Beləliklə, İnternetin meydana gəlməsi, rəqəmsal texnologiyaların, elektron resursların sürətlə yayılması hesabına yeni bir mühit – bütün parametrləri ilə şifahi mədəni mühitə alternativ olan elektron mədəni mühiti ortaya çıxmışdır ki, bu da birbaşa olaraq kommunikasiyanın imkanları və şərtləri ilə sıx əlaqədar olan xalq biliyinin – folklorun yaranması, yayılması və ötürülməsində fundamental dəyişikliklərə gətirmişdir.

Elektron mədəni mühiti zəminində aşıq yaradıcılığında baş verən dəyişikliklərə texnologiya və mədəniyyət qarşıdurması zəminində diqqət yetirən türk alimi Özkul Çobanoğlu bu barədə yazır: "Bu vəziyyəti ənənənin "korlanması" və ya "degenerasiyası "kimi müəyyənləşdirmək əvəzinə, elektron mədəni mühitin strukturundan qaynaqlanan dəyişikliklər olaraq anlamağımız daha doğru olacaqdır. Aşıqların elektron mədəni mühiti zəminində yetişmələrində fərqliliyə nümunə olaraq şifahi mədəni mühitin ustad- şagird münasibəti daxilində lokal regional (aşıq) havaları ilə məhdudluğun, elektron mədəni mühit zəminində yazıya alınmış (müxtəlif elektron vasitələr – audio, viedo kasetlər və s. nəzədə tutulur) ifalar vasitəsilə genişlənməsində özünü göstərməkdədir (6).

Məlum olduğu kimi, alim qeyd edir ki, elektron mədəni mühitin sürətlə inkişafı şifahi mədəni mühitə xələl gətirmir. Şifahi mədəni mühit elektron mədəni mühitin təsirində ərimir,

əksinə sürərtlə inkişaf edir, məkan və zaman tanımadan yayılır , gələcək nəsillərə ötürülür.

M.D.Alekseyevski "İnternet folklorda və yaxud folklor İnternetdə?"(müasir folklorşünaslıq və virtual reallıq) adlı məqaləsində folklor və İnternet münasibətləri barədə mövcud baxışları təhlil edərkən qədimlik və arxaikliyi özündə ifadə edən anlayış kimi, folklorun müasirlik, innovasiya və şəhər həyatı ilə bağlı olan İnternetlə əlaqəsinin zahirən paradoksal göründüyünü qeyd edir (7).

Müəllifin fikrinə görə, şəhər folkloru İnternetlə daha yaxın təmasdadır və İnternet folklorunu yaradanlar, dolayısı ilə İnternetdən istifadə edənlərin əksəriyyəti şəhər əhalisidir. Azərbaycanlı folklorşünas alim Hikmət Quliyev isə haqlı olaraq qeyd edir ki, İnternetdən istifadə edənlərin sayı nə qədər artsa virtual folklor da bir qədər geniş yayılacaq. Yəni, verbal yaddaş sürətlə virtual aləmə, rəqəmsal dünyaya transmissiya olunmaqdadır. Müəllif qeyd edir ki, müasir dövrdə folklorun aktuallaşma məkanı real aləmdən virtual aləmə keçməkdədir. Çünki ünsiyyətin və kommunikasiyanın əsas məkanı kimi İnternetin rolu və yeri günü -gündən daha da artmaqdadır (8) .

Bizim fikrimizcə, folklorun unudulması mənəvi, milli dəyərlərin unudulmasıdır. Buna görə də qloballaşma dövründə, İnternetin tüğyan etdiyi dövrdə folklora yeni qol-qanad verib yaşatmalı və gələcək nəsillərə ötürməliyik. Bizim fikrimizi, Riçard Dorson da təsdiqləyir. O qeyd edir ki, "XX əsrin dərinliklərinə endikcə şəhər, texnologiya, kütləvi istehsal və istehlak olunan mədəniyyətlə kənd və şəhər mədəniyyəti arasında mübarizə və döyüş davam edir. Ən kədərli olan isə budur ki, ənənənin çiçəkləri sənaye sivilizasiyasının buxar çarxı tərəfindən məhv edilməkdədir. Çox az müddətdən sonra nə folklora, nə də bundan ötrü hər hansı bir folklorşünasa ehtiyac olmayacaqdır" ( 9).

Hikmət Quliyev bu fikrə diqqət yetirərək şərh edir ki, "əsas məqam ondan ibarətdir ki, Dorsonun yanaşmasına görə, bütövlükdə folklor və texnologiya, başqa şəkildə desək, şifahi mədəniyyət və sənayələşmə bir-birinə zidd mövqedədirlər. Bu mövqenin digər bir paradiqmasını müvafiq olaraq kənd və şəhər, kütləvi mədəniyyətlə xalq mədəniyyəti təşkil edir. Burada ilkin olaraq nəzərə alınmayan cəhət folklor yaradıcılığı baxımından kənd və şəhərin qarşı-qarşıya qoyulmasıdır. Doğrudur, ilk baxışda kənd daha çox təbiətin, təbiiliyin, adət- ənənənin məkanı kimi təsəvvür olunur və bu baxımdan hesab etmək olar ki,kənd həm də şifahi sənətin, xalq yaradıcılığının da beşiyidir". Tədqiqatçı vurğulayır ki, "bu fikir nə qədər doğru görünsə də, həqiqətdən uzaqdır. Bütün hallarda nəzərə alınmalıdır ki, həm kənd, həm də şəhər mühiti orada yaşayan insanlarla müəyyənləşir. İnsan faktoru olan yerdə isə folklor mütləq olmalıdır. Təbii ki, şəhər folklorunun mövzu və məzmunu, forma və üslubu, janr spesifikası və obrazlar aləmi, simvol və metaforaları kənddəkindən fərqli ola bilər. Amma folklor yaradıcılığının davamlılığı və kəsilməzliyi məkan( kənd və ya şəhər), zaman (qədim və müasir), cəmiyyətin və fərdin inkişaf səviyyəsi (savadlı və ya savadsız) və s. faktorlardan asılı deyildir".

Bizim fikrimizcə, folklor kənddə və yaxud şəhərdə inkişaf edir fikri absurddur. Çünki yuxarıda alim Hikmət Quliyevin də qeyd etdiyi kimi harada insan varsa orada folklor da var. İnsanlar mövcud olduğu müddətdə folklor yaşayacaq, yayılacaq, yeni növləri yaranacaq və gələcək nəsilə ötürüləcək.

Tədqiqatçı xüsusilə vurğulayır ki, "eyni zamanda texnoloji yeniliklər, kəşf və nailiyyətlər heç bir halda insanın təbii mövcudluq imkanları ilə şərtlənən (yəni insan varsa, ünsiyyət və kommunikasiya varsa, hökmən folklor da vardır) folklorla əks mövqedə deyildir. Hətta, XX əsrin sonlarında dünyadakı İKT-nin inkişafı, xüsusilə kommunikasiya imkanlarının əlahiddə şəkildə irəliləməsi, virtual dünyanın sərhədlərinin hər keçən an genişlənməsi belə, nəinki folklor yaradıcılığına neqativ təsir etmədi, əksinə tədqiqatçıların da vurğuladı kimi, onun daha sürətli və sürəkli yayılmasına, genişlənməsinə və canlanmasına təkan verdi" .

Müəllifin də qeyd etdiyi kimi "Bu gün İnternet vasitəsilə virtual dünyanın sakinlərinə çevrilən insanlar ünsiyyət və münasibət ehtiyaclarını, emosional-psixoloji istəklərini, özünüifadə və özünüreallaşdırma tələbatlarını virtual kommunikasiya mühitində reallaşdırırlar ki, bu da müvafiq olaraq virtual folklor nümunələrinin meydana gəlməsini təmin edir" .

Hikmət Quliyevin tədqiqatında diqqətimizi çəkən əsas amillərdən biri də folkloru şəhər və kənd folkloru olmaqla iki yerə bölməsidir. Müəllif qeyd edir ki, "Şəhər folkloru kənd folklo-

rundan fərqlənir və virtual folklora daha yaxındır. Bu baxımdan şəhər mühiti ilə virtual mühit, müvafiq olaraq şəhər folkloru ilə İnternet folkloru arasında kifayət qədər ortaqlıq mövcuddur”. Bizim fikrimizcə isə, folklor şəhər, kənd və virtual folklor olmaqla üç yerə bölünür. Virtual folklor digərlərindən sonra yaranmasına baxmayaraq, çox geniş yayılıb. Virtual folklor özündə həm şəhər, həm də kənd folklorunu birləşdirir. Virtual folkloru digərlərindən fərqləndirən əsas xüsusiyyətlərdən biri də onun həm şifahi, həm də yazılı olmasıdır. Məsələn: Facebook, İnstagram, Viber, Whatsapp, Youtube kimi sosial şəbəkələrdə folklora aid nümunələrin yazılı, səsli və video şəklində yayılması buna misal ola bilər.

Bu yeni folklorun mənbəyi hələ də şifahi ədəbiyyatdır. Başqa sözlə, folklor əyani, yazılı və ya şifahi folklor materialının tətbiqi zamanı istifadə olunur. Mənbə inanc növləri, həyat tərzi, ritual, oyun, folklor ədəbiyyatı və ya ağı növləri ola bilər. Məsələn, bir bulud cəmiyyətin və ya insanın mədəniyyətindən, dünyagörüşündən, münasibətindən və davranışından asılı olaraq, yalnız virtual mühitin imkan verdiyi dərəcədə siyasi və sosial məqsədi ilə bir mesaja çevrilə bilər. Beləliklə, yeni bir folklor məhsulu bazarda şifahi ədəbiyyatdan törəyir. Alan Dundes, bu transformatı "metafolklor" və ya başqa sözlə "folklor folkloru" baxımından izah edir. Dundesin sözlərinə görə, əgər "meta" sözü dil haqqında linqvistik ifadələrə aiddirsə, "metafolklor" termini folklor haqqında folklor nümunələrinə də istinad etmək üçün istifadə olunmalıdır. Mifologiya, atalar sözləri, zarafatlar, populyar mahnılar, məşhur deyimlər və s. bir nümunə metafolklordur (10). Bu çərçivədə İnternet ortamında istehsal edilən bütün məhsullar folklor məhsuludur (metafolklorik). Azərbaycanda E-folklor İnternetin gündəlik həyatın bir parçası halına gəldiyi son illərdə cəmiyyətdə də özünə xas bir e-folklor mədəniyyəti meydana gətirmişdir.

**İstifadə edilmiş ədəbiyyat**


1. Голышко А. Интернет: на пути к рождению // Радио,2001, № 11, с. 70-72.
2. Internet Freedom and Broadband Deployment Act of 2001.
3. Лебедева Н.Н. Право. Личность. Интернет. М., Волтерс Клувер, 2004, 170 с.
4. Петровский С.В. Право и Интернет: точки напряжения // Наука и жизнь. 2001.№3.с.84-87.
5. Петровский С.В. Правовое регулирование оказания Интернет – услуг // Российская юстиция. 2001. № 5. с. 63-65.
6. Çobanoğlu, Özkul “Elektronik kültür ortamında aşık tarzı şiir geleneği bağlamında Çukurova Aşıkları üzerine tespitler” htpp: // turkoloji .cu. edu.tr / CUKUROVA/ sempozyum/ semp_ 3/cobanoglu.php
7. Алексеевский, М. Д. Интернет в фольклоре или фольклор в Интернете? (Современная фолкьлористика ивиртуальная реальность). От конгресса к конгрессу: Навстречу Второму Всероссийсккому конгрессу фолкьлористов. Сборник материалов-М.,2010, Государственный республиканский центр русского фольклора, 256 с., с. 151-166.
8. Sərxan Xavəri, Hikmət Quliyev, Səfa Qarayev. “Folklorun Funksional Strukturu : Multidissiplinar Kontekst” ,Bakı, “Elm və təhsil” , 2016 .
9. Dorson , Richard M. 1972. “Introduction: Consepts of Folklore and Folklife Studies.” In Folklore and Folklife : An Introduction, ed. Richard M. Dorson, 1-50. Chicago: University of Chicago Press .
10. Dundes, Alan The symbolic Equivalence of Allaomotifs in тthe Rbbit –Herd (AT 570) http: // home .iscte –iul . pt/ ~ fgvs/ Dundes _allomatific. pdf 91-98

**Кёнюль Шекиева**

**ВЛИЯНИЕ ВИРТУАЛЬНОГО ФОЛЬКЛОРА НА МИРОВОЗЗРЕНИЕ: В КОНТЕКСТЕ ГЛОБАЛИЗАЦИИ**

**Резюме**

В глобализирующемся мире влияние интернета на мировоззрение виртуального фольклора проявляется в период быстрого распространения интернета и нравственности морали. Во время глобализации интернета, фольклора и технологии в целом (другими словами) рассматриваются отношения между устной литературой и индустриализацией.

Особо следует отметить, что технологические открытия никоим образом не противоречат фольклору, который обусловлен естественным человеческим существованием. Отмечается, что развитие ИКТ в современном мире и беспрецедентное расширение возможностей общения способствовали продолжению творчества фольклора в расширении границ виртуального мира.

**Ключевые слова:** глобализация, интернет, виртуал, виртуальный фольклор, мировоззрение

**Konul Shekiyeva**

**THE IMPACT OF VIRTUAL FOLKLORE ON THE WORLDVIEW: IN THE CONTEXT OF GLOBALIZATION**

**Summary**

In the globalizing world, the influence of the internet on the world view of virtual folklore is manifested in the period of rapid internet spread and moral morality. During the globalization of the internet, folklore and technology in general, in other words, the relationship between oral literature and industrialization is considered.

Especially it should be noted that technological discoveries in no way contradict folklore, which is conditioned by natural human existence. It is noted that the development of ICT in the modern world and the unprecedented expansion of communication opportunities have contributed to the continuation of the creativity of folklore in expanding the boundaries of the virtual world.

**Key words:** globalizing, internet, virtual, virtual folklore, world view.

**UOT-159.9**

**Lamiyə Qurbanova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti,**
**ps.f.d., baş müəllim**

**DUALARIN TƏSİR GÜCÜNÜN PSİXOLOJİ TƏHLİLİ**

*"Bilməzmisən, tək Allahdır göylərin, yerin yiyəsi. Allahdan savayı nə bir dostunuz var, nə də bir yardımçınız" (Baqara surəsi, 107). "Mənə dua eyləyin, duanıza cavab verim..." (Ğafir surəsi, 60). "...Mən onlara yaxınam. Dua edib Məni çağıranın duasına cavab verərəm. Elə isə onlar da Mənim çağırışımı qəbul edib Mənə iman gətirsinlər. Bununla da ola bilsin ki, doğru yola yetişsinlər" (Bəqərə surəsi, 186).*

"Allahım, yardım et", "Allahım, sən özün qoru", "Allahım, yolumu açıq et", "Allahım, sən məni xoşbəxt elə", "Allahım, ruzumu bol elə", "Allahım, sevdiyimi qoru" və s. duaları dünyada hər gün, hər saat milyonlarla insan səsləndirir. Dua etmə mərasimi inancın mövcudluğunu isbatlayacaq proseslərdən biridir. Ərəb dilindən tərcümədən dua "çağırmaq", "səsləmək" mənalarını ifadə edir. Dini aspektdə dua müxtəlif diləklərin həyata keçməsi istəyilə Allahdan kömək istəmək anlamını daşıyır.

Duaların edilməsi zamanı təbii müşahidələrdən də bəlli olur ki, insanlarda özünəgüvən artır, səbrlilik güclənir, mənəvi rahatlıq yaranır, insanın şüurunda, düşüncələrində köklü dəyişiklik baş verir:

- Duaların dəfələrlə təkrarı insanı Allahın buyurduğu qanunlara tabe olmağa vadar edir, hansı dinə mənsubdursa insan həmin dinin müqəddəs kitabında qeyd olunan qaydalara əməl etməklə öz həyat yolunu istiqamətləndirir. Beyin bir sıra gərgin düşüncələrdən, planlaşdırmalardan azad olur.
- İnsanın şəxsi keyfiyyətlərində müsbətə doğru köklü dəyişiklik baş verir: Allahın adlarını (*Əsmayi-hüsna*) çağıran hər kəs bu adlardakı mənaları dərk edib, özündə bu mənalara xas keyfiyyətləri formalaşdırır (*"Allaha aiddir ən gözəl adlar. Allahı bu adlarla səsləyin..."(Əraf surəsi, 180)).*
- Dualar edilən zaman dəfələrlə arzular, diləklər səslənir. Bu təkrarlar şüuraltı təbəqəyə keçərək proqramlaşdırma rolu oynayır, insan hərəkətlərini tənzim edir, istiqamətləndirir. Duaları edən insan onların reallaşacağına özünü inandırır və bu proses sakitləşdirici təsir göstərir.
- Duaların həyata keçirilməsi prosesində insan özünü ali hisslərə kökləyir və bu proses mənəviyyatın zənginləşməsinə xidmət edir və s.

- *<u>Psixi gərginliklərin azalmasında dua etmənin rolu.</u>*

Məlumdur ki, insan hansısa istəyini həyata keçirə bilmədikdə müxtəlif səpkili psixoloji narahatlıqlar yaşayır, məsələn frustrasiya, depressiya və s. Zaman-zaman insan öz zəifliyini, gücsüzlüyünü görərək günahkarlıq hissi yaşayır, özünü tənbeh edir, özünü cəzalandırır. Lakin dini inancı olan insanlar dualar vasitəsilə özünü belə gərginliklərdən azad edə bilir, belə ki, heç nəyin ondan asılı olmadığına özünü inandıraraq arzuların reallaşmasını İlahi varlığın ixtiyarına buraxır *("Allahdan gəlir sənə hər yaxşılıq, öz ucbatından gəlir sənə hər pislik..." (Nisə surəsi, 79).* Bu prosesi psixikanın təbəqələrinin təsvir sxemi (şəkil 1) üzərində izah edək:




**Şəkil 1**

Şəkil 1-də psixikanın dualarsız halı təsvir olunub. Şəkildən görünür ki, psixika üç təbəqəyə ayrılmışdır: 1 – şüuraltı təbəqə; 2 – senzura; 3 – şüuri. Şüuraltı təbəqədəki "+" və "-" işarəli məlumatlar hərəkətdədir və senzura təbəqəsindən keçərək şüuri təbəqənin köməyilə reallaşmaq istəyir, reallaşma baş vermədikdə psixoloji yüklənmə baş verir və psixoloji neytrallıq pozulur.




**Şəkil 2**

Şəkil 2-də dua edilən zaman psixikanın halı təsvir olunub. Şəkildən görünür ki, dua edən insanın psixikasında senzura təbəqəsi yox olur (yəni istəklərin qarşısını alacaq, onları şüuraltına sıxışdıracaq təbəqə aradan çəkilir), insanın şüuraltı təbəqəsindəki (1-dəki) materiallar şüuri təbəqəni (3-ü) də keçərək reallaşması üçün ali varlığa istiqamətlənir. Beləliklə, şüuraltı təbəqədə transformasiya prosesi baş verir, beyin psixi gərginliklərdən azad olur.

- *Dua etmənin beyinə şəfaverici ("dua ayıqlığı" vəziyyəti) təsiri.*

Elmi mənbələrdən bəllidir ki, beyinin fəaliyyət halını müəyyən edən beta, alfa, teta və delta dalğaları mövcuddur. [1]"Alfa-ritm fiziki və mənəvi rahatlıq vəziyyətində və xarici qıcıqların təsiri olmadıqda müşahidə olunur. Bu, seyrək, uzun və iri amplitudlu dalğalardır (tezliyi 8-13 hers). Kor adamlarda alfa-ritm ya çox zəif olur, ya da heç olmur. Beta-ritm kiçik, qısa və sıx dalğalardır,

[1] Əliyev Ə.H., Əliyeva F.Ə., Mədətova V.M. İnsan və heyvan fiziologiyası (bakalavr hazırlığı üçün dərslik). B.: Bakı Universiteti, 2007, səh.221).

əsasən beyin qabığının alın nahiyəsində daha yaxşı müşahidə edilir (tezliyi saniyədə 20-30 hers). Teta-ritm dalğalar yuxu zamanı və bəzi patoloji hallarda (hipoksiya və dərin narkoz zamanı) müşahidə olunur (tezliyi saniyədə 4-8 hers)". Delta-ritm dalğalar dərin yuxu zamanı, beyin yarımkürələri qabığının müxtəlif patologiyalarında və hipoksiyası şəraitində yaranır (tezliyi saniyədə 0,5-3,5 hers).

Beta ritm adi gümrahlıq halını, teta ritm yuxuya dalmaq halını, delta ritm dərin yuxu və şüursuzluq vəziyyətini, alfa ritm isə yaradıcı potensialın, imkanların reallaşmasını təmin edən vəziyyəti müəyyən edir. Bu ritmlərin aktivliyi yaş dövrlərinə, insanların fərdi-psixoloji xüsusiyyətlərinə, həyat tərzinə və digər yaşanan faktorlara görə də dəyişir. Məsələn, yeni doğulmuş uşaqlarda yalnız delta-ritm müşahidə olunur, yəni onlar daha çox yatırlar. Yaş artıqca insanda alfa və beta ritmləri daha qabarıq şəkildə özünü biruzə verir və s. Son illər aparılmış tədqiqatlar nəticəsində (Ohayo universitetinin doktoru Donna Yunqanın, ABŞ-ın Şimali Karolina ştatının Darem şəhərində yerləşən Hersoq universitetində professor Mitçell Kruşoffun, Rusiyanın Pravoslav Alimlər ittifaqının üzvü Anqelina Malaxovskayanın, Sankt-Peterburqun B.M.Bexterev adına Psixonevrologiya elmi təhqiqat institutunun neyro-psixofiziologiya laboratoriyasının rəhbəri professor Valeriy Slezinin tədqiqatları) yeni, beyin fəaliyyətinin şəfaverici – "dua ayıqlığı" adlandırılan vəziyyəti ixtira olunub. Belə müəyyən olunub ki, dualar zamanı beyindəki neyronlar arasındakı patoloji rabitələr dağılır, insan yalnız gözəl şeylərə özünü kökləyir, onu narahat edən bütün pis fikirlərdən uzaq olur və bu proses onun istər psixoloji, istərsə də fizioloji sağlamlığına müsbət təsir göstərir.

- *Dua etmənin xarici görkəmə və immun sisteminə təsiri.*

Həkimlərin apardığı araşdırmaların statistik nəticələrinə görə, xərçəng xəstəliklərinin müəyyən mərhələlərində inanclı insanların ömrü inancsız insanların ömründən 5 il çoxdur, deməli dualar insanda qorxunu dəf edir, insan özünü Allaha təslim edir (özündən heç nə asılı olmadığını dərk edərək günahkarlıq hissindən özünü azad edir) və bu proses daxildə pozitiv hormonları aktivləşdirərək (qana *oksitosin* (həyəcanı azaldır və rahatlıq bəxş edir), *dopamin* (ürək döyüntülərini aktivləşdirir), *adrenalin* (maddələr mübadiləsini aktivləşdirir), *vazopressin* (böyrəyin funksiyasını stimullaşdırır) daxil olur) immun sistemini möhkəmləndirir. İmmunitetin artması isə bəzi xəstəliklərə tutulmanın qarşısını alır və hətta hər hansı xəstəlik varsa, sağalmaya doğru istiqamətlənir. İnsanın daxilində baş verən bütün bu proseslər onun simasına da öz müsbət təsirini göstərir, insan gözəlləşir. Ona görə də təbii müşahidələrdən də izləyə bilərik ki, inanclı insanların çöhrəsindən sanki nur yağır, belə insanların üzlərindəki pozitiv ifadə ətrafdakıları özünə cəlb edir, belə insanlar heç zaman təklikdən şikayət etmir.

- *Xoşbəxtliyin əldə olunmasında dua etmənin rolu.*

Dualar zamanı insan maddi asılılıqlardan, qayğılardan da azad olur, insan özünü əbədiyyətə kökləyir, yaşamaq uğrunda mübarizə tələb olunan bu dünyadan ədalətli dünyaya keçidə özünü hazırlayır (ölüm qorxusu yox olur). Bununla da ehtiyacların, tapşırıqların ödənilməsi üçün beynin bədənə verdiyi "hazır ol" əmri geri çağrılır və rahatlıq əmələ gəlir. İnsan nəfsindən azad olur, nəfsdən azad olmaq isə insanı bir çox istəklərdən uzaq tutur, istəkləri az olan insan isə onların ödənilməsi üçün daha az əziyyət çəkir, fiziki və psixoloji yüklənmələrdən, sosial konfliktlərdən və digər problemlərdən uzaq olur ("*And olsun yerə, yeri yayana, and olsun insana, insanı kamil yaradana, insana pis əməllə taqvanı tanıtdırana! Uğura uğramış artıq nəfsini pak etmiş olan. Ziyana uğramış artıq nəfsini saxlamayıb günaha batırmış olan" (Şəms surəsi, 7-10*)). Belə insan özünü çox rahat və məmnun hiss edir. İnsan bu dünyaya nə üçün gəldiyini, hansı missiyanı yerinə yetirdiyi dərk edir və üsyankarlıq etmir. Ona verilən həyatın sınaq olduğunu düşünərək bu sınaqdan uğurla çıxmağa çalışır, Allahın verdiyi hər nemətə şükürlü olur. Bu zaman isə insan öz həyatından məmnunluq hissi yaşayır. İnsanın bədbəxtliyinin kökü onun nəfsini idarə edə bilməməsində, maddi nemətlərə qarşı acgözlüyündə, hegomonluq iddiasında və bu kimi digər istəklərlə əlaqədədir. Əgər insan bu asılılıq buxovunu öz boynundan çıxara bilsə, mənən azad olar. Bu azadlıq isə, elə xoşbəxtliyin özüdür. Xoşbəxtliyin duyulmasında məhəbbət və sevgi hissinin yaşanması da əhəmiyyətli rol oynayır; xeyirxah insanların əhatəsində olmaq da xoşbəxtlikdir, kiməsə xeyirxahlıq

etmək və bundan məmnunluq duymaq da xoşbəxtlikdir. Məsələn, insanlar saf əməllər etməyə, təmizliyə, düzgünlüyə, xeyirxahlığa və nəfsin idarə edilməsinə çağrılır, əvəzində Allah tərəfindən xoşbəxtlik mükafatının bəxş ediləcəyi bildirilir *("O kəslər ki, iman gətiriblər, saleh işlər görüblər, keçərik onların təqsirlərindən və onların mükafatını gördükləri işlərin ən yaxşısına qarşılıq olaraq verərik..."(Ankəbut surəsi, 7), "Yaxşıların sırasına salarıq iman gətirənləri, əməli salehləri" (Ankəbut surəsi, 9), "Və o kəslər ki, iman gətiriblər, saleh işlər görüblər, içindən çaylar axan cənnət mənzillərində yer verərik onlara, oralarda əbədilik qalarlar. Nə gözəl əcir verilər yaxşı işlər görənlərə" (Ankəbut surəsi, 58), "...Yalnız yolsuzlardır məhvə məhkum olanlar" (Əhqaf surəsi, 35)).*

- *Dua etmə ruhu rahatlayacaq psixoloji mexanizm kimi.*

Duaların edilməsi prosesi ruhu rahatlayacaq psixoloji mexanizm kimi adi insanlar tərəfindən çox mükəmməl şəkildə düşünülmüşdür. Duaların oxunması heç bir kənar müdaxilə olmadan insanın özünün-özünə yönəltdiyi, insanın daxili potensialının reallaşmasına kömək edən, adi həyati problemlərin həlli zamanı yaşanan stresslərdən psixi homeostazı (neytrallığı) mühafizə edən, həyati və işgüzar fəaliyyətin məhsuldarlığını artıran, eləcə də mənəvi rahatlığı təmin edən ən sadə, eyni zamanda fizioloji və psixoloji resursların səfərbərliyinin həyata keçirilməsi baxımından çox mürəkkəb bir prosesdir. Bütün dinlərdə dua mərasiminin mövcudluğu bu prosesin nə qədər mükəmməl olduğunu və praktik olaraq etibarlı bir üsul olduğunu qeyd etməyə əsas verir.

- *Mənəvi zənginliyin əldə olunmasında dua etmənin rolu.*

Dua edilən zaman insan özünü maddi asılılıqlardan azad edir, ruhən daha yüksəklərə ucalır, azadlıq və müstəqillik əldə edir, insan həyatın mənasını dərk etmiş olur: *"...İman gətirənləri tanısın, aranızdan şəhidlər seçsin deyə paylaşırıq bu günləri insanlar arasında (gah bir qövmü, gah o birini qələbəyə çatdırırıq). Zalımları sevməz Allah" (Əl-i İmran surəsi, 140), "Yoxsa elə bildiniz Allah cihad edənləri və səbirli olanları tanımadan cənnətə girəcəksiniz?" (Əl-i İmran surəsi, 142).*

Bu dünyada çəkdiyi əziyyətlərinin səbəbini günahlarında axtaran inanclı insan *("...O-na iman gətirdik, Rəbbimizdən gəlir hər şey deyər dərin alimlər. Yalnız ağıllı adamlar bunu düşünüb anlar" (Əl-i İmran surəsi, 7)*) dualar zamanı Allahdan günahlarının bağışlanmasını diləyir. Ətrafa netaqiv yanaşan, pisliklər edən insanın daxilində heç bir halda harmoniya, rahatlıq olmur. Çünki, belələri daim şəxsiyyətdaxili və şəxsiyyətlərarası konfliktlər yaşayır. Elmə məlumdur ki, qəddarlıq, nifrət və aqressiyanın sağlamlığa vurduğu ziyan nikotinin vurduğu ziyandan daha təhlükəlidir. Deməli, insan ətrafa necə münasibət bəsləyirsə analoji təsirə də məruz qalır (bumeranq effekti). Pisliklər etməyi düşünən və edən insanın mənəvi rahatlığı olmur. Belələri daim ətrafdan cavab reaksiyası alacaqlarından ehtiyatlanaraq qorunmaq üçün müxtəlif səpkili planlar düşünür. Bu zaman dofamin və endorfinin miqdarı azalır, yorğunluq, ağrı, stress hormonu olan kortizolun miqdarı çoxalır və adrenalinlə qarışaraq qorxu hissini artırır (bu proses isə ümumilikdə orqanizmin immunitetinə mənfi təsir göstərir, xəstəliklərə qarşı yüksək həssaslıq əmələ gətirir), sinir toxumaları qanı özünə doğru çəkir, nəticədə əzələlər zəifləyir, beyinin hippokamp (yun. hippocampos – baş beyinin bir hissəsi olub, emosiyaların və yaddaşın formalaşmasında aktiv iştirak edir) adlanan hissəsi aktivləşir və yaddaşda neqativ xatirələr qabarır və s. İnanclı insan Allah qarşısında etdiyi səhvləri etiraf edərək bağışlanmasını diləyir və bununla mənəvi rahatlıq tapır, eləcə də bir daha bu səhvlərə yol verməməklə bağlı özünü kökləyir: *"Kim yaxşı olub özünü Allaha təslim edirsə, onun əcri Rəbbinin dərgahında. Bələlərinə zaval yoxdur, üzülməzlər dərd əlindən" (Baqara surəsi, 112), "Bəli, cəhənnəmdir yeri pislik edib günaha batmışların, orada əbədilik qalarlar" (Baqara surəsi, 81), "İmana gələnlər, əməli salehlərsə cənnət əhlidir, orada əbədilik qalarlar (Baqara surəsi, 82).*

**Açar sözlər**: beyin ritmləri, dua ayıqlığı, psixikanın təbəqələri, psixoloji təsir, psixoloji köklənmə

**İstifadə edilmiş ədəbiyyat**


1. Qasımoğlu N. Qurani Kərim. B.: Azərbaycan, 1993.
2. Əliyev Ə.H., Əliyeva F.Ə., Mədətova V.M. İnsan və heyvan fiziologiyası (bakalavr hazırlığı üçün dərslik). B.: Bakı, 2007, 416 s. səh.221).
3. Qurbanova L.M. Ailənin psixoloji problemləri və həlli yolları. S.: Bilik, 2012.
4. Польза молитвы с точки зрения психологии. http://psychologyc.ru/psixologiya-molitvy/
5. Ученые о молитве. http://falyosa.livejournal.com/2845108.html


**Ламия Курбанова**

## ПСИХОЛОГИЧЕСКИЙ АНАЛИЗ СИЛЫ ВЛИЯНИЯ МОЛИТВЫ

### Резюме


В статье под названием «Психологический анализ силы влияния молитвы» раскрывается психологическая суть молитвенного состояния человека. Научной основой предоставляется актуальность проблемы.

Психи́ческое здоро́вье – это состояние благополучия, при котором человек может реализовать свой собственный потенциал, справляться с обычными жизненными стрессами, продуктивно и плодотворно работать, а также вносить вклад в жизнь своего сообщества. Уровень психического здоровья человека определяется многочисленными факторами. Эти факторы непосредственно влияют на психологическое, социальное и физическое здоровье. Связи с этим уточняются негативные психические факторы, которые влияют на самочувствие человека и сила влияния молитвы (молитва как психотерапевтическая техника положительно влияет на психологическое состояние). В целом, суть содержания статьи – научные интерпретации, основы молитвенного бодрствования.


**Ключевые слова:** мозговые ритмы, молитвенное бодрствование, слои психики, психологическое воздействие, психологическая установка

**Lamiya Kurbanova**

## PSYCHOLOGİCAL ANALYSİS OF THE POWER OF THE İNFLUENCE OF PRAYER

### Summary


In the article entitled "Psychological analysis of the power of the influence of prayer," the psychological essence of the person's prayerful state is revealed. The scientific basis provides the urgency of the problem.

Mental health is a state of well-being in which a person can realize his own potential, cope with ordinary life stresses, work productively and fruitfully, and contribute to the life of his community. The level of mental health of a person is determined by numerous factors. These factors directly affect psychological, social and physical health. Links with this are refined negative mental factors that affect a person's well-being and the power of the effect of prayer eliminating them (prayer as a psychotherapeutic technique positively affects the psychological state). In general, the essence of the content of the article are scientific interpretations, the basics of prayerful wakefulness.


**Key words:** brain rhythms, prayerful wakefulness, layers of the psyche, psychological impact, psychological installation

**UOT-101.1**

**Söhrab Məhərrəmov**
**AMEA Fəlsəfə İnstitutu, fəl.ü.f.d.**

## KOMPYUTER ŞƏBƏKƏSİNİN VƏ İNTERNETİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

Məqalədə texnologiyanın, kompyuter şəbəkəsinin və internetin yaxın və uzaq müddətdə inkişafına aid proqnozlar araşdırılır. Texnologiya və internetdə yaxın on il ərzində baş verəcək yeniliklər haqda bir neçə proqnoz nəzərdən keçirilir.

İnternetdə olacaq yeniliklərdən danışanda mətnin azalacağı, neyron şəbəkələrin köməyi ilə şəxsi köməkçilərin yaranacağı, internetin şəxslənməsi, internetin açıq və ya gizliliyi, azad və ya sosial nəzarət strukturu olacağı haqda proqnozlar təhlil edilir.

Qeyd edilir ki, virtual reallıq getdikcə daha çox şəxsi olur, internet ancaq insanların ünsiyyətdə olduqları məkan olmaqdan çıxır.

Biz çox qəribə zamanda yaşayırıq. Hər an cəlbedici dəyişikliklər baş verir, daimi hesab edilən hər şey dəyişir və dəyişimələrin sürəti daim artır.

Son illər gələcəkdə internetdə gözlənilən yeniliklər barədə onlarla proqnoz verilmişdir. Onlardan bəzilərində olan maraqlı ideyaları misal olaraq təhlil etməyə çalışaq.

Avropanın böyük internet-kompaniyalarından biri olan Mail.Ru Group rəhbəri Dmitri Qrişin yaxın gələcəkdə internetin necə olacağı haqda proqnoz irəli sürmüşdür. D.Qrişin hesab edir ki, gələcəkdə mətnlərin həcmi azalacaq, neyron şəbəkələrin köməyi ilə hər birimizin şəxsi köməkçiləri olacaq, internet daha çox şəxslənəcək, ağıllı şeylər ağıllı dünyada birləşəcək, açıqlıq və gizlilik arasında balans yaranacaq.

Prinsipcə mətnin köməyi ilə - istər öz aralarında, istərsə də cihazlarla – ünsiyyət insan üçün qeyri-təbiidir. Sözləri ifadə etmək, onları kiçik ekrana baxaraq yazmaqdan asandır, çünki, 1 dəqiqədə 150 söz demək, 40 söz isə yazmaq mümkündür.

Qədimdə informasiya ötürmək üçün başqa vasitə yox idi. Artıq indi gənclər məlumatları səslə ifadə etməyi yazmaqdan üstün tuturlar. Yaxın gələcəkdə komputer interfeysləri ünsiyyətin adi insani üsuluna və səslə idarə etməyə getdikcə daha çox yaxınlaşacaq. Gələcəkdə smartfonların necə dəyişəcəyi – çevik, şəffaf, modul olacağı barədə danışanda, bəziləri onların olmayacağını bildirirlər. Onları gözlüklər və qulaqcıqlar əvəz edə bilər. Onlar smartfonun yerinə yetirdiyi funksiyaları yerinə yetirəcəklər, amma biz bu qurğuları səslə idarə edəcəyik.

Hazırda "səslə" işləyən qurğular çoxalıb: saatlar, smartfonlar, soyuducular, avtomobillər, bütövlükdə evlər səslə idarə edilə bilir. Bütün bu qurğuların "təmsilçisi" kimi şəxsi köməkçi rolunda Siri-nin hansısa analoqu, ölçüyəgəlməz dərəcədə bacarıqlı və qabiliyyətli ola bilər.

Süni intellektin və əşyaların internetinin inkişafı buna səbəb olacaq. Məsələn, bir tərəfdən İnternetdə foto, video və insanların davranışını, digər tərəfdən, sizin xarici görünüşünüzü, zövqünüzü və alış-verişinizin tarixini təhlil edərkən sizin dəb ilə geyinməyinizə kömək edəcək fərdi stilist yaratmaq olar. Əgər ağıllı saat sizdə xolestrinin yüksək olduğunu qeydə alırsa, bu informasiyanı həkimə ötürməyə ehtiyac yoxdur, çünki köməkçi özü sizə həyat tərzinizi dəyişməyi məsləhət görə bilər. Fərdi köməkçi əks istiqamətdə də - sizdən vebə və cihazlara tərəf – işləyə bilir. Məsələn, hazırda biz aviabilet axtarmaq üçün vaxt itiririk, gələcəkdə bütün bu işləri fərdi köməkçı görəcək. Sizin tapşırığınız ilə köməkçi lazım olan səhifəni tapacaq, biletlər haqda məlumat verəcək. Siz reysi seçirsiniz, köməkçi bilet alır. Bütün bu işlər səslə, eşitmə ilə yerinə yetirilir.

Artıq bu gün informasiya o qədər çoxalıb ki, hətta tədris prosesi özü, lazım olan məlumatları tapmaq, onları araşdırmaq və başa düşmək, necə istifadə etmək bacarığına çevrilib. İnformasiyanı tapmaq və ondan düzgün istifadə etməyə kömək edən istənilən alqoritmlər və texnologiyalar – fərdi köməkçilər, neyron şəbəkələr – həddindən çox vacib olurlar.

Neyron şəbəkələr sizin üçün nəyin maraqlı olacağını biləcək və lazım olmayan informasiyanı təmizləyəcək. Bu isə sizin ətrafınızda informasiya səs-küyünün səviyyəsini azaldacaq və həyatınızı sadələşdirəcək. Sizin bal rəqsləri ilə maraqlanmadığınız məlum olsa, belə informasiya azaldılacaq.

Artıq indi biz eyni sorğuya, hətta onlar eyni səhifəyə aid olsa belə, axtarıcılarda fərqli cavablar, sosial şəbəkələrdə fərqli lentlər alırıq. Bu internetin şəxsləndirilməsidir. Bu iş gələcəkdə davam edəcək. Tədricən bütün saytlar fərqli istifadəçilərə onların maraqları haqda olan məlumatlara əsaslanaraq fərqli kontent göstərəcək.

Heç bir proksi, anonim rejimlər, brauzerin keşinin təmizlənməsi bizə hamı üçün eyni olan "təmiz" veb verməyəcək. Əgər saytlar sizi İP və ya kuk ilə eyniləşdirməsə, onlar sizi minlərlə oxşar istifadəçilərlə bərabərləşdirir, növbəti addımları müəyyən etmək üçün sizin harda olduğunuzu müəyyən edir və ya saytda sizin cari fəaliyyətinizi təhlil edir. Bu və ya digər halda istənilən saytda siz məhz sizin üçün maraqlı olan kontenti görürsünüz, bu sizin qonşunun aldığı informasiya olmayacaq.

Bir azdan intellektual sistemlər istifadəçilərin özlərindən əvvəl onların maraqlarını öyrənə biləcəklər. Veb inanılmaz bir səviyyədə adaptiv olacaq. Misal çəkək. Mail. Ru baş səhifəsi və Hi-Tech Mail. Ru və Xanım Mail. Ru proyektləri mövcuddur. Hazırda bunlar üç fərqli səhifələrdir, amma fərdi vebdə tək Mail. Ru resursu var, burada siz Hi-Tech kontentini, sizin xanım isə "Xanım"-da onun üçün maraqlı olan məqalələri görür. Siz avtomobil seçmək haqda düşünürsünüz və sizin üçün əsas səhifədə Avto Mail. Ru kontenti açılır. Lazım olan anda siz xanımınızla Uşaqlar.Mail. Ru proyektində yazılar görürsünüz. Axtarıcılar da bu istiqamətdə inkişaf edəcək.

Sorğunu istifadəçi deyil, sistem onun harada və hansı kontekstdə olduğunu başa düşərək verir, təhmin etməyə çalışır: ehtimal ki, sən bu və bu işi görmək istəyirsən, sənə bu və bu lazımdır.

Belə yüksək adaptasiya olunmuş vebdə ən azı bir problem olur: istifadəçi ancaq onun fikrinə relevant olan istinadları görür. İstifadəçinin maraqlarına cavab verməyən kontentlər "qara materiyaya" çevrilir. Siz Şəbəkədə öz fəaliyyətinizin alqoritmini kardinal şəkildə dəyişməyənə qədər bu kontenti görmək mümkün olmayacaq.

İnternet ancaq insanların ünsiyyətdə olduqları məkan olmaqdan çıxacaq. Ötürücülərin və ağıllı cihazların çoxluğu bir-biri ilə məlumat mübadiləsi edəcəklər. İnternetdə ağıllı cihazların sayı insanlardan çox olacaq.

Əşyaların interneti "yeraltı", bizim üçün görünməz olacaq. Biz onu elektrik kimi, hazır məhsul şəklində hiss edəcəyik: biz telləri görmürük, şəbəkənin necə qurulduğunu bilmirik, düyməni basan kimi işıq yanır.

Yəqin ki, əşyaların interneti istifadəçi tərəfindən vizual olaraq təqdim edilməyəcək, buna gərək yoxdur: cihazlara qrafik veb lazım deyil, sizə isə cihazlarla ünsiyyətdə olmaq üçün internetə girmək vacib deyil. Sizin əvəzinizə bu işi xüsusi köməkçi edəcək. Amma siz, ətraf reallığın necə qurulduğu haqda radikal dəyişikliyi görəcəksiniz.

Əşyaların interneti şəhəri tıxacdan xilas edəcək: sürücüsüz avtomobillər bir-birindən informasiya alacaq və milyonlarla sərnişin üçün optimal marşrutlar hesablayacaq. Sizin sağlamlığınıza, yeməkdə olan kalorinin kəmiyyətinə, havada oksigenin dərəcəsinə bir-biri ilə və sizin evin, rayonun, bütün şəhərin mərkəzi hab ilə informasiya mübadiləsi edən ötürücülər nəzarət edəcək.

Hazırda belə bir fikir geniş yayılmışdır ki, gələcəkdə hamı hər şeyi biləcək. Hər bir insan haqda əlçatan informasiya dəfələrlə çoxalacaq. Reallığa əlavə edilmiş texnologiyanın köməyi ilə biz istənilən insan barədə onunla kontakta girmədən istənilən məlumatları öyrənə biləcəyik. Birdə ki, əgər sizin ağıllı gözlüyünüzün verdiyi məlumata görə bir nəfərin maraqları ilə sizin maraqlarınızın cəmi 3% kəsişirsə, belə adamla ünsiyyətə girməyin mənası olmur.

Təəccüblü deyildir ki, gələcək haqda belə fikirlər qıcıq və qorxu yaradır. Bu təbii reaksiyadır. Tarixə nəzər salsaq görərik ki, yeni texnologiyanın meydana gəlməsi həmişə etirazla qarşılanıb. Lokomotivlər yaranan ilk vaxtlar fermerlər hər yerdə dəmir yoluna qarşı çıxırdılar, çünki, qatarlar inəkləri vururdular. Sonralar balans tapıldı. İndi dünyada yüksək sürətli qatarlar və çəmənlikdə otlayan inəklər yola gedirlər.

Süni intellektin insan haqda çox şeyi bildiyi situasiyada bir çox pozitiv imkanlar var. Məsələn, sizin sağlamlığınız haqda hər şeyi bilən sistem, nə vaxt dərman qəbul etmək lazım olduğunu, vəziyyət ağır olduqda isə təcili yardım çağırmağı biləcək.

2014-cü il martın 14-də professor Janna Anderson və Li Reyni britaniyalı alim, URİ, URL,

HTTP və HTML yaradıcısı, ser Tim Berners-Li tərəfindən "Ümumdünya torunun" yaradılmasının 25 illiyinə həsr edilmiş "2025-ci ildə rəqəmsal həyat" mövzusunda məruzə hazırladılar.

Ekspertlər internetin tezliklə elektrik kimi olacaqını proqnozlaşdırırlar: az hiss edilən, əvəzində insanın gündəlik həyatına daha çox daxil olmuş elektrik.

TJournal bu məruzədən əsas hissələri gətirir.

1989-cu il martın 12-də Berners-Li informasiyanın idarə edilməsi, arxitektura və Vebin konsepsiyası haqda məqalə çap etdirdi. 1990-cı ilin Milad bayramı zamanı o, dünyaya özünün – veb torunun, komputer sahiblərini bir-biri ilə bağlayan və onların fayllarına çıxışı təmin edən sisteminin kodunu təqdim etdi.

Vebin 25 illiyini qeyd edərkən Pew Research Center ekspertləri internetin gələcəyini, kiber təhlükəsizlikdən başlamış, ən sadə məsələyədək hər şeyi müzakirə etdilər.

Məruzədə İnternetin inkişafının 4 ümumi trendi qeyd edilir:

1. Qlobal, cəlbedici, şəbəkəyə qadjetlər vasitəsilə gözə görünmədən daxil olma, kameralar, intellektual xəbər ötürənlər, istifadəçiləri hamı ilə və hər yerlə bağlayan əlavələr və məlumat bazaları.

2. Tamamlanmış reallıq – insana tam mənada birləşmiş portativ texnologiyalar.

3. XX əsrdə yaranmış gündəlik biznes-modellər modifikasiyaya uğrayacaq: ilk növbədə söhbət maliyyədən (bitkoin yada salınmasa da, söhbət həm də ondan gedir), əyləncə sahəsindən, KİV və təhsildən gedir.

4. Ayrılıqda götürülmüş insanlarda və bütövlükdə cəmiyyətdə informasiyanın emalı ilə bağlı proqramlaşmanın dilində, informasiyanın emalında, məlumat bazalarında, analizatorlarda olan dəyişilmələr.

Məruzədə bundan başqa rəqəmsal dünya haqda 15 tezis irəli sürülür:

1. İnformasiyanın ötürülməsi o qədər sadə və adi olacaq ki, nəzərə çarpmadan baş verəcək. İnternet gündəlik həyatımızın elektrik kimi ayrılmaz hissəsi olacaq.

2. İnternetin geniş yayılması bir-biri ilə bağlı olan insanların sayını artıracaq (onların müxtəlif qitələrdə yaşamasına baxmayaraq) və onların hər hansı bir ölkənin həyatı haqda məlumatsızlığı olmayacaq.

3. "Əşyaların interneti", süni intellekt və böyük həcmdə məlumatlar insanları ətraf dünya barəsində məsələlərdə və özünün şəxsi davranışı haqda daha məlumatlı edəcək.

Harvard universitetindən Djudit Donat bununla bağlı yazır: "Biz öz vaxtımızı necə keçirdiyimiz, özümüzün bu və ya digər əyləncəmizə, dostumuza, ailəmizə necə yanaşmağımız barədə təsəvvürlərə malik olacağıq. Bu bizim insanlara münasibətimizi, başqaları ilə əlaqələrimizi və bir çox digər şeyləri dəyişəcək".

4. Tamamlanmış reallıq və daşıdığımız qurğular gündəlik həyatımızı, sağlamlığımızın vəziyyətini izləməyə imkan verəcək və adət etdiyimiz bir çox məsələlərə - iş haqda söhbətlər, oyunlar və deytinq – baxışımızı dəyişəcək.

5. İnternet siyasi vəziyyətdə daha yaxşı hərəkət etməyə, həmçinin özünün siyasi mövqeyini, pozisiyasını daha yumşaq formada – davasız, təkər yandırmadan, iğtişaş törətmədən, qansız – ifadə etməyə imkan verəcək.

Miçiqan universitetindən Nikol Ellison deyir: "Dünya əhalisinin internetə qoşulması nə qədər çox olursa, o qədər çox insan səhiyyəyə, suya, təhsilə, insan haqlarına qlobal çıxışın fərqini başa düşür".

6. "Ubernet" (qlobal internet) yayılması ərazi sərhədlərinin əhəmiyyətini azaldacaq. Nəticədə, insanların maraqlara görə birləşdiyi və bu günkü milli dövlətlərin sərhədlərindən kənarda yaşayan yeni "millətlər" yarana bilər.

1972-ci ildən rəqəmsal telekommunikasiya ilə məşğul olan Devid Hyuz qeyd edir: "Planetdə yaşayan bütün 7+ milyardın hamısı tez və ya gec bir-biri ilə Ubernet (İnternet deyil) vasitəsilə bağlı olacaq. Bu, dövlətlərin vətəndaşların həyatı üzərində nəzarətinin zəifləməsinə səbəb ola bilər. Hər bir insan planetdə istənilən digər insan ilə ünsiyyətdə olanda, onda dövlətin coğrafi sərhədlərdə nəzarəti azala bilər".

7. İnternet "The İnternet" olacaq.

Futuroloq Devid Brin yazır: ”Çoxlu internet olacaq. Şəbəkə daxilində şəbəkə müstəqil forma alacaq, o daha şox məkanı əhatə etməklə fakturalı olacaq”.

İnterbrand Şon Mid: ”İnternetdə bir-biri ilə bağlı, əlaqəli olan bir neçə yeni şəbəkələr yaranacaq. Onlardan bəziləri identifikasiya çıxışını yoxlayacaq, bəziləri isə öz xidmətlərini konfidensial təqdim edəcəklər”.

Fəal-mühəndis Yan Piter: “İnternet fraqmentləşməni yaşayacaq. İnsanlar arasında qlobal qarşılıqlı fəaliyyət olduğu kimi davam edəcək, amma, bu, protokollar seriyası ilə idarə edilən bir sıra fərdi kanallar vasitəsilə baş verəcək”.

8. İnternet istifadəçiləri müəllimlərin və siniflərin saxlanmasına az xərc çəkməklə daha çox imkanlara sahib ola biləcəklər.

Google-nin baş ekonomisti Hel Verian yazır: ”Dünyaya ən böyük təsiri, bəşəriyyətin biliklərinə ümumi çıxış imkanının olması göstərəcək. Ola bilər ki, dünyanın ən ağıllı adamı indi Hindistanda və ya Çində kotanla yer şumlayır. Ancaq, həmin adamın və milyonlarla digərlərinin İnternetə qoşulması bəşəriyyətin inkişafında böyük rol oynayacaq. Ucuz mobil qurğular Khan Akademy-dan (qeyri kommersiya təhsil təşkilatı, tədris müəssisəsi, arxivində riyaziyyata, tarixə, tibbə, fizikaya, maliyyəyə, kimyaya, biologiyaya və digər çoxlu predmetlərə aid pulsuz 3600-dən çox mikromühazirə tapmaq mümkündür) olan tədris-metodiki vəsait kimi hər yerdə əlçatan olacaq”.

Bütün bunlar insanların təhsil almasına, ətraf dünya barədə xəbərdar olmalarına böyük təsir edəcək.

9. Əhalinin varlılar və kasıblar kimi təhlükəli bölünməsi genişlənə bilər, bu isə açıq qarşıdurmaya gətirib çıxara bilər.

Pensilvaniya universitetindən professor Oskar Qandinin fikrincə, keyfiyyətli və geniş çeşidli ərzaq və informasiya almaq imkanı olanlarla, belə imkanı olmayanlar arasında uçurum gələcəkdə böyüyəcək. Sosial media ancaq neqativ əhval-ruhiyyənin açılmasına, həm də ədalətsizliyə qarşı mübarizə aparmaq üçün lazım olan təlimatları tapmağa kömək edə bilir.

10. İnsanın təbiəti dəyişmədiyi üçün, qanun pozulması və qanunu pozanlar da inkişaf edəcək.

Top Editorun general direktoru və baş redaktoru Levelin Krid deyir ki, kiber-terrorizm adi işə çevriləcək. Onlayn-xəstəliklər, cinayətkar rəqəmsal şəbəkələr və bütöv Mütəşəkkil Cinayətkar Qruplar yaranacaq.

11. Hökumətlər internetdən siyasi və sosial nəzarət üçün daha səmərəli istifadə edəcəklər.

Cənubi Arkanzas universitetindən professor Pol Bebbit hesab edir ki, dövlət müəyyən məhdudlaşdırıcı filtlər qoymaqla böyük nəzarət imkanı əldə edəcək, bu filtrləri hazırlayan kompaniyalar varlanacaq. Vətəndaşlar isə, nizamlanan olsa belə, daha strukturlaşmış ətraf qazandıqları üçün xoşbəxt olacaqlar.

12. Öz konfidensiallığını və şəxsi həyatını qorumaq daha da çətinləşəcək, ona görə ki, istifadəçilər, bəzən könülsüz olsa da, hansısa vacib, mühüm informasiya almaq üçün kompromisslərə gedəcəklər.

13. Dövlət sirləri haqqında informasiyada xüsusi əhəmiyyət daşıyan rəqəmsal diplomatiya yaranacaq.

14. İnsanların əksəriyyəti müasir kommunikasiya şəbəkəsində indi baş verən və gələcəkdə dağıdıcı ola biləcək qlobal dəyişiklikləri görmürlər. Getdikcə daha çox adam real həyatda bacarığını itirir. İnternet insanın saxlaya biləcəyindən çox sosial əlaqə təklif edir.

15. İnternetin gələcəyinə onun öz hesablamaları güclü təsir edəcək.

Bəzi alimlər gələcək internetin mümkün göstəriciləri və ekonomik momentlərini məşq etməyi təklif edirlər. Onlar hesab edirlər ki, bu, dəyişikliklərin ekonomika üçün az itki ilə nəticələnməsinə imkan verər.

Qeyd etdiyimiz proqnozlar haqda ekspertlər maraqlı fikirlər söyləmişlər. Google vitse prezidenti və baş internet yevangelisti Vinton Serf qeyd edir ki, internetdə informasiya ilə mübadilə etmək üçün franşizin sayı çoxalacaq. Biznes-modellər rəqəmsal ötürmə və saxlama ekonomikasına uyğunlaşacaq, internet səsvermədən isə o halda istifadə etmək olar ki, autentifikasiya metodu həqiqətən etibarlı olsun. Bundan əlavə, kütləvi onlayn kursların açılması (MOOCs) mühüm gəlir mənbəyinə çevriləcək.

Giqa OM kompaniyasından tədqiqatçı Stoy Boyd yazır ki, səhər tezdən əlinizə keçən ilk şey və yuxudan qabaq gördüyünüz son şey – devays olur. Biz postnormal dövrdə, başqa qaydalarla, hələ tam müəyyən edilməyən, ancaq müəyyən ediləcək və başa düşülməsi sənaye dövrünə nisbətən dəfələrlə sürətlə baş verəcək veb qaydaları ilə yaşayırıq. Stoy Boyd robotların və süni ağılın mövcudluğu kontekstində "İnsanlar nəyə lazımdır?" kimi mühüm fəlsəfi sual verir.

EPİC prezidenti Mark Rotenberq Tomas Edisonun insan özünün yaratdığına özü nəzarət etməlidir mənasını verən sözlərini xatırlayır. Rotenberq ABŞ-ın ekonomik və siyasi gücünün əks istiqamətdə getdiyini hesab etsə də, gələcək internetin daha çox açıqlığına, mərkəzləşmiş nəzarətin zəifləyəcəyinə, böyük azadlıq olacağına inanır. Rotenberq 2025-ci ildə internetin azad və imkan şəbəkəsi və ya sosial nəzarət infrastrukturu olacağı haqda sualı əsas hesab edir.

Burada bir haşiyə çıxaq. Çinin öz sərhədləri daxilində internetə senzura tətbiq etdiyi məlumdur. Böyük bir senzor ordusu internet filtrlərindən istifadə edərək əhalinin hökumət əleyhinə yazılara və videolara baxışını əngəlləyir.

New York Times qəzeti yazır ki, əvvəllər çinli senzorlar ölkə vətəndaşlarını xarıcı sosial şəbəkələrdə izləyirdilər, indi isə app-lərdəki şəxsi yazışmaları izləməklə məşğul olmağa başlayıblar.

Çinli insan haqları müdafiəçisi Zhang Guanghong 2017-ci ilin payızında Whats App-dan istifadə edərək bir məqaləni öz dostları ilə paylaşıb. Məqalədə Çin hökuməti tənqid edilirmiş. Facebook-a məxsus bu app-i Cində demək olar ki, heç kim istifadə etmir. Bundan dərhal sonra hüquq müdafiəçisi həbs edilib. Onun tezliklə məhkəmə önünə cıxarılacağı gözlənilir. İttihamnamədə "sübut" kimi Zhang Guanghongun Whats App qrupunda paylaşdığı məqalədən sitatlar gətirilir.

Texnologiya ekspertləri hesab edirlər ki, hüquq müdafiəçisinin ya telefonuna müdaxilə edilib, ya da qrupdan kimsə onu satıb.

Əhalisinin sayına görə dünyanın ən böyük ölkəsi olan Çində 700 milyon internet istifadəçisi var. Çin ABŞ-ın iri texnologiya şirkətlərini ölkəyə buraxmaq üçün şərtlər qoyur.

Facebook-un bütün app-ləri Çində qadağandır, amma bir müddət əvvəl şirkət Çin ərazisində işləyən gizli bir app hazırlayıb. Apple şirkəti isə özünün çinli istifadəçilərinin data bazasını Çinə köçürür. Apple 2017-ci ildə Çinin senzurasını dəf edə bilən VPN app-ini istifadədən çıxarıb. Google bu yaxınlarda Çində süni intellekt laboratoriyası açmaq istədiyini elan etmişdir.

New York Times yazır ki, mühacirətdə yaşayan çinli biznesmen Guo Wengui Facebook və You tube-dan istifadə edərək Çin rəsmlərini korrupsiyada ittiham edəndə çinli məmurlar bu şirkətlərə müraciət etmişdi. Bundan sonra Facebook Guo-nun hesabını bağlamışdı. Şirkət bu addımı Çin hökumərinin istəyi ilə atıb-atmadığına aydınlıq gətirməkdən imtina etmişdi.

Çin senzorları Google şirkətinə daha tez-tez müraciət etməyə bağlayıblar. 2017-ci ilin ikinci yarısında Çin hökuməti Google 2290 linklə bağlı müraciət edərək həmin kontentə çıxışı bağlamasını xahiş etmişdi. Bu rəqəm 2016-cı ildəki müraciətdən üç dəfə çoxdur və antirekorddur.

Cisko Sistems-dən olan Fred Beyker yazır: "Təhlükəsizlik və konfidensiallıq problemləri həll ediləcək, ancaq təhlükənin kökünü tam aradan qaldırmaq mümkün olmayacaq, çünki, insanlar arasında kimə isə zərər vermək istəyənlər həmişə var".

Minnesota universitetindən professor Endryu Çen hesab edir ki, internet təhlükəlidir, ona görə ki, pisi tez yayır. O, güclü alətdir, ona görə ki, insanları birləşdirməyə imkan verir və şirnikləndirici yerdir, çünki, insana çoxlu maraqlı şeylər təqdim etməklə onu sərt reallıqdan qoruyur.

Fenwick & West LLP kompaniyasının siyasi analitiki Andryu Bridjes yazır: "İnternet dövlət nəzarətinin əsas təhlükəsinə - hökumətin nəzarəti nəticəsində söz azadlığına, toplaşmaq və yığıncaq azadlığına olan təhlükəyə - kömək edəcək; insanı, yəni istifadəçini qurban verməklə, struktur və siyasət, ekonomika və cəmiyyət məsələlərinə aid yeni prinsipləri əsas götürərək, bizim fiziki (həm də təkcə fiziki yox) təhlükəsizliyimizin müdafiəsinə yönəlmiş əsas konstitusiya müddəalarında qlobal dəyişikliklər olacaqdır".

"Welcome to the Future Cloud – 2025 in 100 Predictions" müəllifi və hollandiyalı futuroloq Marsel Bullinqa hesab edir ki, gələcək ucuz olacaq, başlıcası mülkiyyət yox, əlçatanlıq olacaq.

İnsanlar diqqətin cəmlənməsi, reallığın dərk edilməsi və onun əksi ilə problemlər yaşayacaqlar. İnsanlara "trend hauses" tipli evlər – o evlər bizə məxsus deyil, ancaq ora qeydiyyatdayıq, Spotify-evlər, İkea-evlər – lazım olacaq.

İnternet-cəmiyyətin Nyu-York bölməsinin prezidenti (İnternet Sosiety) David Solomonov deyir: "Mən hesab edirəm ki, internet-valyuta və 3D-çap (şəbəkə vasitəsi ilə yayılan bu və ya digəri üçün açıq çıxış kodu) hökumət və nəhəng kommersiya müəssisələri üçün mübahisəli sahələr olacaq, bunlarla istifadəçilər arasında qarşılıqlı razılaşma məsələsinə məcburiyyətlə deyil, etimad vasitəsilə gəlmək mümkün olacaq".

İnternetin gələcəyi ilə bağlı Pew Research Center və ABŞ-ın Elon universitetinin tədqiqatçıları da proqnoz vermişlər. Bu proqnoza görə 2025-ci ildə İnternet dünyanı anlamaqla və özünü dərketməyə kömək etməklə qalmayacaq, həm də yaramazlara digər istifadəçilərin yaşayışını pisləşdirmək üçün bir çox imkanlar verməklə konfidensiallığın əsas təhlükəsinə çevriləcək. Tədqiqatçılar əmindirlər ki, 2025-ci ildə İnternet hər yerdə olacaq və hər bir insanın həyatında bu gün elektrik olduğu kimi zəruri olacaq.

Cənubi Kaliforniya universitetinin informasiya elmləri institutunun direktoru Joy Taçın fikrincə internet cəmiyyətdə pişiklərin həyatı haqda roliklərin olduğu yer kimi yox, hər bir insanın həyat tərzinin ayrılmaz bir hissəsi kimi bir şey olacaq. Joy Taç yazır: Biz daha internetə qoşulmaq və ya Şəbəkədə nə isə axtarmaq barədə düşünməyəcəyik. Biz onlaynda olacağıq və bizi maraqlandıran hər şeyə baxa biləcəyik.

Pew Research Center və Elon universitetinin analitiklərinin hazırladığı hesabatın əsasında Ser Tim Berners-Li-nin hazırda Ümumdünya toru kimi tanınan proyekti təqdim etməsindən keçən son 25 ilin insanların həyatına hansı təsiri göstərdiyinin öyrənilməsinə həsr edilmiş sorğu durur.

Sorğuda iştirak edən 2000-ə qədər istifadəçi qarşıdakı 10 ildə İnternetin hər birimizin həyatında oynadığı rolun necə dəyişəcəyi haqda öz fikirlərini həvəslə bölüşmüşlər.

Çox sayda gözlənti və fikirlər içərisində bir neçə tendensiyanı qeyd etməyə dəyər. Məsələn, bir çox istifadəçi hesab edir ki, gələcəkdə İnternet onların həyatının hər bir aspekti haqda o qədər məlumatlı olacaq ki, bu bir çox qurğulara hər bir istifadəçinin davranışının xüsusiyyəti haqda daha çox informasiyalı olmağa imkan verəcək, bu isə şəxsi həyatın təhlükəsizliyi və konfidensiallığı ilə bağlı problemlər yarada bilər. Bəzi istifadəçilər hesab edirlər ki, 2025-ci ildə konfidensiallıq defisit olacaq, şəxsi məlumatların qorunmasının lazım olan səviyyəsi heç də hamı üçün əlçatan olmayacaq. Bundan başqa belə bir fikir də var ki, İnternetin yayılması təhsil sahəsində bir çox istiqamətlərin inkişafına səbəb olmaqla yanaşı, həm də cahilliyin təntənəsinə kömək edəcək. Eyni zamanda bir çox istifadəçilər belə düşünürlər ki, hazırda bəşəriyyət hələ də interneti tam mənada qiymətləndirmir.

Avropa İttifaqından olan alimlərin təklif etdikləri Dünya Şəbəkəsinin yeni arxitekturasında server yoxdur. PUR SUİT layihəsinin konsepsiyası prinsipcə yeni, "sosial" sistem yaratmağı nəzərdə tutur, burada istifadəçilər informasiya almaq üçün serverə müraciət etmədən, onu birbaşa ilk mənbədən, informasiyanın saxlandığı yerdən ala biləcəklər.

Tədqiqatçıların təqdim etdikləri metod faylların torrent-treker vasitəsilə və ya p2p-şəbəkə vasitəsilə ötürülməsinə oxşayır: bu zaman məlumatlar mərkəzi mənbədən və ya vasitəçidən ötürülmür, bir istifadəçidən digərinə ötürülür. Belə ki, PUR SUİT-ə görə özəl komputerlər digər istifadəçilərə kontenti tam və ya onun hissələrini saxlamaqla qulluq etməlidirlər.

Konsepsiya interneti daha sürətli və səmərəli etməyə imkan verəcək. Əgər məlumatlar birbaşa bir PK-dən digərinə ötürüləcəksə, onda onlar hətta sayta xidmət edən serverlərin "yıxıldığı" halda belə əlçatan olacaq (məsələn, DDOS-hücum nəticəsində). Bundan başqa Şəbəkə daha təhlükəsiz olacaq, çünki, kontentin müəllifi olan mənbədən gəldiyini izləmək mümkün olacaq.

Belə ki, PUR SUİT İP ünvana deyil, informasiyanın özünə diqqət edir. Layihənin müəllifləri mərkəzsiz pirinq şəbəkədə axtaran və tapan əlavələrin bir neçə işləyən prototiplərini artıq hazırlayıblar.

2009-cu ilin avqustun sonundan Cisko-nun, ssenari planlaşdırılması üzrə ixtisaslaşan Global Business Network (GBN) kompaniyası ilə birlikdə buraxdığı hesabatda İnternetin yaxın 15 ildə mümkün inkişafının variantlarını təqdim edir.

Son bir neçə onillikdə İnternet və Veb bu və ya digər dərəcədə praktiki olaraq dünyada ən uğurlu layihələrlə ekonomikanın bütün sahələrini və bütövlükdə cəmiyyəti dəyişmiş, yeni kommunikasiya formaları, əməkdaşlıq, innovasiya üçün katalizator olmuş, informasiya və biliklə işləməyin üsulunu radikal şəkildə dəyişmişlər.

Əgər özünün formalaşdığı ilk illərdə İnternet bir-birinə zəif bağlanmış, məlumatların kommunikasiyası və çatdırılması üçün standart protokoldan istifadə edən komputerlərin dəsti idisə, indi, məsələn, DG İNFSO öz hesabatında İnterneti funksional uyğunluq əsasında biznes-proseslərin təmin edilməsi üçün, səsli və video-kommunikasiyanın, kontentin çatdırılmasının və sosial şəbəkənin təmin edilməsi üçün Web-xidmətlərini əhatə edən texnologiyanın məcmuu kimi müəyyən edir.

2008-ci ilin sonunda dünyada 1,9 milyard internet istifadəçisi (hələ 2000-ci ildə onların sayı cəmi 360 milyon idi) və 4 milyard mobil rabitə istifadəçisi var idi (2006-cı ildə - 2,7 milyard), onlardan 570 milyonu İnternetə çıxışı olan terminala malik idi.

2004-2008-ci illərdə sonuncuların sayı iki dəfə artıb, ekspertlər hesab edir ki, 2012-ci ildə Şəbəkədə auditoriyanın böyük hissəsi simli deyil, simsiz mobil qurğularla işləyəcək.

Texnoloji tərəqqiyə, xüsusilə də internetə təsir edəcək bir çox meyllər içərisində ekspertlər aşağıdakıları fərqləndirirlər:

- Şəbəkənin qlobal idarə edilməsi indiki səviyyədə qalacaq və ciddi dəyişikliyə uğramayacaq;
- Internet-bazarında ən böyük artım yüksək gəlirli və inkişaf etmiş ekonomikası olan ölkələrin xaricində olacaq;
- QWERTY-klaviatura insanın internetlə qarşılıqlı fəaliyyətində əsas interfeys olmaqdan çıxacaq;
- Giriş üçün vəsait ödəmələr əvəzinə Ümumdünya şəbəkəsində virtual həyatda iştirakın tamamilə yeni, başqa ödəmələri olacaq.

Gələcəkdə texnologiyanın inkişafının başlıca sosial amili "rəqəmsal" nəslin – uşaqlıqdan internetlə tanış olan müasir yeniyetmələrin böyüməsi olacaq və artıq 2013-cü ildə onun əsas auditoriyası olacaq, onların qarşılıqlı fəaliyyət modeli bundan qabaqkı, hətta indiki yaşlı nəslin modelindən radikal şəkildə fərqlənəcək.

İstənilən halda, bəzi mühüm aspektləri nəzərə almaq mümkün olmur – məsələn, inqilabi texnologiyaların meydana gəlməsi, rabitə şəbəkəsinin təkamülü (dövlət investisiyası cəlb etməklə və ya onsuz), istifadəçilərin çox funksiyalı internet-əlavələrə marağı və s. Aydındır ki, qeyri-müəyyənliyin belə amilləri hadisələrin inkişafının müxtəlif variantları haqda danışmağa əsas verir.

Birinci varianta görə internet Yer kürəsinin hər yerində, ən kiçik yaşayış məntəqələrinə qədər gedib çatacaq, real dünyadan ayrı olan avtonom məkan olmaqdan çıxacaq, xidmət göstərmənin qlobal miqyaslı mərkəzinə çevriləcək, internetə giriş əsasən mobil qurğulardan olacaq, amma bu heç də PK tamamilə yox olması demək deyil.

İkinci variant daha az optimistdir, səbəbi kibercinayətkarlıqdır. Çoxları bu amili qiymətləndirmir, artıq indi Symantec kompaniyasının hesablamalarına görə internet istifadəçilərinin 65% müxtəlif hücumlara – komputerlərin viruslarla banal yoluxmasından, fərdi münasibət qeydlərindən və kredit kartlarının oğurlanmasınadək – məruz qalmışlar. Hücumlara ən çox məruz qalan ölkələr, məhz internet bazarın ən çox inkişaf edəcəyi ölkələr – Çin, Braziliya, Hindistandır. Cisco ekspertləri hesab edirlər ki, situasiya müəyyən kritik nöqtəyə çatanda, Ümumdünya Şəbəkəsində girişi ödənişli olan təhlükəsiz analoqlar yaranacaq.

Ancaq hadisələrin inkişafının belə variantı ilə heç də hamı razı deyil. Belə ki, 2009-cu ilin dekabrında Hollandiyanın Ekonomika nazirliyi üçün The Future of the İnternet Ekonomi hesabatını hazırlayan Avropalı mütəxəssislər açıqlığı və əlçatanlığı Ümumdünya Şəbəkəsinin əsas aktivləri hesab edirlər və məhdud vəzifələrin həyata keçirilməsi üçün ödənişli lokal təhlükəsiz "ərazilərin" yaradılmasını istisna etməsələr də, eyni zamanda şəbəkə servislərinin - ilk növbədə təhlükəsizlik risklərini minimuma endirmək məqsədilə - ciddi şəkildə modernizə olunacağını proqnozlaşdırırlar.

Hadisələrin inkişafının üçüncü variantı orta müddətli perspektiv üçün ehtimal edir ki, qeyri-sabit ekonomik situasiya səbəbindən bəzi ölkələrin proteksionist siyasət yeritmələri elektron biznes

üçün spesifik maneə olacaq və bu yeni texnologiyaların tətbiq edilməisinin zəifləməsinə və internetin yayılmasının sürətinin azalmasına gətirib çıxaracaq.

Mütəxəssislər dördüncü mümkün variantı da nəzərdən keçirirlər – İnternetin populyarlığı o qədər artacaq ki, Ümumdünya Şəbəkəsi mövcud texniki məhdudiyyətlər səbəbindən sadəcə olaraq informasiya axını ilə bacarmayacaq.

Google baş direktoru Erik Şmidt orta müddətli perspektivdə daha bir fundamental tendensiyanı qeyd edir – onun fikrincə beş il ərzində komputerlərin sürəti on dəfə artacaq, (Murun qanununa uyğun olaraq), 100 mb/s internetə girişin adi sürəti olacaq, bu isə lokal və şəbəkə servisləri – video, radio, telefon və s. arasındakı sərhədləri praktiki olaraq siləcək. Bundan başqa, xidmət və əlavələrin kültür maneələrindən asılı olmayaraq yayılması və ingilis dilinin qlobal kommunikasiyaların universal dili kimi tanınmasına rəğmən, - İnternet çoxdilli olacaq.

Yuxarıda adını çəkdiyimiz Pew Research Center 2020-ci ilə olan proqnozunda göstərir ki, virtual mühit istehsalın imkanlarını genişləndirmək üçün kifayət qədər rəqabət qabiliyyətli olacaq və eyni vaxtda yeni zərərli vərdişlərin yaranmasına kömək edəcək. İnsanlar şüurlu və ya şüursuz olaraq digərlərinə daha çox personal informasiya verəcəklər, bu onlara bir sıra üstünlüklər versə də, onlar gizliliyi əhəmiyyətli dərəcədə itirəcəklər. Bundan başqa, prinsipial baxımdan Şəbəkədən kənarda fəaliyyət göstərən, şəbəkədən imtina edənlərin spesifik qrupu yaranacaq, həm də bu, əsasən informasiya axınından qorunmaq məqsədi ilə deyil, texnoloji dəyişilmələrə tabe olmamaq məqsədi ilə ediləcək. Sözgəlişi qeyd edək ki, ekspertlərin 42% gələcəkdə insanların texnologiyaya nəzarət imkanlarına şübhə ilə yanaşır.

Müvafiq olaraq, internetdə realizə edilən biznes-modellərdə dəyişikliklər baş verəcək. Mütəxəssislər Şəbəkəyə çıxışın abunə ilə olmasını, birbaşa olmayan ödənişli çıxışı, xüsusilə də kontent və PT aksentin dəyişməsini proqnozlaşdırırlar. Bundan başqa, axtarışa az istiqamətlənmiş, daha çox istifadəçinin indiki konkret momentdə tələbatına yönəlik ənənəvi internet servislərin, ixtisaslaşmış kompakt əlavələr tərəfindən sıxışdırılması gözlənilir.

Lokal PK əlavələr buraxmaq tədricən aradan qalxacaq – müasir standartlara uyğun brauzer olması kifayət edəcək. Çox yəqin ki, Google-nin Chrome OS layihəsinin ardınca digər analoji layihələr gələcək, bu isə Web OS tərəfə - ola bilər ki, indi onun təsvir edildiyi şəkildə deyil – hərəkəti tədricən təmin edəcək. İnternetə giriş üçün kiçik ölçülü ekranı olan mobil qurğuların sayının çoxalması ona səbəb olacaq ki, mobil trafik ixtisaslaşmış PT əsasında, ehtimal ki, - ayrıca bir servis üçün əlavələrlə - generasiya edəcək. Hotmail, Gmail, WordPress, You Tube, Hulu və Flickr özlərinin çoxmilyonlu auditoriyaları ilə artıq onlayn əlavələrə, kontent saxlanması və mübadiləsi ilə çıxışı artıq təmin edir, yaxın 10 ildə "buludlar" kommunikasiyaların dominantlıq edən instrumenti olacaq. Pew Internet Data Memo məlumatına görə 2008-ci ilin sentyabr ayında amerikalıların 69% haçansa onlayn saxlama xidmətindən və ya veb əlavədən istifadə etmişdir. Onlayn depoların populyarlığının artmasının ardınca dərhal faylların mübadiləsi üçün çox sayda veb əlavələrin meydana çıxması gəlir və çox güman ki, ixtisaslaşmış xüsusi axın - p2p xidmətləri gəlir.

Yaxın illərdə İnternetdə medianın payı əsasən istifadə edilən kontentin hesabına çoxalacaq: şəbəkə video trafik hər il 60% artır və növbəti 5-8 ildə onun həcmi 100 dəfə çoxalacaq. Artıq çox yaxında məqsədləri istifadəçilərin yaratdığı kontentlə yüklənən resurslardan gəlir əldə etmək olan biznes-modellərin gur inkişafını gözləmək olar: könüllü bağışlamalardan ödənişli seyretmələrə qədər (məsələn, fotoların, videoların, bloqların və s. sayına görə ödəniş və ya abunə ilə); reklam-istiqamətlənmiş modellər, üçüncü şəxslərin kontentinin lisenziyalaşması.

Bundan başqa, inkişaf etmiş media-platformalara əlavə qurğular üçün biznes-model freemiumun (kommersiya servis paketi əlavə edilmiş ödənişsiz kontent nümunələrinin məhdud sayda təchizatı) sonrakı təkamülü nəzərdə tutulur.

2010-cu ildə tək Facebook daimi istifadəçilərinin sayı 500 milyonu keçdi, Wired baş redaktoru Kris Andersen öz məqaləsində qeyd edir ki, mahiyyətcə bu, sosial şəbəkə internetdə monopoliya və oliqopoliya yaradılması tendensiyasını əks etdirir. Facebook dəqiq standartların, yüksək keyfiyyətli dizayn və layihələrin, mərkəzləşdirilmiş idarəetmənin realizə edildiyi paralel virtual dünya forması almışdır. Çox güman ki, bazarın digər böyük oyunçuları da, qapalı

platformaların bu cür modelləri uğrunda mübarizə edəcəklər, çünki, gələcəkdə SaaS kompaniyası (Software as a Service – proqram təminatı xidmət kimi) və ixtisaslaşmış əlavələr vasitəsilə istifadəçilərin fəaliyyətinə müdaxilə etmək mümkün olacaq, bu zaman nizamlamanı tərtibçilərin və ya xidmət təminatçılarının istəyi adı altında maskalayırlar.

Buna baxmayaraq, Google müdafiə etdiyi açıq internetin müdafiəçiləri az deyil. The Future of the İnternet Ekonomy hesab edir ki, əməkdaşlığın yeni onlayn instrumentləri artıq yaxın zamanlarda intellektual-mülkiyyətin hüdudlarının qorunmasının səmərəliliyinə ciddi təsir edəcək – İnternetin spesifik şəraitində adi monopol hüdudlar optimal deyil və sənayenin inkişafının Creative Commons, General Public License (GRL) tərəfə, məcburi lisenziyalaşdırmaya və s. istiqamətlənəcəyini gözləmək olar.

Kompaniyaların fəaliyyətində onlayn iştirak imkanı sahibkarlığın strukturunu və mahiyyətini, biznes-mühitin özünü əhəmiyyətli surətdə dəyişdi, aydındır ki, bu, zaman keçdikcə, texnologiyanın inkişafına, ekonomik göstəricilərə və istifadəçi tələbinə daha çox təsir edəcək.

Avropalı ekspertlərin fikrincə, yaxın illərdə dünya ekonomikasında, Şəbəkədə böyük korporasiyalarla reklam imkanlarında praktik olaraq bərabərləşən, amma, bu zaman sonuncuları çeviklikdə və biznes-modellərin reaktivliyində əhəmiyyətli şəkildə üstələyən kiçik müəssisələrin rolu və iştirak dərəcəsi dəyişəcək.

Rəqabət mübarizəsinin əsasının özü də - satışdan - əlçatanlığa, müştərilərlə birbaşa tranzaksiyalardan – qarşılıqlı fəaliyyətin çoxtərəfli platformalarına, qiymətdə, keyfiyyətdə və imkanlardakı rəqabətdən – abunə ilə xüsusi servis paketlərində əlçatan innovasion ərzaqlara, kommunikasiyanın xidmətlərinə və vasitələrinədək – dəyişəcək. Uzunmüddətli perspektivdə gələcəyin ərzaqlarını inkişaf etdirmək, irəlilətmək və sifariş etdirmək çox güman ki, xidmət kimi olacaq, xüsusilə də "simsiz cihazların şəbəkəsinin" komponentləri qarşılıqlı şəkildə işləməyə başlayacaq. Deyilənlərdən hansıların reallaşacağını gələcəkdə görəcəyik, ancaq, 2025-ci ildə həyatın necə olacağı haqda cəsarətli proqnozlar ən azı maraqlıdır.

**Açar sözlər:** Gələcəyin interneti, əşyaların interneti, neyron şəbəkələr, süni intellekt.

**İstifadə edilmiş ədəbiyyat**

1. Геутс Билл. Бизнес скоростью мысли. Изд. 2-е, исправленное – М., ЭКСМО – Пресс, 2001. 480 с.
2. Сэмюэл Грингард. Интернет вещей: Будущее уже здесь https://www.litres.ru/semuel-gringard/internet-veschey-buduschee-uzhe-zdes/chitat-onlayn/
3. 3.http://venture-biz.ru/informatsionnye-tekhnologii/69-internet-budushego?format=pdf
4. https://itc.ua/news/v-2025-godu-internet-budet-povsyudu
5. http://madan.org.il/ru/news/internet-budushchego-monopolizaciya-i-neravenstvo
6. https://futurist.ru/articles/35
7. https://thatsmart.ru/2015/05/incredible-connected-object-concepts-solve-problems-future/
8. https://www.inopressa.ru/article/01Jul2014/dailymail/2025.html
9. https://www.inopressa.ru/article/01Jul2014/dailymail/2025.html
10. https://futurist.ru/articles/35

**Сохраб Магеррамов**

## ТЕНДЕНЦИИ РАЗВИТИЯ КОМПЬЮТЕРНЫХ СЕТЕЙ И ИНТЕРНЕТА

**Резюме**

В статье изучаются прогнозы по развитию технологий, компютерных сетей и интернета в ближайшие и дальние перспективы. Рассматриваются некоторые прогнозы новшества в области технологий и интернета, ожидаемые в ближайшие 10 лет.

Говоря о новшествах в интернете анализируются прогнозы, связанные с уменьшением текста, созданием персональных помощников с помощью нейронных сетей, персонализацией, открытостью или скрытностью интернета, существованием независимого или социального контроля.

Отмечается, что виртуальная реальность все больше персонализируется и интернет выходит за рамки пространства, как место для общения людей.

**Ключевые слова:** интернет будушего, интернет вешей, нейронные сети, искусственный интеллект.

**Sohrab Maharramov**

## TRENDS IN THE DEVELOPMENT OF COMPUTER NETWORKS AND THE INTERNET

**Summary**

The article studies forecasts on the development of technologies, computer networks and the Internet in the near and long prospect. Attention is drawn to the several forecasts of innovation expected in the next 10 years in the field of technology and the Internet.

Talking about innovations on the internet are analyzed forecasts related to the reduction of the text and the creation of personal assistants with the help of neutral networks, personalization of the open or secrecy internet by existence of independent or social control.

It is noted that the virtual reality is becoming more personalized and the Internet goes beyond space as a place for people to communicate.

**Key words:** Internet of the future, internet, neural networks, artificial intelligence, quantum teleportation.

**UOT-101.1**

**Faiq Ələkbərli**
**AMEA Fəlsəfə İnstitutu, fəl.ü.f.d., dosent**

# SEYİD ƏZİM ŞİRVANİNİN İCTİMAİ-MAARİFÇİ VƏ DİNİ-FƏLSƏFİ GÖRÜŞLƏRİ

XIX yüzildə yaşamış Azərbaycan türk mütəfəkkiri Seyid Əzim Şirvani (1835-1888) 1835-ci ildə Şamaxıda ruhani ailəsində anadan olmuşdur. Uşaqlıq illərini ana babası Molla Hüseynin himayəsində Qafqazın Yaqsay kəndində keçirən, burada mədrəsədə dini təhsil almaqla yanaşı ərəb və farscanı öyrənən Seyid Əzim 1853-cü ildə yenidən Şamaxıya qayıtmışdır. 1855-1858-ci illərdə Bağdad, Şam, Məkkə, Mədinə, Qahirə, Hələb, Təbriz, İsfahan və digər Yaxın Şərq şəhərlərini həm elmini artırmaq, həm səyahət etmək məqsədilə gəzib-dolaşan Seyid Əzim təxminən 1859-cu ilin başlarında Şamaxıya qayıdaraq cəhalətə, avamlığa qarşı çətin bir mübarizəyə başlamışdır. Məhz cəhalətə qarşı mübarizə aparıb millətinə işıqlı yol göstərmək uğrunda mübarizə aparan Seyid Əzim 1874-cü ildə Şamaxıda fəaliyyətə başlayan yarı mülki, yarı ruhani məktəbdə fars və türk (Azərbaycan) dili müəllimi təyin olunmuş, eyni zamanda 1877-ci ildən Şamaxı şəhər məktəbində də dərs vermişdir. O, 1879-cu ildə siyasi cəhətdən şübhəli hesab edilərək müəllim vəzifəsindən uzaqlaşdırılsa da, bu uzun sürməmişdir. Şair Tiflisə gedib müfaviq orqanlara şikayət etməklə öz yerinə bərpa olunmuşdur. O, 1888-ci il mayın 20-də müəmmalı şəkildə ölmüşdür (1, s..542-548). Seyid Əzimin başlıca əsərləri aşağıdakılardır: “Təzkirə”, “Divani-türki”, “Rəbiül-ətfal”, “Tacül-kütub” və b.

**İctimai-maarifçi görüşləri.** Bizcə, S.Ə.Şirvaninin dünyagörüşündə dini və ictimai maarifçilik görüşləri bir yerdə şərh olunmalıdır. Qeyd edək ki, o bir tərəfdən maarifçiliyin əhəmiyyətindən bəhs edir, digər tərəfdən əhalinin maariflənməsinin türk dilində yazılan kitablarda öz əksini tapmasının vacibliyi göstərirdi. Bu anlamda o, Zərdabiyə göndərdiyi məktublarının birində məktəblərdə türk dilində şəriət dərsliklərinin olmadığını və bu dildə bir kitab yazdığını bildirmişdir: “Bizim məktəblərdə oxumağa türki dilində uşaqlar üçün şəriət kitabları yoxdur. Mən bir müxtəsər türki dilində «Zakon-bojiy» kitabı yazmışam” (2, s.125). Başqa bir məktubunda isə Şirvani Zərdabiyə yazır ki, «…öz türki lisanımızda çox asan ibarələrlə bir türki kitab nəzm etmişəm» (2, s.128). Eyni zamanda türk dilinin qədimliyi ilə öyünən S.Ə.Şirvani, «Əkinçi»nin nəşri ilə əlaqədar onu belə tərif etmişdir:

*Neçə müddətdi ki, Həsənbəyi-zar,*
*Hüsnü-tədbir ilə o fəxri-kibar,*
*Öz qədimi lisanımızda haman,*
*Qəzetə çapını edib ünvan (2, s.60).*

Deməli, Türk dilində maarifləndirmənin vacibliyini önə çəkən S.Əzim elə doğma dilində də Qafqaz, o cümlədən Azərbaycan türklərinin cəhalətinin, avamlığının səbəblərini izah etməyə çalışmışdır. S.Əzim yazır:

*Nə səbəbdən zəlilü xar olduq,*
*Ərzəli-xəlqi-ruzigar olduq?*
*Gər özün tapsan, ey vəfa kanı,*
*Sənə qurban bu Seyyidin canı!» (2, s.67).*

Onun fikrincə, Qafqaz, o cümlədən Azərbaycan türklərinin başqa millətlərdən geridə qalmasının səbəbi isə islam dini deyil, müsəlmanların-türklərin özlərinin millət qeyrəti çəkməmələridir. Kimsə naxoş olanda onun dərdinə dərman axtarıldığını bildirən Şirvaniyə görə, Qafqaz müsəlmanları məhz riyakar ruhanilərin də oyunlarına gələrək öz nadanlıqları üzündən tərəqqidən uzaq qalıblar. Şirvani yazır:

*İndi naxoşdu-milləti-islam,*
*Ona lazımdır eyləmək əncam.*
*Dərdimizdir bu dərdi-nadanlıq-*
*Ki, tutubdur bizi pərişanlıq.*
*Qeyrilər etdilər tərəqqiyə-tam,*
*Qaldı zillətdə firqeyi-islam (2, s.117-118).*

S.Ə.Şirvani müsəlmanların günü-gündən zəlil olub «naxoş»lamalarının səbəbini yalnız onlarda «millət qeyrətinin» az olmasında deyil, həm də onların savadsızlıqlarında görürdü. Elm və tərbiyə əldə etməyin faydasını dəfələrlə qeyd edən, tərəqqinin ancaq elmə bağlı olduğunu söyləyən ziyalıya görə, elm təkcə müsəlman uşaqlarına öyrədilən «Nəhv» və «Sərf», «Gülüstan», «Bustan», «Leyli və Məcnun», «Vəsfi-badəfürüş» və bu kimi digər kitablardan ibarət deyil. Onun fikrincə, bu baxımdan müsəlmanlar arasında elmi kimdən öyrənməyin və hansı elmləri öyrənməyin özü də problemdir. Şirvani yazır:

*Hansı məktəbdə fövci-ətfali,*
*Hansı bir elmdən edək hali?*
*Məktəbi-tibb, ya ki hikmətdən?*
*Ya ki hərbiyyə, ya ki hirfətdən? (2, s.123).*

S.Ə.Şirvani müsəlmanların ağır günə düşmələrinin səbəbini H.Zərdabi kimi başa düşsə də, bütün bunlardan çıxış yollarını göstərərkən ümumi tezislərdən çıxış etmişdir. Şirvaniyə elə gəlmişdir ki, əgər islama, şəriət qanunlarına olduğu kimi əməl edilərsə və bu dövrdə Avropada da geniş yayılan mütərəqqi ideyalar – yeni üsullu məktəblər, qəzetlər yaranarsa, dünyəvi elmlər öyrənilərsə onda İlam xalqları, o cümlədən Qaqfaz türkləri də inkişafa qədəm qoyacaqlar. Bu baxımdan müsəlmanların cəhalətdən, avamlıqdan qurtarıb inkişaf etməsi yollarından birini yeni tipli məktəblərin açılmasında görən S.Ə.Şirvani bu işin başlıca iştirakçılarından biri olmuşdur. Bu məsələdə ona H.Zərdabinin, eləcə də «Əkinçi» qəzetində irəli sürülən Türk, İslam və Qərb ideyalarının güclü təsiri olmuşdur. Belə ki, Şirvani Şamaxıda açılan yeni tipli məktəbdə Zərdabinin ən azı mənəvi əməyinin olmasını etiraf edirdi (2, s.132).

S.Ə.Şirvaniyə görə, yeni məktəblərdə dini elmlərlə yanaşı, dünyəvi elmlər də öyrədilməlidir. Lakin müsəlmanlar arasından dünyəvi məktəbin və qəzetin əleyhinə olanlar da var idi: müsəlmanlar uşaqlarını nə məktəbə qoyurlar, nə də qəzet oxuyurdular. Başqa müsəlmanlara örnək olmaq məqsədi ilə Şirvani oğlunu Şamaxıda açılan yeni məktəbə qoyduğuna görə xalqın məzəmməti ilə qarşılaşır. Bu zaman oğluna xitabən o, yazır:

*Demirəm rus, ya müsəlman ol,*
*Hər nə olsan get, əhli-ürfan ol!(2, s.129).*

Eyni zamanda Şirvaninin soydaşları yeni məktəbə qarşı çıxdıqları kimi, qəzetin də əleyhinə idilər. S.Əzim isə hər iki halda Zərdabinin tərəfini saxlayaraq dünyəvi məktəbin və qəzetin zəmanənin tələbi olduğunu müsəlmanlara anlatmağa çalışır və qeyd edirdi ki, burada şəriətə zidd heçnə yoxdur. H.Zərdabini «millətin xeyirxahı» adlandıran S.Ə.Şirvanidə millət təəssübkeşliyinin yaranmasında onun böyük rolu olmuşdur. Zərdabinin Qafqazda ilk dəfə türkcə qəzet çıxarmasını böyük bir yenilik hesab edən S.Ə.Şirvani «Əkinçi»nin yaranmasını mühüm hadisə kimi dəyərləndirirdi (2, s.57).

Yeni tipli məktəb və qəzetlərlə yanaşı, Qərbdə mövcud olan dünyəvi elmlərin Qafqazda yayılmasını da təbliğ edən S.Əzim qeyd edir ki, artıq bütün dünya oyanıb, işlər sahmana düşüb. Ancaq «İslam milləti»nə gəlincə, vəziyyətin tamamilə əksinə olduğunu etiraf edən ziyalının fikrinə görə, biz babalarımızda nə görmüşüksə hələ ona əməl edirik. Artıq avropalılar Ay, Günəşin nədən tutulmasını, zəlzələnin nədən baş verdiyini bildiyi halda, müsəlmanlar hələ də xürafat içindədirlər və elmə inananlar kafir adlandırılır. Şirvani dindaşlarını inandırmağa çalışırdı ki, burada heç bir küfr yoxdur:

*Bixəbər olmuşuq şəriətdən,*
*Başımız çıxmır elmi-hikmətdən (2, s.119).*

Onun fikrincə, bu gün Avropanın kəşf etdiyi bir çox ixtiralar Quranda da öz əksini tapmışdır. Sadəcə, indiyə qədər din başçıları Quranı xalqa olduğu kimi çatdırmayıblar. S.Ə.Şirvani həmin ruhaniləri nəzərdə tutaraq yazır:

*Hanı islam üçün sərəncamın?*
*Yerə girsin o müctəhid namın!*
*Söylədin teleqramı elmi-bəlis-*
*Ki, onu ixtira edib iblis.*
*Kari-şeytan dedin dəmir yolunu,*
*Xəlqə etdin həram Dum pulunu.*
*Xaçpərəstlər təmam düşdü qabaq,*
*Tökülüb dalda qaldıq, ay sarsaq!*
*Aldı əhli-kitab dünyanı,*
*Şərh edirsən sən indi Quranı?!*
*Əhli-islam oldu xarü zəlil,*
*Baisi sənsən, ey imami cəlil!*
*Sən bizi nəfə etmədin vasil,*
*Barı qoy özgə elm edək hasil.*
*Bizi bəsdir bu qədər aldatdın,*
*Dini dinarə hər zaman satdın (3, s.44).*

O güman edirdi ki, əgər müsəlmanlar dünyəvi elmləri öyrənsələr, Quranın mütərəqqi din olduğunu daha yaxından anlamış olarlar. Bu baxımdan S.Əzim müsəlmanları dini elmlərlə bərabər coğrafiya, etika, tarix və bu kimi dünyəvi elmləri də öyrənməyə dəvət edirdi. O, ümidini üzmür və islam millətlərinin də bir gün oyanacağına inanırdı. Onun fikrincə, bunun üçün köhnə dünya ilə vidalaşmaq və yeni dünyaya daxil olmaq lazımdır:

*Gətirmək tazə üsluba gərəkdir köhnə dünyanı (2, s.197).*

Deməli, o, Qərb mədəniyyətinin bəzi cəhətlərini təqdir etməklə yanaşı, ümumilikdə nicat yolunu İslam mədəniyyətindən, Türk mənəviyyatından kənarda axtarmağı mənasız görmüş, bu mənada ortaq mövqeden çıxış etməyə cəhd göstərmişdir. Hər halda Şirvani Bakıxanov kimi Qərb mədəniyyətindən tamamilə kənarda durmasa da, Axundzadə kimi də İslam-Türk mədəniyyətindən birdəfəlik əl çəkməyi də doğru hesab etməmiş, bu anlamda Zərdabinin yoluna yaxın orta bir yol izləmişdir.

**Dini-fəlsəfi görüşləri.** S.Ə.Şirvaninin dini-fəlsəfi görüşlərinin əsasını Qurani-Kərim və hədislər təşkil etsə də, o yenilkçi bir müsəlman-türk mütəfəkkiri idi. Şirvani islam qanunlarından kənara çıxmasa da, ancaq o dövrdə baş verən cəhaləti açıq şəkildə tənqid edir və millətin inkişafı naminə şəriətdən, peyğəmbərin hədislərindən uyğun misallar gətirirdi. Bir sözlə, S.Ə.Şirvani bir tərəfdən Quranla, o biri tərəfdən isə yenilikçi düşüncələrlə millətinin oyanışına xidmət göstərməyə çalışmışdır.

Seyid Əzimin İslam dininə, İslam fəlsəfəsinə bağlılığı daha çox özünü Qurana, Məhəmməd Peyğəmbərə (s.), Həzrət Əliyə (ə) və Əhli-beytə olan sevgisində biruzə vermişdir. O, Qurani-Kərimin müstəsnalığı ilə bağlı yazırdı:

*Gərçi mənası qeyri-asandır,*
*Kağızı, xətti, cildi Qurandır.*
*Harada görsən kəlami-sübhani,*
*Öpübən qoy göz üstünə ani.*
*Möcüzi-həqdü batinü zahir,*
*Məss etməz məgər onu tahir?(3, s.109).*

Seyid Əzim «Peyğəmbərin tərifi» şeirində isə, Məhəmməd Peyğəmbərə olan sevgisini belə ifadə etmişdir:

*Dəxi yüz töhfeyi-səlatü səlam,*
*Nə qədər var bu gərdişi-əcram,*
*Olsun ol şəxsə kim, müəyyəddir,*
*Ənbiya sərvəri Məhəmmədir.*
*«Qabəqövseyn» bəzminin şahi,*
*«Fətədəlla» süpehrinin mahi.*
*«Vəzzüha» vəsfi-mahi-rüxsari,*
*Rəmzi-«Vəleyl» zülfünün tari.*
*Ol ki, nəleyni vermiş ərşə rəvac,*
*Ənbiya cümlə feyzinə möhtac.*
*Zatına yox zəmanə içrə nəzir,*
*Mehdiyü hadiyü bəşirü nəzir –*
*Kim, odur şəmsi-Yəsribü Bətha,*
*Şəbi-dacə cəmalı verdi ziya.*
*Münkəşəf ondan oldu sübhi-əzəl,*
*Münxəsəf ondan oldu Latü Cəsəl.*
*Odur ecazə mənbəyi-mütləq,*
*Barmağından qəməl olub münşəq.*
*Ona Qurani möcüzi-baqi –*
*Ki, qoyub aciz əhli-afaqi.*
*Gərçi ümmidi zahir ol mövla,*
*Leyk oldu müəllimi-əsma.*
*İlləti-mayəkunü məniyi-ün,*
*Mənbəyi-çeşməsari-elmi-lədün.*
*Sirri-tövhidü nəfsi-sərməddir,*
*Əhədü Əhmədü Məhəmmədir (3, s.10).*

Hətta, Seyid Əzim arzulayırdı ki, Allah sonuncu peyğəmbəri gərək türklərdən seçərdi və Quran da türk dilində olardı:

*Çün Mühəmməd ərəbdən etdi zühur,*
*Öz lisanında qıldı həq məmur.*
*Türkdən göndərəydi gər ani,*
*Türki dildə olurdu "Qurani (3, s.10).*

Başqa bir şeirində isə, mütəfəkkir Peyğəmbərin Allah tərəfindən elçi seçilməsnin səbəblərini izah etməyə çalışır:

*Axiri-həccini çün Xatmi-rəsul etdi təmam,*
*Azimi-Yəsrib olub Əhmədi-Məhmud məqam,*
*Ol şəhə-Xümmi-qədir üzrə olundu ilham,*
*Gəldi Cibril ki, ey sərvəri-səyyarə məqam,*
*Sənə göndərdi salam iyzədi-qəhhar bu gün.*

*Sən gərəkdir edəsən Xümmi-qədir üzrə nüzul,*
*Göftgü eyləməsin zümreyi-əshab fuzul,*
*Bəs gərək zahir ola mərtəbeyi-zövci-Bətul,*
*Olacaqdır o şəhin ziddi «zəlumən və cəhul»,*
*Açılır aləmə məxfi olan əsrar bu gün (2, s.8).*

Ya da:

*Məhəmməd nuri zahir oldu gün tək kainat içrə,*
*Ziyalansın gözüm kim, aləmə nuri ziya gəldi (2, s.72).*

Deməli, Peyğəmbərin bu dünyaya gəlməsi və elçi olaraq Allah tərəfindən seçilməsinin böyük bir anlamı vardır. Seyid Əzimə görə, Peyğəmbərin kainat içində "nuri zahir" olmasından tutmuş Quranı müsəlmanlara çatdırması Allahın miqyasa sığmaz lütfü ilə bağlıdır. Eyni zamanda,

Peyğəmbər yalnız dövrünün cahillərini doğru yola çəkməmiş, həm də gələcək də baş verə biləcək dəhşətlərdən insanları xəbərdar etmişdir. Şirvani yazır:

*Ari, ari, cənab pyeğəmbər*
*Bu hədisi veribdi xəlqə xəbər –*
*Ki: «Gəlir bir zamani-tulü təvil*
*Əhli-islam olursa xarü zəlil,*
*Tutar ol vəqt küfr dünyanı,*
*Xar edir çərx əhli-iymanı.*
*Nə ki cühhal, bəlkə alimlər*
*Dinimi, şərimi bəyənməzlər».*
*Sədəqə, sədəqə rəsulüllah.*
*Bu haman əsrdir bil, ey gümrahı!(2, s.185).*

Peyğəmbərdən sonra Həzrət Əlini İslam yolunda özünə rəhbər kimi qəbul edən şair-filosof yazırdı ki, kim onun yoluyla gedirsə nicat da tapacaqdır. Çünki peyğəmbərin yolunu ondan sonra doğru davam etdirən Həzrət Əli və onun ardıcılları olmuşdur. Şirvani yazırdı:

*Uyma zəntəblərə, tut şəhi-Mərdan yolunu,*
*Ələ al sağəri-mey, məşrəbi-mərdanədi bu (4, s.267).*

Ya da:

*Gər zati-həqqi bulmaq dilərsən,*
*Əğyarı tərk et, tap Mürtəzani.*

*Aləmdə yoxdur bir ondan özgə,*
*Əhvəl degidlin bir görsən ani.*

*Zati-Məhəmməd zati Əlidir,*
*İki bədəndə bir bil o cani (4, s.337).*

Ancaq Seyid Əzimin "şiəliyi" mənəvi anlam daşıdığı üçün sünnilərə qarşı heç bir düşmənçilik münasibəti bəsləməmişdir. Sadəcə, o inanrıdı ki, Xilafətin ilk rəhbərlərinin hər hansı günahları olubsa Allaha qarşısında cəzalarını alacaqlar:

*Mən özüm şiəyəm, budur sifətim,*
*Leyk əshabə yox müxalifətim.*
*Gər Əbubəkrlə Ömər, Osman*
*Zülm ediblərsə, Həqq edər divan (3, s.8).*

Ümumiyyətlə, Şirvaniyə görə müsəlmanların çoxu elm öyrənmək, millət qeyrəti çəkmək əvəzinə, İslam dininə aid müxtəlif məzhəblərə üz tutublar ki, bu da doğru deyildir. Bu baxımdan S.Ə.Şirvani müsəlmanların geriliyinin səbəblərindən bir kimi də dini məzhəbləri, xüsusilə sünni və şiə məsələsini göstərirdi:

*Şiəmiz sünniyə edər töhmət,*
*Sünnimiz şiədən edər qeybət.*
*Bizi puç etdi şiə, sünni sözü,*
*Əhli-islamın oldu kor gözü.*
*Bizə sairlər eyləyir töhmət,*
*Çün tərəqqi edibdir hər millət (2, s.118).*

Çox təəssüflər olsun ki, hələ o vaxt ermələri, gürcüləri və başqa xalqları millət adlandırıb öz adı ilə çağırdığımız halda, eyni bir xalqı dini məzhəbə görə bir-birindən ayırıb sünni və şiə kimi, ən yaxşı halda müsəlman milləti olaraq qələmə alıb, bir-birinə qarşı qoymuşuq. S.Ə.Şirvani də millətinin ziyalı oğlu kimi, sünni-şiə məsələsinə son qoyulmasının vacibliyini dərk etmiş və başqa xalqlar kimi tərəqqi etməyin zamanının gəldiyini yazmışdır.

Seyid Əzimin dini-fəlsəfi baxışlarında İslam dininə aid ayin və mərasimlərdəki əlavələrin də tənqidi xüsusi yer tutur. Bu mənada, onun İslamın böyük cəfakeşlərindən hesab olunan İmam

Hüseynin (ə) qətli məsələsi ilə bağlı məhərrəmlikdə həyat keçirilən təziyədarlığa, xüsusilə Aşura gününə münasibəti bir çox müasirləri ilə müqayisədə fərqli olmuşdur. Seyid Əzim ilk növbədə, İmam Hüseynin (ə) qətlinin müəyyən bir çərçivədə məhdudlaşdırılıb fanatikcəsinə qeyd edilməsinin əleyhinə çıxmışdır. S.Ə.Şirvaniyə görə, İslamda belə bir hökm yoxdur ki, baş çapmaq, qan tökmək lazımdır. Onun fikrincə, əgər məhərrəmlikdə müsəlmanların özlərinin qanlarını tökməsi ilə bağlı müddəa olsaydı, ilk növbədə buna tanınmış din alimləri ya da imamlar özləri əməl edərdilər:

*Heç eşitdinmi çapıb başını imami-Cəfər?*
*Ya ki Museyyi Riza, Əskəriyyi-xəstəcigər,*
*Bizdən onlar məgər öz cəddini az istərlər?*
*Niyə bəs vermədilər bu işə fərman əxəvi!*

*Bu yəqnimdir əgər olsa özü zində imam,*
*Hökm edər: çarpma başın, nəhydi bu feli-həram.*
*Yenə hər il çarpacaq başını bu qövmi-əvam,*
*Demə kim, tərki-təbiət ola asan, əxəvi!(2, s.41).*

Bununla da Seyid Əzim hesab edirdi ki, özlərini şiə hesab edən müsəlmanların məhərrəmlikdə baş yarıb, zəncir vurub qan tökmələri İmam Hüseynə (ə) olan sevgilərindən daha çox buna artıq adət etmələridir. Yəni onlar artıq məhərrəmliyi bu formada qeyd etməyi bir adət halına salıblar. Ona görə də, öz cahilliklərindən və avamlıqlarından ibrət dərsi ala bilmirlər. Seyid Əzim yazırdı:

*Doğrudur, baş çapırıq biz dəxi cəmiyyət ilə,*
*Bunu lazımdır həlal eyləməyə hüccət ilə,*
*Nə olur bir göz açıb baxmaq işə ibrət ilə,*
*Bəlkə yoldan çıxarıbdır bizi şeytan, əxəvi! (2, s.41)*

Yaxud da:

*Xaçpərəstlər hamısı açdı gözün düşdü qabaq,*
*Dalda qaldıq tökülüb cəhl ilə biz, ay sarsaq!*
*Bəs nə vəqti bizə qismət olacaq göz açmaq?(2, s.43).*

Ümumiyyətlə, S.Ə.Şirvani o fikrin tərəfdarı idi ki, İmam Hüseynin (ə) Kərbəlada şəhid olmasının mənəvi mahiyyətini dərk etmək və ondan şüurlu şəkildə nəticə çıxartmaq lazımdır. Bu şüurlu nəticə isə ondan ibarətdir ki, müsəlmanlar İmam Hüseyn (ə) kimi xoşniyyət, himmətli və ümmətsevər olmalıdır. Başqa sözlə, İmam Hüseyn (ə) yolunda qan töküb divanəlik etməkdənsə onun şəhadət yolunu davam etdirmək və o ucalığa qovuşmaq uğrunda mübarizə aparmaq lazımdır. Bu baxımdan Seyid Əzim imam yolunda qan tökməyi savab əməl kimi qələmə verənlərə qarşı çıxırdı.

Təsadüfi deyil ki, İslam fəlsəfəsinin mühafizəkar nümayəndəsi M.M.Nəvvab bu cür düşüncələrinə görə Seyid Əzimi İmam Hüseynin (ə) şəhadət yolunu dərk etməməkdə, hətta kafirlikdə belə ittiham etmişdir. Onun fikrincə, Seyid Əzim Kərbəla faciəsini dərk edə bilmədiyi üçün, imam yolunda qan tökməyin mahiyyətini anlamamışdır. Nəvvab yazırdı:

*Aç bəsirət gözünü şahi-şəhidanə tərəf,*
*Baxgilan Kərbübəla səmtinə meydana tərəf.*
*Məhliqa canları gər tiği-cəfa ilə tələf,*
*Gör ki, sən də olusan qanına qəltan, Əzim (5, s.62).*

Nəvvabın fikrincə, S.Əzim o vaxt Kərbəla müsibətini anlayar ki, onun kimi imam yolunda baş yarıb qanını tökərdi, qəmlə göz yaşı axıdardı və nəhayət, cəddini tanımış olardı:

*Dəxi bihudə danışma sən, əya, paki-nihad,*
*Eylə Nəvvab kimi nəfsi-zəlumilə cihad,*
*Qəmlə qan-yaş axıt, eyləgilən cəddini yad,*
*Nariza olmaya, ta şahi-şəhidan, Əzim (5, s.62).*

Seyid Əzim isə Nəvvabın bu həcvinə cavab olaraq yenidən yazırdı ki, ağlamaqla, qan tökməklə nə cəddini tanımaq, nə də Kərbəla müsibətini anlamaq mümkündür.

*Kim deyir ağlama sən Kərbübəla sərvərinə?*
*Canımız cümlə fəda olsun onun Əkbərinə,*
*Ağladı ərzü səma təşnə ölən Əsgərinə,*
*Onu inkar edənin zatına lənət, Hadi! (2, s.43).*

Yaxud da:

*Leyk siz bir para büdətlər edibsiz iycad,*
*Qoymusuz adını siz təziyə, ey əhli-fəsad!*
*Sizə bu təziyədən özgə həvəslərdi murad,*
*Mən ölüm, sən bir özün eylə mürüvvət, Hadi! (2, s.42).*

Seyid Əzim doğru olaraq yazırdı ki, baş yarıb qan tökməyi, zəncir vurmağı, qəmlə göz yaşı axıtmağı imam yolunda savab sayanlar, ancaq nədənsə ac və kimsəsiz müsəlmanlara öz mallarından Kərbəla şəhidinin ehsanı kimi pay vermirlər. Yalnız quru baş yarmaq, göz yaşı axıtmaqla kifayətlənirlər. Seyid Əzimin fikrincə, bütün bunları onu göstərir ki, bəzi müsəlmanlar üçün İmam Hüseynin (ə) yolu ya aydın deyildir, ya da onlar bundan xəbərdar olsalar da özlərini qanmazlığa vurur və şəxsi maraqlarından çıxış edirlər. S.Ə.Şirvani yazırdı:

*Bu deyilmi qərəzin başuvi sən çapmaqdan,*
*Yəni ki, canımı canana edərdim qurban.*
*Maluvi bəs nə üçün eyləməyirsən ehsan?*
*Quru baş çapamağa sən etmisən adət, Hadi!(2, s.42).*

Göründüyü kimi, məhərrəmliyə, Aşura gününə münasibətdə Azərbaycan Türk ziyalıları arasında müəyyən dərəcədə fərqli fikirlər olmuş, hər bir mütəfəkkir Kərbəla müsibətini özünəməxsus şəkildə dəyərləndirməyə çalışmışdır. Şübhəsiz, bu məsələ ətrafında gedən mübahisələrdə İmam Hüseyn (ə) yolunda baş yarıb, zəncir vurub qan çıxaranlar deyil, onun şəhadət yolunu ağılla dərk edib ondan nəticə çıxartmaq istəyən Seyid Əzim və onun kimi düşünənlər doğru yolda olmuşdur.

**Sufi görüşləri.** Seyid Əzimin dünyagörüşündə sufiliyə, sufizmə meylilik də çox hiss olunur. Xüsusilə də, o, riyakar zahidlərə, ruhanilərə nisbətdə özünü bir sufi kimi görür. Yəni onun dindarlığı, möminliyi bir sufi möminliyidir. Məsələn, o, orucluğu bir zahid kimi deyil, bir mömin sufi kimi dərk edir:

*Bir ay rəmazan oruc tutub hər axşam,*
*İftarımı eylədim şərabi-gülfam,*
*İndi nədir, ey şeyx, şəriət hökmü,*
*Kəffarə verim, oruc tutum, ya itam?(4, s.347).*

Eyni zamanda, o, ramazanın sufilik anlamda mahiyyətini ortaya qoyan bir şeirində yazırdı ki, fani dünyada əsas məqsəd insanla Allah arasına sədd çəkməməkdir. Məhz ramazan ayında riya əhlinin bütün cəhdlərinə baxmayaraq, Allahla insan arasında səmimi bir əlaqənin, ilahi bir sevginin yaranması mümkün olur. O yazır:

*Ey saqiyi-gülçöhrə, mahi-rəməzan oldu,*
*Gülzari-rüxi-dilbər zəf ilə xəzan oldu.*

*Dildar tutub ruzə, zəf oldu ona qalib,*
*San yengi çıxan aydır, çərx üzrə əyan oldu.*

*Qaçmış o güli-alın ləli-ləbinin qanı,*
*Bağrım tutulub qəmdən, qönçə kimi qan oldu.*

*Aşüftə olub kakil əbruyi-kəcin tutdu,*
*Mah idi bu eyd üçün əbr içrə nihan oldu.*

*Açıldı dəri-məscid, cəm oldu riya əhli,*
*Bağlandı səri-mina, qəmdən xəfəqan oldu.*

*Niyyət gecəsi verdim iymanı, şərab aldım,*
*Sud oldu bu sövdadə, zahid, nə ziyan oldu?*

*Ta hübbi-Əlidən mey Seyyid kimi nuş etdim,*
*Sərməstligim, saqi, məşhuri-cahan oldu* (4, s.331).

Seyid Əzim hesab edirdi ki, Allahla insan arasında sədd çəkən İslam dini adı altında çıxış edən riyakar ruhanilərdir. Bu anlamda şair İslam dininin günü-gündən «naxoş»lamasının başlıca səbəbkarı kimi hər hansı məzhəbə qulluq etməsinə baxmayaraq, onun adından çıxış edən bütün riyakar ruhaniləri, zahidləri, mollaları göstərmişdir. S.Əzimin fikrincə, onların riyakarlığı nəticəsində mömin müsəlmanlar məscidlərdən üz çevirir, onların övladaları tərəqqidən geri qalır, dini ayin və mərasimlərin mahiyyəti dəyişdirilir, məzhəblərarası təfriqələr daha da vüsət alır və nəticədə «islam milləti» naxoşlayır (2, s.117-118).

Bizə elə gəlir ki, Seyid Əzim məhz bütün bunlara son qoymaq, yəni naxoş «islam milləti»ni sağaltmaq üçün Bakıxanovun yolunun davamçısı kimi, ilk növbədə şeirlərində riyakar zahidlərin iç üzlərini ifşa etməklə yanaşı, Allahla insanı bütünləşdirən bir fəlsəfəni irəli sürürdü:

*Ey könül, məscid yolunu tərk et, rəhi-meyxanə tut.*
*Ğuğma əldə zahidin təsbihini, peymanə tut.*

*Zahidü məscid təmənnasın çox etmə, ey könül,*
*Zahidi bir cüğd bil, həm məscidi viranə tut (4, s.50).*

Ona görə, zahid bir tərəfdən dini moizələr oxuyub avam müsəlmanları cənnətlə şirnikləşdirib cəhənnəmlə isə qorxutduğu halda, o biri tərəfdən özü bu dünyada "cənnət" içində yaşayır, üstəlik o biri dünyada da cənnətə gözünü dikib. Halbuki əsil mömin müsəlman üçün Allaha qovuşmaqdan, Onunla bütünləşməkdən böyük bir xoşbəxtlik ola bilməz. O yazır:

*Zahida, ol sənəmin zülfi-çəlipasına bax,*
*Aç bəsirət gözüvi, nərgisi-şəhlasına bax.*

*Ayeyi-xəmr oxuyur, nəfini inkar qılır,*
*Tutduğu felini gör, verdigi mənasına bax.*

*Cənnətə getdi və ya düzəxə mürdə, nə qəmin,*
*İrsinə dik gözüvü, külçəvü həlvasına bax.*

*İstəyir cənnəti zahid bu qədər hiylə ilə,*
*Əbləhin fikrini gör, dildə təmənnasına bax (4, s.66).*

Eyni zamanda, o, deyirdi ki, zahiddə hünərin olmadığını da, ilahi məhəbbətdən uzaq olduğunu da, hətta insanlıqla üst-üstə düşməyən əməllərini də yaxşı bilir. İlahi məhəbbətə doğru yürümək üçün gərək insanda o, məhəbbətin bir zərrəsi olsun. O yazır:

*Ey zahidi-xudbin, bilirəm kim, hünərin yox.*
*Meydani-məhəbbət tərəfə bir güzərin yox.*

*Mehrabdə əgləş ki, cigərdar degilsin,*
*Bu nari-qəmə yanmağa əsla cigərin yox.*

*Ta müxbiri-eşq oldu könül, bixəbərəm mən,*
*Zahid, xəbərim yox, bu xəbərdən xəbərin yox.*

*Sən eylə pəri, hur xəyalilə ibadət,*
*Bəzmində ələnnəqd büti-simbərin yox.*

*Ey zahidi-xüşk, eyləmə üşaqqə təfaxür,*
*Ahi-səhərin, suzi dilin, çeşmi-tərin yox! (4, s.67).*

Şair onu da yazırdı ki, artıq zahid sözü ilə hər hansı savaba meyil göstərməyin özü də belə doğru hesab edilmir. Çünki zahidin savab dediyinin özündə də, bir riyakarlıq vardır. Bu anlamda zahid kimi aşkarda müsəlman olub, əslində gizlində isə dinini şeytana verməkdənsə, Şeyx Sənan tək açıq-aşkar bir kafir qızına meyil edib ona görə din dəyişdirmək daha məqbuldur. O yazır:

*Zahida, dinivü sən verdin əbəs şeytanə,*
*Şeyx Sənan verib öz dilbəri-tərsası üçün (4, s.250).*

Ümumiyyətlə, Şirvaninin nəzərində zahidlər, riyakar din xadimləri İslam dininin ən böyük düşmənləridir. Çünki məhz onların şər əməlləri nəticəsində müsəlmanların çoxu məsciddən üz döndəriblər, xalq arasında molla və zahidin adları çəkiləndə ikrah hissi baş qaldırır. Artıq riyakarlıqla zahidlik sinonim kimi başa düşülür. Şirvani yazır:

*Riyanı tərk elədim, cam tutdum, ey zahid,*
*Mənim də el gözünə parsalığım var idi (4, s.271).*

Ya da:

*Gecə-gündüz ki, özü məsti-riyadır zahid,*
*Badədən bəs nə üçün mən qılır ovbaşi?*

*Kəbədə olsa da zahid ki, təvaf etməzdi,*
*Səngi-meyxanədən olsaydı gər bir daşi (4, s.289).*

Gördüyümüz kimi, Şirvani açıq-aşkar şəkildə zahidləri din düşməni elan etmiş, özünü bir sufi kimi ortaya qoymuşdur. Onun nəzərində zahidlərin, vaizlərin bir qara qəpik dəyəri yox idi. Çünki "naxoş"layıb "xəstə" halına düşən İslam dininin bu vəziyyətində şeytanla əlbir olan zahidlərin payı çox böyük idi:

*Vaiz eləyir mənfəəti-badəni inkar,*
*Meyxanələrə gör ki, nə əfzundu inadı.*

*Zahid işi zahirdə əbadır və duadır,*
*Məlun kişidir, hiyləvü təzvir nihadı (4, s.307).*

Ya da:

*Girəm ki, dögər başını səccadəyə zahid,*
*Tərsadə olan məniyi-zünnarı bilirmi? (4, s.318).*

Ya da:

*Gər oldu mənim canıma canan varis,*
*Zahid, ola iymanuva şeytan varis (4, s.350).*

**Açar sözlər:** S.Ə.Şirvani, 19-cu əsr Azərbaycan türk fəlsəfəsi, Qərb mədəniyyəti, Şərq mədəniyyəti, İslam dini, Türk-İslam dünyası, Yeniləşmə, Maarifçilik

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə, Bakı, Elm, 2011
2. Şirvani Seyid Əzim. Seçilmiş əsərləri. Üç cilddə. II cild. Bakı, Avrasiya Press, 2005
3. Şirvani Seyid Əzim. Seçilmiş əsərləri. Üç cilddə. III cild. Bakı, Avrasiya Press, 2005
4. Şirvani Seyid Əzim. Seçilmiş əsərləri. Üç cilddə. I cild. Bakı, Avrasiya Press, 2005
5. Nəvvab M.M. Əsərləri. Bakı, "Şərq-Qərb", 2006

**Фаик Алекперли**

**ОБЩЕСТВЕННО-ПРОСВЕТИТЕЛЬСКИЕ И РЕЛИГИОЗНО-ФИЛОСОФСКИЕ ВЗГЛЯДЫ СЕИД АЗИМА ШИРВАНИ**

**Резюме**

В статье указано, что Азербайджанский тюркский мыслитель С.А.Ширвани, в отношении исламской религии занимал в целом объективную позицию и являлся лицом, обладающим философским мышлением. Таким образом, в мировоззрении С.А.Ширвани, однозначного противника пережитков, провозгласившего о необходимости идти в ногу со временем, наиболее ярко проявляется вопрос сочетания национально-религиозных ценностей с новаторским духом времени. Главное заключается в том, что Ширвани прямо заявлял об опасности превращения Тюркских - Исламских государств и народов в колонии развитых наций в случае отверженности от новизны. Правильность идей Азербайджанского мыслителя не теряет свою актуальность и в настоящее время.

**Ключевые слова:** С.А. Ширвани, Азербайджанская тюркская философия 19 - го века, Западная культура, Восточная культура, Исламская религия, Тюркский - Исламский мир, Обновление, Просвещение

**Faig Alekberli**

**SEYID AZIM SHIRVANI'S PUBLIC-ENLIGHTMENT AND RELIGIOUS-PHILOSOPIAL VIEWS**

**Summary**

Azerbaijan Turkish thinker S.A.Shirvani was a person with philosophical mentality and in general he had an objective position to the Islamic religion. So unequivocally opposing for conservatism, Shirvani talked about the importance of adjustment of time and his outlook demonstrated the national-religious value of innovative spirit. The most important Shirvani expressed, if the countries and peoples belonging Turkish-Islamic world wouldn't innovate they would stand with the threat of transformations of colony developed countries. Nowadays it hasn't lost its urgency that the Azerbaycan thinker was right in his opinion. It is noted in the article that, his tendency of Western Culture in the last years of his life didn't cause damage in general Azerbaijan Turkish philosophy and the contribution to the history of public opinion.

**Key words:** S.A.Shirvani, Azerbaijan, Azerbaijan-Turkish philosophy of 19 century, Western culture, Eastern Culture, Islam Religion, Turkish-Islam world, renewal, enlightment

**UOT-316**

**Rəfail Həsənov**
**Bakı Dövlət Universiteti, s.e.d., professor**

# AZƏRBAYCAN RESPUBLİKASINDA TURİZMİN İNKİŞAF PERSPEKTİVLƏRİ VƏ PROBLEMLƏRİ

Turizm cəmiyyətin iqtisadi və sosial inkişafının olduqca təsirli bir fenomeni kimi çıxış edir. Əhalinin həyat və təhsil səviyyəsinin yüksəlməsi, onun demoqrafik səciyyəsinin dəyişilməsi, kommunikasiya vasitələrinin yaxşılaşması və nəhayət, sosial özünüdərkin artması insanlarda bir-birinə, eləcə də digər həyat tərzinə böyük maraq yaradır. Bu gün müxtəlif ölkələrdən olan insanlar arasında əlaqələr əvvəllər qapalı olan cəmiyyətləri açıq, universal cəmiyyətə çevirən turizm sayəsində gerçəkliyə çevrilmişdir. Turizm dünya iqtisadiyyatında mühüm rollardan birini oynamaqla dünya Ümummilli məhsulunun (ÜMM) 1/10-ni təşkil edir. Turizm iqtisadiyyatın güclü inkişafa malik sahəsi olmaqla yaxın vaxtlarda daha böyük əhəmiyyət kəsb etməyə başlayacaqdır. Son illər turizm biznesin bir növü olaraq dünyada ən gəlirli sektora çevrilmişdir.

Azərbaycanda 2015-ci ildən başlayaraq post-neft dövrünə keçidin əsas istiqamətlərini institusional islahatların aparılması (yeni qanun və qaydaların qəbulu, yeni institutların yaradılması), karbohidrogen ehtiyatlarından asılılığın azaldılması, ölkə iqtisadiyyatının liberallaşdırılması və diversifikasiyasının gücləndirilməsi təşkil edir. Yeni şəraitdə inzibati metodlardan tam əl çəkilməli, dövlətin iqtisadiyyatda iştirakının azaldılması istiqamətində dəyişikliklər baş verməlidir.

Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatına əsasən, respublikada turizm sosial xidmət sahəsi olaraq günü-gündən öz fəaliyyətini genişləndirir, ümummilli gəlirin həcmində öz payını durmadan artırır.

Bütün dünyada olduğu kimi, Azərbaycanda da həyat səviyyəsi, insanların sağlamlığı, ömür uzunluğu, həyat tərzi müsbət mənada dəyişilir, dünya bütövləşdikcə, inteqrasiya artdıqca, ölkələrarası qarşılıqlı təsir və əlaqələr genişlənir. Bütün bunlar fəal istirahət formalarının axtarışında turizmə üstünlük verilməsinə imkan yaradır.

Azərbaycanda turizm fəaliyyəti ilə məşğul olan müəssisələrin əldə etdiyi ümumi gəlir son bir neçə ildə 3 dəfə artmışdır. Bununla belə, turist xidmətlərinə çəkilən xərclər də həmin dərəcədə artmışdır, lakin burada qeyd olunmalıdır ki, bu xərclər əsasən əmək haqqının artması ilə bağlıdır (əmək haqqına çəkilən xərclər təxminən 7 dəfə artmışdır). Qeyd olunmalıdır ki, bütün növ sığortalar üzrə sosial ayırmalara, əsas fondların amortizasiyasına çəkilən xərclər də xeyli artmışdır.

Ölkədə istər yerli, istərsə də xarici turistlərin sayı durmadan artır. Buradan belə bir nəticə çıxarmaq olar: əhalinin özünə, dünyaya münasibəti dəyişilir, dünyaya inteqrasiya etmək istəyi çoxalır, sosial dəyərlər sistemində struktur dəyişikliklər baş verir, keyfiyyətli istirahət etmək üçün imkanlar axtarılır, seçim etmək imkanından da istifadə olunur. Seçim də hələ ki milli turizmin inkişafı xeyrinə deyil, çünki turizm xidmətləri həm iqtisadi səmərə, həm də keyfiyyət baxımından hələ ki, Azərbaycanın xeyrinə deyil.

Statistik göstəricilərə görə, qonaq evləri, mehmanxanalar, pansionatlar, istirahət evləri və sanatoriyalarda, turist bazalarında, şəxsi evlərdə, digər yerlərdə yerləşdirilmiş turistlərin sayı son on ildə təxminən 10 dəfə artmışdır. Bu da respublikada turizm kimi xidmət sahəsinin yaxşı inkişaf perspektivlərinə malik olmasına dəlalət edir. Bu sahədə inkişaf templəri özəl sektorda daha yüksəkdir.

Turizm sahəsinin bütün infrastruktur elementləri inkişaf etsə də, bəzi sahələrdə irəliləyiş, digərlərində isə geriləmə müşahidə olunur. Son bir neçə ildə minik avtomobillərindən istifadə etmə halları 7,5 dəfə artmışdır ki, bu da əhalinin həyat səviyyəsinin, daha rahat və sərfəli nəqliyyatdan istifadə etmək imkanlarının artmasını göstərir. Dəmir yolundan istifadə ounması bu nəqliyyat növündə rahatlıq, təhlükəsizliklə bağlı tədbirlərin daha da inkişaf etdirilməsi ilə sıx bağlıdır. Azərbaycan hökumət bu istiqamətdə zəruri addımlar atmaqdadır. Belə ki, 2018-ci ildə Bakı-Tiflis-Qars (BTQ) dəmir yolu xətti istifadəyə verilmiş, **Astara (Azərbaycan)-Astara (İran) beynəlxalq**

**dəmir yolunun isə istifadəyə verilməsi gözlənilir. Bu dəmir yolları ölkəmizi qərb istiqamətində Türkiyə vasitəsilə Qərbi Avropa ölkələri,** İran ilə Rusiyanın dəmir yolları sistemlərini isə Azərbaycan vasitəsilə birləşdirəcək və beləliklə, turistlər üçün daha geniş səyahət imkanları açacaqdır.

Su nəqliyyatının da inkişaf etdirilməsində hələ tam istifadə edilməmiş imkanlar var. Gəmiçiliyin, istər Xəzər dənizində, istərsə də Kür və Araz çaylarında yüksək səviyyyədə inkişafı burada turizm üçün istər rahat marşrutlar, istərsə də yüksək xidmətin təşkili baxımından (o cümlədən qonşu ölkələrə) şərait təmin olunmasının tələb edir. Məlum olduğu kimi, hazırda Rusiya, İran və Azərbaycan arasında dəniz turlarının təşkil edilməsi istiqamətində işlər gedir.

Ümumiyyətlə, nəqliyyatın istifadə olunması əsaslı şəkildə infrastrukturun tərkib hissəsi olan yolların vəziyyətindən, yol boyu iaşə xidmətindən asılıdır. Bu sahədə xeyli işlər görülmüşdür, bununla belə hələ bütün imkanlardan axıra qədər istifadə edilməmişdir.

Xarici turistlərin ölkəyə gəlməsi məsələsinə qaldıqda Azərbaycanda 2008-ci ildə qəbul edilmiş və buradan göndərilmiş turistlərin ölkələr üzrə sayı müxtəlif olmuşdur. Həmin ildə cəmi 19288 adam qəbul olunmuş, 40319 nəfər isə göndərilmişdir, yəni göndərilənlərin sayı qəbul olunanlardan iki dəfə artıqdır. Deməк olar ki, bu rakursda bir neçə ölkə istisna təşkil edir ki, bura Gürcüstanı, İran İslam Respublikasını, Ukraynanı, İspaniyanı, Misiri və ABŞ-ı aid etmək olar. Görünür, bu prosesə ölkələrarası əməkdaşlığın istiqamətləri də öz təsirini göstərir.

İldən-ilə müxtəlif məqsədlərlə ölkəyə gələn vətəndaşların sayı artır. Məsələn, şəxsi məqsədlərlə gələnlərin sayı 2009-2015-ci illərdə 2,3 dəfə, işgüzar məqsədi ilə – 1,8 dəfə, turizm məqsədilə isə – 2, 7 dəfə artmışdır, bu da ümidverici haldır, çünki bu hal, bu sahənin inkişaf imkanlarının geniş olmasını bir daha təsdiqləyir. Ümumilikdə 2017-ci ildə ölkəyə 2,7 milyon turist gəlmişdir ki, bu da 2016-cı ildəkindən təxminən 20% artıqdır (1).

İndi isə mehmanxana və mehmanxana tipli müəssisələrin gəlir və istismar xərcləri faktlarına müraciət edək. Bu gəlirin 65%-i nömrələrin satışından daxil olan gəlirdir. Növbəti mühüm gəlir mənbəyi - içkilər də daxil olmaqla qida məhsullarının satışından əldə edilən gəlirdir (bütün gəlirin 20%-i). Müalicə-sağlamlıq xarakterli xidmətlərdən əldə olunan gəlir bir o qədər böyük olmasa da, ildən-ilə artır, yəni burada hələ istifadə olunmalı imkanlar olduqca genişdir. Məlumdur ki, Azərbaycanda təbii, müalicə əhəmiyyətli ərazilər olduqca çoxdur və onlardan səmərəli istifadə olunması həm dövlət büdcəsinə, həm də insanların istər sağlamlığına, istərsə də bütövlükdə həyat tərzinə böyük müsbət təsir göstərə bilər.

Dünya İqtisadi Forumunun hesablamaları və ehtimallarına görə, Azərbaycanda turizm, aviadaşıma və səyahətlər biznesinin həcmi 2008-ci ildə ən azı 509 mln. ABŞ dolları təşkil edib. Ümumi hesabda isə milli iqtisadiyyatın turizmlə bağlı sahələrində çalışanların sayı 39 minə çatıb. Hesablamalara görə, 2009-2018-ci illərdə turizm biznesinin orta illik artım tempi 8,8% olmalıdır (2).

2009-cu ildən Azərbaycanda Turizm Assossiasiyası fəaliyyət göstərir. Turizmin inkişaf etdiyi bütün ölkələrdə belə strukturlar mövcuddur. Bu assosiasiya turist şirkətlərinin hüquqlarının müdafiə olunması, həmçinin onların fəaliyyətinə hər cür kömək göstərilməsi məqsədilə yaradılıb. Vaxtaşırı otellərdə və restoranlarda xidmətin səviyyəsinin qaldırılması məqsədilə treninqlər keçirilir. Qəbələdə, Nabranda və b. yerlərdə İtaliya, Türkiyə, Ukrayna, Rusiya, Almaniyadan olan 20 şirkətin iştirakı ilə III "Hər şey otellər, restoranlar və supermarketlər üçün" adı altında Qafqaz beynəlxalq sərgisinin təşkil olunmasını buna misal göstərə bilərik (3).

Son zamanlar Azərbaycan hökuməti daha çox daxili turizmin inkişafına üstünlük verir. Ölkə rəhbərliyinin həyata keçirdiyi dinamik siyasət, əsaslı inkişafın reallaşması və regionların sosial-iqtisadi inkişafı ilə bağlı reallaşdırılan dövlət proqramları bölgələrin sosial-iqtisadi həyatında irəliləyiş yaradır. Artıq bölgələrin əksəriyyətində yaraşıqlı, turizm üçün əlverişli olan mehmanxanalar tikilib, əhəmiyyətli tarixi-mədəniyyət abidələri bərpa edilib, yol infrastrukturu inkişaf edib, rayonların ərazi-inkişaf planları hazırlanıb, turistlər həmin rayonlarda təhlükəsiz hərəkət edə bilmək imkanına malikdirlər (4).

Beləliklə, regionların da bərabər səviyyədə təbliğ edilməsi üçün yeni imkanlar yaranır. Gündəmdə təkcə yerləşdirmə obyektlərinin sayını artırmaq deyil, eyni zamanda xarici və yerli

turistlərə yüksək səviyyədə xidmət göstərilməsinə nail olmaqla turizm-informasiya mərkəzlərinin fəaliyyətini gücləndirmək, regionlarda turizm sənayesinin inkişaf etdirilməsi kimi vəzifələr də durur. Hal-hazırda bölgələr üzrə yeddi marşrut müəyyənləşdirilib. Bunlar Abşeron, Şimal, Şimal-Qərb, Qərb, Dağlıq Qarabağ, Naxçıvan və Cənub bölgələridir. Bu bölgələrə marşrutlar üzərində də daha çox perspektivli və müəyyən turizm növlərini inkişaf etdirmək mümkün olan rayonlarla intensiv işlər aparılır, həmin rayonlar beynəlxalq səviyyədə təbliğ edilir. Bu bir növ Azərbaycana gələn turistlərin sayının artırılmasına və çoxçeşidli turizm məhsulunun yaradılmasına xidmət edir. Eyni zamanda Mədəniyyət və Turizm Nazirliyi tərəfindən 2010-cu ildən bəri keçirilən «Azərbaycanın mədəni paytaxtları» layihəsi çərçivəsində Qazaxın folklor paytaxtı, Gəncənin əfsanələr paytaxtı, Şəkinin sənətkarlıq paytaxtı elan edilməsi vətəndaşlar üçün yeni marşrutlar, məsələn, xalça, Novruz, aşıq və s. turları yaratmağa əsas verəcək, həmçinin itmək təhlükəsi altında olan adət-ənənələrin, xalq oyunlarının bərpasına şərait yaradacaqdır (4).

**Azərbaycan Respublikasının Hirkan, Şirvan, Ağgöl, Altıağac, Abşeron milli parklarının əraziləri müəyyən edilmişdir və burada bu cür parklara olan bütün tələblərin həyata keçirilməsi işi aparılır.** Bununla yanaşı, qeyd etdiyimiz kimi, Azərbaycan regionlarında göstərilən xidmətə görə qiymətlər çox yüksəkdir. Otellərin əksəriyyətində İnternet, avtomobilin icarəsi, baqaj daşıma xidmətləri yoxdur. Həmçinin, müştərilərə masa arxasında xidmət göstərən ofisiantlar da beynəlxalq səviyyəyə uyğun işləmirlər. Hansısa rayonda 5-6 gün dincəlmək üçün tələb olunan pula Türkiyənin yüksək səviyyəli turizm mərkəzlərində 11-12 gün əla istirahət etmək olar. Ona görə də insanlar daha ucuz və daha keyfiyyətli xidmət göstərilən ölkələrə - Türkiyəyə, Misirə, Dubaya və digər yerlərə üz tuturlar (5).

Hazırda Azərbaycanda, artıq qeyd olunduğu kimi, turizmin prioritet təşkil edən növləri – mədəni, rekreasiya-müalicə, ov, ekoloji və kənd turizmidir. Bir müddət əvvəl Mədəniyyət və Turizm Nazirliyinin dəstəyilə Qusarda Şahdağ Qış-Yay Turizm Kompleksi tikilib istifadəyə verilmişdir ki, bu da Azərbaycanda yeni turizm növünün - qış turizminin inkişafı deməkdir. MDB məkanında analoqu olmayan bu turist kompleksi bir dəfəyə 5 min nəfər turist qəbul edə biləcək (6).

Bundan əlavə nazirliyin hədəf olaraq qarşısına qoyduğu məsələlərdən biri də turizm mövsümü müddətinin artırılmasıdır. Belə ki, Azərbaycanda real olaraq turizm mövsümü 45-60 gün hesab edilir. Amma cəlbedici infrastruktur layihələr yaratmaqla turizm günlərinin sayını 150-160-a çatdırmaq mümkündür (5).

"Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nın həyata keçirilməsi nəticəsində ölkədə turizmin inkişafı üçün münbit şərait yaradılmış, beynəlxalq turizm bazarına inteqrasiyanın təmin olunmasının əsası qoyulmuş, milli turizm kompleksinin rəqabətə davamlılığı yüksəlmişdir.

**"Turizm haqqında Azərbaycan Respublikasının Qanunu"** Azərbaycan Respublikasında turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönəldilmiş dövlət siyasətinin prinsiplərini, turizm fəaliyyətinin əsaslarını müəyyən edir və turizm sahəsində meydana çıxan münasibətləri tənzimləyir, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydasını müəyyənləşdirir (394-cu maddə) (7).

Turizm sahəsində xidmət göstərənlər qrupuna əhalinin bütün təbəqələrinin nümayəndələri daxil ola bilər. Əmək bazarının formalaşması xüsusiyyətlərindən asılı olaraq, burada qadın və kişilər, yaşlılar və cavanlar, şəhərli və kəndlilər, qulluqçu və fəhlələr müxtəlif şəkildə iştirak edə bilər. Turizm probleminin sosial siyasətin vacib tərkib hissəsini təşkil etdiyini nəzərə alan Azərbaycan tədqiqatçıları buna böyük diqqət yetirirlər. Birinci növbədə burada investisiya siyasəti, bazar münasibətləri sisteminin inkişaf strategiyası, turizm sahəsində əmək bazarı və onunla bağlı olan əmək qabiliyyətli əhalinin məşğulluğu problemləri öyrənilir.

Turizmdə mobillik yüksəkdir. Bu, miqrasiyaya yaxın olan, daha doğrusu, oxşayan bir sosial hadisədir. Cəmiyyətdə baş verən yerdəyişmə proseslərini, iqtisadiyyatla yanaşı tarixi coğrafiya, psixologiya, sosiologiya, təbabət elmi, tarix, etnoqrafiya və s. elmlər öyrənir. Praktikada miqrasiya məsələsinin həlli hər bir yerli və dövlət orqanları qaşısında durur. Sosial mobillik baxımından istehsalatda kadrlar axını, kənd təsərrüfatı sahəsində, şəhərlərdə, tədris müəssisələrində miqrasiya problemi mövcuddur. Respublikada miqrasiya problemi iki cəhətdən aktualdır:

1) işçi qüvvəsinin respublikanın ərazisində düzgün yerləşdirilməsi;

2) turizm işinin düzgün təşkili.

Hər iki cəhət elmi ədəbiyyatda öz əksini tapmışdır.

Urbanizasiya prosesi (yəni şəhərlərin sayının və şəhər əhalisinin artması, aqlomerasiyaların yaranması) bu prosesə güclü təkan verir. Əmək ehtiyatlarının bir ərazidən digərinə axını demoqrafik vəziyyətdə mütənasibsizlik əmələ gəlməsindən xəbər verir.

Turizmin inkişaf prosesinə müharibələr də öz təsirini göstərir. Bu zaman külli miqdarda əhali öz yaşayış yerlərini tərk edir, mülkiyyətini, iş yerlərini, sağlamlığını, həyatını belə itirirlər. Müharibə zamanı köçürülmə və deportasiya prosesləri də müşahidə olunur. Nəticədə həmin ərazilərin tərkibi süni şəkildə dəyişdirilir. Digər tərəfdən, məlumdur ki, hər bir coğrafi ərazidə yaşayan insanlar həmin ərazinin mühit amillərinin müəyyən parametrlərinə uyğunlaşmışlar, onların həyat şəraiti, məşğulluğu, əmək vərdişləri artıq formalaşmışdır; bunlar miqrasiya zamanı insanlara məhdudlaşdırıcı təsir göstərir. Ermənistandan 1988-1989-cu illərdə qaçqın düşmüş azərbaycanlılar Azərbaycan Respublikasının müxtəlif regionlarında yerləşdirilib. Əsasən dağ və dağətəyi rayonlarından, kənd əhalisi olan bu insanların heç də hamısı oxşar coğrafi ərazilərdə yerləşdirilməyib. Bütün bunlar turizm sahəsinə əhalinin marağını həm azaltmış, həm də istirahətlə bağlı formalaşan maraq və mənafelərə mənfi təsir göstərmişdir.

**"Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə artıq təsdiq edilmişdir (6 aprel 2010-cu il)**. **Sərəncamda** turizm sahəsində inkişafın ləng getməsi səbəbləri kimi ixtisaslaşmanın çox aşağı səviyyədə olması, mövcud potensialdan zəif istifadə olunması və maliyyə dəstəyindən düzgün şəkildə istifadə olunmaması qeyd olunur. Bu proqramda Azərbaycanın zəngin təbiətinin turizmin inkişafı üçün çox əlverişli olması qeyd olunaraq onun inkişafının müəyyən mərhələlər üzrə həyata keçirilməsinin vacibliyi göstərilir.

Dövlətimizin qarşısında duran başlıca vəzifələrdən biri də yüksək intellektual potensialın yaradılmasıdır: yalnız bu yolla yeni informasiya texnologiyalarını mənimsəmək olar. Bu texnologiyalara əsaslanan istehsal proseslərində əhali yalnız bir şərtlə iştirak edə bilər – təhsil səviyyəsinin artırılması. Bu yolla turizmin inkişafı problemini də həll etmək mümkündür. Digər tərəfdən, siyasi, iqtisadi və sosiomədəni məkan dəyişir, yeni stereotiplər və davranış formaları meydana gəlir. Vətəndaş cəmiyyətinin formalaşması kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyətini, siyasi strukturların müxtəlifliyini, qeyri-hökumət təşkilatlarının sərbəst fəaliyyəti, söz, vicdan azadlığı üzərində qurulur. Qeyd edilən sahələrin inkişafı, öz növbəsində, tədqiq edilən sahənin də vacib amilidir.

Bu layihələr beynəlxalq əhəmiyyət kəsb edir və Azərbaycana böyük fayda verə bilər. Qeyri-neft sahəsinin inkişafının vacib şərtlərindən biri – sahibkarlıq, orta sinfə diqqət və qayğının artırılmasıdır. Buraya həm də qanunların təkmilləşdirilməsi, özəlləşdirilmə işinin yekunlaşdırılması məsələsi də daxildir. Hökumət qeyri-neft sektorunda prioritet sahələrdən biri kimi turizmi seçib. Azərbaycan regionlarda turizm xidmətini və bu sahədə sahibkarlığı inkişaf etdirməklə böyük gəlir əldə edə bilər (2).

Azərbaycan hökümətinin turizm sahəsində əsas vəzifələrindən biri də Azərbaycan Turizm İnstitutunun buraxdığı gənc kadrların işlə təmin edilməsidir. Artıq 2010-cu ildə 60-dək gənc xarici ölkələrdə turizm üzrə müxtəlif peşə kursları keçib. Onları elə müəssisələrdə yerləşdirmək lazımdır ki, onlar öz biliklərini tətbiq edə bilsinlər.

Azərbaycanda turizm sahəsində nə qədər sürətli kadr hazırlığı getsə bir o qədər yaxşıdır. Bunun üçün çoxlu peşə məktəbləri yaradılmalıdır, çünki peşə məktəbi biliyin, savadın, işin peşəkar səviyyədə öyrənilməsinə yardım edir. "2007-2012-ci illər Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq 2008-2009-cu tədris ilindən Qəbələdə Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzi fəaliyyətə başlamışdır, bu müəssisə Azərbaycanda turizm və otelçilik üzrə fəaliyyət göstərəcək ilk peşə tədris mərkəzi olacaq.

Milli təsərrüfatların dünya iqtisadiyyatına inteqrasiyası yollarından biri də Azad İqtisadi Zonaların (AİZ) yaradılmasıdır. Azərbaycanda da AİZ-in yaradılması inteqrasiya proseslərinin sürətləndirilməsinə, ilk növbədə ölkə iqtisadiyyatının real sektorlarında - bu gün xüsusi diqqət

yetirilən informasiya texnologiyaları və turizm sahələrində innovasiya elementlərinin tətbiqinə ciddi təsir göstərəcək.

Artıq qeyd olunduğu kimi, turizmə təsir göstərən amillər arasında təbii-coğrafi amillər - torpaq, su, relyef, flora və fauna və s. kimi göstəricilər vardır. İctimai amillər qrupu isə bir qədər mürəkkəb xarakter daşıyır. Onları adətən demoqrafik, etnik, iqtisadi, sosial, psixoloji sahələrə bölürlər. Bu sahələrin hər biri daha mürəkkəb xarakter daşıyır. Məsələn, iqtisadi amillər sırasında xalq təsərrüfatının strukturunda ərazi fərqlərini, məşğulluq səviyyəsini, nominal və real əmək haqqını, istehlak səviyyəsini, mənzil şəraitini və s.göstərmək olar. Bu nöqteyi-nəzərdən Azərbaycanda turizmin inkişafına müsbət təsir göstərən amillər sırasında məşğulluq səviyyəsinin yüksəldilməsinin, xidmət sahələrində, məsələn, ticarətdə yüksək ixtisaslı peşələrin, ümumiyyətlə, zehni əmək fəaliyyəti ilə bağlı sahələrin payının artılmasının zəruriliyini göstərmək olar. Demoqrafik amillər sırasında əhalinin yaş və cins strukturunda fərqlərini, təkrar istehsal göstəricilərini, əhalinin təhsil səviyyəsini və s. qeyd etmək olar.

Təbiətin mühafizəsinin təmin olunması şərtilə turizmin, istirahətin düzgün təşkil olunması əhalinin güzəranını yaxşılaşdırır, mədəni səviyyəsini artırır, işsizliyi qismən aradan qaldırır, regionlararası inteqrasiya proseslərinin daha səmərəli şəkildə getməsinə imkan yaradır. "Regionların inkişafı üzrə Dövlət proqramı"na uyğun olaraq, ölkədə turizm və idman sahələri getdikcə inkişaf etdirilir. Bu prosesin uğurlu gedişinə nümunə kimi əlverişli coğrafi mövqeyi, gözəl təbiəti olan Masallı rayonunu və eləcə də şimal zonasında yerləşən bir sıra rayonları göstərmək olardı. Qeyd edək ki, dövlət tərəfindən görülən işlərin nəticəsidir ki, dünya iqtisadi böhranına baxmayaraq, 2009-cu ildə Azərbaycana turist axını artıb.

Turizm biznesində mövcud vəziyyəti daha da yaxşılaşdırmaq üçün bir sıra ciddi tədbirlərin həyata keçirməsini vacibdir:

- Yeni iş yerlərinin yaradılması və bunun üçün Azərbaycanın aparıcı sənaye sahələrində yenidənqurma işlərinin aparılması;
- Turizm sahəsində işləyə biləcək peşəkar kadrların hazırlanması sisteminin formalaşdırılması işinin təşkili;
- Turizm sahəsinə işçi qüvvə cəlb edilərkən xüsusi diqqət sosial cəhətdən müdafiəsi zəif olan təbəqələrə – qadınlara, əlillərə, peşə məktəblərinin məzunlarına, ordudan tərxis olunanlara yetirilməlidir;
- Turizmdə xüsusi olaraq iqtisadiyyatın özəl sahəsi inkişaf etdirilməlidir, infrastruktur, yardımçı təsərrüfatlar yaradılmalı, biznesin təşkilində əngəllər aradan qaldırılmalıdır. İqtisadiyyatın inkişafı, əhalinin sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılması üçün beynəlxalq əməkdaşlığın genişləndirilməsi çox vacibdir.

Beləliklə, Azərbaycanda turizmin inkişaf etdirilməsi iqtisadiyyatın neft sektorundan asılılığının qarşısını almaq, eləcə də bazar iqtisadiyyatı şəraitində istehlakçı tələbatından irəli gəlir. Burada səmərəli dövlət sosial siyasəti formalaşmalıdır ki, nəticədə əhalinin həyat səviyyəsi daha da artsın. Qabaqcıl təsərrüfat formalarına, istehlak sahələrinə müraciət etməklə kiçik və orta sahibkarlığa real kömək göstərilməlidir. Turizm sahəsində işçi kadrlar yeni əsaslarla, yeni keyfiyyətlərlə hazırlanmalıdır. Respublikada özəl kapitalın iqtisadiyyatın tarazlaşdırılmış inkişafında marağı getdikcə artır ki, bu məsələnin tənzimlənməsi də düzgün dövlət sosial siyasətinin həyata keçirilməsi ilə əlaqədardır.

**Açar sözlər:** turizm, qeyri-neft sektoru, turizm fəaliyyəti, turizm biznesi, daxili turizm, turizm bazarı, sosial siyasət.

**İstifadə edilmiş ədəbiyyat**

1. https://tourism.interfax.ru/ru/news/articles/46295/
2. http://tezadlar.az
3. http://www.interfax.az
4. www.palitra.net.az

5. www.modern.az
6. http://www.diaholding.com
7. http://www.bakubookfair.com/images/pdf/1377259246qanunlar%20toplusu%201%20cild.pdf

**Рафаиль Гасанов**

**ПЕРСПЕКТИВЫ И ПРОБЛЕМЫ РАЗВИТИЯ ТУРИЗМА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ**

**Резюме**

Туризм - очень эффективный феномен экономического и социального развития общества. В настоящее время приоритетными видами туризма в Азербайджане являются - культурный, рекреационный, медицинский, охотничий, экологический и сельский туризм. Кроме того, одним из вопросов, рассматриваемых правительством, является увеличение туристического сезона.

Правительство выбрало туризм в качестве одного из приоритетных направлений в ненефтяном секторе. Азербайджан может заработать немалый доход, развивая туризм в регионах.

**Ключевые слова:** туризм, ненефтяной сектор, туристическая деятельность, туристический бизнес, внутренний туризм, туристический рынок, социальная политика.

**Rafail Qasanov**

**PROSPECTS AND PROBLEMS OF TOURISM DEVELOPMENT IN AZERBAIJAN REPUBLIC**

**Summary**

Tourism is a very effective phenomenon of the economic and social development of society. Currently, the priority types of tourism in Azerbaijan are cultural, recreational, medical, hunting, ecological and rural tourism. In addition, one of the problems posed by the government is the increase in the tourist season.

Moreover, one of the issues considered by the government is to increase tourist season.

**Key words:** tourism, non-oil sector, tourism activities, tourist business, domestic tourism, tourist market, social policy.

# İQTİSADİYYAT VƏ İDARƏETMƏ

**UOT – 330.8**

**Hicran Mirzəyeva**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.ü.f.d, dos.**

## KƏND TƏSƏRRÜFATININ İNKİŞAFINA TƏSİR EDƏN İNTENSİV AMİLLƏR

*Məqalədə kənd təsərüfatının inkişafının əsas istiqamətləri inkişaf etmiş ölkələrin timsalında araşdırılmışdır. Burada kənd təsərrüfatının subsidiyalaşdırılmasının, daxili bazarın qorunmasının, kəndin sosial infrastrukturunun maliyyələşdirilməsinin zəruriliyi təhlil edilmişdir.*

Müasir dövrdə kənd təsərrüfatı və ərzaq məhsulları istehsalı dünya iqtisadiyyatının ən vacib prioritetlərindən birinə çevrilmişdir. Bunun həm obyektiv və həm də subyektiv səbəbləri vardır. Obyektiv səbəblər sırasında ekoloji tarazlığın pozulması, əhali artımı və Çin, Hindistan, Braziliya və bir neçə əhali sayı çox olan ölkələrdə ərzaq istehlak artımı qeyd olunursa, subyektiv amillərdən torpaqların münbitliyinin azalması, su qıtlığı, toxum və maliyyə çatışmazlığı ön plana çəkilir. Sonuncu, xüsusilə keçid iqtisadiyyatlı ölkələrə xasdır.

Belə ki, sosialist təsərrüfatçılıq sisteminin dağılması ilə uzun illər mərkəzləşdirilmiş dövlət qayğısından məhrum olan xırda təsərrüfatçılıq subyektləri istehsalı intensiv əsaslarla qurmağa qadir deyildirlər. Ona görə də sistem transformasiyasının düzgün qiymətləndirilmədiyi şəraitdə dövlətin kənd təsərrüfatı istehsalını dəstəkləməməsi artıq acı nəticələrini verməkdədir. Ötən 25-30 ilin acı nəticələri bu sahəyə dövlət qayğısının gücləndirilməsini bu gün vacib bir məsələ kimi ortaya qoyur. [1]

Aqrar sahənin dövlət tənzimlənməsinin əsas istiqamətlərinin düzgün müəyyənləşdirilməsi transformasiya dövrünü yaşayan ölkələr üçün xüsusi əhəmiyyət kəsb edir. Çünki hər bir ölkənin inkişaf səviyyəsindən və ölkənin sosial-iqtisadi vəziyyətindən asılı olaraq bu istiqamətlər müxtəlif ola bilər.

İnkişaf etmiş bazar iqtisadiyyatı ölkələrində dövlətin kənd təsərrüfatı məhsulları istehsalına məqsədyönlü təsiri formalaşmışdır. Bu təsiri ümumi şəkildə aşağıdakı istiqamətlərin məcmusu şəklində təsəvvür etmək olar:

- ekoloji tarazlıq göstərilməklə torpaq və su resurslarından istifadə edilməsi;
- aqrobiznes sahələrində investisiya prosesinin tənzimlənməsi;
- işçi qüvvəsindən və əməkdən istifadənin təşkili;
- istehsal və qeyri-istehsal infrastrukturunun subsidiyalaşdırılması;
- əsas növ kənd təsərrüfatı məhsulları istehsalının dotasiyalaşdırılması və onların satınalma qiymətlərinin yüksək səviyyədə saxlanması;
- əhalinin kənd təsərrüfatı məhsullarına tələbatının formalaşması;
- statistik informasiya xidməti sistemi vasitəsilə aqrar sahəyə təsir göstərilməsi.

Araşdırmalar göstərir ki, XX əsrin 80-ci illərindən etibarən Şərqi Avropanın postsosialist ölkələrində dövlətin iqtisadiyyata müdaxiləsi sahəsində müəyyən uğurlar əldə olunmuşdur. Transformasiya dövrünü yaşayan ölkələrdə dövlət tənzimləməsinin formalaşmasını aşağıdakı əsas istiqamətlər üzrə həyata keçirmək məqsədə uyğundur:

- dövlət satınalma qiymətlərinə əsaslanan və bazar siqnalları ilə səsləşən minimal qiymətlərlə daxili bazarın nizamlanması və tənzimlənməsi;

- kənd təsərrüfatı istehsalçılarına öz imkanlarını və gələcək inkişaflarını müəyyənləşdirmək üçün onlara təminatsız və təqribi qiymətlər barəsində vaxtla-vaxtında məlumatların verilməsi;
- bazarlara müdaxilə məqsədilə kənd təsərrüfatı məhsullarının dövlət tərəfindən alqı - satqısının həyata keçirilməsi;
- dövlətin özünü iqtisadi və ekoloji baxımdan ərzaqla səmərəli təmin etməsi fonunda xarici iqtisadi əlaqələrin tənzimlənməsi;
- daxili bazarın davamlı surətdə təmin edilməsi;
- tarif və qeyri-tarif vasitələrindən (kvotalar, lisenziyalar, qadağalar) istifadə etməklə səmərəli dövlət müdaxiləsinin həyata keçirilməsi və idxalın subsidiyalaşdırılması (bu zaman beynəlxalq öhdəliklərə bacarıqla əməl edilməsi xüsusi əhəmiyyət daşıyır);
- aqrar sahənin istehsal və iqtisadi cəhətdən yenidən qurulması və kəndin sosial inkişafının təmin edilməsi üçün məqsədli maliyyə-kredit dəstəyi həyata keçirilməsi.

İstər inkişaf etmiş, istərsə də transformasiya dövrünü yaşayan postsosialist ölkələrində dövlət tənzimləməsinin ən mühüm istiqaməti ekoloji tələblər gözlənilməklə torpaq və su resurslarından istifadənin, bu sahədə iqtisadi münasibətlərin tənzimlənməsi məsələləridir. Bu zaman torpaq münasibətlərinin tənzimlənməsinin obyektiv əsasını mülkiyyət formasından asılı olmayaraq, onun xalqın ümumi sərvəti, milli sərvətin ən mühüm elementi olması təşkil edir. Torpaqdan səmərəli istifadə edilməsi isə nəinki kənd təsərrüfatının, hətta bütövlükdə iqtisadiyyatın normal fəaliyyətinin zəruri şərti sayılır. Buna görə də, torpaq münasibətləri məsələləri istənilən dövlətin aqrar siyasətində həmişə diqqət mərkəzində olmuşdur.

Bu siyasət dünyanın bir sıra ölkələrində torpağın ümummilli əhəmiyyətini və kənd təsərrüfatı müəssisələrinin əksəriyyətinin maliyyə vəziyyətinin zəif olmasını nəzərə alaraq torpaq quruculuğu və meliorasiya işləri ilə bağlı xərclərin xeyli hissəsinin dövlət tərəfindən öz üzərinə götürməsində əksini tapır. Dünyanın bütün inkişaf etmiş ölkələrində torpaq quruculuğu və torpaqların meliorasiyası, torpaqqoruyucu meşə zolaqlarının salınması, ərazilərin suvarılması və torpaqqoruyucu texnologiyaların tətbiq edilməsi üzrə dövlət tərəfindən maliyyələşdirilən regional proqramlar əsasında həyata keçirilir. Məsələn, Qərbi Almaniyada kənd təsərrüfatının dövlət tərəfindən tənzimlənməsində təbiətin və landşaftın qorunması, təzələnməsi və məhsuldarlığın artırılması, onların istifadəyə yararlığının təmin edilməsi məsələsi xüsusi yer tutur. Ölkənin kənd təsərrüfatı haqqında qanununa (1955-ci il) müvafiq olaraq, aşağıdakı məqsədlər üçün maliyyə vəsaitləri ayrılır:

- torpaq quruculuğu, həyətlərin genişləndirilməsi və başqa yerə köçürülməsi, dalan yollarının çəkilişi, su və elektrik təchizatının yaxşılaşdırılması yolu ilə aqrar mədəniyyətin yüksəldilməsi, kənd təsərrüfatında əmək və həyat şəraitinin yaxşılaşdırılması;
- istehsalın daha səmərəli təşkil edilməsi, məhsulların keyfiyyətinin artırılmasına xidmət edən tədbirlərin həyata keçirilməsi, kreditlərin və gübrələrin ucuzlaşdırılması, kənd təsərrüfatı məhsullarının tədarükü, anbar tikintisi, sortlaşdırma məntəqələri və digər texniki xidmət obyektlərinin tikintisinə dotasiyalar verilməsi yolu ilə gəlirlərin artırılması [4].

Kənd təsərrüfatının subsidiyalaşdırılması obyektiv zəruriyyətdən doğur. Haynts Lampertin fikrincə, «əvvələn, kənd təsərrüfatına aid olmayan sahələrin gəlirləri kənd təsərrüfatına yönəldilməzsə, o, əcnəbi rəqibləri ilə «əlbəyaxa savaşda» davam gətirə bilməz; ikincisi, gəlirlər bu cür yönəldilməzsə, rəqabət nəticəsində kiçik və orta müəssisələrin sıxışdırılıb aradan çıxarılması qorxusu artar. Orta müəssisələrin siyasi konteksdə rolu, onların sayının azalması ekoloji problemlər baxımından da arzuedilməz haldır.

Bu mənada kənd təsərrüfatı subsidiyalaşdırılmasının vacibliyi bir də ona görə zəruridir ki, səhralaşmanın qarşısı alınır, mədəni landşaftlar qorunur. Ətraf mühitin mühafizə olunmasına yönəlmiş istehsal üsulundan istifadə edilməklə təbiət qorunub saxlanılır və bununla da kənd təsərrüfatı özünəməxsus sosial sahəyə çevrilir. İnkişaf etmiş kapitalist ölkələrində kənd təsərrüfatının dövlət tərəfindən tənzimlənməsinin ən mühüm istiqamətlərindən biri - aqrar sahədə məşğul əhalinin gəlirləri səviyyəsinin qorunub saxlanılması məsələsidir. Kənd təsərrüfatının dövlət

tənzimlənməsinin bu istiqamətinin obyektiv zəruriliyi aşağıdakı əsas amillərə söykənir:

- kənd təsərrüfatı məhsulları istehsalının gəlirlilik səviyyəsinin aşağı olması səbəbindən bu sahədə çalışanların gəlirlərinin aşağı olması;
- aqrar sənaye kompleksinin kənd təsərrüfatına aid olmayan sahələrinin inhisarçı mövqeyinin təsirindən aqrar sahənin gəlirlilik səviyyəsinin məhdud olması;
- şəhər və kənd əhalisi arasındakı həyat səviyyəsinin bərabərləşdirilməsi üçün kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsi tədbirlərinin həyata keçirilməsi.

İnkişaf etmiş ölkələrdə kənd təsərrüfatının dövlət tənzimlənməsinin ən mühüm istiqamətlərindən biri də bu sahədə gəlirlər səviyyəsinin və yığımların dəstəklənməsidir. Əlbəttə ki, kənd təsərrüfatında kapital yığımının dövlət tərəfindən tənzimlənməsi zərurəti bu sahənin aşağı gəlirli olmasını şərtləndirən obyektiv amillərlə bağlıdır. Bu məsələni həll etmək üçün ASK sahələri ilə kənd təsərrüfatı arasında bərabər mübadilə üçün iqtisadi şərait təmin edilməlidir. Öz növbəsində, bərabər iqtisadi şəraitin yaradılması üçün də qiymətlər məsələsi, o cümlədən kənd təsərrüfatı və sənaye məhsullarının qiymətlərinin paritetliyi məsələsi həll edilməlidir.

Paritet qiymətlər inkişaf etmiş ölkələrdə bir çox mühüm funksiyalar daşıyır. ABŞ-da paritet qiymətlər hər şeydən əvvəl qiymətlərin dövlət tərəfindən tənzimlənməsi üçün ümumi oriyentir rolunu oynayır. Bütövlükdə ölkə üzrə bu qiymətlər hər il korrektə edilir. İkincisi, paritet qiymətlər bazar sifarişləri (və ya marketinq) şəklində dövlət tənzimləmə proqramlarına daxil edilmiş kənd təsərrüfatı məhsullarının bəzi növləri üzrə satınalma qiymətlərinin müəyyənləşdirilməsi üçün istifadə edilir. Üçüncüsü, paritet qiymətlər və paritet nisbətlər həm də kənd təsərrüfatının subsidiyalaşdırılmasının həcmi, formaları və istiqamətləri müəyyən edilərkən oriyentir rolu oynayır [3].

Vəziyyətin normallaşdırılması üçün yeganə istiqamət əhalinin alıcılıq qabiliyyətinin artırılmasıdır. Bu məqsədlə inkişaf etmiş ölkələrin əksəriyyətində əhalinin alıcılıq qabiliyyəti əsasən üç yolla tənzimlənir:

- əmək haqqı səviyyəsinin tənzimlənməsi;
- əhalinin müəyyən kateqoriyaları üçün ünvanlı dəstəklərin verilməsi;
- kənd təsərrüfatı əmtəə istehsalçılarına dotasiyalar verilməsi.

Bu tədbirlərin həyata keçirilməsi sayəsində qiymətlərin müəyyən aşağı həddi saxlanılır və məhsulun satılması təmin edilir, nəticədə daxili bazarda təklif tələblə tarazlaşdırılır. İstər inkişaf etmiş ölkələrdə, istərsə də postsosialist ölkələrində AS-nin dövlət tənzimlənməsinin ən mühüm istiqamətlərindən birini də daxili bazarın qorunması təşkil edir. Bu, həmin ölkənin ərzaq təhlükəsizliyini və müstəqilliyini təmin etmək üçün onun xarici ekspansiyadan qorunmasını nəzərdə tutur.

Kənd təsərrüfatı ilə məşğul olmaq üçün şəraitin nisbətən pis olduğu Aİ ölkələrində dövlət fəal aqrar proteksionizm siyasəti yeridir. Məsələn, kənd təsərrüfatı məhsullarının ayrı-ayrı növləri üçün idxal rüsumlarının həcmi 100 %-ə çatdırılır. Eyni zamanda, ixrac yönümlü istehsalçılar üçün subsidiyalar verilir. Kənd təsərrüfatı məhsullarının daxili satınalma qiymətləri isə dünya bazarındakı qiymətlərdən bir neçə dəfə artıq həddə çatdırılır.

Postsosialist ölkələrində bazar münasibətlərinə keçid başlanandan dərhal sonra məlum oldu ki, daxili bazarın qorunması obyektiv zərurətdir. Məsələn, 1991-ci ildə Çexiyada xarici ticarət liberallaşdırılandan və daxili bazar «açılandan» sonra, bu sonuncunu əcnəbi rəqiblərdən qorumaq zərurəti meydana çıxdı. Vəziyyətin normallaşdırılması məqsədilə 1991-1993-cü illərdə bir sıra məhdudlaşdırıcı tədbirlər: yeni gömrük qaydaları, artırılmış rüsum dərəcələri, ərzaq məhsullarının idxalı üçün kvotalar, ixrac-idxal əməliyyatları üçün lisenziyalar tətbiq edilir. Daxili aqrar bazarının ixrac fəsadlarından qorunması zərurəti Rusiya Federasiyasında da kəskin hiss edilir. Xarici ticarətin liberallaşdırılması, ərzaq məhsullarının praktiki olaraq rüsumsuz idxal edilməsi yerli əmtəə istehsalçılarına ciddi ziyan vurmuşdur.

İnkişaf etmiş ölkələrdə kəndin sosial infrastrukturunun inkişafının maliyyələşdirilməsi ASK-nın dövlət tənzimlənməsinin ən mühüm istiqamətlərindən biri sayılır. Kənddə istehsal və sosial infrastruktur obyektlərinin dövlət tərəfindən maliyyələşdirilməsi zərurəti ondan irəli gəlir ki,

bu yolla şəhərlə kənd arasında həyat səviyyəsinin əhəmiyyətli dərəcədə yaxınlaşdırılması təmin edilsin. Çünki inkişaf etmiş ölkələrdə AS-nin dövlət tərəfindən tənzimlənməsinin bir istiqaməti də zəif inkişaf etmiş rayonlara kömək göstərilməsindən ibarətdir. Torpağın məhsuldarlığı, ondan ekstensiv istifadə, mal-qara saxlamaq üçün normal şəraitin olmaması istehsal xərclərinin artmasına gətirib çıxarır. Bu halda kənd təsərrüfatı istehsalının dayandırılması məsələsinə deyil, yaranmış şəraitin nizamlanmasına yönələn tədbirlər həyata keçirilir. Nəzərə alaq ki, 1975-ci ildə Avropa İqtisadi Birliyində əlverişsiz coğrafi, sosial-iqtisadi və təbii iqlim şəraitində işləyən təsərrüfatların dəstəklənməsi proqramı qəbul edilmişdir. Həmin proqramın məqsədi əlverişli və yoxsul regionların inkişaf səviyyələri arasındakı fərqləri azaltmaqdan və geridə qalan rayonlarda kənd təsərrüfatının inkişafını stimullaşdırmaqdan ibarət olmuşdur. Hər hansı regionun zəif inkişaf etməsi aşağıdakı meyarlarla müəyyənləşdirilir:

- hektarın məhsuldarlığı ölkə üzrə orta məhsuldarlığın 80 faizindən aşağıdır;
- çəmən və otlaqların hər hektarı üzrə qaramalın sıxlığı bir şərti baş sayından azdır;
- kənd təsərrüfatı məhsulları istehsalından əldə edilən gəlir ölkə üzrə müvafiq göstəricinin 80 faizindən aşağıdır;
- bölgədə əhalinin sıxlığı ölkə üzrə orta göstəricinin 50 faizindən azdır və ya sakinlərin sayı hər il 0,5 faizdən çox azalır;
- aqrar sahədə məşğul olanların nisbi sayı bölgənin iqtisadi fəal əhalisinin ümumi sayının 15 faizindən az deyildir. [2]

Avropa birliyi ölkələrində və digər inkişaf etmiş ölkələrdə əlverişsiz şəraitdə fəaliyyət göstərən təsərrüfatları dəstəkləmək üçün kənd təsərrüfatı istehsalına xas olan ümumi tədbirlərdən əlavə subsidiyalaşdırma vasitələrindən də istifadə olunur. Subsidiyalaşdırmanın aşağıdakı dörd əsas növündən ifadə olunur:

- kənd təsərrüfatı ilə əlverişsiz şəraitdə məşğul olmağa görə pul ödənişləri;
- fermaların modernləşdirilməsi və onlara əsaslı vəsait qoyuluşu məqsədilə dotasiyaların artırılması;
- yem istehsalının təkmilləşdirilməsi məqsədilə otlaqların vəziyyətinin yaxşılaşdırılması layihələri üzrə əlavə kapital qoyuluşları edilməsi;
- yuxarıda sadalanan kömək növləri təmin edildikdən sonra da, gəlirlərinin səviyyəsini minumal zəruri həddə çatdırmaq mümkün olmadığı halda, fermerlərə əlavə köməkliklərin göstərilməsi.

Əlverişsiz rayonlarda işləyən və ən azı üç hektar kənd təsərrüfatı təyinatlı torpaq sahəsi olan fermerlər üçün hər il müvafiq müavinətlər ayrılır. Bu halda fermerlər gələcəkdə ən azı 5 il müddətində fermerlik fəaliyyəti ilə məşğul olmağa borcludurlar. Dotasiya və subsidiyalar təsərrüfatlardakı mal-qaranın baş sayı və ya əkin sahəsinin həcmi nəzərə alınmaqla, iri-buynuzlu mal-qaranın şərti baş sayına və ya torpaq sahəsinin hektarına uyğun olaraq hesablanır .

Bu sahədə ən mühüm tədbirlər AB ölkələrində həyata keçirilir. Bu ölkələrdə zəif inkişaf etmiş regionlara kömək məqsədilə xüsusi fondlar yaradılmışdır. Bu fondların məqsədi aşağıdakılarla şərtlənir:

- iqtisadi inkişafda geri qalan regionlarda iqtisadi inkişaf və struktur dəyişikliklərinə kömək göstərilməsi;
- sənaye cəhətdən inkişafın zəifliyi ilə xarakterizə edilən regionun və ya onun bir hissəsinin sərhədlərinin və ya regionun bir hissəsinin yenidən qurulması;
- uzunmüddətli işsizliyin azaldılması və gənclərin əmək prosesinə cəlb edilməsi;
- işləyən adamların dəyişilmiş istehsal şəraitinə uyğunlaşmasının asanlaşdırılması;
- regionun aqrar strukturunun ölkənin aqrar siyasətinə uyğunlaşdırılması, kənd ərazilərinin

inkişafı və onların strukturunun yenidən təşkil edilməsi;

- əhalinin sıxlığı ekstremal dərəcədən aşağı olan regionların dəstəklənməsi.

Araşdırmalar göstərir ki, istər inkişaf etmiş ölkələrdə, istərsə də postsosialist ölkələrində aqrar sahənin dövlət tərəfindən tənzimlənməsinin ən mühüm istiqaməti maliyyə-kredit dəstəyindən ibarət olmuşdur. Bu dəstək həm büdcə və həm də büdcədən kənar vəsaitlər hesabına həyata keçirilir. Məsələn, Azərbaycanla eyni transformasiya problemlərini yaşayan Rusiya Federasiyasında bu vəsaitlərdən aşağıdakı istiqamətlər üzrə istifadə olunmaqdadır:

- yeni texnika və avadanlıq alınması da daxil olmaqla investisiya fəaliyyəti üçün;
- federal məqsədli proqramlara müvafiq olaraq, cins toxumçuluq və heyvandarlıq təsərrüfatlarının dəstəklənməsi üçün;
- meliorasiyanın inkişaf etdirilməsi, dövlət meliorasiya sistemlərinin saxlanması, kənd təsərrüfatı bitkilərinin ziyanverici və xəstəliklərinə qarşı mübarizə yolu ilə torpaqların münbitliyinin artırılması probleminin həll edilməsi üçün;
- mal-qaranın karantin və xüsusilə təhlükəli yoluxucu xəstəliklərə tutulmasının qarşısının alınması və bu xəstəliklərin kökünün kəsilməsi ilə bağlı işlər üçün;
- ətraf mühitin mühafizəsi və sair məqsədlər üçün.

Artıq Azərbaycan Respublikasında da bu sahədə əsaslı tədbirlər görülməkdədir.

Buna əyani sübut Azərbaycan Respublikası Prezidentinin 2004-2008, 2009-2013 və 2014-2018-ci illəri əhatə edən 04 saylı fərmanı ilə təsdiq edilmiş «Regionların sosial-iqtisadi inkişaf üzrə Dövlət Proqram»larıdır. Aqrar sahədə lizinqin inkişafı, əsas məhsullar üzrə subsidiyaların genişləndirilməsi, ərzaq ehtiyyat fondunun yaradılması, melorasiya və irriqasiya işlərinə diqqətin artırılması və sair də bu qəbildəndir. Qeyd olanların həyata keçirilməsi üçün dövlət ciddi maliyyə-kredit siyasəti yeritməyi qərarlaşdırmış və bu siyasət ardıcıl surətdə həyata keçirilməkdədir.

Ölkə başçısının əhalinin etibarlı ərzaq təminatı ilə bağlı müvafiq sərəncamının icrası ilə bağlı görülməkdə olan tədbirlər aqrar sahənin inkişafının dövlətin prioritetləri sırasında olmasını bir daha təsdiq edir.

**Açar sözlər:** subsidiya, kənd təsərrüfatı, dövlət tənzimlənməsi, maliyyə

**İstifadə edilmiş ədəbiyyat**

1. Коровкин В. П. Опыт экономической поддержки фермерских хозяйств в ЕЭС и других капиталистических странах // отношениям // Международный сельскохозяйственный журнал. 1992. №2, с. 42-46.
2. Коровкин В. П. Проблемы развития сельскохозяйственного производства стран СНГ и Восточной Европы в условиях перехода к рыночным отношениям // Международный сельскохозяйственный журнал. 1995. №1, с. 18-27.
3. Ламперт Х. Социальная рыночная экономика. Германский путь. М.: «Дело». 1983.

**Хиджран Мирзоева**

## ИНТЕНСИВНЫЕ ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА РАЗВИТИЕ СЕЛЬСКОГО ХОЗЯЙСТВА

**Резюме**

В статье были рассмотрены основные направления развития сельского хозяйства. Здесь была проанализирована необходимость субсидирования сельского хозяйства, защиты внутреннего рынка, финансирования социальной инфраструктуры села.

**Ключевые слова:** субсидия, сельское хозяйство, государственное регулирование, финансы.

**Hicran Mirzoyeva**

## FACTORS AFFECTING ON THE DEVELOPMENT OF AGRICULTURE

**Summary**

İn the article the main directions of agriculture development have been studied in the case of developed countries.

It was also analyzed the subsiding of agriculture, the protection of the domestic market, the necessity to finance the social infrastructure of the village in the article.

**Key words:** subsidy, agriculture, development, state regulation, finance

**UOT-665**

**Əsgər Əliyev**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.ü.f.d.,dosent**
**Sevda Məmmədova**
**Bakı Biznes Universiteti, i.ü.f.d.,dosent**

# AZƏRBAYCANDA NEFT SƏNAYESİ SAHƏSİNİN İNKİŞAFININ AKTUAL PROBLEMLƏRİ

*Məqalədə Azərbaycanda neftqaz sənayesinin inkişafında müasir meyllər əsaslandırılır. Bununla əlaqədar, neft sənayesinin inkişafı istiqamətində dəyişikliklər göstərilmiş, eləcə də, 20 sentyabr 1994-cü il tarixdə bağlanmış "Əsrin müqaviləsi" müstəvisində neftqaz sənayesində və bütövlükdə ölkə iqtisadiyyatında, yeni mərhələnin açılması məsələləri təhlil edilmişdir.*

Məlum olduğu kimi, Azərbaycanda neft qədimdən hasil edilsə də, yalnız XIX əsrin ortalarında sənaye xarakteri almışdır. Ölkəmizdə neftqazçıxarma sənayesi özünün inkişaf tarixi dövründə müxtəlif inkişaf mərhələlərindən keçərək, neft hasilatının inkişaf dinamikasında bir çox texniki-iqtisadi və təşkilati amilləri özündə əks etdirmişdir. Bununla əlaqədar olaraq müasir şəraitdə neftqaz çıxarma sənayesinin əsaslı şəkildə təhlil edilib müxtəlif xarakterli ehtiyat imkanlarının aşkar olunması və onların səfərbərliyə alınması çox mühüm və aktual məsələlərdən biri kimi diqqəti cəlb edir.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra Azərbaycanın güclü dövlət kimi formalaşması və inkişafında neftqaz çıxarma sənaye sahəsi çox mühüm rol oynamışdır. Neftqaz çıxarma sənaye sahəsinin müasir tələblər səviyyəsində inkişafı Azərbaycan əhalisinin sosial-iqtisadi rifahının yaxşılaşdırılmasına və ölkədə müdafiə qüdrətinin möhkəmləndirilməsinə xidmət edir və gələcəkdə də xidmət edecəkdir.

Aparılan araşdırmalar göstərir ki, bazar münasibətləri şəraitində neftqazçıxarma sənayesinin daha da inkişaf etdirilməsi nəticəsində Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının güclənməsi və onun siyasi mövqeyinin möhkəmlənməsi ilə yanaşı beynəlxalq imici də yüksəlməyə başlamışdır.

Son illərin təcrübəsi göstərir ki, dərin mənəvi, mədəni, elmi-iqtisadi potensiala və əlverişli coğrafi-siyasi mövqeyə malik olan Azərbaycan zəngin təbii yerüstü və yeraltı sərvətləri ilə zəngin olan bir ölkədir. Bu maddi nemətlər içərisində neft əsas yerlərdən birini tutur. Təcrübə göstərir ki, Azərbaycan neft sənayesi özünün 150 illik tarixi ərzində əsaslı inkişaf yolu keçmişdir. Lakin Azərbaycan dövləti yalnız XX əsrin 90-cı illərində müstəqillik əldə etdikdən sonra bu maddi sərvətlərdən lazimi səviyyədə bəhrələnmək imkanı əldə etmişdir. Bu baxımdan bazar iqtisadiyyatı şəraitində ölkəmizin iqtisadi və sosial həyatında yanacaq-enerji kompleksinin müasir tələblər səviyyəsində inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Yanacaq-enerji kompleksinə daxil olan neft və qaz hasilatı, neftin nəqli və emalı, elektrik və istilik enerjisi istehsalı və qaz təchizatının yüksəldilməsi dövlətin diqqət mərkəzində duran məsələlərdən biri olmalıdır.

Ölkəmizdə neft və qaz ehtiyatlarının mövcud olması ilə əlaqədar son illərdə neftqaz sənayesinin inkişafı istiqamətində irəli sürülən məsələlər bu sahədə müqavilələrinin bağlanmasından əldə edilən gəlirlərin düzgün istifadə yollarının müəyyənləşdirilməsi Azərbaycanın xarici siyasəti ilə əlaqədar olan məsələlərin həllində ətraflı şəkildə öz əksini tapmışdır[10].

Azərbaycanın yeni neft strategiyası, onun müstəqil bir ölkə kimi öz təbii sərvətlərinə sahib çıxması, milli mənafeləri, iqtisadi və strateji maraqlarını müdafiə etmək əzmində olduğunu təsdiqləyərək ölkəmizin suverenliyinin mühüm təminatçısına çevrilmişdir.

Yeni neft strategiyasının bazasını 1994-cü ildə ulu öndərimiz Heydər Əliyev tərəfindən imzalanan "Əsrin müqaviləsi" təşkil etmişdir.

1994-cü ildə sentyabrın 20-də Azərbaycan hökuməti ilə xarici neft şirkətləri arasında

imzalanan "Əsrin müqaviləsi" respublikamızın neftqazçıxarma sənayesinin və ümumiyyətlə ölkə iqtisadiyyatının inkişafında yeni tarixi bir mərhələnin əsasını qoymuşdur. Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlədilməsi nəzərdə tutulan bu sazişin yalnız Azərbaycan üçün deyil, həm də Qərbin bir sıra aparıcı dövlətləri, həmçinin də Cənubi Qafqaz və Orta Asiya regionu üçün də strateji əhəmiyyəti olmuşdur[11].

Azərbaycanın "Əsrin müqaviləsi"ndən başlanan yolu haqqında ulu öndərimiz Heydər Əliyev demişdir: "1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir" [12].

"Əsrin müqaviləsi"ndə dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur şirkəti ("Amoco", BP, "Mak Dermott", "Yunokal", ARDNŞ, "LUKoyl", "Statoyl", "Ekson", "Türkiyə Petrolları", "Penzoyl", "İtoçu", "Remko", "Delta") iştirak etmişdir.

Ötən dövrdə ulu öndərimiz Heydər Əliyevin iştirakı ilə Bakıda, həmçinin dünyanın ən böyük ölkələrinin paytaxtları olan Vaşinqton, Moskva, London və Parisin möhtəşəm saraylarında xarici ölkələrin neft şirkətləri ilə 21 neft sazişi imzalanmışdır. İndiki dövrdə həmin sazişlərin həyata keçirilməsində 14 ölkənin 30 neft şirkəti yüksək səviyyədə iştirak edir.

Bütün bunlar onu deməyə əsas verir ki, "Əsrin müqaviləsi" Azərbaycanda neft sənayesinin dirçəldilməsinin əsasını qoymuşdur.

Müstəqil Azərbaycan Respublikasının neftqazçıxarma sənayesinin inkişaf xüsusiyyətləri aşağıdakılardan ibarətdir:

- ölkənin neft sənayesinə xarici investisiyaların sürətlə cəlb edilməsi;
- 2000-ci illərdən başlayaraq Azərbaycanda neft hasilatının həcminin sürətlə artması;
- Azərbaycan neftinin dünya neft bazarına çıxarılması və Azərbaycan neftinin xüsüsi marka adı altında satılması;
- Azərbaycanda yeni beynəlxalq neftqaz nəqli kəmərlərinin inşası;
- Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın əhəmiyyətli rola malik olması;
- neft hasilatında dənizdə çıxarılan neftin payının həlledici mövqeyə çıxması
- ölkənin neft sənayesində ən müasir texnologiyalarının tətbiqi;
- ökəyə böyük "neft pullarının" daxil olması;
- Dövlət Neft Fondunun yaradılması;
- Azərbaycanın hasilat sənayesində şəffaflıq sahəsində beynəlxalq təşəbbüsə qoşulması;
- neftqaz gəlirlərindən səmərəli istifadə strategiyasının qəbul edilməsi;
- yeni qaz yataqlarının kəşf edilməsi və s.

Neftqaz sazişlərində Azərbaycanın neftqaz sənayesinə təxminən 60 milyard ABŞ dolları həcmində sərmayə qoyulması nəzərdə tutulmuşdur. Bu məbləğdən demək olar ki, artıq bir neçə milyardı artıq ölkəmizin neftqazçıxarma sənayesinin inkişafına investisiya şəklində qoyulmuşdur

Azərbaycanda neftqazçıxarma sənayesinin inkişafı istiqamətində bağlanmış "Əsrin müqaviləsi" qlobal layihə olmaqla ölkəmizin suveren dövlət kimi öz təbii sərvətlərinə sahib çıxması nəticəsində onun milli mənafelərini, iqtisadi və strateji maraqlarını müdafiə etmək əzmini bütün dünyaya göstərmişdir. Müasir şəraitdə neftqaz çıxarma sənayesində işlənən yataqlarda karbohidrogen ehtiyatlarının miqdarına və həm də bu sənaye sahəsinə qoyulan sərmayelərin həcminə görə bu müqavilə dünyada ən iri həcmlidir. Ümumiyyətlə, "Azəri-Çıraq-Günəşli" layihəsi çərçivəsində qazanılan nailiyyətlər və xarici tərəfdaşlarla yaradılan qarşılıqlı faydalı istehsalat münasibətlərinin lazımi iqtisadi səmərə verməsi ilə əlaqədar olaraq 2017-ci ildə həmin layihənin 2050-ci ilə qədər uzadılması məqsədəuyğun hesab edilmişdir. Elə buna görə də ölkəmiz üçün daha əlverişli şərtlərlə yeni müqavilə imzalanmışdır.

Son illərdə Azərbaycanda dövlət müstəqilliyi möhkəmlənmiş, ictimai-siyasi sabitliyə nail olunmuş, cəmiyyətdə demokratiya və iqtisadi inkişafda bazar iqtisadiyyatı münasibətləri bərqərar olunmuş, dünya iqtisadiyyatı sisteminə inteqrasiya üçün əlverişli şərait yaradılmış və bu işlərin

yerinə yetirilməsi işinə başlanmışdır.

Materialların təhlili göstərir ki, 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanın neftqaz sənayesi sahəsində görünməmiş dərəcədə inkişafa nail olunmuşdır. Belə ki, son illər ərzində neftqaz sənayesinin inkişafına külli miqdarda vəsait qoyulmuşdur. Həmin illərdə yeni qazma qurğuları, platformalar tikilməyə başlanmış, yeni iş yerləri istifadəyə verilmiş, 10 ədəd yedək gəmisi təmir olunaraq işə salınmışdır. Bununla yanaşı boru düzən və kran gəmiləri təmir olunaraq modernləşdirilmişdir. Bütün bunların nəticəsində neftqaz sənayesinin istehsalat və texnoloji strukturu yeniləşmiş, yeni kadr potensialının formalaşması nəticəsində müvafiq sektorda tətbiq edilən müasir texnologiyaların istismarı asanlaşdırılmışdır. Bu isə öz növbəsində rekord miqdarda neft hasilatına gətirib çıxarmışdır.

Azərbaycanın statistik göstəricilərinin təhlili göstərir ki, son dövrlərdə ölkədə neft hasilatı əsaslı şəkildə yüksəlmişdir. Belə ki, 2010-cu ildə 50838,2 min ton, 2014-cü ildə 42075,7 min ton, 2015-ci ildə 41628,3 min ton, 2016-ci ildə 41050,4 min ton və 2017-ci ildə isə 38688,4 min ton neft hasil olunmuşdur.

Onu da qeyd etmək lazımdır ki, son dövrlərdə qaz hasilatı da əsaslı şəkildə artmişdir. Əgər 2010-cu ildə 16672,7 milyon kub metr, 2014-cü ildə 18826,5 milyon kub metr, 2015-ci ildə 19236,1 milyon kub metr , 2016-ci ildə 18717,6 milyon kub metr və 2017-ci ildə isə 18186,0 milyon kub metr qaz hasil olunmuşdur.

Neft strategiyasının əsas istiqamətlərindən biri Azərbaycan neftinin dünya bazarına nəql olunmasından ibarətdir. Bu məqsədlə strateji əhəmiyyətli Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin gerçəklənməsi üçün son dövrlərdə gərgin işlər həyata keçirilmiş və aparılan danışıqlar çox yüksək səviyyədə uğurla nəticələnmişdir.

Məlumatların təhlili göstərir ki, hal-hazırkı dövrə qədər Bakı-Tbilisi-Ceyhan kəmərinin nəql etdiyi neft 4000-ə yaxın tankerlər vasitəsilə dünya bazarlarına göndərilmişdir. Bütün bunlar onu göstərir ki, enerji ixracının göndərilməsində Bakı-Tbilisi-Ceyhan boru kəməri zəngin enerji ehtiyatlarının dünya bazarına çıxarılmasında mühüm rol oynayır.

Göründüyü kimi Bakı-Tbilisi-Ceyhan boru kəməri Bakı-Tbilisi-Ərzurum, TAP və TANAP layihələrinin yaradılmasında əsas mövqeyə malik olmuşdur.

Hal-hazırkı dövrdə Azərbaycanın dünya siyasətindəki çəkisi neft diplomatiyasının düzgün aparılmasından xeyli dərəcədə asılıdır.

Göründüyü kimi, 1994-cü ildən başlayaraq Azərbaycanın neftqaz sənayesi beynəlxalq sistemə qoşulmuş və ölkənin bu sənaye sahəsinə xarici investisiya axını başlamış, yeni neft yataqları istismara verilmiş və neft hasilatında əsaslı dönüş yaranmışdır. Xəzər dənizində tarixdə ilk dəfə olaraq beynəlxalq əməkdaşlıq prosesi başlanıb həyata keçirilməkdədir. Azərbaycanda istehsal olunan zəngin neft resursları indiki dövrdə dünya bazarlarına çıxarılır. Bütün bunlar onu göstərir ki, "Əsrin kontraktı" bağlandıqdan sonra Azərbaycanın ümumi iqtisadi və siyasi inkişafı yeni mərhələyə qədəm qoymuşdur. Yeni neft strategiyasının 24 illik fəaliyyətinin nəticəsində ölkəmizə külli miqdarda gəlir gətirilmişdir. Bu illər ərzində Azərbaycanın öz imkanlarını ardıcıl şəkildə genişləndirməsi nəticəsində xeyli işlər görülmüşdür. Belə ki, ilk dəfə olaraq Xəzər dənizini Qara dənizlə və Aralıq dənizi ilə birləşdirən neft kəmərləri çəkilib istifadəyə verilmişdir.

Ölkədə istehsal olunan xam neftin ixrac boru kəməri vasitəsilə Qərb bazarlarına ixrac olunması son dövrlərdə böyük iqtisadi dividendlərə gətirib çıxarmışdır. Neft gəlirlərinin iqtisadiyyatın digər vacib sahələrinə, o cümlədən qeyri-neft sektoruna, istehsal sahibkarlığının inkişafına yönəldilməsi, yeni müəssisələrin açılması yolu ilə işsizlik probleminin aradan qaldırılması məsələlərinin həllində çox diqqəti çəkən məsələlərdən olmuşdur.

1996-cı ildə "Şahdəniz" qaz kontraktı üzrə sazişin bağlanması çox böyük əhəmiyyət kəsb edən məsələlərdən biridir və hal-hazırkı dövrdə "Cənub" qaz dəhlizinin əsas resurs mənbəyi "Şahdəniz" qaz yatağından ibarətdir. Mütəxəssislərin hesablamalarına görə "Şahdəniz" qaz yatağında qaz ehtiyatlarının həcmi 2 trilyon 200 milyard kubmetrdən çoxdur.

2006-cı ilədək Rusiyadan qaz idxal edən Azərbaycan son illərdə məhz "Şahdəniz" yatağından hasil olunan təbii qaz hesabına nəinki öz tələbatını ödəmək, hətta mavi yanacağını Avropa bazarlarına çıxarmaq imkanı qazanmışdır.

Azərbaycan Respublikası prezidentinin 24 noyabr 2003-cü il tarixdə imzaladığı “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında” fərmanda neft gəlirlərindən düzgün istifadəni nəzərdə tutan uzunmüddətli strategiyanın hazırlanması mühüm vəzifələrdən biri kimi müəyyənləşdirilmişdir. Bu strategiyada neftdən qazanılan vəsaitlərin qeyri-neft sektorunda, regionların, kiçik və orta sahibkarlığın inkişafında, infrastrukturun genişləndirilməsində və yeniləşməsində, yoxsulluğun azaldılması üzrə tədbirlərin həyata keçirilməsində,“insan kapitalı”nın formalaşmasında, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsində və digər mühüm istiqamətlərdə istifadə olunması nəzərdə tutulmuşdur.

1999-cu ildən Xəzər dənizini Qara dənizlə birləşdirən Bakı-Supsa neft kəmərinin tikilib istifadəyə verilməsi neftin ixrac marşrutu kimi çox mühüm əhəmiyyət kəsb edirdi. Bununla yanaşı Xəzər dənizini Aralıq dənizi ilə birləşdirən Bakı-Tbilisi-Ceyhan neft kəmərinin 2003-cü ildən çəkilib istismara verilməsi Azərbaycan və eyni zamanda Xəzər sahilinin şərq hissəsində yerləşən ölkələr üçün bir ixrac boru kəməri kimi müstəsna əhəmiyyəti vardır. Tarixi hadisə kimi 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikilib istifadəyə verilməsindən sonra Azərbaycan dünya miqyasında qaz ölkəsi kimi tanınmışdır. “Cənub” qaz dəhlizinin birinci hissəsinin 2007-ci ildə istifadəyə verilməsindən sonra ölkəmizdə böyük layihə üzərində lazımi işlər aparılır. 2012-ci ildə Azərbaycan ilə Türkiyə arasında danışıqlar nəticəsində Transanadolu kəmərinin tikintisi ilə əlaqədar razılıq əldə olunması da mühüm bir hadisədir. Bu günkü gündə “TANAP” layihəsinin dəqiqləşdirilməsindən sonra “Cənub” qaz dəhlizinin gələcək perspektivləri nəzərə çarpır. Burada bir məsələyə də xüsusi diqqət yeritmək lazımdır ki, 2013-cü ildə “TAP” layihəsi Trans-Adriatik kəmərinin əsas ixrac marşrutu kimi nəzərdə tutulması ölkəmizə əlavə dividendlərin gətirilməsinə səbəb olacaqdır [2].

Materialların təhlili göstərir ki, 2018-ci ilin iyun ayına qədər TANAP (trans anadolu) kəməri ilə Türkiyəyə 400 milyon kubmetr qaz daşınmışdır. İlin sonuna qədər bu həcm 1 milyard kubmetrə çatacaqdır. 2019-cu ildə TANAP–la Türkiyəyə 2 milyard kubmetr, 2020-ci ildə 4 milyard kubmetr və 2021-ci ildə isə 6 milyard kubmetr qaz Türkiyəyə daşınacaqdır.

Ümumiyyətlə, TAP və TANAP layihələri “Cənub” qaz dəhlizinin tərkib hissəsidir. Bu layihələrə əsaslanaraq boru kəməri Türkiyədən keçərək Yunanıstan ərazisində 543 kilometrdən sonra Makedoniya və Albaniyaya çatdırılacaqdır.

Bu layihələrin həyata keçirilməsinə 45 milyard ABŞ dolları məbləğində sərmayə qoyulması planlaşdırılmışdır. Onu da qeyd etmək lazımdır ki, indiki dövrdə “Cənub” qaz dəhlizi marşrutu istiqamətində böyük investisiya layihələri həyata keçirilmişdir. Bu ölkələrin bəzilərində Azərbaycan ən iri sərmayəçilərdən biridir. Ölkə miqyasında qazanılmış nailiyyətlər onu göstərir ki, son dövrlərdə gedən inkişafın davamlı olması nəticəsində XXI əsrin layihələri də vaxtında və yüksək keyfiyyətlə yerinə yetiriləcəkdir. Azərbaycan qazı 2018-ci ildə Türkiyəyə çatdırılmışdır, 2019-cu ildə isə Avropaya çatdırılacaqdır[3].

Nazırlər Kabinetinin 2018-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev layihənin uğurla irəlilədiyini vurğulayaraq demişdir: “Cənub” qaz dəhlizinin reallaşmasında da çox böyük addımlar atılıb. May ayında “Cənub” qaz dəhlizinin rəsmi açılışı olmuşdur və bu tarıxi hadisədir. İyun ayında isə TANAP-ın rəsmi açılışı oldu. Beləliklə, “Cənub” qaz dəhlizinin dörd layihəsindən üçü artıq reallaşıb- ”Şahdəniz-2”, Cənubi Qafqaz boru kəməri və TANAP layihəsi. Dördüncü layihə -TAP qrafik üzrə icra edilir” [4].

Qeyd olunduğu kimi, “Cənub” qaz dəhlizinin sonuncu seqmenti - Trans Adriatik Qaz Boru Kəməri (TAP) son dövrlərdə lazımi inkişaf səviyyəsinə çatmışdır. Bu boru kəmərinin uzunluğu təxminən 878 km olan boru xəttidir. Onun 550 km-i Yunanıstan, 210 km-i Albaniyanın ərazisindən, 105 km-i Adriatik dənizinin altından keçərək və kiçik bir hissəsi isə İtaliya torpaqlarında quru sahəyə çıxacaqdır.

Məlum olduğu kimi, TAP-ın təməli 2016-cı il may ayının 17-də Yunanıstanın Saloniki şəhərində qoyulmuşdur. Ümumiyyətlə, dizayn və mühəndislik işləri də daxil olmaqla bu layihənin ümumi dəyərinin 4,5 milyard avro təşkil edəcəyi nəzərdə tutulur. TAP layihəsində SOCAR (20%), BP (20%), “Snam S.p.A (20%), Fluxys (19%), Enaqas (16%) və Axro (5%) şirkətləri iştirak

edirlər.

Aparılan təhlil materialları göstərir ki, son 10 il müddətində Azərbaycan iqtisadiyyatı dünya miqyasında ən sürətlə inkişaf edən dövlətlərdən biri olmuşdur. "Cənub" qaz dəhlizi layihəsinin həyata keçirilməsi ölkəmiz üçün yeni imkanların açılmasını bir daha sübuta yetirir. 2005-ci illə müqayisədə 2018-ci ilin əvvəlində ölkəmizdə ümumi daxili məhsulun həcmi 5,6 dəfədən çox, ölkənin büdcə xərcləri isə 20 dəfə artmışdır. Hal-hazırkı dövrdə Azərbaycanın xarici dövlət borcu ümumi daxili məhsulun yalnız 8%-ni təşkil edir. Ölkədə işsizliyin səviyyəsi 5%, yoxsulluq səviyyəsi isə 5,2% təşkil edir[5].

Bütün bunlar onu göstərir ki, indiki şəraitdə Azərbaycan dünyanın ən sürətlə inkişaf edən ölkələrindən birinə çevrilmişdir. 2017-ci ildə dövlət büdcəsinin 2003-cü ildəki 1,2 milyard dollardan 25 milyard manata, respublikamızın valyuta ehtiyatlarının Dövlət Neft Fondunda toplanan vəsaitlərin 54 milyard dollara çatdırılması ölkədə qoyulmuş yeni neft strategiyasının nəticəsində olmuşdur[6].

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev demişdir: "Son illərdə həyata keçirilən neft strategiyası bu yolun düzgün olduğunu bir daha sübut etdi. Amma bu heç də o demək deyil ki, biz gələcəyimizi də neftlə bağlamaq istəyirik. Neft faktoru bizim üçün vasitədir. Müstəqilliyimizin möhkəmləndirilməsi, iqtisadiyyatımızın gücləndirilməsi istiqamətində bir vasitədir. Yəni biz bu vasitədən istifadə edirik.

Göründüyü kimi, 2006-cı ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Ceyhan neft kəmərinin fəaliyyəti nəticəsində ölkəmizə valyuta daxil olmaları xeyli yüksəlmişdir. İqtisadi artımın neft amili ilə bağlılığı əvvəlki illərdə çox yüksək səviyyədə olmuşdur. Neft gəlirlərindən səmərəli şəkildə istifadə olunması iqtisadiyyatın real sektoruna və eyni zamanda infrastruktur layihələrinin həyata keçirilməsində çox mühüm rol oynamışdır. Burada bir məsələyə də diqqət yetirmək lazımdır ki, son dövrlərdə ölkə iqtisadiyyatına külli miqdarda investisiya qoyulmuşdur.

2004-2017-ci illər ərzində Azərbaycan iqtisadiyyatının inkişafına 200 milyard dollar investisiya cəlb olunmuşdur və bu sərmayə Azərbaycan iqtisadiyyatına böyük təkan vermişdir.

Burada bir məsələni də qeyd etmək lazımdır ki, adambaşına düşən birbaşa xarici sərmayələrin qoyuluşuna görə Azərbaycan MDB dövlətləri arasında ön sıralardadır.

Neftdən gələn gəlirlər hesabına regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi və qeyri-neft sektorunun ümumi daxili məhsulda xüsusi çəkisinin artırılması istiqamətində düşünülmüş strategiya həyata keçirən Azərbaycan hökuməti bu sahədə mühüm göstəricilərə nail olmuşdur. Heç də təsadüfi deyildir ki, sosial-iqtisadi inkişafda keyfiyyətcə yeni mərhələ kimi dəyərləndirilən son 15 il həm də sahibkarlar ordusunun milli iqtisadiyyatın aparıcı təbəqəsi kimi önə çıxması ilə səciyyəvidir. 2004-cü ildən başlayaraq hal-hazırkı dövrdə də həyata keçirilən regional proqramlarında biznes mühitinin yaxşılaşdırılması ilə bağlı kompleks tədbirlərin əksini tapması da təsadüfi olmayıb, bölgələrin tərəqqisi prosesində özəl sektorun imkanlarını səfərbər etmək, sosial xarakterli məsələlərin həllində sahibkarların fəal iştirakına nail olmaq istəyindən irəli gəlmiş regional inkişaf proqramları respublikamızının bölgələrində yerli sahibkarlığın, yeni istehsal və emal müəssisələrinin açılmasına, işsizlik və yoxsulluq probleminin əsaslı dərəcədə həllinə ciddi təkan vermişdir.

Ötən illərdə kiçik və orta sahibkarlığın güzəştli kreditlərlə maliyyələşdirilməsi, sahibkarların fəaliyyətinə yersiz müdaxilələrin qarşısının alınması, özəl sektorda inkişafa mane olan problemlərin həlli məqsədilə yeni mexanizmlər tətbiq edilmişdir.

Ümumiyyətlə, son illər ölkədə regionların sosial-iqtisadi inkişafına xidmət edən dövlət proqramlarında və digər rəsmi sənədlərdə sahibkarlığın inkişafı məsələsi daim diqqət mərkəzində duran bir problem kimi nəzərdə tutulur.

2004-2008, 2009-2013-cü və 2014-2018-ci illəri əhatə edən Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı "Dövlət Proqram"larının icra olunduğu 15 il ərzində regionlarda qeydiyyata alınan sahibkarlıq subyektlərinin sayı 7,2 dəfə və vergi daxil olmaları 12,7 dəfədən çox artmışdır. Azərbaycanın şəhər və regionları üzrə vergi gəlirlərinin artımı 2017-ci ildən Sumqayıt, Şirvan və Mingəcevir şəhərləri ilə yanaşı, eləcə də Abşeron və İmişli rayonlarına öz xərclərini tamamilə yerli gəlirlər hesabına təmin etməyə imkan yaratmışdır [7,8,9].

Bütün bunlar onu deməyə əsas verir ki, xarici neft şirkətləri ilə Azərbaycanın imzaladığı "Əsrin müqaviləsi"nin ən müsbət cəhəti ondan ibarətdir ki, bu saziş XXI-əsrin əvvəllərindən başlayaraq respublikamızın gələcək dinamik inkişaf yolunu müəyyən etmişdir.

Neft-qaz çıxarma sənayesinin gələcək inkişafı ilə əlaqədar bağlanmış müqavilələr müstəqil-liyimizin, suverenliyimizin, dövlətçiliyimizin, milli təhlükəsizliyimizin daha da möhkəmlənməsinə, ölkə iqtisadiyyatının dünya təsərrüfatına inteqrasiyanının dərinləşməsinə, investisya axınının sürətlənməsinə və bütün bunlarla əlaqədar olaraq Azərbaycanın beynəlxalq səviyyədə qüdrətinin əhəmiyyətli dərəcədə artmasına təsir etmişdir.

Bütün bu deyilənlərdən məlum olur ki, hal-hazırkı şəraitdə Azərbaycan neftinin satışından əldə edilən gəlirlər səmərəli şəkildə istifadə edilir. Neft stragetiyasnının əsas məqsədlərindən biri kimi onu qeyd etmək olar ki, əldə edilmiş vəsaitin Azərbaycan xalqının rifahı naminə düzgün və səmərli istifadə olunmasının təşkil edilməsindən ibarətdir.

Bazar iqtisadiyyatı şəraitində neft gəlirlərindən yalnız neft sənayesinin gələcək inkişafı üçün deyil, ümumillikdə bütün ölkə iqtisadiyyatının perspektiv inkişafı nöqteyi-nəzərindən lazımi şərait yaradılmalıdır. Ümumiyyətlə, ölkə iqtisadiyyatının bütün kəmiyyət və keyfiyyət parametrlərində dövlətin yeritdiyi siyasətdə və həmçinin ölkə əhalisinin rifah səviyyəsinin yüksəldilməsində bu gəlirlərin təsiri indiki şəraitdə əsaslı şəkildə hiss olunmaqdadır. Beləliklə, neftqazçıxarma sənaye sahəsinin sürətli inkişafı və bunun da əsasında inkişaf etdirilməsi nəzərdə tutulan yanacaq-energetika sənaye sahəsinin Azərbaycanın bugünkü həyatında oynadığı misilsiz rolunu çox yüksək qiymətləndirən dövlətimiz neftqaz sənayesi ilə bərabər qeyri-neft sektorunun da inkişafını genişləndirmək məsələsini daim diqqət mərkəzində saxlayır. Bu baxımdan ölkəmizin imkanları xeyli böyükdür. Bu isə öz növbəsində gələcəkdə ölkənin yüksək davamlı inkişafının əsasən regionların istehsal potensialından səmərəli istifadə istiqamətində davam etdirilməsinə şərait və imkan yaradacaqdır.

**Açar sözlər:** neft strategiyası, təbii sərvətlər, ixrac boru kəməri, neft kəməri, karbohidrogen ehtiyatları, investisiyalar

**İstifadə edilmiş ədəbiyyat**

1. İlham Əliyev. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrasına həsr olunmuş konfransının materialları. "Azərbaycan" qəzeti № 25, 6 fevral 2014-cü il.
2. Bakıda "Əsrin müqaviləsi"nin 20 illiyinə və "Cənub qaz dəhlizi"nin təməlinin qoyulmasına həsr olunmuş təntənəli mərasim."Azərbaycan"qəzeti. № 206, 21 sentyabr 2014-cü il.
3. Bakıda "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin görüşü. "Azərbaycan" qəzeti. 12 fevral 2015-ci il (mənbə 14 fevral 2015-ci il №35)
4. Bakıda "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin ikinci toplantısı. Azərbaycan" qəzeti. 29 fevral 2016-cı il (mənbə "Xalq" qazeti № 47, 1 mart 2016-cı il).
5. Bakıda "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü toplantısı. "Azərbaycan" qazeti. 15,16,17,18 fevral 2018-ci il.
6. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. "Azərbaycanın statistik göstəriciləri". Bakı - 2018. səh. 434-435.
7. "2004-2008-ci illər üzrə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı" Dövlət Proqramı.
8. "2009-2013-cü illər üzrə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı" Dövlət Proqramı.
9. "2014-2018-ci illər üzrə Azərbaycan Respublikası reqionlarının sosial-iqtisadi inkişafı" Dövlət Proqramı.
10. N.Əliyev. "Öklənin güclü iqtisadi potensialının əsasını neft amili təşkil edir". "Azərbaycan" qəzeti. № 205. 20 sentyabr 2014-cü il.
11. Q.Kərimov. "Əsrin müqaviləsi" ilə başlayan dinamik inkişaf yolu. "Azərbaycan" qəzeti. № 205. 20 sentyabr 2014-cü il.
12. "Azərbaycan" qəzeti. № 35-37, 210, 221-223, 228, sentyabr, oktyabr 2018-ci il.

**Аскер Алиев**
**Севда Мамедова**

## АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ РАЗВИТИЯ НЕФТЯНОЙ ПРОМЫШЛЕННОЙ ОТРАСЛИ АЗЕРБАЙДЖАНА

**Резюме**

В статье обосновываются современные тенденции в развитии нефтегазовой промышленности в Азербайджане. В связи этим, показаны изменения в направлении развития нефтяной промышленности, также проанализированы вопросы открытия нового этапа в развитии нефтегазовой промышленности и в целом экономики страны в контексте «Контракт века», заключенного 20 сентября 1994 года.

**Ключевые слова:** нефтяная стратегия, природные ресурсы, экспортный трубопровод, нефтепровод, запасы углеводорода, инвестиции.

**Asker Aliyev**
**Sevda Mammadova**

## ACTUAL PROBLEMS OF THE DEVELOPMENT OF THE OIL INDUSTRY IN AZERBAIJAN

**Summary**

The article substantiastes thoroughly characterize the current trends in the development of the oil and gas industry in Azerbaijan. In this regard, the article shows the changes in the direction of development of the oil industry. İt is also examined the question of opening a new stage in the development of the oil and gast industry and the whole economy of the country considering to the “Cortract of the Century” signed September 20, 1994.

**Key words:** oil strategy, natural resources, export pipeline, oil pipeline, hydrocarbon resources, investment

**UOT-332.021**

**Vilayət İsmayılov**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.ü.e.d.**

# AQRAR BÖLMƏDƏ MƏHSUL İSTEHSALI VƏ SATIŞININ SPESİFİK XÜSUSİYYƏTLƏRİ

*Məqalədə aqrar bölmədə məhsul istehsalı və satışının digər fəaliyyət sahələrindən fərqli olan spesifik xüsusiyyətləri qeyd edilir. Burada aqrar bölmənin sənaye istehsalının xammala, əhalinin ərzaq məhsullarına olan tələbatının mühüm hissəsini təmin etdiyi və respublikada istehsal edilən ümumi daxili məhsulun (ÜDM) strukturunda kənd təsərrüfatı istehsalının müvafiq payının olduğu vurğulanır. Mövcud vəziyyətdən çıxış yolları açıqlanmış və ölkədəki müxtəlif təsərrüfat formalarının inkişaf etdirilməsi məqsədilə onların fəaliyyətinə əlverişli şəraitin yaradılmasının vacibliyi qeyd edilir.*

Mülkiyyət və təsərrüfat formalarından asılı olaraq aqrar münasibətlər müntəzəm olaraq yeniləşir və təkmilləşir. Digər sahələrdən fərqli olaraq Aqrar bölmə torpaq, təbii-iqlim şəraiti və istehsal fondlarına bağlı olan özünəməxsus xüsusiyyətlərə malikdir. Eyni zamanda digər bir xüsusi cəhəti də qeyd etmək lazımdır ki, aqrar bölmədə məhsul istehsalı və satışı mexanizmi iqtisadiyyatın müxtəlif fəaliyyət sahələrindən əsaslı surətdə fərqlidir. Bu sahə sənaye istehsalının xammala, əhalinin ərzaq məhsullarına olan tələbatının mühüm hissəsini təmin edir. Belə ki, respublikada istehsal edilən ümumi daxili məhsulun (ÜDM) strukturunda kənd təsərrüfatı istehsalının xüsusi çəkisi 2010-2017-ci illərdə 5,1%-5,6% intervalında dəyişmişdir. Elə bu baxımdan da, yuxarıda qeyd edilən cəhətlər bir daha aqrar bölmənin ölkə iqtisadiyyatında müvafiq xüsusi çəkiyə malik olduğunu ifadə edir.

Ölkənin aqrar sferasında yaradılan və fəaliyyət göstərən müxtəlif təsərrüfat formalarının inkişafı, ilk növbədə orada sahibkarlıq fəaliyyəti üçün əlverişli şəraitin təşkil edilməsindən asılıdır. Bu baxımdan, 15 dekabr 1992-ci ildə “Sahibkarlıq fəaliyyəti haqqında Qanun”un qəbul edilməsi, Azərbaycan Respublikası prezidentinin 28 avqust 2002-ci ildə "Sahibkarlığa Kömək Milli Fondu", 10 sentyabr 2002-ci ildə "Sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər" haqqında və 6 dekabr 2016-cı ildə “Azərbaycan Respublikasının milli iqtisadiyyatının perspektivi üzrə Strateji Yol Xəritəsi” Fərmanları böyük əhəmiyyət kəsb edir [2, s.10-25].

Xarici təcrübəyə əsasən, milli iqtisadiyyatın inkişafında bələdçi rolunu oynayan Strateji Yol Xəritəsi postböhran mərhələsinə qədəm qoymuş və sabit makroiqtisadiyyata malik ölkələrdə tətbiq olunur. Son illərdə neft gəlirlərinin azalması və nəticədə milli valyutanın kəskin devalvasiyaya uğraması illərlə sabit vəziyyətdə saxlanılan makroiqtisadi tarazlığın pozulmasına gətirib çıxarmışdır. Hazırda dövlət inflyasiyanı nəzarətdə saxlamaq üçün sərt monetar siyasət həyata keçirir. Lakin qısamüddətli olsa da, təsiredici gücə malik monetar və fiskal siyasətin alətləri uzun müddətə nəzərdə tutulmuş davamlı iqtisadi inkişaf tempinin artmasına yararlı deyil. Yalnız qısamüddətli sabitlik vəziyyətində, ilk növbədə, staqflyasiya prosesini müəyyən dərəcədə ləngitmək olar. Bu da istehsalın restrukturizasiyasına yönəldilmiş strateji layihələrin həyata keçirilməsinə və keyfiyyət baxımından iqtisadi artıma nail olmasına münbit şərait yaradır. Bu baxımdan Prezident İlham Əliyevin dekabrın 6-da imzaladığı Fərmanla təsdiqlənmiş “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”ni uzunmüddətli, dayanıqlı iqtisadi artım şəraitinə doğru “ötürücü mexanizm” rolunu oynayan ən mühüm sənəd kimi xarakterizə etmək olar. Bu baxımdan hər bir dövlətin iqtisadi və sosial siyasətinin əsas istiqamətlərindən biri aqrar sektorda ölkə əhalisinin məşğulluğunun təmin olunması, işsizliyin aradan qaldırılması və əhalinin aztəminatlı təbəqəsinin sosial müdafiəsinin düzgün təşkil edilməsi hesab edilir.

Uzun müddət planlı sosialist iqtisadiyyatı şəraitində yaşamış keçmiş Postsovet ölkələrinin iqtisadi strategiyasının əsasını mərkəzləşdirilmiş inzibati idarəetmə sistemi təşkil etmişdir. Adminstrativ-komanda sistemi ilə idarə olunan bu ölkələrdə yeganə hakim təsərrüfatçılıq forması dövlət mülkiyyətinə əsaslanmışdır. Bu idarəetmə sisteminin nəticəsində keçmiş sovetlər ölkəsində məhsuldar qüvvələrlə istehsal münasibətlərinin qarşılıqlı ziddiyəti meydana çıxdı. Yaranmış böhrandan çıxmaq üçün iqtisadi

sistemdə dövlət mülkiyyəti, mərkəzləşdirilmiş planlaşdırma, inzibati idarəetmə və s. elementlər saxlanılmaqla aparılan kiçik dəyişikliklər gözlənilən nəticəni vermədi, ölkə iqtisadiyyatı daha da kəskinləşdi və ittifaq dağılmağa məcbur oldu [1, s.98-123].

İttifaq dağıldıqdan sonra yaranan böhrandan çıxmaq məqsədilə bazar münasibətlərinin xüsusiyyətlərini və tələblərini iqtisadiyyatda reallaşdırmaq üçün alternativsiz bir proses yarandı. Belə bir şəraitdə fəaliyyət göstərən bütün növ təsərrüfat formaları arasında rəqabət genişlənir və təsərrüfatlardan hər biri çalışır ki, mövcud şəraitə müvafiq olaraq sistemdə öz mövqeyini möhkəmlətsin, bazara daha çox məhsul çıxartsın, istehsal edilmiş məhsulun keyfiyyəti alıcıların tələbatına lazımi səviyyədə cavab versin və məhsulu optimal qiymətə satıb mümkün qədər maksimum gəlir əldə etsin. Bu vəziyyətdən çıxmaq üçün sahibkarlara iqtisadi cəhətdən dövlətin dəstəyi obyektiv və qanunauyğun bir zərurətə çevrilir. Dünya təcrübəsi göstərir ki, hər hansı bir ölkədə yaradılan və fəaliyyət göstərən müxtəlif təsərrüfat formalarının inkişafı ilk növbədə sahibkarlıq fəaliyyəti üçün əlverişli şəraitin təşkil edilməsindən asılıdır. Bu məqsədlə dövlət başçısının Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondunun ləğv edilərək İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxsin təsis edilməsi və “Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərinin istifadəsi Qaydaları"na uyğun olaraq göstərdiyi fəaliyyətdən irəli gələn hüquq və öhdəliklərin yerinə yetirilməsinə istiqamətləndirilmiş 01.08.2018-ci il fərmanı, bundan əlavə, ölkəmizdə aqrar sektorun inkişaf etdirilməsinə istiqamətləndirilmiş kənd təsərrüfatının Strateji Yol Xəritəsində nəzərdə tutulmuş müddəaların pilləli formada ardıcıl həyata keçirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Kənd təsərrüfatının Strateji yol xəritəsinin başlıca prinsipi ölkənin aqrar sektorunun mövcud istehsal imkanlarına və daxili ərzaq bazarının tələbatına uyğun olaraq, strateji planın hazırlanmasıdır [3, s. 4-16]. Bunun reallaşması üçün sabit istehsal dinamikasının yüksəlməsi nəticəsində əhalinin ərzaqla təminatında daxili imkanlardan maksimum faydalanmaq prioritet hesab olunur. İlk növbədə, xarici ölkələrdən ərzaq asılılığının mümkün qədər azaldılması nəzərdə tutulur. Buna nail olmaq üçün daxili istehsalçının rəqabət qabiliyyətinin artırılması, gəlir bazasının genişləndirilməsi yolu ilə istehsalın stimullaşdırılması istiqamətində konkret tədbirlər (diferensial subsidiyalaşma, məhsuldarlığın və gəlirlərin sığortalanması, transaksion xərclərin azaldılması və sair) planlaşdırılır.

Bu prinsiplərin reallaşması naminə aqrar siyasətin üç əsas istiqamətdə həyata keçirilməsi məqsədəuyğun hesab edilir. Belə ki, daxili bazarlarda tələb və təklif parametrlərinin düzgün müəyyənləşdirilməsi baxımından kənd təsərrüfatı məhsullarının qiymət tənzimlənməsi mexanizmlərinin işlənib hazırlanması ilə yanaşı daxili bazara rəqabətqabiliyyətli yerli məhsullar çıxararaq istehlakçıların tələbatının ödənilməsi əsas şərtlərdəndir. Burada daxili bazarın xüsusiyyətlərini təhlil edərək çeşidlilik, subsitutluq və digər elementlər nəzərə alınır. Bunun üçün ərzaq təhlükəsizliyi və idxal əvəzedici mexanizmlərin ayrı-ayrılıqda yox, kompleks şəkildə həyata keçirilməsi nəzərdə tutulur. Əvvəla, ərzaq təhlükəsizliyi səviyyəsinin artırılmasına əsaslanan tədbirlərin davamlılığı ilə bərabər, daxili bazarda idxal məhsullarına qarşı iqtisadi üsullar vasitəsilə rəqabət aparmaqla, istehlakçının alıcılıq qabiliyyətinə uyğun keyfiyyətli məhsulların təklifi artırılmalıdır.

Kənd təsərrüfatının Strateji yol xəritəsinin növbəti prinsipi müasir texnologiyalardan yetərincə yararlanmaq, onları istehsal prosesində fəal şəkildə tətbiq etməkdir. Bu zaman əsas diqqət məhsuldarlığın artırılmasına, il ərzində azı iki dəfə məhsul götürülməsinə, ərzaq məhsullarının istehsalında daha dərin emal prosesinin qurulmasına yönəldilməlidir. Yerli istehsalın stimullaşdırılması sahəsində ixrac potensialının artması planlaşdırılır. Bu da daxili bazarın tələbatının daha dolğun ödənilməsinə, kənd təsərrüfatı istehsalının canlandırılmasına, nəticə etibarilə istehsal və istehlak maraqları əsasında bütöv texnoloji və istehsal tsiklə malik iri təsərrüfatların meydana gəlməsinə zəmin yaratmış olur.

Burada ən önəmli məsələrdən biri də elmi-texniki nailiyyətlərin öyrənilməsi və istehsal prosesində istifadəsi, müvafiq üsulların iqtisadi səmərəlilik baxımından seçilməsi və tətbiqi fikrimizcə məhsul istehsalında texnologiyanın intensivlik faktorunun gücləndirilməsini, o cümlədən aqrar sferada ixtisaslaşmanın dərinləşməsi, istehsalın təmərküzləşməsi, məhsul emalında forma və metodların təkmilləşdirilməsi, əməyin təşkili və digər metodlarda istifadə olunması kimi məsələlərin həllini həyata keçirmiş olacaqdır.

Kənd təsərrüfatının Strateji Yol Xəritəsinin əsas məqsədlərindən biri də dünya ərzaq və kənd

təsərrüfatı bazarına ekoloji cəhətdən təmiz məhsul ixracını maksimum səviyyədə artırmaqla ərzaq məhsullarının dərin emal prosesində robotlaşdırma texnologiyalarının tətbiqini, yüksək məhsuldar cins heyvanların, bitki sortlarının və biotexnologiyaların istifadəsini təmin etməkdən ibarətdir. Eyni zamanda bu sferada güclü elm və təhsil komplekslərinin yaradılması, kənd təsərrüfatı məhsullarının və ərzaq tullantılarının dərin və kompleks emal texnologiyalarının tətbiqi istiqamətdə dövlət tərəfindən böyük dəstək göstərilməsi ən önəmli məsələlərdən biri hesab edilir.

Fikrimizcə kənd təsərrüfatının Strateji Yol Xəritəsində müəyyənləşdirilən hədəflərə nail olunması nəticəsində kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunda 2020-ci ildə proqnozlaşdırılan ümumi daxili məhsulun həcminin kəskin dərəcədə artma ehtimalı yaranır və bütün bu qeyd edilənlər aqrar sferada problem məsələlərin kompleks şəkildə həll edilməsinə zəmin yaratmış olur.

Ölkənin kənd təsərrüfatı sahəsinin inkişafı ilə bağlı 2020-ci ilədək strateji baxış, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün proznozlaşdırılan baxışların həyata keçirilməsi kənd təsərrüfatı sahəsində həm orta, həm də uzunmüddətli dövr üzrə strateji inkişaf hədəflərinə çatmaq üçün dövlətin ardıcıl mərhələlərlə icra ediləcək aydın yol xəritəsinə malik olmasını ifadə edir. Bu sektor üzrə uzunmüddətli perspektivə nail olmaq məqsədilə ölkə üzrə turizm sektorunda doqquz əsas strateji hədəf müəyyənləşdirilmişdir. Qeyd etmək lazımdır ki, qlobal miqyasda kənd təsərrüfatı və ərzaq məhsullarına olan tələbatın artım tempi azalma meylinə malikdir. Hesablamalar göstərir ki, ötən 40 il ərzində kənd təsərrüfati və ərzaq məhsullari tələbatının ortaillik artım tempi 2,2 faiz olmuşdur, növbəti 40 il ərzində bu göstəricinin 1,1 faizə enəcəyi proqnozlaşdırılır. O cümlədən inkişaf etməkdə olan ölkələr üzrə bu göstəricilərin, müvafiq olaraq, 3,6 faiz və 1,3 faiz səviyyəsində olacağı da proqnozlaşdırılır. 2050-ci ildə bütün dünya üzrə ərzaq istehsalının artırılması zərurəti yaranmış olacaq və hətta inkişaf etməkdə olan ölkələrdə müvafiq istehsal həcminin 2 dəfə artırılması zərurəti yaranacaqdır [4-6].

Aqrar sektorda 2010-2017-ci illərdə bütün təsərrüfat kateqoriyaları, o cümlədən kənd təsərrüfatı müəssisələri və fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatları üzrə məhsul istehsalı indeksinin dinamikasının (şəkil 1) təhlili göstərir ki, digər təsərrüfat kateqoriyalarına nisbətən müqayisəli artın ən çox kənd təsərrüfatı müəssisələrində olmuş və bu artım müvafiq olaraq 2,58 dəfə təşkil etmişdir. Bütün təsərrüfat kateqoriyalarında bu göstərici-1,3 dəfə, fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatlarında – 1,25 dəfə təşkil etmişdir. Müqayisə edilən dövr ərzində yalnız 2014-cü ildə bütün təsərrüfat kateqoriyalarında və fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatlarında nisbətən azalma müşahidə edilmişdir ki, bu da həmin dövrdə hava-iqlim şəraitinin qeyri-münasibliyi ilə xarakterizə edilə bilər.




Şəkil1. Kənd təsərrüfatında məhsul istehsalı indeksinin dinamikası

Kənd təsərrüfatı məhsullarının istehsalı və satışı prosesinin düzgün təşkil edilməsi də vacib məsələlərdən biri hesab edilir. Bu baxımdan aparılmış təhlilin nəticələri mövcud vəziyyətin yaxşılaşdırılması istiqamətində aşağıdakı tədbirlərin yerinə yetirilməsinin vacibliyini ön plana çəkir:

1. Ölkənin ərzaq təhlükəsizliyinin gücləndirilməsi, o cümləsdən ərzaq təhlükəsizliyinin mühüm tərkib elementlərindən biri olan qida təhlükəsizliyinə nəzarət sistemi də inkişaf etdirilməlidir. Onu da qeyd etmək lazımdır ki, hazırda Azərbaycanda kənd təsərrüfatı və ərzaq məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarət səkkiz dövlət orqanı tərəfindən həyata keçirilir.

2. Ölkədə kənd təsərrüfatı məhsulları sahəsində istehsal potensialının daha da artırılması, o cümlədən məhsuldarlıq göstəricilərinin yüksəldilməsi məqsədi ilə dünya təcrübəsində tətbiq edilən mütərəqqi vasitələrlə təsərrüfatların konsolidasiyasının həyata keçirilməsi və kənd təsərrüfatı sahəsində kooperasiyanın müxtəlif formalarda inkişafının təmin edilməsi vacib şərtlərdəndir.

3. Son illər ərzində kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrinə Sahibkarlığa Kömək Milli Fondunun və digər kredit təşkilatlarının xətti ilə ayrılan güzəştli və digər növ kreditlərin həcmi artırılmasını təmin etmək.

4. Azərbaycanın 8,64 milyon hektar təşkil edən ümumi ərazisinin 55 faizi və ya 4,74 milyon hektarı kənd təsərrüfatı təyinatlı torpaqlardır və ölkəmiz torpaq ehtiyatları məhdud olan ölkələr sırasına aiddir. Azərbaycanda torpaq-iqlim şəraiti suvarılan torpaq sahəsini 3,0-3,5 milyon hektara qədər artırmağa imkan versə də, su ehtiyatlarının çatışmazlığı səbəbindən bunu həyata keçirmək mümkün olmur. Bu məqsədlə meliorasiya-irriqasiya sisteminin yenidən qurulması və təkmilləşdirilməsinin həyata keçirilməsi üçün əkin sahələrinin və əhalinin içməli suya olan tələbatının ödənilməsi üçün subartezian quyularının sayının artırılmasına ehtiyac vardır. Bundan əlavə "Samur-Abşeron suvarma sisteminin yenidən qurulması" layihəsi çərçivəsində su anbarları və suvarmada istifadə edilə biləcək magistral kanalların tikilərək istifadəyə verilməsi xüsusilə əhəmiyyətlidir.

5. Dövlətin dəstəyi və həyata keçirilən sistemli tədbirlər hesabına kənd təsərrüfatı istehsalçılarının müvafiq texnika və avadanlıqlarla təminatının yaxşılaşdırılmasına baxmayaraq "Aqrolizinq" ASC tərəfindən taxılyığan kombayn, traktor və digər kənd təsərrüfatı texnikası alınaraq bir hissəsi hüquqi və fiziki şəxslərə lizinq yolu ilə satılmalı, bir hissəsi isə regionlarda fəaliyyət göstərən kənd təsərrüfatı idarələrinin tabeliyinə verilməklə sahibkarların sifarişlərini yerinə yetirmək üçün istifadə edilməlidir.

6. Sahibkarlığın inkişaf etdirilməsinə dəstək məqsədi ilə onların mineral gübrələrlə, yüksək məhsuldarlığa malik olan toxum sortları və heyvanlarla, kənd təsərrüfatı məhsulları istehsalçılarının risklərdən qorunması, heyvan və bitki xəstəliklərinin qarşısının alınması və aradan qaldırılması məqsədilə dövlət dəstəyi hesabına həyata keçirilən baytarlıq və fitosanitar xidmətləri sisteminin inkişafı, yem məhsulu istehsalında ixtisaslaşmış sənaye müəssisələrinin yaradılması, qısamüddətli və vaxtaşırı təşkil olunmuş kurslarda kənd təsərrüfatı istehsalçılarının peşə, bilik və bacarıqlarının artırılması, ətraf mühitin qorunması ilə yanaşı, ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istrehsalının stimullaşdırılması ən önəmli məsələlərdən biridir.

Bütün bunlar ölkənin sosial-iqtisadi inkişafının müasir mərhələsində həm bütövlükdə iqtisadiyyatın, həm də kənd yerlərinin inkişafının qabaqcıl dünya təcrübəsi əsasında təkmilləşdirilməsinin mühüm əhəmiyyət kəsb etdiyini ifadə edir. Bundan əlavə kənd təsərrüfatı məhsullarının istehsalı və satışının spesifik xüsusiyyətlərinin nəzərə alınması yolu ilə istehsal və emal müəssisələrinin birgə inkişafını təmin edən kompleks tədbirlər sisteminin işlənilməsi və həyat keçirilməsinə, eyni zamanda yaranmış çətinliklərin dövlət dəstəyi ilə aradan qaldırılmasına yönəldilmiş məqsədyönlü tədbitləri əhatə edən dövlıət proqramlarında bu sferanın inkişafına təminat verə biləcək yeni bəndlərin nəzərə alınması məqsədəuyğun hesab edilir.

**Açar sözlər:** aqrar bölmə, kənd təsərrüfatında məhsul istehsalı, satışı, spesifik xüsusiyyətlər

**İstifadə edilmiş ədəbiyyat**

1. Abbasov A.F. Sosial bazar iqtisadiyyatı. Bakı: Elm, 1998, 320 s.
2. İsmayılov V.İ. Aqrar bölmədə məhsul istehsalı və satışının iqtisadi-riyazi modelləşdirilməsi. Bakı. 2005, 335 s.
3. Azərbaycan Respublikası Prezidentinin"Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" haqqında 06.12.2016-cı il tarixli fərmanı
4. www.agro.gov.az/609-stratej-yol-xrtlrnn-knd-tsrrfati-nazrly-
5. www.e-qanun.az/alpidata/framework/data/35/f_35222.htm
6. *iqtisadiislahat.org/.../SYX-kend%20teserrufati_az_.pdf*

**Вилаят Исмайлов**

**СПЕЦИФИЧЕСКИЕ ОСОБЕННОСТИ ПРОИЗВОДСТВА И ПРОДАЖИ ПРОДУКЦИИ В АГРАРНОМ СЕКТОРЕ**

**Резюме**

В исследовательской работе отмечаются основные особенности различия с другими отраслями производства и продажи продукции в аграрном секторе. В то же время, предлагаются основные пути решения отмеченных пунктов в Стратегической Дорожной Карте в сфере производства и продажи сельскохозяйственных продуктов.

Также отмечается, что повышение производства и реализации сельскохозяйственных продуктов в социально-экономическом развитии страны играет особую роль в обеспечении населения продовольственными продуктами.

**Ключевые слова:** аграрный сектор, производство и продажа продукций в сельском хозяйстве, специфические свойства

**Vilayat İsmayılov**

**THE SPECIFIC FEATURES OF PRODUCTION AND SALES OF AGRICULTURAL PRODUCTS IN AGRARIAN SECTION**

**SUMMARY**

The research work deals with main features of the production and sales of products in the agrarian section which is different from the other areas. At the same time the ways of solving of problems about the production and sales of agricultural products from the decision of the Strategic Roadmap provisions have been resolved in the research work.

The research is highlighted in the study that the raising of the production and sales of the agricultural products in the socio-economic development of our country play an important role in ensuring the food safety of population.

**Key words:** agrarian section, the production and sales of products in agrarian, the specific features

**UOT-338.24**

**Nurəngiz Mikayılova**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası., i.ü.f.d.**

# İQTİSADİ İSLAHATLAR VƏ AZƏRBAYCANDA İNKİŞAF MODELİ

*"Bütün planlarımızı həyata keçirmək üçün iqtisadiyyatımızı gücləndirməliyik. Növbəti illərdə bu istiqamətdə əlavə addımlar atılacaq. Deyə bilərəm ki, son iki il ərzində çox ciddi iqtisadi islahatlar aparılmışdır."*
**İlham Əliyev**

*Məqalədə iqtisadi islahatların keçirilmə zəruriliyi, mərhələləri göstərilmiş, ayrı -ayrı dövrlər üzrə keçirilən islahatlar araşdırılmışdır. Eyni zamanda iqtisadi islahatlara sistemli yanaşılaraq ardıcıllıqla verilmiş, sonda Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol xəritəsinin başlıca istiqamətləri və 2017-ci ilin ilk yarımilinin qiymətləndirilməsi verilmişdir.*

Müstəqillik qazandıqdan sonra, bütün sahələrdə olduğu kimi, iqtisadi sahədə də islahatların keçirilməsi zəruruliyi yarandı. Keçid dövrünə qədəm qoyan Azərbaycanın iqtisadiyyatı iflic vəziyyətinə düşmüş, xarici iqtisadi əlaqələr tamamilə qırılmışdı. İqtisadi islahatların hüquqi bazasının yaradılması və işlək mexanizminin müəyyən edilməsi qarşıda duran ən vacib məsələlərdən biri idi.

İkinci dəfə müstəqillik əldə edən xalqımız qiymətli bir təcrübəyə malik idi. Belə ki, Azərbaycanın tarixi dövlətçilik ənənələri zəminində milli dövlət quruluşunun dirçəldilməsində, xalqımızın müstəqillik idealının gerçəkləşdirilməsində, milli istiqlal ideyalarının geniş yayılmasında böyük xidmətlər göstərmiş və siyasi publisistikası ilə ədəbi-ictimai fikir tariximizə layiqli töhfələr vermiş görkəmli ictimai-siyasi xadim Məhəmməd Əmin Rəsulzadənin "Fikri, milli və siyasi istiqlalların kökü iqtisadi istiqlaldır" konsepsiyası Azərbaycan Xalq Cümhuriyyətinin bütün fəaliyyəti dövründə daim diqqət mərkəzində saxlanılırdı.

Cümhuriyyət Hökuməti ictimai-siyasi həyatın digər sahələrində olduğu kimi, müstəqil milli iqtisadiyyat quruculuğu və sosial sahədə də mühüm tədbirlər həyata keçirirdi. "Azərbaycan Xalq Cümhuriyyətinə abidə ucaldılması haqqında" Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev cənabları tərəfindən imzalanan sərəncamda göstərildiyi kimi, "Gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyətinin demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq və sair sahələrdə həyata keçirdiyi işlər xalqımızın tarixində dərin iz buraxmışdır".**(1)**

Müasir Azərbaycanda vətəndaş həmrəyliyinə nail olunması, sabitlik yaradılması, müstəqil dövlət qurulması, iqtisadi-sosial sahədə, neft strategiyasında tarixi addımlar atılması, bütün sahələrdə mühüm islahatlar həyata keçirilməsi, beynəlxalq aləmdə respublikanın mövqeyinin möhkəmləndirilməsi sahəsində gördüyü işlərin nəticəsi kimi Azərbaycana xarici investisiyaların cəlb olunması, beynəlxalq iqtisadi əlaqələrin genişləndirilməsi, xalqın rifah halının yüksəldilməsi və s. kimi uğurlar əldə edilmişdir. Müdrik şəxsiyyət Heydər Əliyevin rəhbərliyi ilə aparılmış məqsədyönlü siyasət nəticəsində ölkənin iqtisadi həyatında qazanılmış ən mühüm uğurlardan biri də dünyanın inkişaf etmiş nüfuzlu şirkətləri ilə bağlanmış neft müqavilələri olmuşdur. Bu müqavilələr Azərbaycan iqtisadiyyatının gələcək inkişafı üçün geniş perspektivlər açmış, neft strategiyası dövlətimizin müstəqilliyinin qarantına çevrilməklə yanaşı, azad iqtisadi münasibətlər mexanizmlərini də hərəkətə gətirmiş, ölkəmizin dünya iqtisadi məkanına dinamik inteqrasiyasını təmin etmişdir.

Heydər Əliyevin şəxsən iştirakı və sədrliyi ilə hazırlanan və 1995-ci il noyabr ayının 12-də keçirilən Azərbaycan Respublikası Referendumunda Azərbaycan Respublikasının Konstitusiyası qəbul edilmiş və iqtisadi inkişafın hüquqi əsasları burada öz əksini tapmışdır. 1995-ci ildən

başlayaraq ölkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərrüfat sisteminə inteqrasiyası sahəsində çox böyük nailiyyətlər əldə olunmuşdur. Ən böyük nailiyyət isə ondan ibarətdir ki, bu dövrdə ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarı ilə yeni bir modeli - Azərbaycan modeli yaranmışdır.

Davamlı və dinamik inkişaf məntiqinə əsaslanan bu modelin strateji istiqamətləri aşağıdakı kimi səciyyələndirilir: 1) sərbəst bazar münasibətlərinə əsaslanan və özünüinkişaf qabiliyyətinə malik olan sosialyönümlü bütöv iqtisadi sistemin - müstəqil milli iqtisadiyyatın formalaşdırılması; 2) ölkədə mövcud olan təbii-iqtisadi, texniki-istehsal və elmi-texniki potensialın fəal surətdə təsərrüfat dövriyyəsinə cəlb olunması; 3) milli iqtisadiyyatın dünya təsərrüfat sisteminə səmərəli şəkildə inteqrasiyasının təmin olunması.

Bu model üzrə iqtisadi siyasətin həyata keçirilmə taktikasının fərqləndirici xüsusiyyətlərini - göstərilən istiqamətlərin hər biri üzrə fəaliyyətin paralel şəkildə həyata keçirilən əlaqələndirilmiş proqramlar üzrə aparılması; qeyri-standart, lakin iqtisadi inkişafın obyektiv qanunauyğunluqlarını nəzərə alan, gələcəyə hesablanan və cəsarətli qərarların qəbul olunması; sosialyönümlülüyün gözlənilməsi; milli mentalitetin nəzərə alınması və mütərəqqi dünya təcrübəsinə arxalanması təşkil edir.

Müasir Azərbaycan iqtisadiyyatının bugünkü inkişaf səviyyəsinə gəlməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə aparılmış məqsədyönlü siyasət nəticəsində ölkənin iqtisadi həyatında mühüm nəaliyyətlər əldə edilmiş və bu strategiya uğurla davam etdirilməkdədir. Baglanılan neft müqavilələri Azərbaycan iqtisadiyyatının gələcək inkişafı üçün geniş prespektivlər açmış, neft strategiyası dövlətimizin müstəqilliyinin qarantına çevrilməklə yanaşı, azad iqtisadi münasibətlər mexanizimlərini də hərəkətə gətirmiş, ölkənin dünya iqtisadi məkanına dinamik inteqrasiyasını təmin etmişdir.

İslahatlar aparılarkən xarici ölkələrin təcrübəsindən yaradıcılıqla bəhrələnməyi daim tövsiyə etməklə yanaşı, həmin işdə kor-koranə ehkamçılığa və tələskənliyə qarşı çıxan Heydər Əliyev dəfələrlə qeyd etmişdir ki, “bu iş Azərbaycan Respublikasının iqtisadiyyatına, ənənələrinə uyğun olaraq təşkil edilməlidir” və “yerli şərait, milli xüsusiyyətlər, milli ənənələr nəzərə alınmaqla” həyata keçirilməlidir**. (5, s. 3)**

Müstəqillik qazandıqdan sonra Azərbaycanda iqtisadiyyatı ilk illərdə tamamilə tənəzzülə uğradı. Belə ki, iqtisadi əlaqələrin qırılması, qanunvericilik bazasının yoxluğu, müharibə şəraiti, çoxsaylı qaçqın və köçkünlərin olması müstəqillik qazanılan illərin ən böyük problemlərinə çevrilmişdir. İlk olaraq iqtisadi islahatlar keçirilməli, qanunvericilik bazası formalaşmalı idi. İslahat -qanun səviyyəsində həyata keçirilən dəyişikliklərdir. İslahatlar zərurətdən yarandığına görə dövlət hakimiyyəti tərəfindən yuxarıdan başlanır. İslahatların məqsədi cəmiyyətdə qanunların səmərəli işləməsini və həyat şəraitinin yaxşılaşdırılmasını təmin etməkdir.

Sovet sisteminin buraxdığı problemlərlə üzləşən Azərbaycan iqtisadiyyatı keçid dövrünə qədəm qoydu və iqtisadi islahatların keçirilməsinə başlanıldı. Şərti olaraq, müstəqillik dövründə aparılan iqtisadi islahatları dörd qrupa ayırmaq olar:

- I dövrdə aparılan iqtisadi islahatlar (1991-1994)
- II dövrdə aparılan iqtisadi islahatlar (1995-2003)
- III dövrdə aparılan iqtisadi islahatlar (2004-2010)
- IV dövrdə aparılan iqtisadi islahatlar (2010 və sonrakı dövr)

***Müstəqillikdən sonra I dövrdə aparılan iqtisadi islahatlar***

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında “Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı” qəbul olundu. Bu mühüm tarixi sənədlə xalqımız uzun illərdən bəri həsrətində olduğu azadlığına qovuşdu. Bununla da Azərbaycanın tarixində yeni dövrün başlanğıcı qoyuldu. Müstəqilliyi elan etmiş Azərbaycan Respublikası çox mürəkkəb tarixi şəraitdə fəaliyyət göstərməyə başlamışdı.

Azərbaycan Respublikasını ilk olaraq 1991-ci il noyabrın 9-da Türkiyə Cümhuriyyəti, sonra Rumıniya (11 dekabr 1991), Pakistan (13 dekabr 1991), İsveçrə (23 dekabr 1991), İran (25 dekabr 1991), ABŞ (23 yanvar 1992), Rusiya (10 aprel 1992) və b. dövlətlər tanıdılar. Bu da tədricən

iqtisadi əlaqələrin qurulmasına gətirib çıxardı.

SSRİ-nin dağılması ilə Azərbaycan da bazarlarını itirmiş, xammal, yarımfabrikat, təchizat, maliyyə və idarəetmə problemləri nəticəsində bir çox müəssisədə istehsal ya dayanmış, ya tam səmərəsiz fəaliyyət göstərirdi. Köhnə SSRİ-dəki müəssisələrlə iqtisadi əlaqələrin qırılması və ölkənin digər respublikalardakı bazarını itirməsi istehsal səviyyəsində kəskin azalmalara gətirib çıxarmışdı. Ermənistan münaqişəsi və Çeçenistan problemi isə, ölkənin sənayesi üçün lazımi xammalın idxal yollarının bağlanmasına səbəb olmuşdur.

Sərbəst bazar iqtisadiyyatına keçid və ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasında Azərbaycanın öz seçimi olmuş, qərb ölkələrinin təcrübəsinə üstünlük verilmişdi. Sovetlərə məxsus sosial-iqtisadi münasibətlər sistemi dağılmış və onu əvəz edəcək bazar iqtisadiyyatına, kapitalist iqtisadiyyatına keçid prosesi başlamışdır. Bu dövr ərzində fəaliyyətdə olan iqtisadiyyat keçid xarakterlidir və onu "keçid dövrü iqtisadiyyatı" adlandırmaq olar. Keçid dövrü iqtisadiyyatları üçün ümumi olan belə bir cəhət xarakterikdir ki, onların hamısında həm köhnə və həm də yeni yaranmaqda olan cəmiyyətin təsərrüfat formaları mövcud olaraq fəaliyyət göstərir və keçid vəziyyətində olan iqtisadiyyatın strukturunun yaranması prosesində iştirak edirlər. Keçid dövrünün zəruriliyi həm də onunla bağlıdır ki, bir-birinə tamamilə əks olan iqtisadi sistemlər arasında kəskin mübarizə məhz bu dövrdə baş verir. Mövcud sistemin transformasiyası, ona xas olan münasibətlər sisteminin köklü sürətdə dəyişdirilməsi, yeni iqtisadi sistemin yaradılması və tam şəkildə formalaşdırılması kimi çətin vəzifələr keçid dövrü ərzində yerinə yetirilməlidir. Bunun üçün dağılmaqda olan iqtisadi sistemin əsası kimi ona xas olan mülkiyyət tipi dəyişdirilməli, mülkiyyət çoxnövlüyü əsasında yeni təsərrüfat formaları yaradılmalı, idarəetmə mexanizmi və strukturları yenidən qurulmalı, bölgü münasibətləri, maliyyə, bank sistemləri yeni əsaslar üzərində formalaşdırılmalı, yeni tip xarici iqtisadi əlaqələr qurulmalıdır və ən başlıcası isə yaradılmaqda olan sistemdə fəaliyyət göstərəcək yeni təfəkkürlü insanlar formalaşdırılmalıdır. Bütün bunlar üçün vaxt- xüsusi bir keçid dövrünün olması tələb olunur.

1990-cı illərin əvvəli Azərbaycanda iqtisadi durğunluq və böhranın artdığı illər oldu. Bu dövrdə siyasi qeyri-stabillik və bazar iqtisadiyyatına keçidlə əlaqədar ölkədə böyük iqtisadi böhran əmələ gəlmişdir. Yüksək inflyasiya və qeyri-stabil sosial-siyasi mühit, iqtisadi böyüməyə, xüsusilə sənaye və kənd təsərrüfatı kimi əhəmiyyətli sahələrin inkişafına mane olmuşdur. İstehsal həcminin azalması və inflyasiya sürətinin yüksək olması iqtisadi böhranın və cəmiyyətdə sosial-iqtisadi gərginliyin artmasına səbəb olmuşdur. Eyni zamanda ölkə 1988-ci ildən etibarən Ermənistanın silahlı təcavüzünə məruz qaldı və atəşkəsin imzalandığı 12 May 1994-cü il tarixinə qədər torpaqlarının 20%-ni itirdi.

İqtisadiyyatın ümumi balansı üçün lazımi islahatların həyata keçirilməməsi, dövlət büdcəsinin böyük bir hissəsinin müharibə üçün xərclənməsi, torpaqlarının 20%-i işğal edilərək 1 milyondan çox əhalinin qaçqın vəziyyətinə düşməsi, xarici sərmayənin ölkə iqtisadiyyatına cəlb edilə bilinməməsi və özəlləşdirmənin sənaye sektorunda faktiki olaraq başladıla bilinməməsi kimi çatışmazlıqlar Azərbaycan iqtisadiyyatını ciddi bir böhrana aparmışdır.

Keçid dövrünün ilk illərində Ermənistan ilə olan münaqişə, Rusiyanın Azərbaycana nəqliyyat embarqosu qoyması və Çeçenistan müharibəsi səbəbiylə əhəmiyyətli iki neft boru xəttinin istifadə oluna bilməməsi, siyasi və hərbi problemlər iqtisadi vəziyyətə mənfi təsir göstərmişdir. Qısaca, 1991-1994-ci illər müstəqillikdən sonra bütün problemlərlə üz-üzə qalındığı, ölkədə sosial və siyasi problemlərin böhrana çevrildiyi, müharibənin olması, sərbəst bazar iqtisadiyyatına keçiddə ciddi sui-istifadələrin baş verdiyi bir dövr olmuşdur. İqtisadiyyatdakı mənfi gedişatda ən kəskin hal isə, 1992-ci ildə ortaya çıxmışdır.

Pul siyasətlərindəki problem və nöqsanlar iqtisadi böhrana səbəb olmuşdur. Kreditlər isə, daha çox bank idarəçilərinin şəxsi mənafeləri istiqamətində verilmişdir. İqtisadi böhran, istehsalın sürətlə azalmasına, qiymətlərin artmasına, bundan əlavə dövlət büdcəsinin ciddi kəsir verməsinə səbəb olmuşdur. İqtisadi böhranın ağrılı nəticələrindən bir isə, milli valyutanın dəyər itkisi şəklində ortaya çıxması olmuşdur.

Gedişata baxmayaraq, islahatların keçirilməsinə və qanunvericilik bazasının formalaşdırılmasına başlanıldı. 1991-ci ilin iyun ayında "Özəl Mülkiyyət" Qanunu qəbul edilmiş, 1992-ci ilin

əvvəllərində qiymət liberilizasiyasına gedilmiş, eyni ilin yanvar ayında Əlavə Dəyər Vergisi tətbiqinə başlanılmışdır. 1992-ci ilin aprel ayında "Xarici İnvestisiya" Qanunu, avqust ayında isə "Milli Bank" Qanunu qüvvəyə minmiş, pul vahidi olaraq "manat" bazarda fəaliyyətə başlamışdır.

1993-94-cü illərdə də davam edən müharibənin təsiriylə islahat prosesində ləngimələr olmuşdur. 1993-cü ilin yanvar ayında kiçik həcmli müəssisələrin özəlləşdirilməsiylə bağlı qanun qüvvəyə minmiş, 1994-cü ilin yanvar ayında manatın yeganə valyuta vahidi olmasına qərar verilmişdir. May ayında Ermənistanla atəşkəsin imzalanması ilə islahatlar prosesi sürətlənmiş, 1994-cü iyun ayında "İflas" Qanunu qəbul edilmiş, bankların konsolidasiyası prosesinə başlanılmışdır.

1991-ci ildə ümumi daxili məhsul (ÜDM) 2,7 milyard manat olmuş, 1991-1994-cü illər ərzində ölkə iqtisadiyyatında ÜDM hər il orta hesabla 16,5% azalmışdı. Bunun nəticəsi olaraq əhalinin həyat səviyyəsinin ümumiləşdirici göstəricisi olan əhalinin pul gəlirləri real ifadədə 3,3 dəfə, adambaşına pul gəlirləri orta hesabla 3,6 dəfə aşağı düşmüşdür. İstehsal sahələrinin sıradan çıxması nəticəsində işsizlik səviyyəsi xeyli yüksəlmişdir. Belə ki, 1991-1995-ci illər ərzində iqtisadi fəal əhali içərisində məşğul əhalinin sayında azalma müşahidə olunmuşdur.

1991-1995-ci illərdə mövcud olan qeyri-siyasi sabitlik aparılmış sistemsiz iqtisadi islahatların əhəmiyyətini daha da azaldaraq, bir sira arzuolunmaz hallara gətirib çıxartdı:

- maliyyə-bank sistemi iflic vəziyyətə düşdü;
- büdcə kəsirinin ÜDM-ə nisbəti 1994-cü ildə 13 faizə çatdı;
- bütünlüklə büdcə kəsiri Milli Bank tərəfindən maliyyələşdirildi ki, bu da pul kütləsinin həddindən çox artmasına səbəb oldu;
- 1992-1994-cü illərdə pul emissiyası əhalinin pul gəlirinin 40-45 faizini təşkil etdi;
- 1992-1994-cü illərdə kredit həcminin ümumi daxili məhsula nisbəti 55-60 faiz təşkil etdi;
- 1994-cü ildə Milli Bankın faiz dərəcələri 250 faizə çatdı;
- 1992-ci ildə tədavülə buraxılmış milli valyuta - manat tezliklə qiymətdən düşməyə başladı və 1995-ci ilədək onun məzənnəsi Rusiya rubluna nisbətdə 9 dəfə, ABŞ dollarına nisbətdə isə 245 dəfə aşağı düşdü, ölkədə inflyasiya özünün pik səviyyəsinə çatdı;
- 1992-1994-cü illərdə xarici ticarət dövriyyəsinin həcmi 42 faiz azaldı;
- 1994-cü ilədək ölkə iqtisadiyyatına bir manat da olsun belə xarici sərmayə qoyulmadı;
- bu dövrdə əhalinin real pul gəlirləri kəskin şəkildə azaldı və s.

***Müstəqillikdən sonra II dövrdə aparılan iqtisadi islahatlar***

Seçkilər nəticəsində 1993-cü ilin yayında 30 ildən çox idarəçilik təcrübəsi olan Heydər Əliyev cənablarının Azərbaycan Respublikasının prezidenti seçilməsi Azərbaycan idarəçiliyində nəzərə çarpacaq dəyişikliklərə səbəb olmuşdur. Həmin tarixdən etibarən iqtisadi islahatların həyata keçirilməsi sürətlənmişdi.

Bu dövrdə iqtisadiyyatda mənfiyə doğru gedişi dayandırmaq üçün iqtisadi islahatlar proqramı hazırlanaraq strateji fəaliyyətə yönələn modellər qurulmağa başlanılmışdır. Dövrün tələbinə uyğun olaraq iqtisadiyyatda sərbəst bazarın təşəkkül tapmasına çalışılması, özəlləşdirmə və özəl sahibkarlığın inkişaf etdirilməsi, yeni iqtisadi strukturun, gömrük, vergi və maliyyə sisteminin yenidən qurulması, ticarətin liberallaşdırılması, torpaq və kənd təsərrüfatı islahatlarının həyata keçirilməsi, xalqın sosial imkanlarının artırılması, təhsil və səhiyyənin inkişaf etdirilməsi üçün lazımi hüquqi infrastrukturun yaradılması məqsədi ilə mühüm qanunlar qəbul edilmişdir.

Qiymətlərin, xarici ticarətin və valyuta məzənnələrinin liberallaşdırılması istiqamətində atılan addımlar sayəsində inflyasiya səviyyəsi nəzərə çarpacaq dərəcədə azalmağa başlamış, büdcə kəsirləri minimuma endirilmişdir. Görülən tədbirlər sayəsində kiçik müəssisələrin özəlləşdirilməsi başa çatmış, xidmət sektoru daha çox özəl sahibkarlığa verilmiş, orta və böyük həcmli müəssisələrin özəlləşdirilməsinə başlanılmış, makroiqtisadi stabillik əldə edilmiş, iqtisadiyyatda durğunluq dövrü sona çataraq yeni inkişaf mərhələsinə qədəm qoyulmuş, torpaq islahatı həyata keçirilərək özəl mülkiyyətə verilmiş, kolxoz və sovxozların əmlakı özəlləşdirilmiş, kənd təsərüfatı sektorundan torpaq vergisi istisna olmaqla digər vergilərin 5 il alınmaması qərarlaşdırılmış və vergi borcları silinmiş, bu müəssisələrə güzəştli yanacaq və enerji satışı təmin edilmişdir.

1993-cü ilin ikinci yarısından etibarən həyata keçirilən islahatlar Azərbaycanın sosial, siyasi və iqtisadi həyatında stabilliyi əldə etməyə imkan vermişdir. Ölkədə bank sektorunun və maliyə sisteminin yenidən qurulmasına dair mühüm addımlar atılmışdır. Sərbəst bazar iqtisadiyyatı istiqamətində atılan addımlar Azərbaycanın beynəlxalq maliyyə təşkilatları ilə əlaqələrini artırmışdır. Ulu öndər 1993-cü ilin iyun ayının 18-də ABŞ-ən aparıcı mətbuat orqanlarından biri olan "Çikaqo Tribun" qəzetinə verdiyi müsahibədə bununla bağlı bildirirdi: "Başa düşürəm ki, Azərbaycana cəlb olunmuş neft şirkətlərinin öz maraqları var. Bu, tamamilə təbii məsələdir. Ancaq eyni zamanda, biz də ölkəmizin maraqlarını neft şirkətlərinin mənafelərindən yüksək tutmalıyıq". **(3. s. 45)**

1994-cü il sentyabrın 20-də Bakıda öz müstəsna əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adını almış müqavilə bağlandı. Dənizin dərinliyində yerləşən "Azəri", "Çıraq", "Günəşli" yataqlarının işlənilməsi və məhsulun pay bölgüsü haqqında 400 səhifəlik bu müqavilə 4 dildə tərtib edilmişdir. "Əsrin müqaviləsi"ndə 8 ölkədən (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya, Səudiyyə Ərəbistanı) 13 şirkət (Amoko, BP, MakDermott, Yunokal, ARDNŞ, LUKoyl, Statoyl, Ekson, TPAO, Penzoyl, İtoçu, Remko, Delta) iştirak edirdi. Bu müqavilə sonradan 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 26 sazişin imzalanmasına yol açdı.

Respublikanın istehsalında yaranmış geriləmə hallarının qarşısı alınmış, ölkədə iqtisadi sabitlik təmin olunmuşdur. 1996-ci ildən başlayaraq ÜDM ilbəil artmağa başlamışdır. Bununla belə keçid dövrü iqtisadiyyatına sabit inkişaf edən bir iqtisadiyyat kimi baxmaq olmaz və ona qeyri-sabit inkişaf xasdır ki, bu da onun xarakterik cəhətlərindən biridir.

1994-cü ildə "Əsrin Müqaviləsi"nin imzalanması və 12 noyabr 1995-ci ildə Konstitusiyanın qəbul edilməsi bazar iqtisadiyyatının hüquqi normativ strukturunun sürətlənməsi ilə birlikdə ölkəyə böyük həcmdə xarici sərmayə daxil olmasına gətirib çıxartdı. Yeni konstitusiya dövlət idarəçiliyinin formalaşdırılması, vətəndaşların və dövlətin hüquq və vəzifələrinin müəyyən edilməsi ilə yanaşı ilk dəfə demokratik dəyərlərə sahib liberal bazar qurulma labüdlüyünü qəbul etdi. Konstitusiya ilə özəl mülkiyyətin, özəl sahibkarlığın dünya iqtisadiyyatına inteqrasiyasının hüquqi əsası müəyyən edildi. Bu baxımdan Azərbaycanda geniş mənada iqtisadi tənzimləmələrin başlanğıc ili 1995-ci il qəbul edilə bilər. Bundan əlavə, 1995-ci ildə "Aqrar islahatın əsasları haqqında" Azərbaycan Respublikasının Qanunu, "Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının Qanunu, 1999-cu ildə "Azərbaycan Respublikasının Torpaq Məcəlləsi", 1999-cu ildə "Bələdiyyə mülkiyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu, 2001-ci ildə "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmiş və qanunlardan irəli gələn fəaliyyət mexanizmləri müəyyənləşdirilmişdir.

***Müstəqillikdən sonra III dövrdə aparılan iqtisadi islahatlar***

2003-ci ildən sonrakı dövr müstəqillikdən sonrakı üçüncü islahatlar dövrü olaraq dəyərləndirilə bilər. Bu dövrdə iqtisadi böyümənin davam etdirilməsi və iqtisadi siyasətin gücləndirilməsi, ikinci dövlət özəlləşdirmə proqramının qəbul edilməsi ilə enerji sektorunun yenidən qurulması, əldə edilən irəliləyişlər hesabına iqtisadi siyasətin sosial istiqamətinin gücləndirilməsi, sosial rifah səviyyəsinin artırılması, bunun tərkibində cari perspektivdə hökümətin iqtisadi siyasətində enerji sektorunun sürətlə inkişafı nəticəsində əldə edilən mənfəətin digər sektorlara istiqamətləndirilməsi, reallaşdırılması kimi mühüm məqsədlər qarşıda dururdu.

Azərbaycan hökümətinin beynəlxalq təşkilatlarla əlaqələri nəticəsində orta müddətli yeni fəaliyyət proqramları hazırlanmış və proqramların əsas məqsədi əhalinin rifah səviyyəsinin artırılması idi. Bu mərhələdə tətbiq edilən iqtisadi siyasətlərin məqsədi ilə daha çox qeyri-neft sektorunun inkişafı qarşıya məqsəd olaraq qoyulmuşdur. Neft və neft məhsullarının üstün olduğu neft emalı, kimya, neft-kimya sənayesi və elektrik enerjisi sahələri neftin iqtisadiyyatdakı rolunu daha da artırmaqda davam etmişdir.

Strateji əhəmiyyətə sahib olan bu sahələrə son dövrdə böyük miqdarda xarici investisiya cəlb olunmuşdur. İqtisadi inkişaf strategiyasının yaxın perspektivdə əsas məqsədi iqtisadi nizamlamaları dərinləşdirilərək müasir bazar münasibətləri və dünya istehsal sisteminin inkişaf tendensiyası əsasında ölkənin iqtisadi sisteminin yeni inkişaf səviyyəsinə çatması nəzərdə tutulurdu.

Prezident İlham Əliyev tərəfindən 11 fevral 2004-cü il tarixində, Azərbaycan regionlarının 2004-2008-ci illəri əhatə edən sosial-iqtisadi inkişafı ilə əlaqədar "Dövlət Proqramı" təsdiqləndi. Həmin bu proqram, Azərbaycanda regionların iqtisadi potensiallarının və təbii ehtiyatlarının məhsuldar bir şəkildə dəyərləndirilməsi ilə başda kənd təsərrüfatı sektoru olmaqla, qeyri-neft sektorlarını canlandırmaq və inkişaf etdirmək, beləliklə ölkədə məşğulluq səviyyəsini artıraraq əhalinin gəlir səviyyəsinin və həyat standartının artırılmasına nail olmaq üçün atılan ən əhəmiyyətli və geniş addımlardan biridir.

Ölkəyə neftdən gələn gəlirlərin daxil olması və beynəlxalq təşkilatlarla əlaqələrin qurulması regionların inkişafına zəmin yaratdı. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər)" uğurlu icrası nəticəsində ölkədə makroiqtisadi göstəricilərin səviyyəsində yüksək artım əldə edilmiş, beş il ərzində Ümumi Daxili Məhsulun (ÜDM) real həcmi 2,6 dəfə artaraq 38 milyard manata çatmış, ÜDM-in adambaşına düşən nominal həcmi 5 dəfə artaraq 4440 manat təşkil etmişdir. Qeyri-neft sektoru 1,8 dəfə artmış, 2008-ci ilin yekunlarına görə ÜDM-də qeyri-dövlət sektorunun payı 84,5 faiz təşkil etmişdir. Ölkə sənayesində 2,5 dəfə, kənd təsərrüfatında isə 25,2 faiz artım olmuşdur**. (4, s. 46)**

2003-cü illə müqayisədə 2008-ci ildə əhalinin gəlirləri 4 dəfə artmış, yoxsulluq səviyyəsi 13,2 faizədək azalmışdır. Bu dövrdə muzdla işləyənlərin orta aylıq əmək haqqı 3,5 dəfə artaraq inflyasiya səviyyəsini 1,7 dəfə üstələmiş və 268 manata çatmışdır.

Göründüyü kimi, III islahatlar dövrü əsasən regional inkişafa istiqamətlənərək bir sira Dövlət Proqramlarının qəbul olunma və icrasına təkan vermişdir. Bu tendensiya yenə davam etməkdədir. "2014-2018-ci illərdə Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı uğurla icra olunmaqdadır.

***Keçid dövründən sonra (IV dövrdə) aparılan iqtisadi islahatlar (2010-2017)***

Azərbaycan iqtisadiyyatında 1991-2009-cu illər keçid dövrü kimi qiymətləndirilərək 2009-cu ilin sonunda bu dövrün başa çatması elan edildi. Bu dövrdə iqtisadiyyatın inkişafının hüquqi bazası formalaşdı, beynəlxalq təşkilatlarla iqtisadi əlaqələr quruldu və işlək mexanizmə gətirildi. Ölkədə iqtisadi inkişafın təməli möhkəmlənərək iqtisadiyyatın şaxələnməsinə nail olundu. IV islahatlar dövründə iqtisadi artımın qeyri-neft sektoruna ötürülməsi hədəf seçilmişdir.

Azərbaycanda qeyri-neft sektorunun inkişafı ilə bağlı son bir neçə ildə olduqca əhəmiyyətli naliyətlər qazanılmışdır. Yoxsulluğun azaldılması ilə bağlı işlərə xüsusilə də regionların iqtisadi inkişafına daha çox diqqət verilir. Bakı xaricində qeyri-neft sektorunun inkişafı əhəmiyyətli dərəcədə artmışdır. Beynəlxalq maliyyə institutları bu sahələr arasında kənd təsərrüfatı və turizmin əhəmiyyətini xüsusi qeyd edirlər. Belə ki, ölkənin məşğul əhalisinin 44 faizə yaxını məhz kənd təsərrüfatında çalışır. Bu səbəbdən ölkədə kənd təsərrüfatının inkişafına yönələn ardıcıl dövlət proqramları, islahatlar və yeni texnologiyaların cəlb edilməsi həyata keçirilməkdədir.

2011-ci ildən başlayaraq qeyri-neft sektorunun inkişafına meyllər sürətlənmiş, "neft erasının" başa çatması ilə əlaqədar, iqtisadi işlahatların əsasən qeyri-neft sektoruna yönəldilməsi əsas istiqamət kimi görürülmüşdür. Azərbaycanda qeyri-neft sektoru kimi qeyri-neft sənayesi, aqrar sahə, İKT, tikinti, nəqliyyat, ticarət və sosial xidmətlər prioritet hesab olunur.




**Şəkil 1.** Ölkə iqtisadiyyatının şaxələndirilməsi

İqtisadi islahatlara sistemli yanaşmanı təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" təsdiq edilmiş, habelə həmin istiqamətlərə müvafiq olaraq inkişaf planlarının işlənilməsini təmin etmək üçün müvafiq İşçi qrupu yaradılmışdır. Həmin Sərəncama əsasən, İşçi qrupu yerli və xarici ekspertlərin, təcrübəli mütəxəssislərin, məsləhətçi şirkətlərin və elmi təşkilatların iştirakı ilə, ölkədə fəaliyyət göstərən beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq şəraitində milli iqtisadiyyat və iqtisadiyyatın on bir əsas sektoru üzrə strateji yol xəritələrinin layihələrini hazırlamış və Strateji Yol Xəritəsinin yazılmasında 400 nəfərə qədər xarici və yerli ekspert birbaşa iştirak etmişdir. Bununla yanaşı, sənədin yazılması üçün 4 min nəfərlə 150-yə qədər görüş keçirilmiş, yerli və xarici akademik dairələr, təhsil müəssisələri, özəl sektor və vətəndaş cəmiyyətinin nümayəndələri tərəfindən 1000-dən çox yazılı təklif verilmişdir. Strateji yol xəritəsinin hazırlanmasında Nobel mükafatçılarından başlamış, Azərbaycanın sadə vətəndaşlarına qədər ən müxtəlif insanlarla müzakirələr aparılmış, hətta on-line qaydada təkliflər verilməsi üçün də imkanlar yaradılmışdı. Aparılan inklüziv müzakirələr Strateji yol xəritəsinin həqiqətən də mükəmməl bir sənəd olmasını təmin etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyası və tədbirlər planı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövrə hədəf baxış müəyyənləşib. Fərmana əsasən aşağıdakı istiqamətlər üzrə strateji yol xəritələri təsdiq edilib: Milli iqtisadiyyat perspektivi, neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafı, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalı, ağır sənaye və maşınqayırmanın inkişafı, ixtisaslaşmış turizm sənayesinin inkişafı, logistika və ticarətin inkişafı, uyğun qiymətə mənzil təminatının inkişafı, peşə təhsili və təliminin inkişafı, maliyyə xidmətlərinin inkişafı, telekommunikasiya və informasiya texnologiyalarının inkişafı və kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafı**. (2)**

Strateji Yol Xəritəsi Azərbaycanda davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabət qabiliyyətliliyini, inklüzivliyin və sosial rifahın daha da artırılmasını təmin edəcəkdir. Qlobal çağırışlara cavab verərək investisiyaların cəlbi, azad rəqabət mühiti, bazarlara çıxış və insan kapitalının inkişafı nəticəsində Azərbaycanın dünya iqtisadiyyatında mövqeyi gücləndiriləcək və o, yüksək gəlirli ölkələr qrupuna daxil olacaqdır. Strateji yol xəritəsində strateji baxışa uyğun olaraq prioritetlər, tədbirlər və indikatorlar müəyyənləşdirilmişdir.

Azərbaycan neft gəlirlərinin düzgün idarə edilməsi hesabına sosial və iqtisadi infrastrukturun qurulması, yüksək yığım və nisbətən kiçik xarici borc, yoxsulluğun azaldılması, özəl sektorun ÜDM-də payının yüksək həddə çatdırılması və biznes mühitinin yaxşılaşdırılması sahəsində uğurlara imza atmışdır. Strateji Yol Xəritəsi çərçivəsində yaxşı idarəetmə əsasında makroiqtisadi sabitliyi təmin etmək, iqtisadiyyatın strukturunu təkmilləşdirmək, məşğulluğu artırmaq, tarazlaşdırılmış regional inkişafı təmin etmək, biznes mühitini yaxşılaşdırmaq və özəl sektorun iştirakçılığını gücləndirmək planlaşdırılır.

Hazırki qlobal mühit və neft qiymətlərinin dəyişkənliyi maliyyə dayanıqlılığının gücləndirilməsini, təbii ehtiyatlardan əldə edilən gəlirlərdən rasional istifadəni və ciddi makroiqtisadi çərçivənin qəbulunu obyektiv zərurətə çevirir. Bu baxımdan fiskal siyasət üçün çərçivənin təmin edilməsi və təbii ehtiyatlardan əldə olunan gəlirlərə kifayət qədər qənaət edilməsi üçün görülən tədbirlərlə yanaşı, Azərbaycanın təbii ehtiyatlarının düzgün idarə edilməsi məsələsi də nəzərdən keçirilir. Təklif edilən əsas institutlar bunlardır: neft gəlirlərindən rasional istifadə edilməsi üçün "qızıl qayda" yanaşması və dövlət borcunun idarə edilməsi üçün zəruri fiskal çərçivə. Bu kontekstdə Ortamüddətli Xərclər Çərçivəsinin daha da gücləndirilməsi, güclü büdcə idarəçiliyi və onun nəticə əsaslı büdcə təşkilinə uyğunlaşdırılması, dövlət xərclərinin səmərəliliyinin təmin edilməsi və neft gəlirlərinin dəyişkənliyinin azaldılması üçün görülən tədbirlərin davamı olmalıdır.




**Şəkil 2.** Azərbaycan Respublikası mili iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsinin 2017-ci ilin ilk yarımilinin qiymətləndirilməsi **(6)**

Strateji Yol Xəritəsi Azərbaycanda davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabət qabiliyyətliliyini, inklüzivliyin və sosial rifahın daha da artırılmasını təmin edəcəkdir. Qlobal çağırışlara cavab verərək investisiyaların cəlbi, azad rəqabət mühiti, bazarlara çıxış və insan kapitalının inkişafı nəticəsində Azərbaycanın dünya iqtisadiyyatında mövqeyi gücləndiriləcək və o, yüksək gəlirli ölkələr qrupuna daxil olacaqdır. Strateji yol xəritəsində strateji baxışa uyğun olaraq prioritetlər, tədbirlər və indikatorlar müəyyənləşdirilmişdir və bu gün " Yol Xəritəsi" uğurla icra olunmaqdadır.

2018-ci ildə açıqlanacaq "DOİNG BUSİNESS-2019" Hesabatında Azərbaycan Respublikasının mövqeyinin gücləndirilməsini təmin edəcək islahat istiqamətləri aşagıdakılar hesab olunur:

1) Biznesə başlama, mövcud reytinq: 190 ölkə arasında 18-ci yer
2) Elektrik təchizati şəbəkələrinə qoşulma, mövcud reytinq: 190 ölkə arasında 161-ci yer
3) Əmlakın qeydiyyatı, mövcud reytinq: 190 ölkə arasında 102-ci yer
4) Kreditlərin alınması, mövcud reytinq: 190 ölkə arasında 21-ci yer
5) Kiçik investorların maraqlarının qorunması, mövcud reytinq: 190 ölkə arasında 122-ci yer
6) Vergilərin ödənilməsi, mövcud reytinq: 190 ölkə arasında 10-cu yer
7) Xarici ticarətin aparılması, mövcud reytinq: 190 ölkə arasında 35-ci yer
8) Müqavilələrin icrasinin təmin edilməsi, mövcud reytinq: 190 ölkə arasında 83-cü yer
9) Müəssisənin bağlanması mövcud reytinq: 190 ölkə arasında 47-ci yer **(4,s.14)**

Bu gün əminliklə demək olar ki, Azərbaycan iqtisadiyyatında islahatlar bəhrəsini verməkdədir. Belə ki, neft qiymətlərinin kəskin aşağı enməsi səbəbindən 2016-cı ildə ÜDM azalsa da, 2017-ci ildən sahədə adaptasiya prosesi gedir, 2018-ci ildə isə iqtisadi artım tam bərpa olunacağı gözlənilir. "İslahatların 2017-ci ildə ən böyük uğurları kimi tədiyyə balansında müsbət dəyişiklik, manatın sabitliyi, qeyri-neft ixracında 1/3 səviyyəsində artım, strateji valyuta ehtiyatlarının artması, həmçinin biznesin və ev təsərrüfatlarının gözləntilərinin müsbətə doğru dəyişməsi qeyd edilə bilər. İslahatlar davamlı olaraq həyata keçirilir. Kredit Zəmanət Fondunun yaradılması ilə kredit resurslarına çıxış asanlaşacaq və iqtisadiyyatın maliyyələşməsi artacaq. Ümumilikdə strateji yol xəritələrinin icrası iqtisadiyyatın yeni inkişaf tsiklinə öz müsbət təsirini göstərməkdədir

**Acar sözlər**: müstəqillik, iqtisadi islahatlar, iqtisadiyyat, qeyri-neft sektoru, dövlət proqramları

**İstifadə edilmiş ədəbiyyat**

1. "Azərbaycan Xalq Cümhuriyyətinə abidə ucaldılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Heydər Əliyev, Azərbaycan Respublikasının Prezidenti, Bakı şəhəri, 1 fevral 2003-cü il
2. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi", prezident.az
3. Mehdiyev R., "İnkişafın Azərbaycan modeli", "OSKAR" NPM, Bakı, 2010
4. Mikayilova N. "Azərbaycan iqtisadiyyatı", Bakı, 2018
5. Novruzov V., "Heydər Əliyevin dövlət quruculuğu strategiyası və iqtisadi islahatlar", "Azərbaycan" qəzeti, 01 may 2013
6. http://iqtisadiislahat.org/store//media/documents/SYX/M%26E_Hesabat_milli_iqtisadiyat.pdf

**Нурангиз Микаилова**

**ЭКОНОМИЧЕСКИЕ РЕФОРМЫ И МОДЕЛЬ РАЗВИТИЯ В АЗЕРБАЙДЖАНЕ**

**Резюме**

В статье указаны необходимость и этапы осуществления экономических реформ, исследованы, осуществленные по отдельным периодам реформы. Одновременно, системно подходя к реформам, в итоге последовательно даны оценки Национальной экономике и главным направлениям Стратегической Дорожной карты по основным секторам экономики в первом полугодии 2017 года. В Отчете «DOING BUSINESS-2019» оснащена нынешняя позиция и направления реформ, обеспечивающие укрепления Азербайджанской Республики.

**Ключевые слова**: суверенность, экономические реформы, экономика, вненефтяной сектор, государственные программы

**Nurangiz Mikailova**

**ECONOMIC REFORMS AND DEVELOPMENT MODEL IN AZERBAIJAN**

**Summary**

In the article, the need and stages of economic reforms were shown, reforms on separate periods were investigated. At the same time, economic reforms are approached in systematic order. In the end, the main directions of Strategic Roadmap in accordance with National Economy and main sectors of economy and evaluation of first half of 2017 were given. The current position of the Republic of Azerbaijan and reform directions that will ensure strengthen of it were covered in the "DOING BUSINESS 2019" Report.

**Key words:** Independence, economic reforms, economy, non-oil sector, government programs.

**UOT-347.732**

**Zakir Əlizadə**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.ü.f.d.,dosent**

## AZƏRBAYCAN İQTİSADİYYATININ DİVERSİFİKASİYASI İQTİSADİ ARTIM VƏ MADDİ RİFAHIN MƏNBƏYİDİR

*Məqalədə Azərbaycanın müstəqillik əldə etdiyi dövrdən başlayaraq son 25 il ərzində iqtisadi inkişaf sahəsində əldə etdiyi nailiyyətlər nəzərdən keçirilmiş, bu dövr elmi cəhətdən əsaslandırılaraq üç mərhələyə: iqtisadi tənəzzül dövrü, iqtisadiyyatın bərpası, makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf dövrü və dayanıqlı iqtisadi inkişaf dövrünə ayrılmışdır.Hər bir mərhələdə iqtisadi inkişafın təhlili aparılaraq onun güclü və zəif cəhətləri qeyd edilmişdir. Ölkə iqtisadiyyatının perspektiv inkişafında və maddi rifahın artırılmasında strateji yol xəritəsinin əhəmiyyəti qeyd olunaraq, iqtisadiyyatın diversifikasıyasının sürətləndirilməsi üçün əməli təkliflər verilmişdir.*

1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası iqtisadi sahədə öz suveren hüquqlarını gerçəkləşdirməyə və müxtəlif mülkiyyət formaları əsasında yaradılan iqtisadi sistem, bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya istiqamətlərində müstəqil siyasət aparmağa başlamışdır. Bu dövrdəki ölkənin iqtisadi inkişafını üç əsas mərhələyə ayırmaq olar. Birincisi, 1991-1995-ci illəri əhatə edən siyasi böhran nəticəsində yaranmış iqtisadi tənəzzül dövrü. İkincisi, 1996-2003-cü illərdə iqtisadiyyatın bərpası, makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf dövrü. Üçüncüsü, dünya iqtisadi böhranları şəraitində ölkəmizdə 2003-cü ildən başlayaraq davam edən dayanıqlı iqtisadi inkişaf dövrü.

İqtisadi tənəzzül dövrünü əhatə edən 1991-1995-ci illərdə ÜDM-in həcmi hər il orta hesabla 15 faiz azalırdı. İqtisadi artım tempinin aşağı düşməsi inflyasiya ilə müşayiət edildiyinə görə ölkədə 1991-cı illərin əvvəllərində staqflyasiya müşahidə edilirdi. 1991-cı illərin əvvəllərində ölkədə qiymət artımı hiperinflyasiya həddinə çatmışdır. Belə ki, inflyasiyanın səviyyəsi 1992-ci ildə 1174 faiz, 1993-cü ildə 1081 faiz təşkil etmişdir. 1991-cı illərin əvvəllərində inflyasiya tempinin əmək haqqının artım tempini əhəmiyyətli dərəcədə qabaqlaması əhalinin alıcılıq qabiliyyətini kəskin şəkildə aşağı salırdı. Əhalinin sosial müdafiəsi hər şeydən əvvəl maliyyə sabitliyinin təmin olunmasını tələb edirdi. Yüksək inflyasiya şəraitində isə həyat səviyyəsini nəinki yüksəltmək, hətta qoruyub saxlamaq mümkün deyildi.Azərbaycanda 1991-ci ildən başlayan iqtisadi tənəzzülün qarşısı yalnız makroiqtisadi sabitləşdirmə proqramlarının həyata keçirilməsindən sonra – 1996-cı ildə alındı. Sərt pul-kredit və maliyyə siyasətinin həyata keçirilməsini nəzərdə tutan ölkə prezidentinin imzaladığı "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi və iqtisadiyyatın maliyyə vəziyyətinin sabitləşdirilməsi tədbirləri haqqında" 1994-cü il 15 iyun tarixli Fərmanı ilə ölkədə ardıcıl antiinflyasiya tədbirlərinə başlanıldı. Bu fərmanın icrasından sonra inflyasiyanı 1995-ci ildə 85 faizə, 1996-cı ildə isə 2,5 faizə endirmək mümkün olmuşdur. Artıq 1996-cı ildən etibarən inflyasiya tədricən azalaraq 2002-ci ildə 2,8 faizə enmişdir.

İqtisadiyyatın bərpası, makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf dövrünü əhatə edən tarixi dövr ərzində ölkəmizdə aparılan müstəqil dövlət quruculuğu prosesində iqtisadi islahatların və inkişafın mahiyyət etibarı ilə yeni bir modeli - Azərbaycan modeli yaradıldı. Azərbaycan neftinin dünya bazarlarına çıxarılması üçün 1996-cı ildə Bakı-Novorossiysk, 1999-cu ildə isə Bakı-Supsa ixrac neft kəmərlərinin istismara verilməsinə və Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşası ilə bağlı sazişin imzalanmasına, beləliklə də ixrac marşrutlarının diversifikasiyasına nail olundu. 1999-cu ildə neft yataqlarının xarici şirkətlərlə birgə işlənməsindən əldə edilən mənfəət neftinin satışından daxil olan vəsaitlərin səmərəli idarə edilməsi, həmin vəsaitlərin prioritet sahələrin inkişafına və sosial-iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinə yönəldilməsini təmin etmək üçün Dövlət Neft Fondu yaradıldı. Hazırda beynəlxalq təşkilatlar tərəfindən Fondun fəaliyyəti və bu sahədə şəffaflığın təmin edilməsi yüksək qiymətləndirilir.Neft-qaz sektoru iqtisadiyyatın digər sahələrinin inkişafında lokomotiv rolunu oynadı. Düşünülmüş iqtisadi siyasət nəticəsində makroiqtisadi sabitliyə nail olundu və davamlı iqtisadi artımın əsası qoyuldu,

iqtisadiyyatın bütün sahələrində islahatlara başlandı, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində ciddi addımlar atıldı.

Sahibkarlığı inkişaf etdirmək, əlverişli biznes və investisiya mühiti yaratmaqla daxili və xarici investisiyaları cəlb etmək, qeyri-neft sektorunun inkişafına nail olmaq bu mərhələdə həyata keçirilən iqtisadi siyasətin səciyyəvi xüsusiyyətlərindən biri olmuşdur. Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində Azərbaycanda sahibkarlar təbəqəsi formalaşmış, özəl sektorun ölkənin sosial-iqtisadi inkişafında rolu daha da artmışdır.

İqtisadiyyatda mülkiyyətin çoxnövlülüyünün təmin olunması istiqamətində həyata keçirilən tədbirlər davamlı iqtisadi inkişafa öz müsbət nəticəsini vermişdir. Belə ki, özəlləşdirməyə başlayan zaman özəl sektorun ÜDM-də payı faktiki olaraq 10%-dən az olmasına baxmayaraq hazırda onun xüsusi çəkisi 85%-ə çatmışdır.

Beləliklə, iqtisadi inkişaf strategiyasının həyata keçirilməsi nəticəsində müstəqilliyin ilk illərində baş vermiş tənəzzülün qarşısı uğurla alındı və 1995-ci ildən Azərbaycanda keçid dövrünün yeni mərhələsi – bərpa və dinamik inkişaf dövrü başlandı. 1995-2003-cü illər ərzində ümumi daxili məhsul 90,1%, dövlət büdcəsinin gəlirləri 3 dəfə, ölkənin valyuta ehtiyatları 85 dəfə, sənaye məhsulunun həcmi 25,2%, kənd təsərrüfatı istehsalının həcmi 53,9%, xarici ticarət dövriyyəsi 4 dəfə, iqtisadiyyatda məşğul olanların orta aylıq real əmək haqqı 5,6 dəfə artdı, inflyasiya səviyyəsi 2-3%-ə qədər endirildi, bütün maliyyə mənbələri hesabına iqtisadiyyata yönəlmiş investisiyaların ümumi həcmi 20 milyard ABŞ dollarını keçdi (Strateji Yol Xəritəsi, 2016).

Azərbaycan Respublikası dövlət müstəqilliyini qazandıqdan sonra onun xarici iqtisadi siyasətinin mühüm istiqamətlərindən birini beynəlxalq maliyyə-kredit və iqtisadi qurumlarla əlaqələr təşkil etmişdir. Ötən dövr ərzində bu sahədə kifayət qədər iş görülmüşdür. Azərbaycan, demək olar ki, bütün nüfuzlu beynəlxalq qurumlara, o cümlədən 1992-ci ildə Beynəlxalq Valyuta Fonduna, Dünya Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına, İslam İnkişaf Bankına, 1999-cu ildə Asiya İnkişaf Bankına üzv qəbul olunmuşdur.

2003-2018-ci illərdə uğurla davam etdirilən və yeni çalarlarla zənginləşdirilmiş sosial-iqtisadi siyasətin strateji məqsədləri sərbəst bazar münasibətlərinə və özünüinkişaf qabiliyyətinə malik olan sosial yönümlü, diversifikasiya olunmuş milli iqtisadiyyatın formalaşdırılması və dünya təsərrüfat sisteminə inteqrasiyasının təmin olunmasıdır. Davamlı və dinamik inkişaf məntiqinə əsaslanan bu siyasətin həyata keçirilməsi nəticəsində qazanılmış uğurlar daha da möhkəmləndirilmiş, bu dövrdə makroiqtisadi sabitlik qorunub saxlanılmış, iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sahələrinin, regionların inkişafı sürətlənmiş, strateji valyuta ehtiyatlarının səmərəli istifadəsi təmin olunmuş, milli valyutanın sabitliyi, bank sisteminin etibarlılığı artırılmış, konservativ xarici borclanma strategiyası həyata keçirilmiş, sahibkarlığa dövlət dəstəyi gücləndirilmiş, əhalinin sosial rifahı davamlı olaraq yaxşılaşmışdır. Ölkəmizin sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi uğurların davamlılığını təmin etmək məqsədi ilə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası qəbul edilmişdir. Konsepsiya çərçivəsində qeyri-neft sektorunun inkişafı, nəqliyyat, tranzit və logistika infrastrukturunun təkmilləşdirilməsi, bölgələrin tarazlı inkişafı, informasiya cəmiyyətinə keçidin təmin edilməsi, insan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması, institusional potensialın gücləndirilməsi, vətəndaş cəmiyyətinin inkişafı, ətraf mühitin qorunması və s. məsələləri əhatə edən 53 sənəd təsdiq edilərək icrası təmin olunmaqdadır. İqtisadiyyatın diversifikasiyası ilə bağlı nəzərdə tutulmuş tədbirlərin sistemli və ardıcıl reallaşdırılması üçün dövlət başçısının müvafiq fərman və sərəncamları ilə "Azərbaycan Respublikası regionlarının 2004-2008-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "Azərbaycan Respublikası regionlarının 2014-2018-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və bir sıra sahəvi inkişaf proqramları təsdiq edilmiş və uğurla icra olunmuşdur. Ölkənin regionlarında mövcud olan iqtisadi potensialdan tam və səmərəli istifadə olunmasını, sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılmasını və iqtisadiyyatın tarazlı inkişafını təmin etmək məqsədilə uğurla icra olunan dövlət proqramları regionların kompleks inkişafına, o cümlədən infrastruktur sahələrinin bərpası və

genişləndirilməsinə, yeni istehsal və emal müəssisələrinin, sosial-mədəni obyektlərin yaradılmasına, yeni iş yerlərinin açılmasına, əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsinə səbəb olmuşdur. Ümumiyyətlə son 15 ildə 201 proqram xarakterli sənəd, o cümlədən 12 Konsepsiya, 12 Milli Strategiya, 12 Strateji Yol Xəritəsi, 94 Dövlət Proqramı, 10 Milli Fəaliyyət Planı, 23 Tədbirlər Planı, 21 Tədbirlər Proqramı, 17 Milli Plan və proqramlar qəbul edilmişdir. Qlobal maliyyə-iqtisadi böhran nəticəsində dünyanın aparıcı ölkələrində baş vermiş kəskin ressesiyaya baxmayaraq, Azərbaycanda makroiqtisadi sabitlik, iqtisadi artım, yoxsulluq səviyyəsinin azalması və əhalinin maddi rifah halının yüksəlməsi 2003-2017-cu illərdə də davam etmişdir. Son 15 ildə ümumi daxili məhsul (ÜDM) nominal ifadədə 9,8 dəfə, real ifadədə 3,2 dəfə artmışdır. Bu dövrdə ölkədə orta illik iqtisadi artım 9,4 faiz, o cümlədən qeyri-neft sektorunda 8,2 faiz təşkil etmişdir. Sosial-iqtisadi sahədə həyata keçirilən tədbirlər iqtisadi artımın iqtisadi inkişaf amilinə çevrilməsinə yönəldilmişdir.

İqtisadiyyatın neft sektorundan asılılığının azaldılması və sənayenin hərtərəfli inkişafının təmin edilməsi iqtisadi siyasətin öncül istiqamətlərindən biri kimi müəyyən edilib. Ölkə iqtisadiyyatında neft sektoru həlledici rol oynasa da, son illər qeyri-neft sektorunun fəaliyyətində əhəmiyyətli canlanma hiss olunur. 2003-2017-ci illərdə sənaye istehsalı 2,6 dəfə, qeyri-neft sektoru üzrə ÜDM 2,8 dəfə, qeyri-neft sənayesi 2,2 dəfə, kənd təsərrüfatı 1,7 dəfə artmışdır.

İqtisadiyyatın liberallaşdırılması və sahibkarlığın inkişaf etdirilməsi nəticəsində özəl sektorun rolu əhəmiyyətli dərəcədə yüksəlmişdir. Belə ki, ÜDM-də özəl bölmənin payı 2003-cü ildə 74 faiz təşkil edirdisə, 2017-ci ildə bu rəqəm 84 faiz olmuşdur.

Maliyyə imkanlarının artması iqtisadi inkişafın yeni mərhələsinin xarakterik xüsusiyyətlərindən biridir. Bu, özünü dövlət büdcəsinin, strateji valyuta ehtiyatlarının həcmində göstərir. Son 15 il ərzində dövlət büdcəsinin gəlirləri 16,7 dəfə artaraq, 2003-cü ildəki 1,2 mlrd. manatdan 2018-ci ildə 20,1 mlrd. manata çatmışdır. Qeyri-neft sektorunun inkişafı büdcə gəlirlərinin formalaşmasına da öz təsirini göstərməkdədir. Belə ki, 2017-ci ildə dövlət büdcəsinin qeyri-neft sektoru üzrə gəlirləri 8,6 mlrd. manat olmuşdur ki, bu da 2003-cü illə müqayisədə 11,4 dəfə çoxdur.

Əsas kapitala yönəldilmiş vəsaitlər 2003-2017-ci illər ərzində 3,8 mlrd. manatdan 16,8 mlrd. manata çatmışdır. Bu isə real ifadədə 3,7 dəfə artım deməkdir. Təcrübə göstərir ki, neftlə zəngin olan bir çox ölkələr əldə olunan gəlirlərdən investisiya təyinatlı deyil, cari istehlak məqsədləri üçün istifadə etdiklərinə görə rəqabətqabiliyyətli və səmərəli iqtisadiyyat qura bilməmişlər.

2003-cü illə müqayisədə 2018-ci ildə dövlət büdcəsi xərclərinin tərkib hissəsi olan dövlət əsaslı vəsait qoyuluşu xərcləri 55,5 dəfə artaraq, 86,9 milyon manatdan 4,8 mlrd. manata çatmışdır. Bu isə geniş miqyaslı infrastruktur layihələrinin maliyyələşdirilməsi deməkdir (AR DSK, 2018).

Dünyada investisiya layihələrinin bahalaşdığı bir şəraitdə neft dollarlarının yalnız depozit şəklində saxlanılması məqsədə uygun deyil. İnfrastruktur xərcləri neft gəlirlərinin yenidən bölgüsünü təmin etməklə, eyni zamanda, təkcə bugünkü deyil, həm də gələcək nəsillər üçün yatırılan kapital kimi dəyərləndirilməlidir.

Strateji valyuta ehtiyatları 26,2 dəfə artaraq, 2002-ci ildəki 1,6 mlrd. ABŞ dollarından 2017-ci ildə 42 mlrd. ABŞ dollarına yüksəlmişdir ki, bu da ÜDM-in həcmini üstələyir. 1990-cı illərin əvvəllərində Azərbaycanın valyuta ehtiyatlarının 90-95 faizi əsasən BVF və Dünya Bankının kreditləri hesabına formalaşırdısa, indi bu ehtiyatlar əsasən ixracdan əldə edilən valyuta gəlirlərindən ibarətdir. Ölkəmizin ixrac imkanlarının artması valyuta ehtiyatlarının formalaşmasında həlledici rol oynayır.

Azərbaycanın xarici dövlət borcunun ÜDM-ə nisbəti 25 faizdən azdır ki, bu da dünyada ən yaxşı göstəricilərdən sayılır. Qeyd edək ki, iqtisadi təhlükəsizlik baxımından kritik hədd 40 faizdir.

Hazırda qeyri-neft sektorunda müşahidə edilən davamlı artım meyilləri, valyuta ehtiyatlarımızın həcmi və onunla müqayisədə xarici dövlət borcunun minimal səviyyəsi, mühüm nəqliyyat-enerji layihələrinin reallaşdırılması ölkəmizin milli və iqtisadi təhlükəsizliyi üçün möhkəm əsaslar yaradır. Strateji əhəmiyyətə malik bu cür genişmiqyaslı işlər milli və iqtisadi maraqlarımızın qorunması, iqtisadi diplomatiyanın imkanlarından məharətlə istifadə edilməsi, iqtisadiyyat və siyasətin bir-biri ilə uğurlu bir şəkildə uzlaşdırılması ilə tamamlanır.

Ölkəmizdə sənayeləşmənin sürətləndirilməsi, qeyri-neft sənayesinin ixrac potensialının artırılması, elmtutumlu və innovativ istehsalın təşkili, yüksək əlavə dəyər yaradan rəqabətqabiliyyətli

sənaye istehsalının genişləndirilməsi məqsədi ilə "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nı təsdiq edilmiş, 2014-cü ili "Sənaye ili" elan edilmişdir. Sənaye parkları və məhəllələri mövcud potensialın gücləndirilməsi və yeni istehsal sahələrinin yaradılması, sənayedə struktur dəyişikliyi baxımından yeni yanaşmadır. Odur ki, son dövrlərdə ölkədə bu cür təsisatların yaradılması istiqamətində xeyli iş görülmüşdür. Kimya sənayesinin inkişaf etdirilməsi məqsədi ilə 2011-ci ildə Sumqayıt Kimya Sənaye Parkının yaradılmasına qərar verilmişdir. 2017-ci ildə Balaxanı Sənaye Parkı fəaliyyətə başlamışdır. Sənaye Parkının Balaxanı poliqonuna və tullantıların yandırılması zavoduna, o cümlədən əsas nəqliyyat qovşağına yaxınlığı xammal və enerji təchizatı, əldə edilmiş xam material və ya istehsal edilmiş məhsulun asanlıqla satış bazarına çıxmasına şərait yaradır. 2016-cı ildə təməli qoyulmuş Mingəçevir Sənaye Parkında isə yüngül sənaye məhsulları, o cümlədən iplik, boyama, toxuma, tikiş, corab, ayaqqabı və tibbi kosmetika istehsalı üzrə 9 fabrikin yaradılması nəzərdə tutulmuşdur. Pambıqçılığın sürətlə inkişafı qabaqcıl texnologiyalara əsaslanan yeni istehsal və emal sahələrinin təşkilini tələb edir. Mingəçevir Sənaye Parkının ərazisində yaradılmış və 2018-ci ilin fevral ayında istifadəyə verilmlş "Mingəçevir Tekstil" Məhdud Məsuliyyətli Cəmiyyətinin iki iplik istehsalı müəssisəsi - "Ring" üsulu ilə istehsal edilən pambıq-poliester fabriki və "Open End" ilə iplik istehsal edən fabrik belə müəssisələrdəndir. İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun dəstəyi ilə yaradılan bu cür müəssisələrin istifadəyə verilməsi ölkədə toxuculuq sənayesinin inkişafına, yerli istehsal müəssisələrinin davamlı, keyfiyyətli və ucuz xammalla təmin olunmasına, eləcə də istehsal edilən pambığın hazır məhsul kimi ixracına imkan verəcəkdir.

Gəmiqayırma sahəsində ixtisaslaşmış Qaradağ Sənaye Parkında Bakı gəmiqayırma zavodu fəaliyyət göstərir və zavodda yüksək yükgötürmə qabiliyyətinə malik tanker, dəniz təchizat gəmisi və digər təyinatlı gəmilərin istehsalı həyata keçirilir.

Əczaçılıq məhsullarının istehsalı üzrə ixtisaslaşmış Pirallahı Sənaye Parkında artıq təməli qoyulmuş dərman zavodlarının tikintisi istiqamətində müvafiq tədbirlər görülür. Ölkəmiz üçün yeni sahə olan əczaçılıq sənayesinin yaradılması məşğulluğun təmin olunmasında əhəmiyyətli rol oynamaqla yanaşı, həm də yerli istehsal hesabına əhalini keyfiyyətli əczaçılıq məhsulları ilə təmin edəcək, idxaldan asılılığı azaldacaq və ixrac potensialını yüksəldəcəkdir.

2017-ci ildə istifadəyə verilmiş Neftçala Sənaye Məhəlləsində isə hazırda avtomobil, balıq yemi, plastik məmulatlar, suvarma sistemləri, polietilen suvarma boruları, kağız stəkanlar və hazır içkilər istehsalı, balıq emalı və konservləşdirilməsi ilə məşğul olan 9 müəssisə rezident kimi qeydiyyata alınmışdır. 2016-cı ildə yaradılmış Masallı Sənaye Məhəlləsində həyata keçiriləcək layihələr əsasən mebel, tikinti materialları, plastik tara, süfrə suyu, qida məhsulları, xalça istehsalı və kənd təsərrüfatı məhsullarının emalı sahələrini əhatə edir. Bundan başqa, 2017-ci ildə Hacıqabul və Sabirabad Sənaye məhəllələrinin yaradılmasına başlanılmışdır. Hacıqabul Sənaye Məhəlləsində fəaliyyət göstərəcək rezidentlərin ağır maşınqayırma, xüsusi vaqonqayırma, avtomobil ehtiyat hissələri və kompozit materialları istehsalı sahələrində ixtisaslaşması nəzərdə tutulur. Sabirabad Sənaye Məhəlləsində isə yun tədarükü, pambıqtəmizləmə, taxta, plastik məmulatlar və tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin və logistika mərkəzinin fəaliyyət göstərməsi planlaşdırılır. Hazırda İqtisadiyyat Nazirliyi tərəfindən dövlət başçısının tapşırığına uyğun olaraq, növbəti sənaye məhəllələrinin yaradılması istiqamətində işlər davam etdirilir. Azərbaycanda qeyri-neft sənayesinin davamlı inkişafında, yerli ehtiyatlardan istifadə edən sənaye sahələrinin yaradılmasında, istehsal prosesinin təşkili zamanı infrastruktur xərclərinin azaldılmasında, sahibkarlar arasında kooperasiya əlaqələrinin gücləndirilməsində, məşğulluğun təmin edilməsində sənaye parkları və sənaye məhəllələri mühüm əhəmiyyət kəsb edir. İqtisadiyyatın sürətlə inkişafı, dünya ölkələri arasında nüfuzunun yüksəlməsi ölkəmizə marağın artmasına səbəb olmuş, respublikamıza gələn əcnəbilərin ildən-ilə çoxalmasına, turizm fəaliyyətinin genişlənməsinə şərait yaratmışdır. Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2011-ci il ölkəmizdə "Turizm İli" elan edilmişdir. Ötən müddətdə Bakı ilə yanaşı, regionlarda da otellərin və istirahət mərkəzlərinin istifadəyə verilməsi turizmin inkişafına geniş imkanlar yaratmışdır. 2003-cü ildə ölkədə mehmanxana və mehmanxana tipli müəssisələrin sayı cəmi 96 olduğu halda, 2004-2017-ci illər ərzində belə obyektlərin sayı artaraq 550-yə çatmışdır ki, bunun da 400-ü regionlarda yerləşir. Dünya ölkələri,

xüsusilə Avropa İttifaqına üzv ölkələrlə birbaşa nəqliyyat əlaqələri genişlənmiş, Bakı-Tbilisi-Ceyhan (BTC) neft ixrac kəməri və Bakı-Tbilisi-Ərzurum qaz ixrac kəməri dünyada enerji təhlükəsizliyinin təmin olunmasına layiqli töhfələr vermişdir. Regionun və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında müstəsna əhəmiyyəti olan "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan TANAP və TAP layihələri, həmçinin "Şahdəniz-2" layihəsi üzrə yekun investisiya qərarının imzalanması xüsusi olaraq qeyd edilməlidir. Bu layihələr üzrə işlərin çox hissəsi artıq icra olunmuşdur.

İnkişaf edən infrastruktur sahələrindən biri kimi nəqliyyat sektoruna irihəcmli investisiyaların yönəldilməsi nəticəsində hava limanlarının, körpülərin, tunellərin, yol qovşaqlarının tikilməsi, yeni avtomobil və dəmir yollarının çəkilməsi, yenidən qurulması və s. işlər davam etdirilmişdir. Tranzit potensialının reallaşdırılması istiqamətində də irimiqyaslı layihələr həyata keçirilmiş, o cümlədən Avropa-Qafqaz-Asiya (TRASECA) nəqliyyat dəhlizinin fəaliyyəti güclənmiş, Bakı-Tbilisi-Qars dəmir yolu istismara verilmiş, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksində Ro-Ro terminalının açılışı olmuş, Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizləri üzrə magistral yolların tikintisi layihələri uğurla davam etdirilmişdir.

Ölkənin tranzit potensialından daha səmərəli şəkildə yararlanmaq məqsədi ilə dövlət səviyyəsində institusional islahatların aparılmasına ehtiyac yaranmışdır. Məhz bu siyasətin davamı olaraq, Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurası yaradılmışdır.

Ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərinin təşviqi, özəl şirkətlərlə dövlət orqanlarının əlaqələndirilməsi, tariflərin optimallaşdırılması və tranzit prosedurlarının sadələşdirilməsi istiqamətində işlərin aparılması Koordinasiya Şurasına həvalə edilmişdir. Ölkənin tranzit cəlbediciliyinin artırılması istiqamətində Koordinasiya Şurası tərəfindən bir sıra mühüm tədbirlər görülmüşdür. Belə ki, dəhlizin rəqabətqabiliyyətliliyinin artırılması məqsədilə region ölkələri arasında koordinasiya gücləndirilmiş, tranzit müddətləri qısaldılmış və prosedurlar təkmilləşdirilərək optimallaşdırılmış tarif siyasətinə başlanmışdır.

İqtisadiyyatın şaxələndirilməsi və sənayenin modernləşdirilməsi istiqamətində mühüm layihələrdən biri telekommunikasiya və Yer səthinin müşahidəsi peykləri olan "Azerspace" və "Azersky"ın istismara verilməsi olmuşdur.

Neft sektorundan sonra prioritet sahələrdən biri hesab olunan və son illər ölkənin sosial-iqtisadi həyatında mühüm rol oynayan rabitə və informasiya texnologiyaları sahəsinin inkişafında 11,3 dəfə artıma nail olunmuşdur. Son 15 ildə regionlarda 1600-dən çox ATS, 1000-dən çox poçt binası tikilmiş və ya əsaslı təmir edilmişdir. 2013-cü il ölkəmizdə "İnformasiya-kommunikasiya texnologiyaları İli" elan edilmişdir.

Əhalinin dərman vasitələri ilə optimal qiymətlərlə etibarlı təchizatı sosial və iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edir. Dərman vasitələri bazarında yaranmış xaotik vəziyyətin aradan qaldırılması və bu sahəyə nəzarətin gücləndirilməsi ilə bağlı ölkə başçısının müvafiq tapşırıqlarından sonra qanunvericiliyə dəyişikliklər edilmiş və 2015-ci ilin ortalarından etibarən ölkədə dərman vasitələrinin qiymətlərinin tənzimlənməsinə başlanılmışdır. Tənzimləmə prosesi intensiv şəkildə davam etdirilmiş, dövlət qeydiyyatına alınmış 11 minə yaxın dərman vasitəsinin qiymətləri təsdiq edilmişdir. Nəticədə süni qiymət artımının və dərman vasitələrinin qiymətləri ilə manipulyasiyaların qarşısı alınmış, dərman vasitələri bazarında şəffaflıq, ictimai və dövlət nəzarəti təmin edilmişdir. 2017-ci ildən etibarən icbari tibbi sığorta sisteminin tətbiqi ilə əlaqədar pilot layihənin icrasına başlanılmış və sığortanın baza zərfinə 1800-dən çox tibbi xidmət daxil edilmişdir (İlham Əliyev,2018).

Azərbaycanda iqtisadi inkişaf bazar münasibətlərinə əsaslansa da, o, həm də sosial ədalət prinsipi ilə tamamlanır. Yeni pensiya və sosial müdafiə sisteminə keçid, ölkə vətəndaşlarının ipoteka kreditləri ilə təmin edilməsi və 2016-cı ildə yaradılmış Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) xətti ilə sosial mənzillərin tikilərək ehtiyacı olanlara verilməsinin nəzərdə tutulması dövlətin sosial siyasətində keyfiyyət dəyişikliklərini əks etdirir.

Azərbaycanın sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi nəticələr beynəlxalq hesabatlarda da əksini tapmış, müxtəlif meyarlar üzrə reytinq cədvəllərində ölkəmizin mövqeyi əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. "Doing Business" hesabatına əsasən Azərbaycan 2017-ci ildə 190 ölkə arasında 57-ci pillədə, Davos İqtisadi Forumunun "Qlobal Rəqabətə davamlılıq" hesabatında isə 35-ci pillədə

qərarlaşmışdır. Eyni zamanda, sonuncu hesabata əsasən "Siyasətçilərə ictimai etimad" adlanan indikator üzrə Azərbaycan dünyada 20-ci pilləyə yüksəlmişdir.

Qeyd etmək lazımdır ki, ölkə iqtisadiyyatının ötən illərdəki iqtisadi inkişafın nəticəsi kimi 2017-ci il, eyni zamanda, bir sıra əlamətdar iqtisadi hadisələrlə diqqəti çəkmişdir. 2017-ci ilin oktyabr ayında tikintisi 10 il davam edən Bakı-Tbilisi-Qars dəmir yolunun rəsmi açılışı reallaşmışdır ki, bu hadisə ilin mühüm iqtisadi nailiyyətlərindən biri hesab edilir. Bakı-Tbilisi-Qars dəmir yolu xətti yalnız iqtisadi deyil, siyasi və strateji baxımdan da Azərbaycan üçün uğurlu layihədir. Bu dəmir yolu respublikamızın Gürcüstan və Türkiyə vasitəsilə Avropaya çıxışına imkan yaradır. Eyni zamanda, Çin daxil olmaqla Mərkəzi, Cənubi və Cənub-Şərqi Asiya ölkələri də adı çəkilən dəmir yolu vasitəsilə Türkiyə və Avropa bazarlarına çıxmaq imkanı əldə edəcəklər. Onu da qeyd etmək lazımdır ki, layihə ABŞ və eləcə də Avropa İttifaqı tərəfindən birmənalı qiymətləndirilmirdi. Dəmir yol xəttinin Ermənistandan kənar keçməsi səbəbindən ABŞ-ın "Eximbank"ı, eləcə də bir sıra Avropa ölkələrinin dövlət və idxal-ixrac əməliyyatları həyata keçirən bankları layihəni maliyyələşdirməkdən imtina etdilər. Layihənin maliyyələşdirilməsi ilə bağlı həmin ölkələrin şərti ondan ibarət oldu ki, Azərbaycan dəmir yol xəttinin Ermənistan ərazisindən keçməsinə icazə versin. Respublikamız isə nəinki öz üzərinə düşən xətləri daxili maliyyə mənbələri hesabına qarşıladı, eyni zamanda, Gürcüstanın maliyyə ehtiyacını da demək olar ki, faizsiz kreditlə təmin etdi. Bakı-Tbilisi-Qars dəmir yolunun və Bosfor boğazında dənizin altı ilə keçən dəmir yolu tunelinin inşası, Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsini təmin etdi. Bununla da yük və sərnişinlərin birbaşa olaraq Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçməklə Avropa və Asiyaya daşınması imkanı yarandı. Layihə region ölkələrin tranzit potensialının artması, qlobal inteqrasiya prosesinin sürətlənməsi, Avropa Qonşuluq Siyasəti çərçivəsində əməkdaşlığın daha da inkişafı, həmçinin Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin genişlənməsi üçün əlverişli şərait yarandı.

Sadalananlarla yanaşı, layihə Azərbaycanın tranzit əhəmiyyətini daha da artırmaqla yanaşı, ölkənin strateji inkişaf planının bu istiqamət üzrə dəyər zəncirini tamamlayacaq, qeyri-neft iqtisadiyyatının mühüm sahəsi olan nəqliyyat sektounun inkişafını sürətləndirəcək və yerli istehsal və ixrac imkanlarının genişlənməsinə müsbət təsir edəcəkdir.

BTQ-nin əsas bazarı Çin daxil olmaqla Mərkəzi, Cənubi və Cənub-Şərqi Asiya ölkələrindən Avropa ölkələrinə və əks istiqamətdə sərnişin və yük daşımaları hesab edilir. Bu istiqamətdə daşımalar əsasən dəniz yolu ilə həyata keçirilir və 25-30 gün vaxt tələb olunur. Bakı-Tbilisi-Qars dəmir yolu ilə Çindən Avropaya yüklərin çatdırılması üçün vaxt sərfiyyatı 12-15 gün təşkil edir. Başqa sözlə, dəniz daşımaçılığına nisbətən yüklərin mənzil başına çatdırılması müddəti 2 dəfədən çox azdır. Bu isə dəmir yolu xəttini qısa zamanda digər alternativlərindən daha cəlbedici olmasını şərtləndirəcəkdir. Gələcəkdə sözügedən dəmir yolu ilə il ərzində 50 milyon ton yük daşınacaq.

Yaxın gələcəkdə Qazaxıstanın Bakı-Tbilisi-Qars dəmir yoluna verəcəyi illik yük həcminin 10 milyon tona çatacağı da proqnozlaşdırılır ki, bu da layihənin icrasından əvvəl hesablanan ilkin daşıma həcmindən artıqdır.

Bakı-Tbilisi-Qars dəmir yolu 3 ölkənin – Azərbaycan, Gürcüstan və Türkiyənin ərazisindən keçir ki, bu da qeyd edilən kəmər üzrə səmərəli koordinasiyanın və təhlükəsizliyin təmin edilməsi baxımıdan əhəmiyyətli məqamdır.

2017-ci idə, həmçinin "Azəri-Çıraq-Günəşli" yataqlarının işlənməsi üzrə "Əsrin müqaviləsi" yenilənərək "Yeni əsrin yeni müqaviləsi" imzalandı. "Əsrin müqaviləsi" ilə "Yeni əsrin müqaviləsi"nin müqayisəsi və eyni zamanda, bu sazişin Azərbaycan iqtisadiyyatına, eləcə də regionda dövlətimizin mövqeyinə təsirlərini qiymətləndirən zaman bir məqama diqqət ayırmaq lazımdır. Belə ki, 1994-cü ildə ölkəmizin iqtisadiyyatı, eləcə də iqtisadi gücü təbii ki, tamamilə fərqli idi. Hazırda isə Azərbaycan regional proseslərə təsir imkanlarına malik olan dövlətdir.1994-cü ildə Azərbaycan iqtisadiyyatının kiçik olmasına baxmayaraq, bağlanan "Əsrin müqaviləsi"ndə ölkəmizin maraqlarını qorumaq mümkün oldu. O zaman Azərbaycanın ümumi daxili məhsulunun həcmi 374 milyon manat idi. Ötən müddətdə isə ümumi daxili məhsulun həcmi 161 dəfə artıb. Büdcə gəlirlərimiz cəmi 100 milyon manat idi. Buna baxmayaraq "Əsrin müqavilə"sində öz dövlət və milli maraqlarımıza uyğun olaraq, şərtlər xarici şirkətlərlə razılaşdırıldı.

Ölkə iqtisadiyyatı 1994-cü illə müqayisədə xeyli inkişaf etmişdir. Bu kontekstdə "Yeni əsrin müqaviləsi" Azərbaycana 3,6 milyard dollar bonus əldə etmək imkanı verəcək. Yeni "Əsrin müqaviləsi" çərçivəsində Azərbaycan iqtisadiyyatına 40 milyard dollar investisiya qoyulacaq. Bu isə neft sektorunun inkişafı baxımından vacib olmaqla yanaşı, neft sektoruna yardımçı sahələrin, hətta qeyri-neft sektorunun inkişafını stimullaşdıran amilə çevriləcək. Çünki bütün hallarda neft sənayesinə yönəldilən investisiya, həm də qeyri-neft sektorunun inkişafı üçün mühüm maliyyə təminatını formalaşdıracaq.

2017-ci ildə Azərbaycan global reytinqlərdə ciddi irəliləyişlər əldə etdi. Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda respublikamız reytinqdə daha iki pillə yüksələrək 35-ci yerdə qərarlaşdı. Beynəlxalq aləmin ən mötəbər reytinqində Azərbaycan dünya ölkələrinin hər dördündən üçünü geridə qoyaraq MDB-də liderliyini qorudu. Həmin hesabatda Azərbaycanın mövqeyi 12 indikatordan doqquz indikator üzrə yaxşılaşdı.

Dünya Bankı tərəfindən hazırlanan "Doing Business 2018" hesabatında isə Azərbaycan səkkiz pillə irəliləyərək 190 ölkə arasında 65-ci pillədən 57-ci yerə yüksəldi. Azərbaycan, həmçinin Avropa və Mərkəzi Asiya regionu üzrə ən islahatçı 3 ölkədən biri hesab olundu. Beləliklə, Azərbaycan 2017-ci ildə hədəflənən iqtisadi sabitliyə nail olabilmişdir.(İlham Əliyev,2018)

İndi ölkəmizdə iqtisadi liberallaşmanın, struktur islahatlarının yeni mərhələsi başlanır. Bu mərhələdə əsas vəzifə səmərəli iqtisadiyyatın qurulmasından, daha sağlam iqtisadi bazaya əsaslanan təsirli sosial siyasətin həyata keçirilməsindən ibarətdir. Əsas məsələ qeyri-neft sektorunun inkişafı və iqtisadiyyatın səmərəliliyinin təmin edilməsidir. Azərbaycanda iqtisadi inkişafın yeni mərhələsi qeyri-neft sektorunun və sahibkarlığın inkişaf etdirilməsi, yoxsulluq səviyyəsinin azaldılması, çoxsaylı iş yerlərinin açılması ilə xarakterizə olunur. Dövlət başçısının 6 dekabr 2016-cı il tarixli fərmanı ilə təsdiq edilən "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri" isə bu sahədə inkişafın keyfiyyətcə yeni modelinin formalaşdırılmasını təmin edəcək. Strateji yol xəritələri 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və tədbirlər planını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövrə hədəf baxışı özündə əks etdirir. Bu hədəflərə nail olmaq üçün hesab edirik ki, ilk növbədə iqtisadiyyatın diversifikasiyası sürətləndirilməli, sənayenin, xüsusilə emal sənayesinin şaxələnməsi təmin edilməli, sahibkarlığın inkişafı üçün vergi və maliyyə siyasətində liberallaşdırmanı davam etdirmək lazımdır. Azərbaycan iqtisadiyyatında ümum daxili məhsulun 2017-ci ildə strukturuna diqqət yetirsək, mədən çıxartma sənayesinin xüsusu çəkisinin yüksək oldugunu, emal sənayesinin xüsusi çəkisinin xeyli aşagı oldugunu müəyyən edirik (cədvəl 1)

*Cədvəl 1*

Ümumi daxili məhsulun strukturu (faiz ilə)

| Göstəricilər | 2017-ci il |
|---|---|
| 1.Qeyri-neft sahələri | 62,8 |
| 2.Neft-qaz sektoru | 37,2 |
| 3.Sənaye | 40,1 |
| - bunlardan emal sənayesi | 13.9 |
| 4. Ticarət və nəqliyyat vasitələrinin təmiri sahələri | 10.4 |
| 5.Tikinti | 9.5 |
| 6. Nəqliyyat və anbar təsərrüfatı | 6.8 |
| 7. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 5.6 |
| 8. Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 2.3 |
| 9. İnformasiya və rabitə sahələri | 1.6 |
| 10. Digər xidmət sahələri | 16.4 |
| 11.Məhsula və idxala xalis vergilər | 7.3 |

Mənbə: Azərbaycanın statistika göstəriciləri. 2018

Cədvəldən göründüyü kimi, Azərbaycan iqtisadiyyatında neft-qaz sektorunun payı 37.2%, emal sənayesinin payı isə cəmi 13.9% təşkil edir. Halbuki, dünya təcrübəsində inkişaf etməkdə olan ölkələrin yeni sənaye ölkələri qrupunun əsas xüsusiyyətlərindən biri emal sənayesinin ümumi daxili məhsuldakı payının 25%-dən çox olmasıdır. Odur ki, Azərbaycan iqtisadiyyatının orta və uzunmüddətli perspektivdə dayanıqlılığını artırmaq üçün onun, xüsusi ilə sənayenin, elektron sənayesinin diversifikasiyanı sürətləndirmək və sahibkarlığın inkişafını təmin etmək lazımdır. Bunun üçün aşagıdakı tədbirlərin həyata keçirilməsi məqsədə uygundur:

- ölkənin resurs potensialının iqtisadiyyatın sahələri arasında və hər bir sahənin daxilində bölgüsünə istiqamətlənmiş sistemli və ardıcıl tədbirlər sisteminin işlənməsi və həyata keçirilməsi, rəqabət qabiliyyətli və ixrac yönümlü innovativ əsaslı texnologiya və malların istehsalının təşkil edilməsi;
- daxili bazarın qorunmasının stimullaşdırılması, sənaye fəaliyyəti üçün müəyyən edilmiş dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi və qanunvericilik bazasının təkmilləşdirilməsi;
- sənayenin texnoloji səviyyəsinin yüksəldilməsi, ölkənin ixrac potensialının yüksəldilməsi, idxalın yerli istehsal vasitəsilə ödənilməsi, elmi-texniki potensialın istifadəsi səviyyəsinin yüksəldilməsi, iri müəssisələrin sağlamlaşdırılması, yeni sənaye müəssisələrinin açılması;
- bölgələrdə yerli xammala əsaslanan sənaye müəssisələrinin fəaliyyətinin keyfiyyətcə müasir səviyyədə qurulması və yeni müəssisələrin yaradılması istiqamətində tədbirlər həyata keçirilməsi;
- sənaye müəssisələrində innovasiya yönümlü texnologiyaların tətbiqini stimullaşdırmaq, ixtisaslaşmış və ümumi təyinatlı sənaye şəhərciklərinin, müasir texnoparkların yaradılması, iqtisadi rayonlar üzrə sənaye məhəllələrin infrastrukturunun genişləndirilməsi;
- standartlaşdırma siyasəti çərçivəsində sənaye sahələrində fəaliyyət göstərən müəssisələrdə beynəlxalq standartların tətbiqinin təmin edilməsi;
- regionlararası təsərrüfat əlaqələrinin təkmilləşdirilməsi və yeni sənaye komplekslərinin və sənaye klasterlərinin yaradılmasının, idxalı əvəz edəcək və ixrac yönümlü məhsulların istehsalının stimullaşdırılması;
- neft-qaz hasilatı sahəsində innovativ texnologiyalardan, o cümlədən nanotexnologiyalardan istifadənin genişləndirilməsinin, yeni yataqların axtarışı və kəşfiyyatının davam etdirilməsi, aşkar edilmiş yataqların tammiqyaslı işlənməyə cəlb edilməsi;
- neft gəlirlərinin zəruri hissəsinin qeyri-neft sahələrinin inkişafına, iqtisadiyyatın sahələrinin, xüsusən emal sənayesinin diversifikasiyasına yönəltmək. Neft-qaz layihələrinə beynəlxalq neft şirkətlərinin, xarici investisiyaların, müasir texnologiyaların cəlb edilməsinin davam etdirilməsi;
- beynəlxalq inteqrasiyanın inkişafında əsasən inkişaf etməkdə olan ölkələr (Rusiya, Türkiyə, İran) ilə deyil, inkişaf etmiş ölkələr ilə əməkdaşlıga üstünlük vermək. Neft kontraktlarında iştirak edən ölkələrin transmilli şirkətlərini Azərbaycanın maraqlarına uygun françayzinq şərtləri ilə neft-qaz kompleksinə xidmət sahələrinin yaradılmasına (neftmaşınqayirması, təmir avadanlıgı, cihazqayirma, elektrotexnika və s.) cəlb etmək;
- ölkənin ərzaq təhlükəsizliyini təmin etmək üçün başlıca taxılçılığın, meyvəçiliyin və üzümçülüyün, tərəvəzçiliyin, tütünçülüyün, toxumçuluq və tingçiliyin, hevandarlıqda damazlıq-seleksiya işinin, yemçiliyin, aqrar emal sənayesinin və aqromarketinqin, aqroservis xidmətlərinin və kənd yerlərinin inkişaf etdirilməsi;
- sahibkarlığın inkişafını təmin etmək üçün daxili qeyri-neft istehsalçılarına xüsusi güzəştli vergi sistemi qurmaq, əksəriyyətini bir çox vergilərdən azad etmək və ya çox cüzi səviyyəyə endirmək;
- qeyri-neft ixracatına xüsusi təşviq rejimi qurmaq, ixracı stimullaşdırıcı və sadələşdirici rejim yaratmaq;
- ixracın nəqliyyat məsrəflərinin ən azı yarısını, sertifikatlaşma, rəsmiləşdirmə məsrəflərinin hamısını dövlət öz üzərinə götürməlidir, idxal gömrük vergiləri (elmi-texnoloji məhsullar istisna olmaqla) dünya regionları üzrə artırılmalı və bunun hesabına ixrac bonusları müəyyən olunmalıdır;
- qeyri-neft məhsullarının maya dəyərini aşağı salmaq üçün istehsal kreditlərinin maksimum

həddi 3% müəyyən edilməklə, kredit resursları dövlət vəsaiti hesabına təmin olunmalı, dövlət inhisarında olan yanacaq, elektrik, suyun qiyməti aşağı salınmalı, istehsal üçün digər dövlət xidməti ucuzlaşdırılmalıdır;

- idxal-ixrac rejimi Avropa İttifaqı standartlarına uyğun yenilənməli, sadələşməli, məhsulların maya dəyərini artıran korrupsiya halları aradan qaldırılmalı, tələb olunan sənədlər minimuma endirilməli, qeydiyyat müddəti maksimum qısaldılmalıdır.

**Açar sözlər:** iqtisadi inkişaf, iqtisadiyyat sahələri, sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat, turizm, informasiya-kommunikasiya texnologiyaları, mənzil-kommunal təsərrüfatı, diversifikasiya

**İstifadə edilmiş ədəbiyyat**

1. İlham Əliyev "İnkişaf – məqsədimizdir". Çoxcildlik . Azərnəşr. Bakı, 2018
3. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri". Bakı, 2016
1. 3.Azərbaycanın statistika göstəriciləri. Bakı, Səda, 2018
2. 4.Azərbaycan-faktlar və rəqəmlər. AR DSK. Bakı, 2018
4. www.stat.gov.az

**Закир Ализаде**

## ДИВЕРСИФИКАЦИЯ ЭКОНОМИКИ АЗЕРБАЙДЖАНА ЯВЛЯЕТСЯ ИСТОЧНИКОМ ЭКОНОМИЧЕСКОГО РОСТА И МАТЕРИАЛЬНОГО БЛАГОСОСТОЯНИЯ

**Резюме**

В статье рассмотрены экономические достижения Азербайджана за последние годы. Этот период, опираясь на научное обоснование, разделен на три этапа: период спада экономики, период восстановления макроэкономической стабильности и динамичного экономического роста, период устойчивого экономического развития. Анализ экономического развития на каждом этапе выявил его сильные и слабые стороны. Была продемонстрирована важность стратегической дорожной карты для перспективного развития экономики страны и повышения материального благосостояния, и были сделаны практические предложения для ускорения диверсификации экономики.

**Ключевые слова:** экономическое развитие, экономика, промышленность, сельское хозяйство, строительство, транспорт, туризм, информационные и коммуникационные технологии, жилищно-коммунальное хозяйство, диверсификация.

**Zakir Alizade**

## DIVERSIFICATION OF THE AZERBAIJAN ECONOMY AS A SOURCE OF ECONOMIC GROWTH AND MATERIAL WELFARE

**Summary**

The article outlines the achievements gained since the independence of Azerbaijan over the last 25 years in the field of economic development, which has been scientifically grounded in three stages: economic recession, economic recovery, macroeconomic stability, dynamic economic development, and sustainable economic development. Analysis of economic development at each stage has highlighted its strengths and weaknesses. The importance of the strategic roadmap for the prospective development of the country 's economy and the enhancement of material well - being has been given practical recommendations for the acceleration of diversification of the economy.

**Key words:** economic development, economy, fields industry, agriculture, construction, transport, tourism, information and communication technologies, housing and utilities, diversification

УДК-343.98

**Саадат Гулиева**
**Азербайджанская Академия Труда и Социальных Отношений, д.ф.э.**

## НЕКОТОРЫЕ ПРОБЛЕМЫ НАУКИ И ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ

*В статье рассмотрены некоторые проблемы развития науки и образования в современном азербайджанском обществе. Эти сферы способны укрепить нравственные устои своего политического и экономического влияния в Азербайджане. Школа была важной ступенью в подготовке работоспособных исполнительных кадров, владеющих необходимыми умениями и навыками. Также широко отмечается роль великого лидера Гейдара Алиева в целесообразном решении проблем науки и образования в Азербайджане.*

На сегодняшний день научные разработки становятся главной движущей силой экономики — базой индустрии знаний. Наиболее ценными качествами являются уровень образования, профессионализм, обучаемость и творческий подход работника, который при современных условиях являются незаменимым атрибутом в мировом сообществе.

Образование — самое великое благо для человека. Без образования люди были и грубы, и бедны, и несчастны. Отечественное образование, в том числе профессиональное, претерпело значительные изменения, но и сегодня оно не утратило своей социальной значимости. Конечно, современная система образования далека от совершенства. И, несмотря на те преобразования, которые происходят в этой области, остается еще много проблем. Одной из самых актуальных в системе высшего профессионального образования является «защита» профессий от случайных людей. Речь здесь идет, конечно же, о тех видах профессиональной деятельности, где объектом этой деятельности выступает человек. Приоритетные сферы, которым необходима такая «защита» – медицина, педагогика, юриспруденция.

В Азербайджане такая «защита» приняла более актуальные масштабы после приобретения государственной независимости, являющейся важным историческим достижением. С июня 1993 г., со вторичного прихода Гейдара Алиева к политической власти, государственные власти стали проявлять должное внимание и заботу к молодым, которая стала самой важной приоритетной деятельностью политики государства.

Еще в период существования СССР общенациональный лидер, будучи руководителем Азербайджанской ССР, всегда думал о будущности Азербайджана, учитывая его нужду в высококвалифицированных офицерских кадрах, последовательно осуществлял обдуманные мероприятия. Так, в 1972 г. непосредственно по его инициативе в Баку было открыто специализированное военное училище имени Джамшида Нахчыванского, которое сыграло огромную роль в создании и формировании национальной армии Азербайджана.

Специально подчеркивая важность образования и науки, Гейдар Алиев наставлял, что важной задачей нашей молодежи является получение образования, отвечающего самым высоким требованиям современности. Он всегда высоко ценил науку и ученых. Это связано с тем, что сам великий лидер обладал научным мышлением, всегда строил свою деятельность на основе научных принципов, опирался на интеллектуальный потенциал.

Наука – особый компонент культуры, и ее основной целью и задачей является получение объективно истинного знания о мире. Полагается, что наука обладает необходимыми средствами и методами для добывания такого знания, и существуют вполне надежные критерии его проверки на адекватность действительности. При этом считается, что необходимым условием выполнения наукой ее основной функции в культуре выступают ее беспристрастность, неангажированность и свобода от ценностных установок [1].

Образование — процесс или продукт «формирования ума, характера и физических способностей личности». В техническом смысле образование — это процесс, посредством

которого общество через школы, колледжи, университеты и другие институты целенаправленно передаёт своё культурное наследие — накопленное знание, ценности и навыки — от одного поколения к другому (между поколениями) [2].

Гейдар Алиев всегда проявлял заботу о развитии науки и образования, в первую очередь думал об интеллектуальном будущем своего народа. Он отмечал, что в любой стране интеллектуальная база является одним из важных факторов, составляющих основу государственной независимости. Особенно внимание он уделял развитию профессионального образования.

Профессиональное образование выступает базисом социально-экономического развития общества, основа научно-технического прогресса, многих сфер жизнедеятельности государства, средство формирования, развития и самоутверждения личности.

Сегодня прием на обучение по программам бакалавриата и программам специалитета в соответствующие вузы осуществляется на основании результатов государственного экзамена. Кроме того, организацией высшего образования самостоятельно проводятся и дополнительные вступительные испытания профильной, творческой и (или) профессиональной направленности. Введение дополнительных испытаний, предлагаемых абитуриентам, совершенно справедливо. Ведь существуют профессии, которые требуют от поступающих уже на стартовой площадке не только знаний, но и определенных умений и навыков, наличие или отсутствие которых и позволяют выявить дополнительные экзамены.

Однако следует отметить, что для ряда профессий необходим еще один критерий – степень готовности человека посвятить себя данной профессии. В связи с этим кажется актуальным вопрос о введении для отдельных специальностей обязательной довузовской практики. Это позволит молодым людям проверить себя, убедиться в правильности такого выбора, избежать возможной ошибки.

Это дает возможность молодым людям окунуться в профессию, увидеть себя в ней, понять: «мое!» или «не мое!» и принять правильное решение еще до того, как будут напрасно потрачены силы, здоровье, время, деньги и занято чужое место. Такой подход обеспечивает, прежде всего, высокое качество специалиста, ведь попадание в эту профессию «случайных» людей сводится к минимуму. Те же, кто прошел такую школу и выдержал первые испытания профессией, скорей всего, станут специалистами высокого класса.

Сегодня же, к нашему всеобщему сожалению, в профессии (за исключением тех, где имеет место действительно строгий отбор) часто оказываются «мимо проходящие». А потому и констатируем факт низкого качества, выпускаемых профессиональными учебными заведениями, специалистов. Безусловно, что высокий профессионализм обеспечивается рядом факторов. Но нельзя не принимать во внимание и особый отбор поступающих в профессиональные учебные заведения, специфику условий их приема и прежде всего на предмет соответствия моральных качеств абитуриента выбранной им профессии.

Проблемы развития современной системы образования связываются с его гуманизацией, гуманитаризацией и интернационализацией. Гуманизация образования предполагает направление большего внимания интересам, запросам личности, ее нравственному развитию; гуманитаризация означает акцентирование внимания на изучении общественных дисциплин; интернационализация образования ведет к созданию единой системы образования для различных стран.

Получение образования является наиболее важным элементом, уровень которого можно определить при помощи индекса человеческого развития. Индекс человеческого развития — это совокупный показатель уровня развития человека в стране, поэтому иногда его используют в качестве синонима таких понятий как «качество жизни» или «уровень жизни». Этот индекс колеблется в диапазоне от 0 до 1. В Азербайджане этот индекс составляет 0, 751, т.е. по рейтинговым подсчётам наша страна стоит на 77 месте из числа 188 стран.

Согласно мировому опыту, доля научных расходов в ВВП должна быть не менее 3 %. В нашей стране эта доля имела тенденцию к уменьшению и составила в Азербайджане в

2014 г. 0,2 %. Для сравнения укажем, что в Великобритании и Франции уровень затрат на науку по отношению к ВВП составляет более 2 %, а в США и Германии – около 3 %.

Удельный вес расходов на образование в республике в 2016 г. в ВВП составил 3,3 %, уменьшившись по сравнению с 2000г. на 0,6 процентных пункта. Это намного, особенно если брать абсолютные показатели, меньше, чем в странах ОЭСР. В то же время мировой опыт свидетельствует, что удельный вес расходов на образование в ВВП – 5 % − является порогом эффективности, который позволяет обеспечивать экономический рост на инновационной основе.

В частности, распоряжением Президента Азербайджана была утверждена «Государственная Программа по реализации национальной стратегии развития науки в Азербайджанской Республике на 2009−2015 гг.» Стратегия была подготовлена с целью определения структуры научных учреждений в Азербайджане, проведения и финансирования исследований на уровне современных стандартов, повышения потенциала научных кадров страны и усиления его социальной защиты, интеграции азербайджанской науки в международное научное пространство, в целом с целью развития науки.

За время правления Гейдара Алиева в Азербайджане были достигнуты значительные успехи в привлечении учеников к учебе и в развитии материально-технической базы учебных заведений. Начиная с этого периода и продолжая по сей день особое внимание уделялось составлению учебников. В этот период произошли положительные изменения в развитии высшего образования и науки. Финансовые средства, выделяемые на развитие науки и просвещения в республике, увеличились, хотя по моему мнению их было недостаточно, особенно для развития науки. Также для проведения исследовательских работ как тогда, так и на сегодняшний день не хватало современного оборудования и аппаратов. Особое внимание должно уделяться изучению истории, литературы и искусства, т.к. в особенности эти науки способствуют процветанию культурного народа, что сейчас и не совсем скажешь, судя по современному обществу.

Специалисты, подготовленные в вузах республики, всегда играли значительную роль в развитии различных направлений науки, лишь по этой простой причине нужно уделять особое внимание в выборе молодежи своей будущей профессии. Ведь не даром великим лидером Гейдаром Алиевым был заложен фундамент молодежной политики, успешно осуществляемой сегодня в Азербайджане. Построение государственной молодежной политики в соответствии с современными требованиями создало благоприятные условия для достижения молодежью успешных результатов, в том числе, и в области образования и науки.

Таким образом, в работе рассматривается лишь малая доля проблем развития науки и образования, но на сегодняшний день, не смотря на проведения государственной политики с целью улучшения данных сфер, остаются и нерешенные проблемы. Такие проблемы встречаются не только в нашей стране, они везде, но цель как Азербайджана, так и других стран – ликвидировать и решить основную массу таких проблем.

**Ключевые слова:** Гейдар Алиев, наука, образование, профессиональное образование.

**Список использованной литературы:**

1. Мамчур Е.А. Образы науки в современной культуре. М., 2008. С. 3.
2. Алиев Б.Х., Джаббаров Р.В. Проблема личности в образовании Баку 2008
3. Кравченко Ю.П. Экологические проблемы как отдаленные следствия становления науки Нового времени // Философия и культура. – 2013. – №3. – С.279- 288. 2
4. Гейдар Алиев и молодежь независимого Азербайджана. – Баку, 2003.

**Səadət Quliyeva**

## AZƏRBAYCAN RESPUBLİKASINDA ELM VƏ TƏHSİLİN BƏZİ PROBLEMLƏRİ

**Xülasə**

Məqalədə müasir Azərbaycan cəmiyyətində elm və təhsilin inkişafı ilə bağlı bəzi problemlər müzakirə olunur. Bu sahələr Azərbaycanın siyasi və iqtisadi nüfuzunun mənəvi əsaslarını gücləndirə bilər. Məktəb, lazımi bacarıqları olan səmərəli idarəçilərin hazırlanmasında mühüm addımdır. Azərbaycanda ulu öndər Heydər Əliyevin elm və təhsil problemlərinin məqbul həllində rolu da geniş şəkildə qeyd olunur.

**Açar sözlər:** Heydər Əliyev, elm, təhsil, peşə təhsili.

**Saadet Guliyeva**

## SOME PROBLEMS OF SCIENCE AND EDUCATION IN AZERBAIJAN

**Summary**

The article discusses some problems of the development of science and education in modern Azerbaijani society. This areas can strengthen then the moral foundations of their political and economic influence in Azerbaijan. The school was an important step in the preparation of efficient execitives who possess the necessary skills. The role of the great leader H.Aliyev in the expedient solution of the problems of science and education in Azerbaijan is also widely noted.

**Key words:** Heydar Aliyev, science, education, professional education.

**UOT-338.48**

**Tahir Baxşəliyev**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, müəllim**
**Pərvin Məmmədova**
**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, müəllim**

# TURİZMIN İNKİŞAFI VƏ ONUN İDARƏETMƏ SİSTEMİNİN İNFORMASİYA MODELİNDƏ UÇOTUN ROLU

*Turizm bazarının mahiyyəti, konseptual inkişaf istiqaməti olaraq prioritetliyi, turizm müəssisələrinin idarəetmə sistemində informasiya modeli, turizmin idarəetmə sistemində mühasibat uçotunun yerinə yetirdiyi funksiyalar, gəlir və xərclərin uçotu məsələləri işıqlandırılmışdır.*

*Turizmdə idarəetmə əməliyyatlarının icrasında iqtisadi subyektin hər bir təsərrüfat obyekti üzrə miqdar göstəricilərini və keyfiyyət xarakteristikasının uçotda əks olunmasını təmin etmək mühasibat uçotunun birinci vəzifəsidir. Həqiqi informasiya modelinin tərtibi uçotun əsas şərtidir. Məhz buna görə də hər bir uçota alınan obyektin əsas iqtisadi göstəricilərinin əks olunması çox vacibdir.*

Turizmə sosial – iqtisadi inkişaf amili kimi baxılması perspektiv inkişaf strategiyasını, dünya turizm potensialının formalaşmasının inteqrasiya amili kimi onun qəbul edilməsi, həmçinin konkret olaraq Azərbaycan Respublikasının iqtisadi və maliyyə resurslarının daha səmərəli istiqamətlərdə istifadə edilməsi zəruriyyətini yaradır. Azərbaycanın konseptual inkişaf istiqamətləri olaraq turizm dövriyyəsinə cəlb edilən resursların artırılması, turizm potensialına ayrılan vəsaitlər hesabına turizm bazarının iqtisadi artımda rolunu artırmaq məqsədi güdülür.

Turistlərə xidmət göstərən təşkilatlar da kommersiya və qeyri-kommersiya təşkilatları kimi əsas fəaliyyət növünə görə bir neçə qrupa ayırmaq olar: turagentlər, turoperatorlar, turizm sənayesi firmaları və turizm birlikləri.

Turizm haqqında Azərbaycan Respublikası Qanununun 8-ci maddəsində turizm məhsulunun formalaşdırılması və hərəkətə gətirilməsi göstərilmişdir.

Turizm məhsulu turizm bazarının vəziyyəti ilə əlaqədar olaraq və yaxud da turistin konkret sifarişi üzrə formalaşdırılır.

Turoperator ayrı-ayrı xidmətlər göstərən və yaxud tura daxil olan bütün xidmət növlərini təmin edən turist qəbulu üzrə turoperatorla müqavilələr əsasında tura daxil olan xidmətlər üzərində hüquqlara malik olur.

Turoperator turizm məhsulunu formalaşdırır (hazırlayır), göndərir və onun satışını birbaşa və ya turagent vasitəsilə həyata keçirir. [1]

Turoperatorlar və turagentlər özlərinin sahibkarlıq fəaliyyətinin əlaqələndirilməsi, həmçinin ümumi əmlak maraqlarının təmsili və müdafiəsi məqsədilə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada birliklər yarada bilərlər. Turizm birliklərinə turizm sahəsinə aid olan təşkilatlar və müəssisələr daxil ola bilərlər.

Turistlər, səyahət vaxtı istirahət, hərəkət-yerdəyişmə azadlığı hüquqlarını və başqa hüquqlarını həyata keçirmək məqsədilə maraq birliyi əsasında Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada ictimai birliklər yarada bilərlər.

Turistlərin birliyinin fəaliyyəti turizmin və özfəaliyyət turizminin təşkilinə və inkişafına, əhalinin turizm sahəsində maarifləndirilməsi, turistlərin hüquq və marağının müdafiəsi, turizmin infrastrukturu sahəsində təşkilatların fəaliyyəti barədə ictimai rəyin formalaşdırılması və digər vəzifələrin həllinə kömək etməyə yönəldilə bilər.

Turizm sahəsində müvafiq icra hakimiyyəti orqanı turistlərin getdikləri ölkədə (müvəqqəti olacaqları yerdə) onların həyatını təhlükə altında qoya biləcək hər bir amil haqqında turoperatorlara, turagentlərə və turistlərə məlumat və təlimat verir.

Turoperatorlar və turagentlər turistlərə səyahətlərin xüsusiyyətləri, habelə səyahət zamanı onların rast gələ biləcəkləri təhlükələr barədə müfəssəl məlumat verməyə qabaqcadan turistlərin

təhlükəsizliyinin təmin edilməsinə yönəldilmiş tədbirlər görməyə borcludurlar.

Turoperatorlar və turagentlər səyahət zamanı turistlərin qatlaşdığı (üzləşdiyi) fövqəladə hadisələr, həmçinin səyahətdən qayıtmamış turistlər barədə müvafiq icra hakimiyyəti orqanına və turizm fəaliyyəti ilə bilavasitə bağlı olan şəxslərə təxirə salmadan məlumat verməlidirlər.

Turoperator — lisenziya əsasında turizm məhsulu formalaşdırıb, onu istehlakçıya (turistə) doğru hərəkət etdirib, reallaşdıran hüquqi şəxs və ya fərdi biznesmen formasında bir sahibkardır. Turizm məhsulunun formalaşdırılması adı altında turizm səfərini (turu) əhatə edən, qiymətinə və keyfiyyətinə görə bir-biri ilə uzlaşan məcmu xidmətlərin sırası ilə tərtib olunmasını başa düşmək olar. Onun hərəkət etdirilməsi isə potensial istehlakçıların bu məhsulu əldə etməsi üçün həvəsləndirilməsi, bunun üçün müxtəlif tədbirlərin (sərgi, yarmarka, turizm-informasiya mərkəzlərinin yaradılması və s.) və işlərin görülməsi (reklamların, bukletlərin, internet saytlarının hazırlanması və s.) başa düşülür. Turizm məhsulunun reallaşdırılması isə turoperator tərəfindən birbaşa və yə turagent tərəfindən həyata keçirilir. Turizm bazarının subyekti kimi turagentin funksiyaları turoperatorla turizm məhsulunun formalaşdırılmasından başqa demək olar ki, üst-üstə düşür. [2]

Burada məhz turoperator aparıcı rola malik olub, turizm sənayesinin xidmətlərini alıb, müəyyən məzmunlu (rekreasiya, işgüzar, dini, əyləncə, macəra, tanışlıq və s.) turlar formalaşdırır.

Turizm potensialına turizm məqsədi ilə cəlb oluna bilən təbii-coğrafi resurslar, kapital qoyuluşları, əhalinin turizm tələbatını ödəmək üçün əmtəə və xidmət dövriyyəsinə cəlb etdiyi resurslar, həmçinin xarici və daxili turistlərin istifadə etdiyi resurslar daxildir. İlkin göstərici kimi turist tələbatını il ərzində ölkəyə gələn və ölkədən gedən turistlərin sayı, onları turizm məhsulunun mənimsənilməsində çəkdiyi xərclər və həmçinin turizmin iqtisadi sahə kimi fəaliyyəti nəticəsində əldə etdiyi xalis gəlir təşkil edir.

Turizm fəaliyyəti mürəkkəb sahələrarası və sahə daxili problemlər ilə sıx əlaqəli olduğu üçün, onun səmərəsi həm bu sahənin fəaliyyətindən, həmçinin onun təşkili üçün bir sıra xarici amillərin qiymətləndirilməsindən asılıdır. İlkin növbədə turizm tələbatının artması onun ölkənin ümumdaxili məhsulunun istehsalında xüsusi çəkisinin, turizm sahəsində məşğul olanların sayı və əmtəə xidməti bazarında turizm məhsullarının rolu, xüsusi çəkisi, kompleks təhlili və qiymətləndirilməsi ilə baş verir.

Turizm bazarının qiymətləndirilməsi sistemli təhlil və proqnozlaşdırma prinsiplərinə əsaslanır. Belə ki, turizmin inkişafı üçün zəruri olan və istifadə olunan potensial, onun səmərəsi və həmçinin turizm sahəsinin özünün "xalis sahə" kimi iqtisadi fəaliyyəti və onun nəticələrinin bazar tipli göstəriciləri əldə olunan nəticələri qiymətləndirilir.

Turizm bazarının qiymətləndirilməsi ümumiləşmiş meyar və göstəricilərlə yanaşı, xüsusi meyar və göstəricilərlə də mümkün olur. Ümumiləşmiş qiymətləndirmədə turizm məhsulunun bütövlükdə dünya turizm məhsulları içərisində xüsusi çəkisi, Azərbaycanda turizm dövriyyəsinin dünya turizm dövriyyəsində xüsusi çəkisi və adambaşına düşən turist məhsulunun bir sıra ölkələrlə müqayisədə həcmi götürülür. Belə ki, Azərbaycanda turizm potensialı ilə turizm istehlakı arasında ciddi fərqlər mövcuddur. Əhalinin sayına görə adambaşına düşən turizm məhsulunun miqdarı turizmin inkişaf etdiyi ölkələrlə müqayisədə xeyli geri qalır. Ümumi daxili məhsulun əsas aparıcı amili olan təbii resurslar: torpaq, su və əhalinin sayının çox olmasına baxmayaraq ümumi daxili məhsulda onun xüsusi çəkisi 1%-ə çatmır.

Turizm bazarının mahiyyətini təkcə turizm məhsulu və onun istifadəçiləri ilə məhdudlaşdırsaq metodoloji baxımdan səhv etmiş olarıq. Ona görə də turizm bazarına əmək bazarı, məşğulluq fəaliyyəti, əmtəə və xidmət bazarı, həmçinin maliyyə resursları, valyuta və sənaye məhsulları bazarının məcmusu kimi baxırıq. Turizm bazarının dövriyyə potensialı daha geniş sahələri əhatə edir. Bu baxımdan turizm bazarının əhatə dairəsi onu formalaşdıran və istifadəsi nəticəsində əldə olunan göstəricilərlə kompleks ifadə olunur. Turizmin prioritet istiqamət olaraq perspektiv qiymətləndirilməsi gələn və gedən turistlərin sayı ilə ölçülür. Turizmin inkişafında xarici ölkə vətəndaşlarının respublika ərazisinə səfərlərini stimullaşdırmaq daha əlverişli istiqamət olaraq qəbul olunur.

Turizmin Azərbaycan Respublikasının konseptual inkişaf istiqaməti olaraq prioritetliyi, onun investisiya obyekti olaraq qəbul edilməsi və Azərbaycanda investisiya mənbələrinin birbaşa bu

səviyyə və bu sahə ilə bağlı digər sahələrə cəlb edilməsi imkanları və münasibliyi ilə izah olunur. Azərbaycanın coğrafi-iqtisadi mövqeyi, bir sıra beynəlxalq layihələrdə iştirak etməsi və bir sıra ölkələrin tranzit xidməti kimi Azərbaycanın imkanlarından istifadə etməsi respublikada turizmin iqtisadi və inteqrasiya sistemində rolunu artırır.

Turizm artıq dünya investisiyasının tətbiqi üçün ən gəlirli sahə kimi qəbul edilir. Bir sıra ixtisaslaşmış şirkətlər öz təcrübəsini qiymətləndirir ki, Azərbaycan turizminin əhəmiyyətini, onun iqtisadi dəyərini qiymətləndirib kapital axınına üstünlük verirlər. Həmçinin Azərbaycanda digər ofşor sahələrin və infrastruktur obyektlərin: nəqliyyat, hava limanlarının, gəmiçilik resurslarının, həmçinin mehmanxana təsərrüfatının artımını və bu sahələrdə kapital qoyuluşunu, həm xarici, həm də daxili investorların seçimini artırır.

Turizm sahəsi sosial yönlü fəallığına və sosial məqsədinə görə digər sahələrdən fərqlidir. Turizm sferası əmək prosesi kimi qarışıq fəaliyyət dairəsi olub, onun məhsulunun xarakterinin, tələbatının öyrənilməsində kompleks şərait yaratdığına görə, onun planlaşması bazar tipli seqmentləşmə və istehlak tələbatının ödənilməsində rolu ilə qiymətləndirilir. Sosial tələbat və əməyinin xarakterinə görə sosial sferada ixtisaslaşmış əmək növü ilə yanaşı, milli sənət nümunələri istehsal edə bilən və ənənəvi ərzaq məhsulları yarada bilən əhalinin məşğulluğu ilə fərqlənir.

Sosial yönlülük, sosial siyasətin formalaşması regionlarda əhalinin məskunlaşması məqsədi ilə turizm sahəsi aparıcı iqtisadi proses kimi ayrı-ayrı kateqoriyalı insanların işlə təmin olunmasına, bazara məhsul çıxarmasına şərait yaradır. Regionların yerli idarəetmə və sosial yönlü fəaliyyətini tənzimləmək üçün bələdiyyə, əhali və dövlət əmlakını, maliyyə resurslarını turizm dövriyyəsinə cəlb etmək üçün müəyyən vəzifə bölgüsü, öhdəliklər və səlahiyyətlər müəyyənləşir.

Turizmə ayrılan birbaşa vəsaitlər və digər sahələrin resurslarının turizm məqsədi ilə haqqı ödənməklə, yaxud kredit kimi istifadə edilməklə turizm dövriyyəsinə cəlb olunan potensialı artırır. Turizmin sahələrarası xarakter daşıması onun hər bir sahə üzrə konkret fəaliyyət mexanizmini müəyyənləşdirir. Hər bir regionun kənd təsərrüfatı məhsulları, ərzaq ehtiyatları mülkiyyət formasından asılı olmayaraq turizm bazarına çıxarılıb, respublikaya gələn turistlərin ərzaq tələbatını ödəməyə yönəldilə bilər. Ərzaq bazarında ən vacib məhsulların istehsalı daxili bazar və xarici turistlərin gündəlik istehlakı və ölkəsinə qayıtdıqda alıb apardığı məhsulun hesabına artırılır. Turistlərə xidmət göstərilən regionlarda daha çox ictimai iaşə, fərdi mənzil tikintisi, səhiyyə xidməti və əyləncə mərkəzlərinin artmasına səbəb olur. Turizm bazarının yerləşməsi və məhsuldar qüvvə kimi çoxlu müştəri cəlb edilməsi, təbii sərvət olan: iqlim, təbii şərait və həmçinin müalicə üçün lazım olan mineral sular, müalicəvi palçıqlar, daş duz və digər mineralların turizm dövriyyəsinə cəlb edilməsi ilə həmin regionun inkişafına nail olmaq olar.

Əhalinin gəlirləri turizmin regionda inkişafı ilə sıx bağlıdır. Belə ki, əmək haqqı gəlirləri, pullu xidmət və həmçinin əmtəə və xidmət bazarında sahibkarlıq və fərdi istehsal məhsullarının satışından gələn gəlirlər daha çox təşkil edir. Turizm və sahibkarlıq, turizm və biznes fəaliyyəti, həmçinin turizm və əmək bazarı arasında əlaqələrin olması və əlaqələrin kommersiya əsasları üzərində qurulması turizmin inkişafına stimul yaradır. Turizm həm kapital, əmək tutumlu sahə kimi məşğulluğun səviyyəsini və əmtəə, xidmət bazarında tədiyyə qabiliyyətini artırır. Turizmin regional inkişaf modeli hər bir regionun özünün təbii sərvətləri, onların istifadə dövriyyəsinin xarakteri ilə müəyyənləşir. Belə ki, Azərbaycan regionlarında mineral su ehtiyatları, kurort və sanatoriya müalicəsi üçün turizmin inkişafına şərait yaradır. Turizmin inkişafının regionlarda sürətlənməsi həmin regionların ucuz təbii resursları və iqlim hava şəraiti ilə yanaşı sosial problemlərin həlli kənd əhalisinin məskunlaşması və indiki cəbhə boyu regionlarda əhalinin iş və yaşayış şəraitinin həmçinin beynəlxalq turistlərin axını ilə respublikanın avropa ölkələrinə inteqrasiyasına daxil olmasını sürətləndirməkdir. Turizmin inkişafı respublika daxili problemlərin və region şəraitinin xarici turistlərin zövqünə və tələbinə uyğun transformasiyası, onların kapital qoyuluşuna şərait yaradılması müəyyən iqtisadi idarəetmə və daxili maliyyə büdcə mexanizmlərini təkmilləşdirir. Azərbaycan beynəlxalq turizm xartiyalarına qoşulur. Dünya turizm təşkilatlarına, Avropa turizm birliklərinə daxil olmaq üçün müəyyən standartlara uyğun transformasiya etmək zəruriyyəti meydana çıxır.

Turizmin respublikada inkişafı republikadaxili struktur siyasətinin vergi və həmçinin

maliyyə mexanizmləri sisteminin təkmilləşməsi ilə ölçülür. Belə ki, Beynəlxalq maliyyə korporasiyalarının və sairələrinin turizm sahəsinə cəlb edilməsi, həmçinin turizm infrastrukturu sahələrinin inkişafı üçün əlavə vəsaitlərin ayrılması, turizmin beynəlxalq rolunu artırır. Artıq Azərbaycanda neft gəlirlərinin artması ilə turizmin inkişafına yönəldilən investisiyanın artması, sahibkarlığın turizmdə inkişafı üçün müəyyən güzəştlər və stimullar sisteminin yaradılması yolu ilə turizm və onunla bağlı sahələrin kapital qoyuluşuna şərait yaradılır. Azərbaycan Respublikasında maliyyə ehtiyatlarının artımı, Neft Fondunun investisiya məqsədi ilə istifadəsində turizmin səmərəli sahə kimi rolunu artırır. Azərbaycanda turizmin inkişafı dünya turizminin tərkib hissəsi kimi sosial-iqtisadi əhəmiyyət kəsb edir.

Respublikamızda regional turizmin inkişafında əhəmiyyətli inkişaf strategiyasına malik olan Nabran, Altıağac, Quba, Abşeron və Şamaxı rayonlarına xüsusi diqqət yetirmək məqsədəuyğundur. Bu rayonlar ilk növbədə beynəlxalq səviyyəni mənimsəyən və turizmdə xidmətlərin yüksək olmasına görə seçilən rayonlardır. Qeyd edək ki, yaxın gələcəkdə Altıağac regionu bazasında Beynəlxalq Turizm Mərkəzinin yaradılması nəzərdə tutulur. Perspektiv dövr üçün hər bir regionda turizmin inkişafı üçün geniş imkanlar və şərait mövcuddur. [5]

Turizmdə əsas yüklənmə iri sənaye komplekslərinə yaxın olan rayonlarda baş verir. Belə rayonlardan Abşeronu və Nabranı misal gətirmək olar. Qaçqınlar istisna olmaqla, bu rayonların əhalisi 2,5 milyon nəfərdir. Bu iqtisadi regionlarda nəzərdə tutulmuş turizm və sosial-mədəni servis xidmətləri artıq təkmilləşdirilib. Abşeron iqtisadi rayonunun əhalisi üçün Altıağac, Quba və Şamaxı rayonlarında turizm xidmətlərindən istifadə etmək nəzərdə tutulmuşdur. Burada dağ landşaftında istirahətin müxtəlif növlərindən istifadə etmək mümkündür.

Turizmin sosial-iqtisadi inkişafı, onun proqnozlaşdırılması və uyğun olaraq ərazi, sahələr üzrə yerləşməsi və təşkili bazar tipli transformasiya modelinə uyğun aparılır. Sistem modellər kimi turizmin inkişafı makroiqtisadi problem olmaqla sosial-iqtisadi mahiyyətinə və inkişaf meyllərinə görə konkret tədbirlər və proqamlar üzrə həyata keçirilir. Turizm proqramı təşkilati-iqtisadi tədbirlərin sistem bağlılığı olub, azad rəqabət, açıq iqtisadi model olaraq iştirak payına görə haqq almaq və birgə idarəetmə orqanları yaratmaqla, ayrı-ayrı sahələr və regionlar üzrə ixtisaslaşır.

Turizmin inkişafında kompleks sahələrin vəhdəti və bir-birini təsərrüfat obyekti kimi tamamlaması və sahədaxili altsistemlərin ümumi ərazi planlaşması və idarə olunması ilə uzlaşması tam səmərəni artırmağa şərait yaradır. Regionun kompleks inkişaf proqramları, perspektiv bazar və sahibkarlıq obyekti olaraq turizmin inkişafı layihələrinin iqtisadi səmərəsini artırır. Turizmin xalis təsərrüfat sahəsi kimi yox, sahələrarası kompleks və sosial-iqtisadi fəaliyyətin məcmusu kimi baxmaqla iqtisadi islahatlar və perspektiv inkişafın əsas istiqaməti kimi qiymətləndirilir. Belə ki, turizm obyekti olaraq sahibkarlıq və regional inkişaf vəhdətdə maraqlar baxımından həll olunur.

Turizm mikro və makro səviyyələrdə gəlirlərin mənbəyi kimi insanların, və bütöv bir cəmiyyətin maraqlarını ifadə edən vasitə hesab edilir. Turizm ölkədə infrastrukturun, yerli sənayenin və xalq yaradıcılıq nümunələrinin yüksək səviyyədə inkişaf etdirilməsinə şərait yaradır, hotellərin inşasının sürətlənməsi ilə əlaqədar olaraq əlavə iş yerlərinin açılmasında, bu sahə əməktutumlu fəaliyyət növü hesab edilir. 2020-ci il üçün olan Ümumdünya Turizm Təşkilatının verdiyi proqnozlarına əsasən turistlərin sayı 1,6 milyard nəfərə çatacaq, gəlirlər isə 2 trilyon dollar təşkil edəcəkdir. Ölkənin ÜDM-nin reallaşmasında, xarici ticarət balansının aktivləşdirilməsində turizm mühüm əhəmiyyət kəsb edir. Lakin turizm sosial–iqtisadi inkişafın özünəməxsus katalizatoru kimi çıxış edərək, ölkə iqtisadiyyatının hakim mövqelərində əhaliyə istehlak mallarının istehsalı ilə məşğul olan sahələrə, kənd təsərrüfatı, nəqliyyat və rabitə, tikinti və s. sahələrə güclü təsir göstərir.

Lakin qeyd edilənlərlə yanaşı turizm mühasibat uçotu əmək, material və maliyyə ehtiyatlarının müəyyən olunmuş və təsdiqlənmiş normalara və smetalara müvafiq olaraq istifadəsi, əmlakın mövcudluğu və hərəkəti, maliyyə-təsərrüfat fəaliyyətindəki nöqsanların qarşısını almalı, mülkiyyət hüququ və öhdəçiliklərin üzərində nəzarəti tam təmin etməli və təsərrüfatdaxili ehtiyatları aşkara çıxarmalı və onları səfərbər etməlidir.

Təsərrüfat subyektlərinin iqtisadi fəaliyyətinin nəticəsi məhz turizm müəssisələrində mühasibat uçotunun yaranması ilə bilavasitə bağlıdır. Lakin təsərrüfat subyekti fəaliyyətinin

idarə olunması ilə, həmçinin onun iqtisadi inkişafı qanunauyğunluğunu bilməklə, onun malik olduğu səviyyəni qiymətləndirmək mümkündür.

Turizm müəssisələrin idarəetmə sistemində informasiya modeli yaradır ki, bu da turizm müəssisələrinin idarəetmə sistemində xüsusi əhəmiyyətə malikdir. Məhz bu model icra olunmuş təsərrüfat-maliyyə əməliyyatlarının sənədləşdirilməsi, uçota alınması, ölçü vahidləri üzrə toplanması əsasında faktiki əhəmiyyətə malik olur. Belə bir nəticəyə gəlinir ki, turizmdə idarəetmə əməliyyatlarının icrasında iqtisadi subyektin hər bir təsərrüfat obyekti üzrə miqdar göstəricilərini və keyfiyyət xarakteristikasının uçotda əks olunmasını təmin etmək mühasibat uçotunun birinci vəzifəsidir. Həqiqi informasiya modelinin tərtibi uçotun əsas şərtidir. Hər hansı bir obyektinin bütün uçot göstəricilərini əks etdirmək heç də sadə əməliyyat hesab edilmir. Məhz buna görə də hər bir uçota alınan obyektin əsas iqtisadi göstəricilərinin əks olunması çox vacibdir. Uçot zamanı birinci vəzifə həyata keçərkən təsərrüfat obyektinin iqtisadi subyekti ilə təsərrüfat fəaliyyətində rolu və iqtisadi subyekti uçotdakı yeri təyin edilməlidir.

Qeyd edilən faktlarla bağlı olaraq turizmdə, müəssisə təsərrüfat fəaliyyətində faktiki olaraq icra olunmuş əməliyyatlara dair tam həcmdə informasiyaların idarəetmə üçün hazırlanması mühasibat uçotunun birinci vəzifəsidir. Uçotda qeyd edilmiş informasiyaları elə tərtib etmək lazımdır ki, müəssisə təsərrüfat fəaliyyətinə dair etibarlı keyfiyyət göstəriciləri, miqdar göstəriciləri məlumatlar əsasında təyin etmək mümkün olsun.

Turizmdə idarəetmə əməliyyatındakı mühasibat uçotunun ikinci vəzifəsi isə idarəetmə obyektləri üzərində nəzarəti tam formada təşkil etməkdir. İkinci vəzifənin yerinə yetirilməsində təsərrüfat uçotu aşağıda qeyd olunanların icrasını təmin etməlidir:

- icra olunmuş təsərrüfat əməliyyatlarının iqtisadi cəhətdən faydalı olması;
- təsərrüfat əməliyyatının hüquqi cəhətdən əsaslandırılması;
- müəssisə əmlakının qorunub saxlanması;
- etibarlı və düzgün uçot informasiyalarının hazırlanması;
- müəssisə tabeçiliyində fəaliyyət göstərən bütün obyektlərin təsərrüfat fəaliyyətləri göstəricilərinin vahid uçot sistemi kimi əks olunması.

Uçotun üçüncü vəzifəsi istehsal əməliyyatlarının yaxşılaşdırılması və təşkili sisteminin daha da yüksəlməsinə imkanların artırılmasıdır. Nəzərə almaq lazımdır ki, turizmdə mühasibat uçotunun özünün analitik təhlilləri operativ əməliyyat xarakteri ilə əlaqədar olaraq bütün təsərrüfat fəaliyyətinə müəssisə təsərrüfat əməliyyatlarının uçotu təsir edir. Analitik uçot əməliyyatlarının icrası ilə təsərrüfat uçotu turizm müəssisənin bütün təsərrüfat fəaliyyətinə dair ətraflı və etibarlı informasiyalar hazırlayır və həmin informasiyalar idarəetmədə mühüm göstərici olaraq faydalı nəticələr əldə etməyə şərait yaradır. Operativ (əməliyyat) uçotunun vasitəsilə turizm müəssisə rəhbərliyinə müsbət göstəricilərin artırılması ilə əlaqədar olaraq baş vermiş nöqsan və çatışmamazlıqların aradan qaldırılması və həmçinin müəssisə üçün vacib olan informasiyalar təqdim edir. Uçotun dördüncü vəzifəsinin icrası ilə idarəetmə əməliyyatları ilə əlaqədar olan informasiyaları müxtəlif maraqlı şəxslər üçün hazırlayır və onların istifadəsi üçün təqdim edir.

Etibarlı və geniş məzmunda aydınlıq formasında hazırlanmış uçot informasiyaları turizmdə müəssisə səhmdarlara, sahibkarlara şərait yaradır ki, onları maraqlandıqları problemlər üzrə lazımi qərarlar qəbul etsinlər və işçi heyətini maraqlandıran mövzular barəsində ətraflı məlumat əldə etmək üçün şərait yaradır. Beləliklə, turizm müəssisələrində mühasibat uçotu fəaliyyətinin mühüm idarəetmə göstəricisi olmaqla, bütün təsərrüfat fəaliyyətinin natural göstəricilər əsasında pul ifadəsində, fasiləsiz, başdan-başa sənədləşdirilmiş formada əks olunmasını təmin edir.

Turizmin idarəetmə sistemində mühasibat uçotunun yerinə yetirdiyi vəzifələrdən ən əhəmiyyətlisi nəzarət funksiyasıdır. Mühasibat uçotunun nəzarət funksiyası və onun formaları, metodları, idarəetmənin təkmilləşdirilməsi dövriyyədə müxtəlif mülkiyyət formalarının yaranması ilə və bazar münasibətlərinin formalaşması nəticəsində xarici ölkələrin təcrübələrindən istifadə edilməsi nəticəsində daha da genişlənir və möhkəmlənir. [3]

Turizm müəssisələrində kifayət qədər yaxşı təşkil olunmuş mühasibat uçotu informasiyası müəssisə və şirkətlərin istehsal əməliyyatlarının müxtəlif mərhələlərinə nəzarəti yerinə yetirməklə, müəssisənin və onun digər bölmələrinin yerinə yetirdiyi bütün əməliyyatlara nəzarət etməyi, bu

informasiya əsasında müxtəlif idarəetmə mərhələlərində idarəetmə qərarlarını əsaslandırmaq və qəbul etmək üçün və onu təhlil etməyə imkan verir.

Turist fəaliyyəti ilə məşğul olan təşkilatlarda turist məhsullarının planlaşması, uçotu və maya dəyərinin kalkulyasiyası, maliyyə nəticələrinin reallaşması üzrə metodiki göstəricilərdə, idarəetmə sistemində tətbiq edilə bilən sifariş metodundan istifadə edilməsini nəzərdə tutur. Bu zaman uçot obyekti kimi, konkret turist xidmətinin yerinə yetirilməsinə çəkilən ayrı-ayrı məsrəflər, nümunəvi turist xidmət qrupları, yaxud turist xidməti göstərmək üçün sifarişlər məcmusu əsas göstərilir.

Bütün sifarişlərin (turist qruplarının) maya dəyəri, qruplar üzrə bütün məsrəflərin məbləğini toplamaqla müəyyən edilir. Bir turist gedişatının maya dəyəri isə qrupun ümumi məsrəflərini, qrupdakı turistlərin sayına bölməklə hesablanıb təyin olunur. Turist təşkilatı üçün maya dəyərinin kalkulyasiya obyekti, ayrı-ayrı tur məhsulları çıxış edir. Onun maya dəyərinə, hər bir tur məhsulunun istehsalı, hərəkəti və satışı ilə bağlı olan məsrəflər daxil edilir. Tur məhsulunun hər bir vahidinin həqiqi maya dəyəri turdan qayıtdıqdan sonra tura dair şikayət ərizəsi olduqda, baş verən məsrəflərə düzəliş verməklə sifariş yerinə yetirildikdən sonra təyin edilir.

İdarəetmə uçotu prosesində 202 "İstehsalat məsrəfləri", 202/10 "Köməkçi istehsalat” və 601 "Satış" sintetik hesablarına, turizmin növləri (su, dağ, piyada və i.a.), yaxud digər nişanələr üzrə tur fəaliyyətini göstərən turfirmaların turizm fəaliyyətinin istiqamətləri üzrə subhesablar açılır. Bundan başqa, birbaşa (müstəqim) məsrəflərin, verilmiş (alınmış) sifarişlərə düzgün daxil edilməsini təmin etmək üçün sifarişlərin kodu (şifrəsi) göstərilməklə ilk sənədlərin uçotu təşkil edilməlidir. Kalkulyasiyanı düzgün aparmaq məqsədilə sifarişlərin tərkibində, onların növlərini ayırmaq mümkündür. Bu cür işin təşkili, məsrəflərin xidmət növləri üzrə uçotunun aparılma qaydasını müəyyən hallarda sadələşdirir. Turist təşkilatı, vasitəçi kimi fəaliyyət göstərən hallarda onun uçotunda ancaq komisyon (yaxud agent) mükafatlandırılması əks etdirilir. Bu cür halda sözügedən fəaliyyəti ayrı uçota almaq lazımdır. Bunlardan başqa, turoperator, özünün tur məhsullarından, eləcə də digər kommersiya xidməti göstərməkdən başqa xidmətin hərəkəti və satışını aparan zaman turist təşkilatı ticarət, təchizat, yaxud digər vasitəçilik fəaliyyətini yerinə yetirən sahə kimi fəaliyyət göstərir. Bu cür halda turoperator və vasitəçilik (turagent) fəaliyyətini ayrı uçota almaq lazımdır.

Qeyri-müstəqim (dolayı) məsrəflər dedikdə turist məhsulunun istehsalının təşkili və onların idarəedilməsi ilə bağlı olan xərclər başa düşülür və onlara turist təşkilatının fəaliyyətinə ümumilikdə, həm də xüsusi metodla müvafiq obyektin maya dəyərinə daxil edilən məsrəflər daxildir. Bu məsrəflər, öz növbəsində, ümumistehsalat, ümumtəsərrüfat və kommersiya xərclərindən ibarətdir.

Ümumistehsalat məsrəflərinə, tur məhsullarını bilavasitə formalaşdıran bölmələrin, eləcə də məsrəflərini sifarişə birbaşa aid etmək mümkün olmayan, o cümlədən turist xidməti göstərmək üçün istifadə olunan binaların saxlanması və icarə haqqı üzrə köməkçi bölmələrin məsrəfləri aid edilir. Ümumtəsərrüfat məsrəflərinə isə inzibati-idarəetmə məsrəfləri, eləcə də idarəetmə üçün məsləhət, informasiya və sair xidmətlərlə bağlı olan məsrəflər daxildir. Sifariş metodu, üç mərhələni: hazırlıq, sifarişin yerinə yetirilməsi və xüsusi kalkulyasiyaetmənin keçilməsini nəzərdə tutur. Turizm fəaliyyətində sifarişin yerinə yetirilməsi mərhələsi, turu əldə etmək üçün müştərinin (sifarişçinin) müraciətindən başlanılır.

Sifarişin açılmasına dair, adətən sifarişçi ilə müqavilə bağlanılır. Onda sifarişçinin fərdi nömrəsi (kodu, yaxud sifarişin şifri), turist xidməti və onların miqdarı, qısa xarakteristikası, hansı struktur bölmələri tərəfindən və xidmətin hansı müddətə yerinə yetiriləcəyi, plan maya dəyəri, satış qiyməti və digər informasiyalar göstərilir. Sifariş, onun yerinə yetirilmə prosesində iştirak edən struktur bölmələri üçün zəruri olan miqdarda xüsusi blanklarda tərtib edilir.

Hər bir sifarişin kalkulyasiyası üçün sifarişə aid qeyri-müstəqim xərclərin bölüşdürülməsinin bazasını: əsasını (miqdar ifadəsində) düzgün müəyyən etmək lazımdır.

Turizm fəaliyyəti ilə məşğul olan təşkilatlarda da turist məhsullarının və maliyyə nəticəsinin reallaşmasının planlaşdırılması, uçotu və kalkulyasiya edilməsi üzrə metodiki göstərişdə aşağıdakı bölüşdürmə baza variantı göstərilir:

- müstəqim (birbaşa) məsrəflər;
- işçilərin əməyinin birbaşa (müstəqim) ödənişi;

Qeyri-müstəqim məsrəflərin sifarişə aid edilməsi üçün qeyri-müstəqim xərclərin (qrupların), bölüşdürmə bazasına (qrupuna) olan nisbəti kimi, büdcə stavkası (norması) hesablanır.

**Açar sözlər:** turizm bazarı, turizm potensialı, turizm istehlakı, bir turist gedişatının maya dəyəri, daxili turizm, gəlmə turizm, getmə turizm, turagent, turizm sənayesi firmaları, turist birlikləri.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikasının turizm haqqında Qanunu. B., Qanun, 2000.
2. Cabir Məmmədov, Sabir Rəhimov. Turizm və onunla əlaqəli sahələrdə işlədilən termin və anlayışların izahlı lüğəti. Bakı, Qanun, 2000.
3. Məmmədov C. A., Rəhimov S. H. Turizm termin və anlayışlarının izahlı ensiklopedik lüğəti. Bakı, 2003
4. Turizmin iqtisadiyyati və idarə edilməsi. Ə.Q.Əlirzayev. Dərslik, Bakı-2010
5. Bilalov B.Ə., Məmmədov C. Azərbaycanda gəlmə turizm və onun inkişaf yolları. Mütərcim, Bakı, 2004.
6. İlqar Hüseynov, Nigar Əfəndiyeva. Turizmin əsasları. Dərslik.Bakı – 2007

**Тахир Бахшалиев**
**Парвин Мамедова**

## РАЗВИТИЕ ТУРИЗМА И РОЛЬ УЧЕТА В ЕГО ИНФОРМАЦИОННОЙ МОДЕЛИ УПРАВЛЕНЧЕСКОЙ СИСТЕМЫ

**Резюме**

В статье были рассмотрены: содержание рынка туризма, который является приоритетным направлением развития, информационная модель системы управления туристических предприятий, функции, выполняемые бухгалтерским учетом в системе управления туризма, вопросы прибыли и учета расходов.

В туризме, при исполнении управленческих операций, главной задачей обязанностью бухгалтерского учета экономического субъекта является обеспечивание в учете отражения количественных характеристик каждого хозяйствующего субъекта.

**Ключевые слова:** рынок туризма, туристический потенциал, пользователи туризма, себестоимость одной турпоездки, внутренний туризм, выездной туризм, въездной туризм, турагент, промтурфирмы, содружества туристов.

**Tahir Bakhshaliyev**
**Parvin Mammadova**

## THE ROLE OF ACCOUNTING İN THE DEVELOPMENT OF TOURISM AND THE INFORMATION MODEL OF THEIR MANAGEMENT SYSTEM

**Summary**

Were reviewed content of tourism market, being a priority conseptual direction of development information model of the management system of turism enterprises, accounting functions in the turism management system, profit and expense accounting issues.

In turizm, in the execution of management operations, the first duty of accounting for an economics entity is to provide reflection in the accounting of each economic object of quantitative indicators and qualitative characteristics. Compiling a valid information model is the main accounting condition. Only for this reason accounting for each object it is important to reflect all the main economic indicators.

**Key words:** tourism market, tourism potential, tourism user, cost of one trip, domestic tourism, outbound tourism, inbound tourism, travel agent, industrial tourfirms, fellowship of tourist.

**ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR**

**Elmi-praktik jurnal**

**№ 2 (10), 2018**

Nəşriyyatın direktoru: M.Şəfiyev
Texniki redaktor: S.Mamoyeva

"Müəllim" nəşriyyatında çap olunmuşdur.
Tel.: (+99412) 555 15 60
E-mail: muallim.mmc@gmail.com

Yığılmağa verilib: 27.11.2018
Çapa imzalanıb: 30.12.2018
Format: $60x84^{1/8.}$ 15,0 ç.v. Tiraj: 100